Fatma Betül Aydemir Baş

# 1985–1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDAKI VƏZİYYƏTİN

## AZƏRBAYCAN SSR VƏ TÜRKİYƏ MƏTBUATINDA ƏKSİ




Bakı-2026

**Fatma Betül Aydemir Baş**

# 1985-1991-ci illərdə
# MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDAKI VƏZİYYƏTİN AZƏRBAYCAN SSR VƏ TÜRKİYƏ MƏTBUATINDA ƏKSİ

***Türk dünyasının mədəni-intellektual inteqrasiyasında müstəsna yeri olan I Türkoloji qurultayın 100 illik yubileyinə həsr edilir***

**Bakı – 2026**

*Elmi redaktor:* tarix üzrə fəlsəfə doktoru
Sevinc Ruintən
Bakı Dövlət Universiteti

*Rəyçilər:* tarix elmləri doktoru, dosent
Vasif Vaqif oğlu Qafarov
AMEA, Tarix və Etnologiya İnstitutu

tarix üzrə fəlsəfə doktoru, dosent
Rövşən Qabil oğlu Hətəmov
Bakı Dövlət Universiteti

tarix üzrə fəlsəfə doktoru, dosent
Sona Səbəddin qızı Məhərrəmova
Sumqayıt Dövlət Universiteti

tarix üzrə fəlsəfə doktoru
Fəridə Məhəmmədəli qızı Allahverdiyeva

*Monoqrafiya.*
Fatma Betül Aydemir Baş. *1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarındakı vəziyyətin Azərbaycan SSR və Türkiyə mətbuatında əksi.* Bakı, Adiloğli, 2026, 208 s.

DOI: https://doi.org/10.36719/0874/2026

*I Türkoloji qurultayın 100 illik yubileyinə həsr edilmiş hazırki monoqrafiya müəllifin Türkiyə Respublikası Təhsil Nazirliyinin Dövlət Proqramı çərçivəsində 2019-2024-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində "Türk xalqları tarixi" kafedrasının fəlsəfə doktoru proqramı üzrə doktorantı olarkən apardığı araşdırma zamanı hazırlanmışdır. Araşdırmanın nəticəsi olaraq yazılmış dissertasiya 2024-cü ildə uğurla müdafiə edilərək, AR Prezidenti yanında AAK tərəfindən müəllifinə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. Mövzunun haqqında bəhs edilən dövr mütəxəssisləri, həmçinin geniş oxucu auditoriyası üçün maraqlı olacağını nəzərə alaraq, həmin araşdırmanın əsasında monoqrafiya dərc edilməsi məqsədəuyğun hesab edilmişdir.*

© 2026, Fatma Betül Aydemir Baş

# MÜNDƏRİCAT

**MÜƏLLİFDƏN................................................................................. 4**
**GİRİŞ............................................................................................ 10**

**I FƏSİL. 1985-1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDA MÖVCUD VƏZİYYƏT.......................... 29**
*1.1. 1985-1991-ci illərdə SSRİ-də ümumi ictimai-siyasi, iqtisadi vəziyyət*.............................................................................................. 29
*1.2. Mərkəzi Asiyanın türk respublikalarında ictimai-siyasi, iqtisadi vəziyyət*.............................................................................................. 51

**II FƏSİL. 1985-1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDAKI VƏZİYYƏTİN AZƏRBAYCAN SSR MƏTBUATINDA ƏKSİ................................ 88**
*2.1. Azərbaycan SSR-də mətbuat*......................................................... 88
*2.2. Qazaxıstandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi*......... 96
*2.3. Özbəkistandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi*......... 110
*2.4. Qırğızıstandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi*......... 118
*2.5. Türkmənistandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi*..... 121

**III FƏSİL. 1985-1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDAKI VƏZİYYƏTİN TÜRKİYƏ MƏTBUATINDA ƏKSİ................................................................ 127**
*3.1. Türkiyədə mətbuat* ....................................................................... 127
*3.2. Qazaxıstandakı vəziyyətin Türkiyə mətbuatında əksi* ...................... 136
*3.3. Özbəkistandakı vəziyyətin Türkiyə mətbuatında əksi*........................ 147
*3.4. Qırğızıstandakı vəziyyətin Türkiyə mətbuatında əksi*....................... 156
*3.5. Türkmənistandakı vəziyyətin Türkiyə mətbuatında əksi*.................. 160

**NƏTİCƏ........................................................................................ 168**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI.............................. 174**
**ƏLAVƏLƏR.................................................................................. 197**

# MÜƏLLİFDƏN

İlk olaraq araşdırma mövzusu ilə bağlı bir məqamı diqqətə çatdırmağı lazım bilirik. 2019-2024-cü illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində yerinə yetirilən hazırki aradırmanın mövzusu seçilərkən Mərkəzi Asiya türk respublikalarında baş verən hadisələrin Azərbaycan və Türkiyə mətbuatında işıqlandırılması məsələsinin araşdırılması məqsəd olaraq müəyyənləşdirilmişdi. Lakin “Azərbaycan mətbuatı” deyildiyində həm də Cənubi Azərbaycan mətbuatının da araşdırılması zərurəti yaranacağı əzərə alınaraq, mövzuda “Azərbaycan SSR mətbuatı” yazılmasını düzgün hesab etdik.

***Tədqiqatın məqsədi*** 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarında mövcud vəziyyətin həmin dövr Azərbaycan SSR və Türkiyə mətbuatında işıqlandırılması məsələsinin araşdırılmasıdır. Nəyə görə məhz Azərbaycan SSR və Türkiyə mətbuatlarının araşdırılması məqsəd olaraq müəyyənləşdirilmişdir məsələsinə aydınlıq gətirmək lazım gəlirsə, qeyd edilməlidir ki,

1) Hadisələrin cərəyan etdiyi Soyuq müharibə illərində iki fərqli sistemə aid olan Azərbaycan SSR və Türkiyə dövlətlərinin mətbuatının seçilməsi, ilk növbədə, eyni hadisələrə müxtəlif rakurslardan baxmağa imkan verəcək, həmçinin müəyyən mənada dünya siyasətində ikili standartlar yanaşmasının mahiyyətini başa düşməyə yardım edəcək;

2) Mətbuatın siyasi sistemin xarakterindən asılı olaraq -demokratik, avtoritar, ideokratik və s.- cəmiyyətdə yeri və rolunun necə dəyişdiyi, onun idarə olunmasında əhəmiyyəti kimi məsələlər əyani şəkildə görünəcəkdir.

Bütün bunlar isə, infomasiya mübarizəsinin daha da kəskinləşdiyi günümüz baxımından, yaşadığımız informasiya bolluğu şəraitində xüsusi əhəmiyyətli məsələlərdəndir. Belə ki, həqiqətən də müəyyən hallarda “mətbuat bizə ona inanmamağı öyrədir” sözlərini xatırlamaq lazım gəlir.

*Tədqiqat zamanı qarşıya qoyulan məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir*. İlk növbədə, *mövcud tarixi, siyasi ədəbiyyatlar əsasında*:

- Bəhs edilən dövrdə, Mərkəzi Asiyanın türk respublikalarının da daxil olduğu 15 respublikanın "könüllü ittifaqı" olan SSRİ-də M.S. Qorbaçov dövrünün siyasi, iqtisadi və sosial vəziyyətini müəyyənləşdirmək;
- Ümumilikdə SSRİ-də həyata keçirilən islahat və dəyişikliklərin Mərkəzi Asiyanın türk respublikalarına təsirinə, bu respublikalarda vəziyyətin fərqli xüsusiyyətlərinə aydınlıq gətirmək;

*Azərbaycan və Türkiyə mətbuatından tədqiqat üçün mənbə olaraq seçilmiş nəşrlər əsasında:*

- 1985-1991-ci illərdə Mərkəzi Asiyanın ayrı-ayrılıqda türk respublikalarında baş verən hadisələrin Azərbaycan SSR mətbuatında necə işıqlandırıldığını araşdırmaq;
- 1985-1991-ci illərdə Mərkəzi Asiyanın ayrı-ayrılıqda türk respublikalarında baş verən hadisələrin Türkiyə mətbuatında necə işıqlandırıldığını araşdırmaq;
- Mövcud vəziyyətin Azərbaycan SSR və Türkiyə mətbuatında işıqlandırılmasında oxşar və fərqli cəhətləri, onların səbəblərini müəyyənləşdirmək və müqayisəli təhlil etmək;
- Azərbaycan SSR və Türkiyə mətbuatında verilən məlumatların fərqliliyinin səbəblərini düzgün dəyərləndirmək üçün isə, *yeri gəldikcə* ümumilikdə mətbuatın cəmiyyətdə yeri, rolu və vəzifələrinə aydınlıq gətirmək.

Araşdırma *xronoloji baxımdan* 1985-1991-ci illəri əhatə edir. Bu illər SSRİ tarixində, o cümlədən Mərkəzi Asiyanın türk xalqlarının sovet dövrü tarixində son mərhələni təşkil edir. Tarixi-siyasi ədəbiyyatlarda "SSRİ-də aşkarlıq, demokratiya və yenidənqurma", həmçinin "SSRİ-nin dağılma" mərhələsi adlandırılan bu illər, həm də beynəlxalq münasibətlər sistemində soyuq müharibənin başa çatmaqda, yeni dünya düzənin qurulmaqda olduğu illər kimi də qəbul edilir. Bu illər həmçinin araşdırdığımız Mərkəzi Asiya bölgəsində dörd (ümumilikdə isə, beş) yeni türk dövlətinin müstəqilliyinə aparan illər olması baxı-

mından, türk xalqlarının dövlətçilik tarixində dirçəliş illəri kimi də xarakterizə edilə bilər. Araşdırmada, qeyd edilən xronoloji çərçivə daxilində baş verən bəzi məsələlərin daha aydın başa düşülməsi məqsədilə müəyyən hallarda göstərilən çərçivədən qismən kənara çıxılmışdır. Məsələn, I fəsildə Qorbaçov islahatlarından əvvəl də SSRİ-də uğursuz islahat cəhdlərinin olduğu haqda qısa şəkildə məlumat verilmiş; II və III fəsillərin əvvəlində Azərbaycan SSR-də və Türkiyədə mətbuatın formalaşmasına, fəaliyyətinə təsir edən məsələlərə aydınlıq gətirilməsi üçün, hər iki dövlətin mətbuat tarixinə qısa ekskurs edilmişdir.

*Tədqiqatın metodlarına* gəlincə, hazırki mövzu mahiyyəti baxımından yalnız bir fənn çərçivəsində araşdırılması metodoloji baxımdan çətinlik yarada biləcək mövzulardan biri olduğuna görə, araşdırmada ilk növbədə *elmlərarası, fənlərarası (interdissiplinar) yanaşma* metodundan istifadə edilmişdir. Məlum olduğu kimi, fənlərarası yanaşma metodu, hər birinin öz mövzusu və tədqiqat metodları olan ayrı-ayrı fənlər çərçivəsində əldə edilmiş biliklərin sintezini nəzərdə tutur. Bu metoddan əksər hallarda konkret mövzuların araşdırılması zamanı istifadə edilir və nəticə etibarı ilə fənlər yeni tədqiqat metodları ilə zənginləşirlər. Ümumilikdə, dövri mətbuatla işin metod və üsulları tarixi tədqiqatın məqsədindən asılıdır. Bu baxımdan, hazırki mövzunun spesifikliyi nəzərə alınaraq, araşdırma zamanı həmçinin aşağıdakı tədqiqat metodlarından da istifadə edilmişdir.

Araşdırmanın məqsədinin cəmiyyətdə baş verən hadisələrin mətbuatda əksinin öyrənilməsi olması baxımından, tədqiqatda kütləvi informasiya vasitələrinin, o cümlədən mətbuatın araşdırılması zamanı ən çox istifadə edilən *kontent-analiz metodundan;* kontent-analiz metodu zamanı daha dolğun məlumatların əldə edilməsi üçün həm də tarixi tədqiqatlarda geniş istifadə edilən *tarixi-müqayisəli təhlil, tarixi-sistemli yanaşma,* həmçinin *empirik, induktiv və deduktiv tədqiqat metodlarından* da istifadə edilmişdir: müxtəlif materiallar və faktlar toplanmış, onların mahiyyəti araşdırılmış, sistemləşdirilmiş, ümumiləşdirmələr aparılmış və müqayisəli təhlil edilmişdir.

- *Kontent-analiz* metodundan araşdırmaya cəlb edilmiş jurnal, qəzet və sənədlərdə əks olunan faktları müəyyən etmək, onların məz-

mun və keyfiyyət baxımından təhlili zamanı istifadə edilmişdir. Belə ki, tədqiqat predmeti olaraq seçilmiş mətbuat orqanlarında verilmiş məlumatların ətrafda mövcud olan reallıqla nə dərəcədə üst-üstə düşdüyü və ya təhrif edildiyi, bu məlumatların ünvanlandığı auditoriyaya təsiri kimi məsələlərlə bağlı təhlillər aparılmışdır;

- *Tarixi-təhlil metodundan* istifadə sadəcə öyrənilən problemlə bağlı deyil, daha geniş məsələlərlə bağlı ümumiləşmə və paralellərin aparılmasının mümkünlüyü baxımından gələcək araşdırmalarımız üçün də əhəmiyyətli fikirlərin formalaşmasına səbəb olmuşdur (məsələn, SSRİ Mərkəzi hökumətinin türk respublikalarına münasibətdə siyasətinin mahiyyəti, Mərkəz – Respublika hökumətləri münasibətləri və b.). *Tarixi-sistemli metod* isə tədqiq edilən məsələlərlə bağlı obyektiv reallığın nisbətən tam əhatə olunması, onun daxili fəaliyyət mexanizminin araşdırılmasına imkan vermişdir;

- *Empirik və ya hissiyyata əsaslanan metod*, ətraf aləmin təcrübə yolu ilə dərk edilməsidir. Hazırki araşdırmada, araşdırılan dövrdə baş verən hadisələrin Azərbaycan SSR və Türkiyə mətbuatında işıqlandırılması məsələsində oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsinə, onların əsas xüsusiyyətlərinin müqayisəsinə cəhd edilmişdir;

- *İnduktiv və deduktiv metodlar* - empirik yolla alınan məlumatların ümumiləşdirmə metodlarıdır. İnduktiv metod - xüsusi müddəalardan ümumi nəticələrin çıxarılması; faktların izahı, konkret nümunələrin üzərindən prosesi və s. izah etmək deməkdir. İnduktiv metod deduktiv metodla tamamlanmalıdır, müqayisə və ümumi nəticələr çıxarılmalıdır. Deduktiv metod - ümumi müddəalardan xüsusi nəticələrin çıxarılmasıdır. Bu metodlardan xüsusilə fəsillərin sonunda ümumiləşmələr aparıldıqda və araşdırmanın nəticə hissəsində istifadə edilmişdir.

*Araşdırmanın müzakirəyə çıxarılan əsas müddəaları aşağıdakılardan ibarətdir:*

- Mətbuatın hər zaman məxsus olduğu dövlətin maraqlarından çıxış etməsi baxımından, 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarında baş verən hadisələr Azərbaycan SSR və Türkiyənin həmin dövr mətbuatlarında fərqli aspektlərdən işıqlandırılmışlar; bu baxımdan verilən xəbərlər hər zaman gerçəkliyi əks etdirməmişdir;

- Aşkarlıq və yenidənqurma siyasətinin Sovet mətbuatında -o cümlədən Azərbaycan SSR mətbuatında- bir sıra hallarda əsaslı dəyişikliklərə səbəb olmasına baxmayaraq, Azərbaycanın həmin dövr qəzet və jurnallarında verilən, demək olar ki, bütün məlumatlar "Mərkəzin mövqeyi"ni əks etdirmiş, bir sıra hallarda isə bu "mövqeyə" uyğun olaraq, ümumiyyətlə xəbər verilməmişdir;

- Azərbaycan SSR və Türkiyə mətbuatında müəyyən məsələlərin işıqlandırılması zamanı üst-üstə düşən, oxşar dəyərləndirmələr olmaqla bərabər, biri digərinə tamamən əks olan fikirlər və yanaşmalar da olmuşdur;

- Türkiyə mətbuatında hadisələrin daha obyektiv işıqlandırılmasına cəhd edilmiş, lakin fərqli ideologiyalara, düşüncə tərzinə sahib olmaları səbəbindən, bütün məsələlərdə buna tam nail olunmamışdır.

*Tədqiqatın elmi yeniliyi* ilə bağlı qeyd edilməlidir ki, 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarındakı vəziyyət hadisələrin baş verdiyi dövrdən günümüzə qədər müxtəlif araşdırmalara mövzu olmuşdur. Həmin məsələlər həm Mərkəzi Asiyanın türk dövlətlərinin, həm Azərbaycanın və Türkiyənin, həm də Rusiyanın və bölgənin tarixi ilə maraqlanan mütəxəssislər tərəfindən müxtəlif rakurslardan araşdırılmışdır. Lakin məsələnin iki fərqli quruluşa malik dövlətin mətbuatında işıqlandırılması və müqayisəli təhlili aparılmamışdır. Bu baxımdan:

- hazırkı araşdırmanın ən əsas yeniliyi, 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarındakı mövcud vəziyyətin məhz bu konteksdə, yəni iki fərqli quruluşa malik dövlətin mətbuatında necə işıqlandırılmasının araşdırılması ilə bağlıdır.

Bundan başqa,

- Mövcud vəziyyətin iki ölkənin mətbuatında işıqlandırılması zamanı fərqli yanaşılan məqamlar müəyyənləşdirilmiş, həmçinin bu fərqlərin səbəblərinin aydınlaşdırılmasına cəhd göstərilmişdir;

- Araşdırmada yalnız Mərkəzi Asiyanın türk respublikalarında mövcud vəziyyətin Azərbaycan SSR və Türkiyə mətbuatında necə işıqlandırılması deyil, müəyyən mənada həm də iki ölkə mətbuatının müqayisəli təhlili aparılmışdır;

- Araşdırmaya cəlb edilmiş Türkiyə mətbuat orqanları müqayisəli təhlil baxımından Azərbaycan tarix elmində ilk dəfədir ki, elmi dövriyyəyə gətirilmişdir.

*Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.* Tədqiqat işi aktuallığı və elmi yeniliyi baxımından, həmçinin Azərbaycan və Türkiyə nümunəsində, iki fərqli siyasi sistemə malik dövlətə aid mətbuatın müqayisəli təhlilinin aparılması baxımından nəzəri əhəmiyyətə malikdir.

Tədqiqatın həm nəzəri, həm də praktik əhəmiyyəti bir də onun fənlərarası mövzunun araşdırılmasına həsr edilməsi ilə bağlıdır. Belə ki, bu xarakterli araşdırmalar fərqli elm sahələrinin inteqrasiyasına, yeni metodoloji yanaşmaların meydana çıxmasına şərait yaradır.

Tədqiqatın praktiki əhəmiyyəti bir də onun cəmiyyətdə mətbuatın yeri və rolu məsələlərinə diqqəti artıracağı ilə bağlıdır. Xüsusən də müqayisəli təhlilin aparılması tədqiqatla tanış olacaq hər kəsin bu sahədə maariflənməsinə yardım edə bilər ki, günümüz baxımından bu, çox əhəmiyyətlidir.

Tədqiqat işinin materiallarından SSRİ-də mətbuat, Azərbaycan və Türkiyə mətbuat tarixi, həmçinin Mərkəzi Asiyanın türk respublikalarının 1985-1991-ci il tarixlərinin araşdırmaları zamanı istifadə oluna bilər. Həmçinin ali məktəblərdə müvafiq ixtisaslı mütəxəssislər hazırlanması prosesində də araşdırmanın faydalı ola biləcəyini düşünürük.

Son olaraq, Bakı Dövlət Universitetinin Tarix fakültəsinin, xüsusən də Türk xalqları tarixi kafedrasının professor-müəllim heyətinin nümunəsində, hazırki araşdırmanın yerinə yetirilməsində yardımçı olmuş bütün həmkarlarıma təşəkkür edirəm. Həmçinin, elmi fəaliyyətimin ilk fundamental nəşri olan bu monoqrafiyanı Türk dünyasının mədəni-intellektual inteqrasiyasında müstəsna yeri olan I Türkoloji qurultayın 100 illik yubileyinə həsr etməyi özümə mənəvi borc bildiyimi qeyd etmək istəyirəm. İnanıram ki, əsərin elmi dəyəri ilə bu tarixi hadisənin ideyaları arasında qurulan mənəvi körpü, gələcək tədqiqatlarım üçün də əhəmiyyətli bir stimul olacaqdır.

***Fatma Betül Aydemir Baş***
*31.05.2026-cı il.*

# GİRİŞ

Araşdırılan mövzunun aktuallığını şərtləndirən bir sıra səbəblər vardır ki, onlara 3 aspektdən aydınlıq gətirmək istərdik.

1. İlk növbədə onu qeyd edək ki, 1985-1991-ci illərdə Mərkəzi Asiya respublikalarında baş verən hadisələr həm Azərbaycan, həm də Türkiyədə müxtəlif aspektlərdən araşdırılsa da, hazırki kontekstdə nə Azərbaycan, nə də Türkiyə tarixşünaslığında araşdırılmamışdır. İlk dəfə hazırki araşdırma çərçivəsində bu hadisələrin Azərbaycan SSR və Türkiyə mətbuatında işıqlandırılmasına cəhd edilmişdir. Belə ki, 2023-cü ildə Cümhuriyyət quruculuğunun 100-cü ili qeyd edilən Türkiyənin, həmçinin müstəqilliyinin bərpa edilməsinin 32-ci ildönümü qeyd edilən Azərbaycanın xarici siyasətlərinin mühüm istiqamətlərindən birini Mərkəzi Asiyanın türk respublikaları ilə münasibətlər təşkil edir. Bu baxımdan, Mərkəzi Asiyanın türk respublikalarının tarixi, bu günü və gələcəyi ilə bağlı araşdırmalar həm elmi, həm də siyasi baxımdan aktuallıq kəsb etməkdədir.

2. Mərkəzi Asiya araşdırmaları hər zaman olduğu kimi, günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır. Mütəxəssislərə görə, günümüzdə beynəlxalq aləmdə növbəti dəfə yeni düzənin formalaşması dövrü yaşanmaqdadır. Belə ki, XX əsrin 90-cı illərində Soyuq müharibənin başa çatması ilə formalaşmış olan yeni dünya düzənində qərb dövlətləri beynəlxalq sahədə əməkdaşlıq, dövlətlər arasında qarşılıqlı iqtisadi bağlılıq, siyasi liberalizm, insan haqlarının təntənəsi və s. uğrunda mübarizəni genişləndirmiş, həmçinin bu sahədə müəyyən uğurlar da əldə etmişdilər. Hətta, XXI əsrin əvvəllərində Ümumdünya terrora qarşı mübarizə kampaniyası çərçivəsində qlobal güclər arasında müəyyən qədər yaxınlaşma da baş vermişdi. Lakin bir qədər sonra, xüsusilə də 2008-ci ildə Kosovanın müstəqilliyinin elan edilməsi və tanınması; Rusiyanın 2008-ci ildə Gürcüstanın ərazi bütövlüyünü pozması, 2014-cü ildə Krımın işğalı ilə başlanmış Rusiya-Ukrayna müharibəsinin 2022-ci ildə yeni mərhələyə daxil olması; 2023-cü ilin oktyabr ayında HƏMAS-ın İsrailə silahlı hücumu və bir sıra digər məsə-

lələr Qərb dövlətləri ilə "avtoritar və revizionist dövlətlər" adlandırılan Rusiya, Çin və İran arasında rəqabətin kəskinləşməsi ilə nəticələndi. Baş verən bütün bu hadisələr ABŞ Dövlət Katibi Entoni Blinken tərəfindən 2023-cü il sentyabr ayının 13-də "Con Hopkins Qabaqcıl Beynəlxalq tədqiqatlar məktəbi"ndə (SAIS) "Yeni dövrdə Amerika diplomatiyasının gücü və məqsədi" mövzusunda çıxışı zamanı *"XX əsrin 90-cı illərində formalaşmış olan dünya düzənin sona çatması"* kimi xarakterizə edildi[1].

Eyni zamanda, xüsusən də qərb mütəxəssisləri tərəfindən (məsələn, Hal Brands və b.), Soyuq müharibədən sonrakı dövrdə ABŞ və onun müttəfiqlərinin dinc mövcudluğunu ifadə etməkdə olan *"Amerika barışı"nın (Pax Americana) sonunun gəldiyi, HƏMAS-ın onu "tarix dərsliklərinə"* gömdüyü fikirləri də irəli sürülməkdədir[2].

Bütün bunlar başqa sözlə o deməkdir ki, yaxın gələcəkdə dünya siyasəti baxımından geosiyasi əhəmiyyətli bölgələrdə böyük güclər arasında nüfuz uğrunda rəqabət yenidən kəskinləşəcək. Belə əhəmiyyətli bölgələrdən biri isə, heç şübhəsiz, geosiyasətçilər tərəfindən "tarixin oxu", "Avrasiyanın ürəyi" (Heartland) hesab edilən bölgənin mühüm tərkib hissəsi olan -və həm də bu baxımdan- araşdırma mövzumuzun coğrafi sərhədlərini təşkil edən Mərkəzi Asiyanın türk bölgələridir.

Bundan başqa, XX əsrin 90-cı illərində yeni dünya düzəninin yaranmasını şərtləndirən səbəblər sırasında dünya sosialist sisteminin çökməsi, onun əsas dayağı olan SSRİ-nin dağılması ilk yerlərdən birində gəlməkdədir. SSRİ-nin dağılmasının bir çox hallarda 1990-1991-ci illərdə onun ilk və son prezidenti olmuş Mixail Sergeyeviç Qorbaçovun

---

*[1] Speech Secretary Antony J. Blinken Remarks to the Johns Hopkins School of Advanced International Studies (SAIS) "The Power and Purpose of American Diplomacy in a New Era" / September 13, 2023. - An official website of United States Government. [Electron source] - URL: https://www.state.gov/secretary-antony-j-blinken-remarks-to-the-johns-hopkins-school-of-advanced-international-studies-sais-the-power-and-purpose-of-american-diplomacy-in-a-new-era/*

*[2] Hal, B. Hamas Consigns the Pax Americana to History Books / Bloomberg, 9 October 2023. [Electron source] - URL: https://www.bloomberg.com/opinion/articles/2023-10-09/israel-hamas-war-us-faces-global-conflict-instability-terrorism*

fəaliyyəti ilə əlaqələndirildiyi məlumdur[3]. M.S.Qorbaçovun 2022-ci ilin avqust ayında vəfatından sonra onun haqqında araşdırmalar yenidən aktuallıq qazandı ki, həm sağlığında onun özü tərəfindən və onun haqqında yazılan, həm də vəfatından sonra ona həsr edilmiş araşdırmalarda SSRİ-nin dağılması ilə bağlı məsələlər, -o cümlədən, Mərkəzi Asiyanın türk respublikalarında baş verən hadisələr- şübhəsiz ki, ilk yerdə durur. Hesab edirik ki, bunu da mövzunun aktuallığını şərtləndirən növbəti səbəblərdən biri olaraq qəbul edə bilərik.

Yuxarıda qeyd edilənlər əsasında, araşdırma mövzusunun *zaman baxımından* yaşadığımız dövrlə oxşarlıq təşkil edən yeni dünya düzəninin formalaşmaqda olduğu M.S.Qorbaçov idarəçiliyi illərini; *məkan baxımından* həm Azərbaycanın, həm də Türkiyənin xarici siyasətinin mühüm istiqamətlərindən biri olan Mərkəzi Asiyanın türk respublikaları ilə bağlı seçilməsi həm elmi, siyasi, həm də praktik əhəmiyyətli olacağı baxımından aktual hesab edilə bilər.

3. Mövzunun aktuallığını şərtləndirən növbəti səbəb, yəni hadisələrin mətbuatda işıqlandırılmasının araşdırılmasını zəruri edən səbəb - informasiya cəmiyyətində yaşamağımız, informasiyanın cəmiyyətin bütün sahələrinə böyük təsiretmə gücü qazanmış olmasıdır. İnformasiya ötürücüləri sırasında isə mətbuatın ilk cərgələrdə dayandığı şübhəsizdir. Son dövrlərdə, xüsusən də internetin yarandığı 1969-cu ildən və yayılmağa başladığı XX əsrin 90-cı illərindən, kütləvi informasiya vasitələrinin, o cümlədən mətbuatın siyasətlə qarşılıqlı əlaqəsi mütəxəssislər tərəfindən mübahisə doğurmayan məsələlərdən biri olaraq qəbul edilməkdədir. İnformasiya mübarizəsi və ya müharibəsi bəşəriyyətin bütün tarixi boyu dünya siyasətinin əsas vasitəsi olmuşdur, günümüzdə isə hətta dünyada siyasi, iqtisadi və mənəvi hegemonluğa sahib olmanın əsas vasitələrindən biridir. Hələ XX əsrin 60-70-ci illə-

[3] *Китайцы винят Горбачева в крахе КПСС / Независимая газета, – 12 Декабрь, 2013. [Электронный ресурс] - URL: https://www.ng.ru/world/2013-12-12/1_china.html; Неверов, С.С. Горбачему мы обязаны тем, что Россия чуть не утратила суверенитет / Единая Россия, 25 июля, 2011. [Электронный ресурс] - URL: https://er.ru/activity/news/my-sformiruem-vlast-ne-tolko-narodnuyu-no-i-effek tivnuyu*

rində ABŞ prezidentinin köməkçisi, milli təhlükəsizlik məsələləri üzrə müşaviri, daha sonra Dövlət katibi olmuş Henri Kissincer bildirirdi ki, informasiya axınına nəzarət edən güclər dünyaya nəzarət etmək imkanlarına sahib olurlar ki, bu da yeni növ hegemonluğun - informasiya dominantlığının meydana çıxmasını şərtləndirir[4]. Bu baxımdan, dövlətlərin milli təhlükəsizliyinin əsas tərkib hissələrindən biri kimi, milli maraqların qorunmasının informasiya sistemini təmin etmək dövlətlərin informasiya siyasətinin qarşısında duran əsas vəzifələrdən biridir[5]. Təsadüfi deyildir ki, günümüzdə dövlətlər arasında mübarizənin müasir formalarından biri məhz geosiyasi informasiya mübarizəsidir. Geosiyasi informasiya qarşıdurmasında məqsəd - qarşı tərəfin qərar qəbul etmə və idarəetmə sistemlərində xaos yaradılması, müxtəlif səviyyələrdə (qlobal, regional, milli) ictimai rəyin manipulyasiyası, habelə qlobal informasiya məkanında səmərəli fəaliyyəti təmin etmək üçün informasiya təhlükəsizliyini təmin etməkdir[6]. Və hər bir tarixi dövr bu qarşılıqlı əlaqənin ictimai şüura təsirinin yeni, bəzən hətta tamamilə gözlənilməz formalarını yaradır. İstənilən siyasi rejim, hətta ən repressiv rejim belə hakimiyyətin qəbul etdiyi qərarların ictimai rəy tərəfindən dəstəklənməsinə cəhdlər edir və bunu bilavasitə mətbuat üzərindən reallaşdırmağa çalışır ki,[7] bu, SSRİ-də də belə olmuşdur. Rusiyalı araşdırmaçı, vaxtilə SSRİ MTN-nin əməkdaşı olmuş İ.N.Panarin hesab edir ki, *"SSRİ-nin əleyhdarları üçün informasiya müharibəsində uğurun zirvəsi M.S.Qorbaçovun Sov.İKP MK-nın Baş katibi seçilməsi oldu. Belə ki, M.S.Qorbaçovun seçilməsi Sov.İKP MK və SSRİ DTK-sı üçün strateji itki, onun əleyhdarları üçün isə qələbə idi"*[8].

---

[4] *Солянова, В.М. Генри Киссинджер о мировом порядке // США и Канада, 2016, №7, - с.85. [Электронный ресурс] - URL: https://www.elibrary.az/docs/jurnal/jrn2016 _603.htm*
[5] *Süleymanlı N. Dağlıq Qarabağ münaqişəsinin informasiya modeli / N.Süleymanlı. – Bakı: Hərbi nəşriyyat, – 2011. – s.6.*
[6] *Панарин, И.Н. СМИ, пропаганда и информационные войны. [Электронный ресурс] – URL: http://uchebnikonline.com/soderzhanie/textbook_289 .html*
[7] *Солянова, В.М. Göst. əsəri, с.83-94.*
[8] *Панарин, И.Н. Göst. əsəri.*

Mətbuatın ictimai-siyasi həyatda nə qədər mühüm əhəmiyyətə malik olduğu, Azərbaycan nümunəsində baxarsaq, II Qarabağ muharibəsi dövründə bir daha təsdiqlənmiş oldu. Azərbaycan respublikasının prezidenti İlham Əliyev hələ 29 dekabr 2010-cu ildə "Jurnalistlərin dostu" mükafatının təqdim olunma mərasimində qeyd edirdi ki, *"İnformasiya mübarizəsi prioritet məsələlərdən biridir... müstəqilliyinin ilk illərində Azərbaycan informasiya mübarizəsində uduzurdu ... Ancaq bu gün Ermənistanla və xüsusilə də erməni lobbisi ilə informasiya mübarizəsində qalib gəlirik. Onların son müddətdə müşahidə olunan çox əsəbi və isterik hərəkətləri onu göstərir ki, biz informasiya müharibəsində böyük uğurlara nail ola bilmişik... Biz artıq Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdıra bilirik. Bizim artıq mövcud olan mətbuat resurslarımız buna imkan verir"*[9]. Və nəticə etibarı ilə, görülmüş işlərin nəticəsində, II Qarabağ müharibəsində Azərbaycan yalnız döyüş meydanında deyil, həmçinin informasiya mübarizəsində də mübahisəsiz üstünlük əldə etdi. Bütün bunlar onu bir daha təsdiq edir ki, hazırda siyasətin və diplomatiyanın səmərəliliyinin başlıca vasitələrindən biri məhz informasiyadır. Bu mənada, tarixən mətbuatın cəmiyyətin ictimai-siyasi həyatında oynadığı rolu tədqiq etmək, lazımi nəticələr çıxarmaq günümüzün aktual məsələlərindəndir.

Beləliklə, bütün deyilənləri yekunlaşdıraraq belə nəticəyə gələ bilərik ki, araşdırma mövzumuz həm obyekti, həm də predmeti baxımından günümüzün ən aktual məsələlərindən birinin tədqiqinə həsr edilmişdir.

*Mövzunun işlənmə dərəcəsindən* bəhs edərkən, mövcud tarixşünaslıq əsərlərini:

1) tədqiq edilən dövrlə bağlı ümumi təsəvvürün əldə edilməsinə;

2) ümumilikdə mətbuat, SSRİ-də, Azərbaycan SSR-də və Türkiyədə mətbuatla bağlı məsələlərə aydınlıq gətirilməsinə yardım edən əsərlər olaraq iki qrupa ayıra bilərik.

---

[9] *"Jurnalistlərin dostu" mükafatının təqdim olunma mərasimində İlham Əliyevin nitqi / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, dekabr 29, 2010. [Elektron resurs] - URL: https://president.az/az/articles/view/1373*

Öz növbəsində, birinci qrup əsərləri aşağıdakı alt qruplara ayırmaq mümkündür:

✓ SSRİ tarixinin, xüsusən də yenidənqurma illərinin araşdırılmasına həsr edilmiş əsərlər. Bu əsərləri araşdırmamız üçün əhəmiyyətli edən cəhət, onlarda ümumilikdə SSRİ-də baş verən hadisələrdən bəhs edilərkən, həmçinin Mərkəzi Asiyanın türk respublikalarında baş verən hadisələrə də bu və ya digər dərəcədə toxunulmasıdır;

✓ Rusiyanın, Mərkəzi Asiyanın türk respublikalarının, həmçinin Azərbaycanın tarixinə, o cümlədən müstəqillik illərinin tarixinə həsr olunmuş əsərlər. Bu əsərlər, onlardan ayrı-ayrı respublikaların 1985-1991-ci illər dövrü haqqında məlumatların götürülərək Azərbaycan SSR və Türkiyə mətbuatında verilmiş məlumatlarla müqayisə edilə biləcəyi baxımından əhəmiyyət kəsb edirlər;

✓ Azərbaycanın və Türkiyənin Mərkəzi Asiyanın türk respublikaları ilə münasibətlərinə həsr edilmiş əsərlər. Müstəqillik illərinin tədqiqinə həsr olunmuş bu əsərlər, onlarda respublikaların müstəqillik əldə etmələri ərəfəsindəki vəziyyətin də bu və ya digər dərəcədə araşdırılması baxımından araşdırma üçün müəyyən dərəcədə əhəmiyyətlidirlər;

✓ Soyuq müharibənin sona çatması, yeni dünya düzəninin formalaşması, yeni şəraitdə müvafiq dövlətlərin xarici siyasət fəaliyyətindən bəhs edən əsərlər araşdırma dövrü ilə bağlı ümumi mənzərə haqqında təsəvvür əldə etmək baxımından əhəmiyyətlidirlər;

✓ Etnik kimlik məsələsi, konfliktlər və s. bu kimi məsələlərin araşdırılmasına həsr edilmiş əsərlər. Bu əsərlərin bir qismində birbaşa, bir qismində isə müəyyən dərəcədə 1985-1991-ci illərdə Mərkəzi Asiyada baş vermiş Alma-Ata, Fərqanə, Oş hadisələrinin tədqiq edilməsi onları tədqiqat üçün əhəmiyyətli edir. Bu əsərlər tədqiqat üçün hətta müəyyən hallarda mənbə rolunda da çıxış edirlər.

✓ Haqqında bəhs olunan dövrdə əvvəlcə SSRİ-nin Kommunist Partiyası Baş Katibi, sonradan ilk və son prezidenti olmuş M.S.Qorbaçova həsr edilmiş əsərlər. Bu əsərlər də hadisələrin baş verdiyi dövr haqqında təsəvvür əldə edilməsinə yardım etmək baxımından əhəmiyyətli hesab oluna bilərlər (məsələn, R.S.Qrinberqin "Azadlıq dərsləri";

V.A.Polyakov tərəfindən tərtib edilmiş "Qorbaçovu anlamaq"; M.S. Karlen tərəfindən tərtib edilmiş "Mixail Qorbaçov fenomeni. Dünya miqyaslı şəxsiyyəti tanımaq"; Qorbaçov fondu tərəfindən hazırlanmış "M.S.Qorbaçovun fəaliyyətinin xronikası. 1985-1991"; Bettina Şeferin "Mixail Qorbaçov: həyatımızı necə dəyişdirdi" və b.). Qeyd edək ki, bu araşdırmalar yerləşdirildikləri "Qorbaçov Fondu"nun internet səhifəsindən əldə edilmişdir[10].

Ümumilikdə, yuxarıda adlarını qeyd etdiyimiz əsərlər 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarında baş vermiş hadisələrin tarixşünaslıq müstəvisində öyrənilməsi baxımından əhəmiyyət kəsb edirlər. Hadisələrin Azərbaycan SSR və Türkiyə mətbuatında araşdırılması ilə bağlı hər hansı tarixi araşdırma mövcud deyil.

*İkinci qrup əsərlər*i də müvafiq olaraq,

- ✓ Ümumilikdə mətbuat, o cümlədən SSRİ-də mətbuat;
- ✓ Azərbaycan SSR-də mətbuat;
- ✓ Türkiyə mətbuatı haqqında mövcud tarixşünaslıq əsərləri olmaqla 3 alt qrupa ayırmaq mümkündür.

Bu qrup əsərlər Azərbaycanda və Türkiyədə mətbuatın, onun cəmiyyətdə yeri və rolu, vəzifələri və s. məsələlər haqqında təsəvvür əldə etmək baxımından əhəmiyyətli olmuşdur. SSRİ-də mətbuatın cəmiyyətdə yeri və rolu məsələsi Azərbaycan mətbuatı ilə bağlı məsələlərə aydınlıq gətirilməsi baxımından əhəmiyyətli olduğu üçün, yeri gəldikcə bu qrup əsərlərdən də istifadə olunmuşdur.

Tədqiqat zamanı Azərbaycan, Türkiyə və xarici ölkə müəlliflərinin aşağıdakı əsərlərindən istifadə edilmişdir.

*Birinci qrup əsərlər*. Mövzu baxımından xüsusi əhəmiyyətli araşdırmalardan biri azərbaycanlı tədqiqatçı N.Məmmədliyə aid "Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə (XX əsrin 90-cı illəri)" adlı kitabdır[11]. Müəllif araşdırmasında həmçinin 1985-1991-ci illər arasında

---

*[10] Официальный сайт некоммерческой организации международного фонда социально-экономических и политологических исследований имени М.С. Горбачева «Горбачев-Фонд». [Электронный ресурс] – URL: https://www.gorby.ru/*

*[11] Məmmədli, N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə (XX əsrin 90-cı illəri) / N.Məmmədli. Bakı: AzAtam, – 2005. – 233 s.*

Mərkəzi Asiyanın türk respublikalarında ictimai-siyasi, iqtisadi vəziyyətə də aydınlıq gətirmişdir. Kitabda 1970-1980-cı illərdə Özbəkistanda "Pambıq işi", 1986-cı il Alma-Ata, 1989-cu il Fərqanə, 1990-cı il Oş hadisələri və digər məsələlərə də toxunulub.

Digər azərbaycanlı tarixçi T.Baxşəliyevin "Rus tarixi ən qədim dövrlərdən bu günə qədər"[12] adlı əsəri Qorbaçov dövründə bütünlükdə SSRİ-də baş verən prosesləri başa düşmək üçün çox əhəmiyyətlidir. Araşdırmada ölkənin sosial-iqtisadi, siyasi, dövlət məsələləri tarix elminin müasir elmi yanaşma nöqteyi-nəzərindən işıqlandırılmış, SSRİ və onun tərkibinə daxil olan xalqların ictimai-siyasi həyatlarında yenidənqurma və aşkarlıq islahatları nəticəsində senzuranın aradan qaldırılmasından sonrakı dəyişikliklər təhlil edilmişdir.

Azərbaycanlı araşdırmaçılardan həmçinin İ.Məmmədov, S.Ruintən və C.Əlisgəndərli, T.Həmidin məqalələrindən də istifadə edilmişdir. İ.Məmmədov "Türk Kafkası'nda Siyasi ve Etnik Yapı: Azerbaycan tarihi, Eski Çağlardan günümüze" kitabında 1985-1991-ci illərdə SSRİ-də mövcud vəziyyətlə bağlı məlumatlara da yer ayırmışdır[13]. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 75 illik yubileyinə həsr etdiyi "Türk dünyasının böyük oğlu" adlı məqaləsində, Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu dövrdə fəaliyyətindən bəhs edərkən, onun Qazaxıstan hadisələrinə münasibətinə də toxunur: "*... Kremldə müsəlman və türk dünyasından söhbət gedərkən, həmişə heç kimə əhəmiyyət vermədən, müstəqil fikrini söyləyirdi (xüsusilə, Əfqanıstan və Qazaxıstan məsələləri müzakirə olunan zaman). Qazaxıstanda rəhbərlik dəyişdirilərkən, Qazaxıstana rus yox, qazax rəhbərlik etməlidir fikrini söyləmiş və bu fikirdə qəti dayanmışdır. Heydər Əliyev özü də başa düşürdü ki, Siyasi Büroda tək qalacaq, yenə də öz fikrindən dönmürdü*"[14].

---

[12] *Baxşəliyev, T. Rusiya tarixi ən qədim zamanlardan günümüzədək / T.Baxşəliyev. – Bakı: Təhsil, – 2021. – 808 s.*
[13] *Məmmədov, İ.M. Türk Kafkası'nda Siyasi ve Etnik Yapı: Azerbaycan Tarihi Eski Çağlardan Günümüze./ İ.M.Məmmədov. – İstanbul: Ötüken yay. – 2009. – 853 s.*
[14] *Məmmədov, İ.M. Türk dünyasının böyük oğlu // Dövlət və Hüquq jurnalı, –1998, №1. – s.16.*

T.Həmid "SSRİ niyə dağıldı?" adlı məqaləsində SSRİ-də baş verən hadisələri və onun dağılma prosesini araşdırır[15]. S.Ruintən və C.Əlisgəndərlinin "SSRİ Mərkəzi hökumətinin Mərkəzi Asiya və Qafqaz respublikalarına münasibətdə siyasətinin xarakteri" məqaləsində ümumilikdə SSRİ Mərkəzi hökumətinin Mərkəzi Asiya və Qafqazda siyasətinin xarakterinin təhlilinə cəhd göstərilmişdir. Məqaləni araşdırma üçün əhəmiyyətli edən, orada SSRİ-nin dağılması ərəfəsində İttifaqın saxlanması ilə bağlı referendum keçirilməsi ilə bağlı məsələlərə toxunulmasıdır[16].

Türkiyəli tarixçi M.Sarayın SSRİ-nin dağılmasından sonra yazdığı "Yeni türk cümhuriyyətləri tarixi"[17] kitabında Mərkəzi Asiya və Azərbaycan türklərin ən qədim zamanlardan 2000-ci illərin əvvəllərinə qədər tarixindən bəhs edilir. Əsərdə həmçinin türk respublikalarının müstəqilliyə gedən yolda yaşadıqları hadisələrdən də bəhs edilir.

M.Cucciolla "Orta Asiyada Sovet hakimiyyətinin böhranı" adlı namizədlik dissertasiyasında[18], özbəkistanlı araşdırmaçı F.Shokirova "Ağ qızılın qara taleyi: pambıq hadisəsi və Şərəf Rəşidovun başına gələnlər" adlı araşdırmasında[19] 1970-1980-ci illərdə Özbəkistanda "Pambıq işi" haqqında məlumat verirlər.

Tədqiqat zamanı türkiyəli araşdırmaçı A.Karanın araşdırmalarından da istifadə edilmişdir. Müəllifin "Turqut Özal və Türk dünyası"

---

[15] *Həmid, T. SSRİ niyə dağıldı? // Kayzen az, yanvar 5, 2021. [Elektron resurs] - URL: https://kayzen.az/blog/son-tarix/26349/ssri-niy%C9%99-ada%C4%9F%C4%B1ld%C4%B1.html*

[16] *Ruintən, S., Əlisgəndərli, C. SSRİ Mərkəzi hökumətinin Mərkəzi Asiya və Qafqaz respublikalarına münasibətdə siyasətinin xarakteri haqqında // Bakı: Tarix və onun problemləri, – 2014, №4, s.132-139.*

[17] *Saray, M. Yeni Türk Cumhuriyetleri Tarihi / M. Saray. - İstanbul: Türk Tarih Kurumu – 2014. – 513 s.*

[18] *Cucciolla, M. The Crisis of Soviet Power in Central Asia: The 'Uzbek cotton affair' (1975-1991): / PhD Program in Political History XXVIII Cycle / – Lucca, 2017. – 712 p.*

[19] *Shokırova, F. "Ak Altın"ın Kara Kaderi: Pamuk Vakası Ve Şeref Reşidov'un Başına Gelenler // Online : Rusad, 2022. № 8, - s.55-77.*

adlı kitabında[20] Turqut Özalın Türk dünyası daxili inteqrasiya proseslərində rolundan bəhs olunur. A.Kara həmçinin 1986-cı ildə Qazaxıstanın Alma-Ata şəhərində baş vermiş etiraz hadisələri də geniş şəkildə tədqiq etmişdir[21]. "Qazaxıstanda 1986-cı il Almata hadisələri mahiyyəti və təsirlər" adlı araşdırma Türkiyədə Alma-Ata hadisəsinin səbəb və nəticələrini araşdıran ilk əsər olması baxımından xüsusilə əhəmiyyətlidir.

Hazırda Rusiyanın Sankt Peterburq Müstəqil sosial tədqiqatlar mərkəzinin elmi araşdırmaçısı Aleksandr Gennadyeviç Osipov, SSRİ EA Etnoqrafiya institutunun aspirantı olduğu 1997-1998-ci illərdə Quqqenhaym Fondunun (The Harry Frank Guggenheim Foundation, USA) yardımı ilə Fərqanə hadisələri ilə bağlı araşdırma aparmışdı. Araşdırmada digər mənbələrlə bərabər, həmin dövrdə Moskvada nəşr edilən ümumittifaq qəzetlər olan "Pravda", "Pravda Vostoka", "İzvestiya", "Komsomolskaya pravda", "Sobesednik", "Literaturnaya qazeta", "Moskovskiye Novosti", "Sovetskaya Rossiya", "Krasnaya Zvezda", "Arqumentı i faktı", "Trud", Özbəkistanda rus dilində nəşr edilən "Ferqanskaya Pravda", "Vatan Eşki" qəzetlərinin 1989-cu il yanvar-avqust tarixli saylarında nəşr edilmiş məlumatlardan da istifadə edilmişdir. Daha sonra müəllifin bu araşdırma əsasında "Fərqanə hadisələri: etnik münaqişə layihəsi" adı ilə 2004-cü ildə Moskvada nəşr edilmiş "Fərqanə vadisi: etnik mənsubiyyət, etnik proseslər, etnik münaqişələr"[22] kitabı da araşdırmamız üçün əhəmiyyətli əsərlərdən olmuşdur.

M.S.Qorbaçov dövrünün ən mühüm hadisələrindən biri olan Fərqanə hadisələri ilə bağlı özbəkistanlı araşdırmaçı F.Devrişevanın

---

[20] *Kara, A. Turgut Özal ve Türk Dünyası / A.Kara. İstanbul: IQ Kültür Sanat yayıncılık – 2012. – 270 s.*

[21] *Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri / Yüksek lisans tezi. / - İstanbul, 1997. – 195 s.; yenə onun. Almaatada 1986 Aralık Olayları: Jeltoksan // Ankara: Turkısh Studies, – 2012. №7(4), s.417-426; Kara, A., Yeşilot, O. Avrasya'nın Yükselen Yıldızı Kazakistan / A.Kara. İstanbul: İstanbul Ticaret Odası yayınları – 2011. – 304 s.*

[22] *Осипов, А.Г. Ферганские события: конструирование этнического конфликта. – В кн.: Ферганская долина: этничность, этнические процессы, этнические конфликты. Москва, Наука, - 2004, - с.164-223.*

"1989-cu il Fərqanə hadisələri türk və rus mənbələri işığında"[23] məqaləsindən; ahıska türklərinin Azərbaycanda məskunlaşması və inteqrasiyası haqqında azərbaycanlı araşdırmaçı S.Piriyevanın "Ahıska türkləri Azərbaycanda"[24] kitabından istifadə edilmişdir.

1990-cı ildə Qırğızıstanın özbək əhalisinin çox olduğu Oş şəhərində qırgızlar və özbəklər arasında baş verən münaqişələr də Qorbaçov dövrünün digər bir mühüm hadisəsidir. Qırğızıstanlı müəllif V.Tışkov "Məni öldürmə, mən qırğızam! Oş etnik münaqişəsində zorakılığın antropoloji təhlili"[25] adlı məqaləsində özbəklərlə qırğızlar arasında yaranan gərginliyin səbəblərinə toxunmuş, respublikalar arasında müəyyən edilmiş sərhəd problemlərinə diqqət çəkmişdir.

Fransız araşdırmaçı O.Royun "Yeni Orta Asiya, ya da millətlərin yaradılması" kitabında[26] Rusiyanın Mərkəzi Asiya və Qafqazda hökmranlığı və XX əsrdə bolşevik idarəçiliyindən sonrakı dövrdə sosial, mədəni və siyasi təsirlər, türk respublikalarındakı dəyişikliklər, yeni geostrateji kontekst, türk respublikalarının Rusiya, Türkiyə, İran və ABŞ-la münasibətləri dəyərləndirilir.

M.S.Qorbaçov və onun islahatları ilə bağlı xarici müəlliflərdən J.Gibbs[27], A.Brovn[28] və N.Alecin[29] əsərlərində bu islahatlara qərb prizmasından qiymət verilib. Miçiqan Universitetinin professoru R.G. Suny "Mixail Qorbaçov: "Yuxarıdan inqilaba" cəhd edən Sovet lideri-

[23] *Devrisheva, F. Türk ve Rus Kaynakları Işığında 1989 Fergana Olayları // Denizli: Belgi Dergisi, 2019. № 2/17, - s.1170-1187.*
[24] *Piriyeva, S. Ahıska türkləri Azərbaycanda / S.Piriyeva. – Bakı: Elm, – 2005. – 264 s.*
[25] *Tıshkov, V. 'Don't Kill Me, I'm a Kyrgyz!': An Anthropological Analysis of Violence in the Osh Ethnic Conflict // Oslo: Journal of Peace Research, – 1995, 32 (2), – p.133-149.*
[26] *Roy, O. Yeni Orta Asya ya da Ulusların İmal edilişi / O.Roy. - İstanbul: Metis yayınları, - Çeviri: Mehmet Moralı, – 2016. – 268 s.*
[27] *Gıbbs, J. Gorbachev's Glasnost the Soviet Media in the first Phase of Perestroika / J. Gıbbs. - Texas: Texas A&M University press. – 1999. – 147 p.*
[28] *Brown, Archie, The Gorbachev Factor / A.Brown. - New York: Oxford University Press. – 1997. – 444 p.; yenə onun. The Rise and Fall of Communism / A.Brown. - New York: Ecco. – 2009. – 725 p.*
[29] *Alec, N. Stalinism and After. The Road to Gorbachev / N.Alec. - London: University of Glasgow, – 1988. – 216 p.*

nin ziddiyyətli mirası" adlı məqaləsində M.S.Qorbaçovun partiyanın Baş Katibi təyin olunan kimi tələsik hazırlanmış, xaotik islahatlar proqramına start verdiyi, amma elə ilk günlərdən islahatlarda səhvlərin olduğunun meydana çıxdığını xüsusilə qeyd edir[30].

Burada, yeri gəlmişkən bir məsələni qeyd etməyi lazım bilirik ki, Qorbaçovun islahatları, həmçinin onun özü haqqında araşdırma edən bəzi müəlliflər əsərlərində ilk baxışdan xırda, lakin fikrimizcə, əhəmiyyətli bir məsələdə yanlışlığa yol verirlər: M.S.Qorbaçov hakimiyyətə gəldiyi 1985-ci ilin aprel plenumunda aşkarlıq, demokratiya və xalq təsərrüfatının inkişafının sürətləndirilməsi ilə bağlı islahatlarını elan etmişdi. Yenidənqurma siyasətinə isə 1987-ci ildə keçilmişdi.

*İkinci qrup əsərlər*. Araşdırmada Azərbaycan SSR-də mətbuatla bağlı məlumat əldə etmək üçün N.Axundovun Azərbaycan milli mətbuatının yarandığı dövrü işıqlandıran araşdırmalardan olan "Azərbaycan dövri mətbuatı (1832-1920)"[31] adlı əsərindən, Ş.Vəliyev və N.Yaqublunun iki cildlik "Azərbaycan mətbuatı antologiyası"[32], N.Zeynalovun iki cildlik "Azərbaycan mətbuatı antologiyası"[33] adlı araşdırmalarından istifadə edilmişdir.

S.Tohidinin "Azərbaycan dövri mətbuatı" əsərində[34] 1875-1990-cı illər arasında Azərbaycan mətbuatı haqqında obyektiv məlumat verilməsinə cəhd edilir. Kataloq xüsusiyyətli araşdırmanın xüsusi əhəmiyyəti ondadır ki, burada bütünlükdə Azərbaycan, yəni həm Şimali, həm də Cənubi Azərbaycan mətbuatı haqqında məlumat verilmişdir.

---

[30] *Ronald G. Suny. Mikhail Gorbachev: The contradictory legacy of Soviet leader who attempted 'revolution from above' // The Conversation, August 31, 2022. [Electron source] - URL: https://theconversation.com/mikhail-gorbachev-the-contradictory-legacy-of-soviet-leader-who-attempted-revolution-from-above-189681*

[31] *Axundov, N. Azərbaycan dövri mətbuatı (1832-1920). Biblioqrafiya. / N.Axundov. – Bakı: Elm, – 1965. –178 s.*

[32] *Vəliyev, Ş., Yaqublu, N. Azərbaycan mətbuatı antologiyası, I cild: [2 cilddə] / Bakı: Elm və Təhsil - C.1, - 2010. - 440 s.; II cild: [2 cilddə] / Bakı: Elm və Təhsil, - c.2, - 2011. - 440 s.*

[33] *Zeynalov, N. Azərbaycan mətbuatı tarixi I hissə / N.Zeynalov. Bakı: ADU nəşri – 1973. – 104 s.; II hissə / N.Zeynalov. Bakı: ADU nəşri – 1974. – 104 s.*

[34] *Tohidi Rüstəmova, S. Azərbaycan dövri mətbuatı / S.Rüstəmova Tohidi. 1875-1990, Bakı: Azərnəşr – 1993. –258 s.*

A.Aşırlının 2009-cu ildə çap olunan "Azərbaycan mətbuatı tarixi (1875-1920)" əsəri də[35] "Əkinçi"dən sonraki dövrdə çap olunan qəzet və jurnallarla bağlı əhəmiyyətli araşdırma hesab oluna bilər. Q.Dünyaminqızının Azərbaycan Xalq Cümhuriyyəti dövrünü əhatə edən kitabı "Kommunist" qəzetinin yaranması ilə bağlı vacib informasiyaları çatdırmaqdadır[36]. Bundan başqa, yenə "Kommunist" qəzetinin yaranması və inkişaf mərhələlərini üzə çıxaran əhəmiyyətli əsərlərdən biri də E.Məhərrəmov və A.Məhərrəmlinin "Xalq qəzeti"nin yaranmasının 90 illiyi münasibətilə çap olunan ""Xalq qəzeti"nin (Kommunist) yaranması və inkişafı tarixindən"[37] adlı kitabında da araşdırma mövzusunun əsas qəzetləri ilə bağlı diqqətəlayiq məlumatlar verilir.

Türkiyədə mətbuatla bağlı zəruri məlumatları əldə etmək üçün H.Topuzun "Basın Tarihi"[38], A.Kabacalının "Başlangıcından Türkiyede Matbaa ve Yayın"[39] kitablarından istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, mətbuatla bağlı araşdırmaların əksəriyyətində daha çox mətbuat tarixi və ya ayrı-ayrı qəzet və jurnalların yaradılması və fəaliyyəti haqqında məlumatlar verilmiş, tədqiqatlar daha çox təsviri, müəyyən hallarda sadəcə məlumat xarakteri daşımışlar. Çox az sayda araşdırmalar mövcuddur ki, onlarda kütləvi informasiya vasitələri, o cümlədən mətbuat sadəcə siyasəti əks etdirməyin vasitəsi kimi deyil, eyni zamanda hadisələrin həllində təsiredici güc olaraq nəzərdən keçirilsin. Belə araşdırmalardan biri, 1991-ci ildə İ.Mazanlının fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yazdığı "Millətlərarası münasibətlərin təkmilləşdirilməsində mətbuatın rolu" adlı dissertasiyası olmuşdur

[35] *Aşırlı, A. Azərbaycan mətbuatı tarixi (1875-1920) / A.Aşırlı. – Bakı: Elm və Təhsil, –2009. – 296 s.*

[36] *Dünyaminqızı, Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər) / Q.Dünyaminqızı. – Bakı: ADPU-nun Mətbəəsi, – 2005. – 128 s.*

[37] *Məhərrəmov, E.Ə., Məhərrəmli, A.E. "Xalq qəzeti"nin (Kommunist) yaranması və inkisafı tarixindən, Nəşrinin 90 illiyi münasibətilə. / E.Ə.Məhərrəmov, A.E.Məhərrəmli. Bakı: Elm və təhsil nəşriyyatı – 2009. – 88 s.*

[38] *Topuz, H. Türk Basın Tarihi / H.Topuz. - İstanbul: Gerçek yayınları – 1973. – 270 s.*

[39] *Kabacalı, A. Başlangıcından Türkiye'de Matbaa ve Yayın / A.Kabacalı. İstanbul: Literatür Yayıncılık – 2000. – 280 s.*

ki, tədqiqat zamanı bu araşdırma əsasında hazırlanmış kitabdan da istifadə edilmişdir[40].

SSRİ-də mətbuatın vəziyyəti və fəaliyyəti ilə bağlı məsələlərə aydınlıq gətirilməsi üçün A.M.Panfilovanın M.V.Lomonosov adına Moskva Dövlət Universitetində nəşr edilmiş "Sovet dövri mətbuatı tarixi mənbə kimi" adlı araşdırmasından istifadə edilmişdir. Müəllif sovet mətbuatı haqqında "proletariatın rəhbəri" V.İ.Leninin *"Qəzet yalnız kollektiv təbliğatçı və kollektiv təşviqatçı deyil, həm də kollektiv təşkilatçıdır"; "proletar mətbuatının əsas prinsipləri: sinfilik, partiyalılıq, marksist ideya, xalqçılıq və dürüstlük"*dür sözləri ilə bəhs etsə də[41], araşdırması həmin dövrdə mətbuatın qarşısında duran vəzifələr, mətbuatda verilən məlumatlara münasibətlə bağlı təsəvvürümüzün formalaşmasına yardımçı olmuşdur.

Rusiyalı tədqiqatçı İ.N.Panarinin "KİV, təbliğat və informasiya müharibələri" və "Birinci informasiya müharibəsi. SSRİ-nin dağılması" adlı araşdırmalarından[42] da istifadə edilmişdir. Bu əsərləri araşdırma üçün əhəmiyyətli edən, onlarda mətbuatın cəmiyyətdə yeri və rolu, qarşısında duran vəzifələr, onları şərtləndirən səbəblər kimi məsələlərə aydınlıq gətirilməsidir. SSRİ-nin informasiya mübarizəsinin fəal iştirakçılarından biri olmuş, politoloq, psixologiya elmləri namizədi, Hərbi Elmlər Akademiyasının həqiqi üzvü, Xüsusi xidmət orqanlarının mayoru və s. ad və titulların sahibi olması, müəllifin müasiri və iştirakçısı olduğu hadisələrlə bağlı verdiyi məlumatların müəyyən hallarda birtərəfli olmasına baxmayaraq, hazırki araşdırma üçün əhəmiyyətli olmuşlar.

*Araşdırmanın mənbə bazasını* tədqiqata cəlb edilmiş qəzet və jurnallar təşkil edir. Belə ki, tarixi tədqiqatlarda mətbuat hər zaman mənbə rolunda çıxış edir. Bu baxımdan, tədqiqata cəlb edilmiş Azərbaycan

---

[40] *Mazanlı, İ. Millətlərarası münasibətlərin təkmilləşdirilməsində mətbuatın rolu / İ.Mazanlı. – Bakı, "Renessans" nəşriyyatı, 2014. - 624 s.*

[41] *Панфилова, А.М. Советская периодическая печать как исторический источник. Москва, Изд-во Московского Университета, - 1974, - с.9.*

[42] *Панарин И.Н. СМИ, пропаганда и ... [Электронный ресурс]; yenə onun. Первая информационная война. Развал СССР. СПб., «Питер», - 2010, - 256 с.*

SSR-də nəşr edilən "Kommunist" (1991-ci ildən "Xalq qəzeti"), "Azadlıq", "Azərbaycan gəncləri", "Azərbaycan", "Odlar yurdu" gəzetləri; "Elm və həyat", "Azərbaycan Kommunisti" jurnallarını; Türkiyədə nəşr edilən "Cümhuriyyət", "Hürriyet", "Milliyet", "Tercüman", "Türkiye" qəzetləri, "Türk Yurdu" jurnalını qeyd edə bilərik.

Azərbaycan SSR-də 1985-1991-ci illərdə nəşr edilən adı çəkilən qəzet və jurnalların nüsxələri Azərbaycan Milli kitabxanasında saxlanılır. 2003-cü ildən avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqinə keçmiş Milli kitabxana həmçinin virtual rejimdə də xidmət göstərir[43]. Kitabxananın "E-kataloq və kitabxana", E-dövri mətbuat, E-məlumat bazası mövcuddur ki, hazırki araşdırma zamanı E-dövri mətbuat bazasının materiallarından xususilə istifadə edilmişdir[44]. Adı çəkilən bazada araşdırma zamanı istifadə edilmiş "Azadlıq" qəzetinin 1990-cı ilin iyul-dekabr – 1991-ci ilin yanvar-dekabr sayları; "Azərbaycan" qəzetinin 1991-ci ilin yanvar ayından başlayaraq bütün sayları; "Azərbaycan gəncləri" qəzetinin 1985-1991-ci ilə aid bütün sayları; "Kommunist" qəzetinin 1985-1989-cu il tarixli bütün sayları, 1991-ci il tarixli yanvar-24 avqust sayları və adı dəyişdirilərək "Xalq qəzeti" qoyulduqdan sonra nəşr edilən 1991-ci il 27 avqust – dekabr saylarının elektron versiyaları yerləşdirilmişlər. Qeyd edək ki, "Azərbaycan" qəzetinin özünün rəsmi saytında[45] belə, qəzetin 1985-1991-ci illərə aid sayları yerləşdirilməmişdir. Rəsmi səhifənin "Arxiv" bölməsində yalnız 2000-ci ildən başlayaraq qəzetlərin elektron versiyalarını əldə etmək mümkündür.

Türkiyədə adı çəkilən qəzetlər üçün İstanbulda yerləşən "Atatürk Kitaplığı" kitabxanasının rəqəmsal resurslarından[46], "Türk Yur-

---

[43] *Azərbaycan Milli Kitabxanasının rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://www.millikitabxana.az/about-us/history*

[44] *Azərbaycan Milli Kitabxanası, E-kataloq və kitabxana. [Elektron resurs] - URL: http://ek.anl.az/search/query?theme=e-kataloq; E-dövri mətbuat. [Elektron resurs] - URL: https://www.millikitabxana.az/newspapers; E-məlumat bazası. [Elektron resurs] - URL: https://www.millikitabxana.az/databases*

[45] *Azərbaycan qəzetinin rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://www.azerbaijan-news.az/az*

[46] *"Atatürk Kitaplığı" kitabxanasının rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://ataturkkitapligi.ibb.gov.tr/tr/Anasayfa*

du" jurnalı üçün isə "Türk Yurdu" jurnalının rəsmi saytında yerləşən online arxivdən[47] istifadə edilmişdir.

Bundan başqa, dövrlə bağlı ümumi təsəvvürün yaradılması məqsədilə, araşdırmada 1991-ci ildə M.S.Qorbaçovun özü tərəfindən təsis edilmiş "M.S.Qorbaçov adına Beynəlxalq sosial-iqtisadi və politoloji tədqiqatlar mərkəzi"nin rəsmi internet səhifəsində yerləşdirilmiş materiallardan da istifadə edilmişdir[48]. Fəaliyyəti dövründə Mərkəz tərəfindən bir sıra kitablar nəşr edilib, layihələr həyata keçirilib: "Belə layihələrdən biri "Yenidənqurmanın sənədli tarixi" layihəsidir. Yenidənqurma və onun həyata keçirilməsinin tarixi-arxivi rekonstruksiyası olan bu layihə Qorbaçovun köməkçilərinin qeydləri əsasında hazırlanmışdır. Layihə çərçivəsində "Sov. İKP MK Siyası Bürosunda ... Anatoli Çernyayev, Vadim Medvedyev, Georgi Şahnazarovun qeydlərinə əsasən (1985-1999)"; "Mixail Qorbaçov və alman məsələsi"; "İttifaqı saxlamaq olardı"; "Zamanın çağırışına cavab verərkən. Yenidənqurma siyasəti: sənədli şübutlar" kitabları nəşr edilib". Və bütün bu araşdırmaların nəticəsi ilə Mərkəzin online kitabxanasında tanış olmaq mümkündür. Qorbaçov fondunun yuxarıda adlarını qeyd etdiyimiz araşdırmaları haqqında bəhs edilən dövrdə və hadisələrin birbaşa iştirakçıları tərəfindən tərtib edildiyi baxımından ilk mənbə hesab olunurlar.

"B.N.Yeltsin Prezident Mərkəzi" Fondunun materialları da tədqiqat üçün xüsusi əhəmiyyətli mənbələrdən biri olmuşdur. Fond "Rusiya Federasiyasının səlahiyyətlərini icra etməyi dayandırmış prezidentlərinin tarixi irs mərkəzləri haqqında" 2008-ci il 68 saylı federal qanuna əsasən yaradılıb və fəaliyyət göstərir. Fondun tabeliyində muzey, arxiv və kitabxana (o cümlədən, elektron kitabxana) fəaliyyət göstərir, həmçinin fond çərçivəsində bir sıra layihələr həyata keçirilir[49]. Araşdırma

---

[47] *"Türk yurdu" jurnalının rəsmi səhifəsi. [Elektron resurs] - URL: https://www.turkyurdu.com.tr/dergiler.php*

[48] *Официальный сайт некоммерческой организации международного фонда социально-экономических и политологических исследований имени М.С. Горбачева «Горбачев-Фонд». [Электронный ресурс] – URL: https://www.gorby.ru/*

[49] *Официальный сайт Фонда «Президентский центр Б.Н.Ельцина» (Ельцин центр). [Электронный ресурс] – URL: https://yeltsin.ru/*

zamanı xüsusilə, "Arxiv və kitabxana" bölməsində yerləşdirilmiş "Nezavisimaya qazeta" və "İzvestiya" qəzetinin 1991-ci il nömrələrindən; M.S.Qorbaçovun özü tərəfindən yazılmış memuarlar xarakterli iki cildlik "Həyat və islahatlar" kitabından[50] istifadə olunmuşdur.

Araşdırmada həmçinin Moskva Dövlət Universitetinin əməkdaşları tərəfindən nəşr edilmiş iki cildlik "Müasir Rusiyanın tarixi" xrestomatiyasının 1985-1991-ci illərdə baş vermiş hadisələrlə bağlı SSRİ dövlət və hökumət nümayəndələrinin, o cümlədən M.S.Qorbaçovun çıxışları, bəyanatları, qəbul edilmiş qərarlar və s. yer aldığı[51] 1-ci cildindən istifadə edilmişdir.

Həmçinin, Rusiya Federal arxiv agentliyinin rəsmi saytında, xüsusilə də araşdırmanın mövzusu ilə bağlı olan "Sovet Sosialist Respublikaları İttifaqı" və "SSRİ-nin süqutu. Rusiya Federasiyasının yaranması" bölmələrində yerləşdirilmiş qanunvercilik aktlarından və sənədli materiallardan istifadə edilmişdir[52].

Tədqiqatda Qazaxıstanla bağlı məlumatların dəqiqləşdirilməsi məqsədilə 1998-2007-ci illərdə Qazaxıstan respublikasının o zamanki prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə hazırlanmış "Qazaxıstan Milli Ensiklopediya"sının rus dilində olan versiyasından[53]; həmçinin Qazaxıstan Respublikasının Dövlət İnformasiya siyasətini həya-

---

[50] *Горбачев, С.М. Жизнь и реформы. В двух книгах. Кн.1. М., АО «Изд-во Новости», 1995, 600 с. [Электронный ресурс] - URL: http://www.yeltsincenter.ru/sites/default/files /zhizn-i-reformy-kniga-1.pdf*

[51] *История современной России: Документы и материалы (1985–1999): В 2 ч. Ч.1. / Под общ. ред. С.М.Шахрая и А.А.Клишаса (Составит. С.М. Попова, А.А. Яник). М.: Фонд современной истории; Издательство Московского университета, - 2011. - 624 с.*

[52] *Официальный сайт Интернет-проекта «Исторические материалы». [Электронный ресурс] – URL: https://istmat.org/statistics; Официальный сайт Федерального архивного агентства России. [Электронный ресурс] – URL: https://projects.rusarchives.ru/statehood/09-28-zakon-prezident-sssr.shtml*

[53] *Казахстан. Национальная энциклопедия / Гл.ред. Б.Аяган. 1 Том. А-В. Алматы: Главная редакция «Казак энсиклопедиясы», - 2004. – 560 с.; 2 Том. Г-Й. Алматы: Главная редакция «Казак энсиклопедиясы», - 2005. – 560 с.; 3 Том. К-М. Алматы: Главная редакция «Казак энсиклопедиясы», - 2005. – 560 с.; 4 Том. М-С. Алматы: Главная редакция «Казак энсиклопедиясы», - 2006. – 560 с.; 5 Том. С-Я. Алматы: Главная редакция «Казак энсиклопедиясы», - 2006. – 560 с.*

ta keçirən "Qazcontent" Media şirkəti tərəfindən yaradılmış və Qazaxıstan Respublikası prezidentinin Mərkəzi kommunikasiya xidməti tərəfindən dəstəklənən "Qazaxıstan tarixi" internet-layihə portalında yerləşdirilmiş elektron resurslardan[54]; Qazaxıstan Respublikasının birinci prezidenti Nursultan Nazarbayevin rəsmi saytında yerləşdirilmiş çıxış, məruzə və bəyanatlarından[55], Qazaxıstan Respublikası Ədliyyə Nazirliyinin "Qazaxıstan Respublikasının Qanunvericilik və Hüquqi İnformasiya İnstitutu" tərəfindən hazırlanmış, Qazaxıstan Respublikasının normativ hüquqi aktlarının informasiya-hüquqi sistemi "Әділет" saytında yerləşdirilmiş qanunvericilik sənədlərindən[56] də istifadə edilmişdir. Qeyd edək ki, Qazax dilində 10 cilddən ibarət olan "Qazaxıstan milli ensiklopediyası"nın rus dilində 5 cildi və ingilis dilində "Məlumat kitabı" versiyası mövcuddur. Araşdırma zamanı ensiklopediyanın rus dilində olan materiallarından istifadə edilmişdir.

Özbəkistanla bağlı müəyyən məsələlərin araşdırılması zamanı ölkə prezidentinin 13 aprel 2018-ci il tarixli fərmanı ilə yaradılmış "Ədalət" Mərkəzi tərəfindən hazırlanmış Özbəkistan Respublikası Qanunvericiliyinin milli məlumat bazası olan "LexUz on-line" saytının[57]; həmçinin Özbəkistanın informasiya-axtarış və ekspert sistemi olan

---

[54] *Официальный сайт Интернет-проекта «История Казахстана» ("Qazaqstan Tarıhy"). [Электронный ресурс] – URL: https://e-history.kz/ru/history-of-kazakhstan*

[55] *Официальный сайт первого Президента Республики Казахстан Нурсултана Назарбаева. [Электронный ресурс] – URL: https://nazarbayev.kz/*

[56] *Закон Казахской Советской Социалистической Республики от 24 апреля 1990 года «Об учреждении поста Президента Казахской ССР и внесении изменений и дополнений в Конституцию (Основной Закон) Казахской ССР». Информационно-правовая система нормативных правовых актов Республики Казахстан «Әділет». [Электронный ресурс] - URL: https://adilet.zan.kz/rus/docs/Z900001000_; Сайт Информационно-правовой системы нормативных правовых актов Республики Казахстан "Әділет". [Электронный ресурс] – URL: https://adilet.zan.kz/rus*

[57] *Национальная база данных законодательства Республики Узбекистан. [Электронный ресурс] – URL: https://lex.uz/ru/*

"Özbəkistanın bütün qanunvericiliyi" sənədlərinin yerləşdirildiyi "Norma online" saytının[58] materiallarından istifadə edilmişdir.

Həmçinin, Qırğızıstan Respublikası Ədliyyə Nazirliyinin "Qırğızıstan Respublikasının hüquqi məlumatlarının mərkəzləşdirilmiş məlumat bankı" saytında yerləşdirilmiş sənədlərdən[59] istifadə edilmişdir.

1985-1991-ci illərdə SSRİ-də həyata keçirilən islahatların mətbuata təsiri, Mərkəzi Asiyanın türk respublikalarında mətbuatın fəaliyyəti ilə bağlı bəzi məsələlərə aydınlıq gətirilməsi üçün SSRİ Kitab Palatası tərəfindən 1986 və 1991-ci illərdə nəşr etdirilmiş "1985-ci ildə SSRİ-də mətbuat" və "1990-cı ildə SSRİ-də mətbuat" adlı statistik məlumatlardan istifadə edilmişdir[60]. 1991-ci ilə aid statistik məlumatları əldə etmək mümkün olmadı, ola bilsin ki, baş verən ictimai-siyasi proseslər məlumat kitablarının hazırlanmamasına səbəb olub.

---

[58] *Сайт Информационно-поисковые и экспертные системы «Все законодательство Узбекистана». [Электронный ресурс] – URL: https://nrm.uz/ about*

[59] *Закон Киргизской ССР от 24 октября 1990 года № 222-XII "Об учреждении поста Президента Киргизской ССР и внесении изменений и дополнений в Конституцию (Основной Закон) Киргизской ССР». Централизованный Банк данных правовой информации Кыргызской Республики. [Электронный ресурс] - URL: http://cbd.minjust.gov.kg/act/view/ru-ru/909; Сайт Централизованного Банка Данных Правовой Информации Кыргызской Республики Министерства Юстиции Кыргызской Республики. [Электронный ресурс] – URL: http://cbd.minjust.gov.kg/*

[60] *Печать в СССР в 1985 году. Статистический сборник. Москва, «Финансы и статистика», - 1986, - 311 с.; Печать в СССР в 1990 году. Статистический сборник. Москва, «Финансы и статистика», - 1991, - 284 с.*

# I FƏSİL.
# 1985-1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDA MÖVCUD VƏZİYYƏT

## 1.1. 1985-1991-ci illərdə SSRİ-də ümumi ictimai-siyasi, iqtisadi vəziyyət

Beynəlxalq münasibətlərdə II Dünya müharibəsinin bitməsindən sonra başlayan Soyuq müharibə dövrü SSRİ-də M.S.Qorbaçovun hakimiyyəti illərinə qədər davam etmişdir. İki qütbə ayrılmış dünya, bu dövrdə kapitalist idarəçiliyini təmsil edən ABŞ-la sosialist idarəetməyə malik olan SSRİ-nin öz sistemlərini digər dövlətlər arasında yaymaq cəhdləri ilə gərginlik yaşamışdır. 1953-cü ildə İ.V.Stalinin ölümü ilə SSRİ-də hakimiyyət Stalin və ətrafındakıların idarəçiliyini tənqid edən şəxslərin əlinə keçdi. İ.V.Stalinin siyasətini tənqid edən, lakin bir yenilik edə bilməyən N.S.Xruşşov və sonrakı rəhbərlər, nəticə etibarı ilə mövcud vəziyyəti qoruyub saxlamağa məcbur oldular. Bundan əlavə, dünyaya qapalı olan iqtisadi sistem SSRİ-ni zaman keçdikcə daha çətin vəziyyətə salmışdı. “Bağlı qutu”nu xatırladan SSRİ dünya ölkələrinə sosialist sisteminin düzgün çalışdığını sübut etməyə cəhd edirdi. Lakin 1980-ci illərdə artıq sovet sisteminin daxilindəki problemlər, hər nə qədər gizlədilməyə çalışılsa da, meydana çıxmağa başladı. Beləliklə, artıq ölkə daxilində də mövcud sistemin yararsızlığı, tez bir zamanda müdaxilə etməyin vacibliyi barədə düşünülməyə başlandı.

Bu vəziyyətdən çıxmaq üçün bir neçə dəfə islahatlar keçirilməsinə cəhd edilsə də, fərqli yenilikçi siyasətin tətbiq edilməsi Mixail Sergeyeviç Qorbaçovun hakimiyyətə gəlməsi ilə həyata keçirilmişdir. M.S.Qorbaçovun dövründə soyuq müharibənin əks qütbləri olan ABŞ və SSRİ arasında münasibətlər yumşalmağa başlasa da, onu sona çatdıran hadisənin 1991-ci ildə SSRİ-nin dağılması olduğu hesab edilir.

Qorbaçovdan əvvəl 12 noyabr 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi seçilmiş Yuri Vladimiroviç Andropov qısa müddət vəzifədə olmasına baxmayaraq (12 noyabr 1982 – 9 fevral

1984)[61], ölkənin iqtisadi sistemində islahatlar aparmaq üçün yeni qərarlar qəbul etmiş, korrupsiya və qanunsuz gəlirlərin qarşısını almaq üçün bir sıra addımlar atmış, idarəçiliyə gənc kadrlar gətirməyə cəhd etmiş, lakin konkret nəticə əldə edə bilməmişdi. Vəfatından sonra onu 73 yaşlı Konstantin Ustinoviç Çernenko əvəz etmişdi (13 fevral 1984 – 10 mart 1985)[62]. O, Sovet tarixində Baş katib vəzifəsinə seçilən ən yaşlı şəxs idi. Hakimiyyətdə 13 ay qalmış, xəstə olduğuna görə idarəetmədə əhəmiyyətli təsiri olmamışdı. Ölümündən sonra Baş katib vəzifəsinə M.S.Qorbaçov gəlmiş və ölkədə böyük dəyişikliklər edən əsas şəxs də, məhz o olmuşdur.

Qafqazın şimalında yerləşən Stavropol şəhərinin Privolnoye kəndində 2 mart 1931-ci ildə anadan olan M.Qorbaçov orta məktəb illərindən etibarən, dövrünün digər gəncləri kimi, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqına (ÜİLKGİ) üzv olmuşdu[63]. Moskva Dövlət Universitetində hüquq təhsili alan Qorbaçov, daha sonra Kənd təsərrüfatı sahəsində işləməyə başlamışdı. O, natiqlik bacarığına görə işlədiyi yerlərdə diqqəti cəlb etmiş, ÜİLKGİ Mərkəzi Komitəsində, partiya orqanlarında rəhbər vəzifələrdə işləmişdir. Ardınca, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində aqrar məsələlər üzrə vəzifəyə təyin edilmişdir. 1980-ci ildən etibarən Siyasi Büroya qədər yüksələn M.S.Qorbaçov K.U.Çernenkonun ölümündən sonra A.A. Qromıkonun təşəbbüsü ilə Baş katib vəzifəsinə seçilmiş, 24 avqust 1991-ci ilə qədər həmin vəzifəni icra etmişdir[64].

---

[61] *Андропов Юрий Владимирович. Биография / Сайт Федеральной Службы Безопасности Российской Федерации. [Электронный ресурс] - URL: http://www.fsb.ru/fsb/history/leaders/single.htm%21id%3D10309213%40fsbBiography.html*

[62] *Константин Устинович Черненко / Сайт Исторический парк «Россия - Моя история». [Электронный ресурс] – URL: https://myhistorypark.ru/media/chernenko/*

[63] *Sproule, A. Mihail Gorbaçov / A.Sproule. - İstanbul: İlkkaynak yayınları, - Çeviri: Leyla Onat, – 1996, – s.14.*

[64] *Azərbaycan tarixi. Yeddi cilddə, VII cild, 1941-2002-ci illər: [7 cilddə] / AMEA, A.Bakıxanov ad. Tarix İns-tu; məsul red. T.Qaffarov. - Bakı: Elm, - C.7, - 2008. – s.189.*

Adını Sovet tarixinə "islahatçı lider" kimi yazdırmış M.Qorbaçovun 11 mart 1985-ci ildə Sov.İKP MK-nın Baş Katibi vəzifəsinə seçilməsi ilə Sovet İttifaqı üçün yeni dövr başlamışdır[65]. Vəzifəyə gələndən qısa müddət sonra Qorbaçovun adı daha çox "aşkarlıq" (гласность), "sürətləndirmə" (ускорение) və "yenidənqurma" (перестройка) kimi tanınan siyasi, iqtisadi və ictimai sahələrdəki islahatlarla çəkilməyə başladı. Həyata keçirdiyi bu islahatlar həmin dövrdə bütün Sovet Sosialist Respublikalarında tətbiq edilmişdir[66].

M.S.Qorbaçov islahatlarından adı ən çox çəkilən yenidənqurma siyasətidir. Qərb müəllifləri arasında belə fikir mövcuddur ki, əslində yenidənqurma ilk olaraq 1970-ci illərin sonunda L.İ.Brejnev tərəfindən təklif edilmiş, lakin onun həyata keçirilməsi üçün konkret addım atılmamışdı[67]. Qorbaçov özü və onun islahatlar dövründə SSRİ rəhbərliyində olmuş silahdaşları bildirirlər ki, islahatlar hələ Y.V.Andropovun zamanında başlamış və yarımçıq qalmış islahatların davamı idi. İslahatlar "daha çox demokratiya, daha çox sosializm" məqsədilə həyata keçirilirdi. Qorbaçovun Sov.İKP MK-nın 1985-cü il 11 mart plenumunda çıxışında qeyd edilirdi ki, *"bundan sonra da Y.V.Andropovun və K.U.Çernenkonun dövrlərində başlanmış ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, cəmiyyət həyatının bütün sahələrinin təkmilləşdirilməsi kursu dəyişməz olaraq qalacaq ... Bunun üçün demokratiyanın, xalqın sosialist idarəetməsinin daha da təkmilləşdirilməsi və inkişaf etdirilməsi, ... partiya, sovet, dövlət və ictimai təşkilatların işində aşkarlığın genişləndirilməsi əsas vəzifələrdəndir"*[68]. Göründüyü kimi, Qorbaçovun hakimiyyətinin ilk illərində yenidənqurmadan bəhs edilmirdi. 1985-ci il aprel plenumunda da "yenidənqurma" ifadəsinin işlədilməsinə baxmayaraq, hətta bu plenumda da ma-

---

[65] *Sovet İttifaqı Kommunist partiyası Mərkəzi komitəsinin plenumu haqqında məlumat // Kommunist. – 1985, 12 mart. – s.1.*

[66] *Aydemir, F.B. Sovyetlerin Son lideri Mihail Gorbaçov üzerine kısa bir değerlendirme // Bakı: Tarix və onun problemləri, 2021 № 2 - s.158; Ubiria, G. Soviet Nation-Building in Central Asia / G. Ubiria. - London and New York: Routledge. – 2016. – p.238.*

[67] *Brown, Archie, The Gorbachev Factor, p.123-125.*

[68] *История современной России.., Ч.1, с.37-38.*

hiyyət etibarı ilə sadəcə, "elmi-texniki tərəqqi əsasında iqtisadiyyatın bütün sahələrinin yenilənməsi", ölkənin sosial-iqtisadi inkişafının sürətləndiriməsindən bəhs edilirdi[69].

Qorbaçov Sov.İKP MK-nın 1985-ci il 23 aprel tarixli plenumunda "ölkənin sosial-iqtisadi baxımdan inkişafının sürətləndirilməsi" əsasında müxtəlif yeniliklər ediləcəyini açıqlamışdı. İlk olaraq, 7 may 1985-ci ildə KP MK-nın və SSRİ Nazirlər Kabinetinin "Sərxoşluğun və alkoqolizmin aradan qaldırılması, spirtli içkilərin hazırlanmasının ləğvi tədbirləri haqqında" 410 №-li qərarı ilə[70]; həmçinin, 3 iyul 1985-ci ildə SSRİ Qanunu ilə təsdiqlənmiş "SSRİ Ali Soveti Rəyasət Heyətinin 16 may 1985-ci il tarixli Sərxoşluqla mübarizənin gücləndirilməsi haqqında" fərmanı ilə ölkədə alkoqolizmə qarşı mübarizə başlamışdı[71]. Bu qanunun qəbul edildiyi vaxt ölkədə spirtli içkilərdən istifadə yüksək həddə çatmışdı. Qanuna əsasən bir çox üzüm bağı və şərab istehsal edən fabriklər bağlandı. Lakin bundan sonra digər spirtli içkilərə rəğbət artmış, bir çox insan qanunsuz olaraq spitli içkilər istehsal etməyə başlamışdı. Bu da gizli spirtli içki istehsalı və istifadəsinin artmasına gətirib çıxarmışdı. Həmçinin, dövlətin spirtli içkilərdən əldə etdiyi gəlirlər də hiss ediləcək dərəcədə azalmış, 1986-1988-ci illərdə bu səbəbdən iqtisadiyyata dəyən zərərin miqdarı 67 milyard manata çatmışdı. Nəticədə, uğursuzluqla nəticələnmiş alkoqolizmlə mübarizə kampaniyası 1988-ci ildə dayandırılmışdı[72].

"Yenidənqurma" islahat olaraq yalnız iki il sonra Sov.İKP-nin XXVII qurultayında, "yeni təfəkkür" (новое мышление) ideyası ilə birlikdə irəli sürüldü[73]. Qorbaçov qeyd edirdi ki, yenidənqurma "*ilk öncə planda nəzərdə tutulan iqtisadiyyatın inkişaf tempini artırmaqdır. Lakin lazım olan təkcə bu deyil. İşin əsası inkişafda yeni keyfiyyət əldə etmək bacarığı, elmi-texniki inkişafın, iqtisadiyyatın köklü dəyişdirilməsi, idarəetmədə, işin təşkilində və təşviqində təsirli vasitələrin*

[69] *История современной России.., Ч.1, с.40.*
[70] *Yenə orada, s.43.*
[71] *Yenə orada, s.45-48;.Həmid, T. SSRİ niyə dağıldı? // Kayzen az, yanvar 5, 2021.*
[72] *История современной России.., Ч.1, с.73-74.*
[73] *Yenə orada, s.53-57; Brown, A. The Rise and Fall of Communism, p.489.*

*tətbiq edilməsi əsasında istehsalın böyük miqyasda intensivləşdirilməsi"* deməkdir[74]. Çıxışında ictimaiyyətin gözləntilərini təmin etmək və ictimai həyatda çevriliş etməyin bu mərhələdə tarixi bir vəzifə olduğunu da qeyd etmişdir[75].

Qurultayın qəbul etdiyi 1986-1990-cı illəri əhatə edən 5 illik inkişaf proqramı sosial və iqtisadi baxımdan sürətləndirməni nəzərdə tuturdu. Bu plana əsasən 14 may 1985-ci ildə təqaüdçülər və ailə üzvlərinin maddi vəziyyətlərinin yaxşılaşdırılması üçün, 22 mayda isə fəhlələr və kolxozçuların maaşlarının artırılması barədə qərarlar qəbul edilmişdi. Bundan başqa, 1986-cı ilin yanvarında əsgər övladlarına, dul qadınlara və tək valideyn olanlara verilən məvaciblər artırılmışdı. Həmin ilin mayında kəndlərdə yaşayanlara, daha sonra II Dünya müharibəsinə qatılan və həyatını itirənlərin ailələrinə əlavə məvaciblərin veriləcəyi elan edilmişdi[76].

Qeyd olunan dövrdə infrastruktur və üst quruluş işləri ilə yanaşı, təhsildə və səhiyyədə yeni dövlət müəssisələrinin tikintisi və fərdi yaşayış evlərinin yenidən inşası kimi mövzularda da dəyişikliklər edildi. Məsələn, yeni məktəb, uşaq bağçası və xəstəxanaların tikilməsi üçün böyük dəyişikliklər planlaşdırılmış, bağçılıq və bostançılığın yayılması üçün qanun qəbul edilmişdi. Həmin dövrdə "Mənzil 2000" proqramına əsasən 2000-ci ildə hər ailənin ayrı mənzildə yaşaması planlaşdırılmışdı.

1985-ci il və ondan sonrakı illərdə elan edilən bu qərarlar dövlətin həqiqətən sosial sahədə fəal hərəkət etmək cəhdlərini göstərirdi. Sosial sahədə planlaşdırılan bu addımlar əvvəlcə xalqda müsbət dəyişikliklər olacağına ümid yaratmışdı. Lakin 1989-1990-cı illərə gəldikdə vəd edilən dəyişikliklərin uğursuzluqla nəticələndiyi aydın oldu. Belə ki, planlaşdırılan bu yeniliklər böyük maddi vəsait tələb edirdi,

---

[74] *Gorbaçov, M. Glasnost Asıl neyi istiyorum? / M.Gorbaçov. – İstanbul: Dönemli yayıncılık, - Çeviri: Tuba Tarcan Çandar, Ahmet Cemal, - 1987, - s.86.*

[75] *Ligaçev, İ. (1995). Kremlin'in sırları / İ.Ligaçev. - İstanbul: Kaynak yayınları, - Çeviri: B. Atlamaz – 1995. – s.29; Лигачев, К.Е. Перестройка: замыслы, результаты и поражения, уроки / Е.К. Лигачев. - Москва: ИТРК, – 2005. – с.147.*

[76] *Baxşəliyev, T. Göst. əsəri, s.694.*

lakin beynəlxalq aləmdə 1985-ci ildən sonra neft qiymətlərinin sürətlə azalması nəticəsində dövlət büdcəsinin gəliri xeyli azalmışdı. 1986-cı ildə dövlət büdcəsi əvvəlki illə müqayisədə üç qat artıq kəsir vermişdi. Həmçinin, SSRİ-nin 1985-ci ildə 27,2 milyard olan borcu, 1986-cı ildə 39,4 milyard dollara çatmışdı. 1990-cı illərə yaxın isə bu borc 57,6 milyard dollara qədər yüksəlmişdi[77].

26 aprel 1986-cı ildə Çernobil atom stansiyasında baş verən partlayış da dövlət büdcəsinə böyük zərbə vurmuşdu. Həmin partlayış həm bölgədə yaşayan insanların sağlamlığına və yaşayışına təsir etmiş, həm də bölgədəki əkin sahələri yararsız hala düşmüşdü. Bu faciənin təsirlərini aradan qaldırmaq üçün 1986-cı il ərzində 14 milyard rubl xərclənmişdi[78]. T.Baxşəliyevin fikrincə, bu qəza sürətləndirmə siyasətinin nəticəsi idi. Lakin digər mənbələrə görə bu hadisəni sürətləndirmə siyasəti ilə əlaqələndirmək real görünmür.

Planlaşdırılan və həyata keçirilən islahatlara baxmayaraq, əvvəlcə Sovet rəsmi nümayəndələri "hadisənin yalan olduğunu irəli sürərək" mətbuatda dərc edilməsinə mane olmuşlar. Lakin aşkarlıq islahatının tətbiq edilməsi məqsədilə Qorbaçov bu fəlakəti qəbul etmiş və faciəni gizlədərək dərc edilməsinə mane olan öndə gedən mətbuat orqanlarının redaktorlarını başqaları ilə əvəz etmişdi[79].

1986-cı ilin əvvəllərindən etibarən sürətləndirmə mərhələsinin yararsız olması və iqtisadi cəhətdən ciddi dəyişikliklərin vacibliyi aydın olmuş və bu tarixdən etibarən "yenidənqurma siyasəti" daha çox əhəmiyyət kəsb etmişdi. Bu məqsədlə 1987-ci il iyunun 30-da "Dövlət müəssisələri haqqında qanun" qəbul edilmişdi. Bu qanunla müəssisələr özünüidarə hüququ alır və özü özünü maliyyələşdirərək hətta xarici şirkətlərlə birbaşa görüşüb əməkdaşlıq edə bilərdilər. Lakin mərkəzi nazirliklər müəssisələr üzərində öz nəzarətlərini itirmək istəmirdilər. Sənayenin əsas müştərisi dövlət olduğu üçün müəssisələrin istehsal etdiyi məhsullar dövlətə qalırdı və müəssisələrin ticarət imkanları məh-

---

[77] *Baxşəliyev, T. Göst. əsəri, s.694.*
[78] *Yenə orada, s.695.*
[79] *Brown, Archie, The Gorbachev Factor, p.163.*

dud idi. Məhsulun qiymətinin və vergisinin miqdarı dövlət tərəfindən müəyyənləşdirilirdi[80]. Beləliklə, müəssisələrin gəlirlərini nazirliklər toplayardılar, lakin sözdə isə müəssisələrin maliyyə azadlığından bəhs edirdilər. Belə vəziyyətdə qəbul edilən bu qanunun nəticəsinin olacağını gözləmək olmazdı. Çünki şirkətlər istehsal etdikləri məhsulları satacaq hər hansı bazara malik deyildilər və bu halda dövlət sifarişlərini istehsal edən şirkətlər daha çox qazanc əldə edirdilər. Mövcud vəziyyətə görə bu qanun qəbul edildikdən sonra iqtisadi cəhətdən mühüm dəyişiklik əldə edilmədi. Öz biznesini qurmaq istəyənlər əvvəlcə qeydiyyatdan keçməli və 65%-ə qədər vergi ödəməli idilər. Qəbul edilən qanunun ardınca 1 milyona yaxın insan öz biznesini qurmaq üçün qeydiyyatdan keçmişdi. Lakin islahatlara baxmayaraq yerli hakimiyyət orqanları kooperativlərin fəaliyyətlərini məhdudlaşdırdı. Yerli hakimiyyət orqanları siyasi və ideoloji sahədəki azadlıqları yüksək qiymətləndirsələr də, iqtisadi sahədə atılan addımlara şübhə ilə yanaşırdılar. Aparılan islahatlar nəticəsində iqtisadi azadlığın öz həyat standartlarını aşağı salacağından ehtiyat edən bu qrup isə iqtisadi islahatlar məsələsində mühafizəkar davranırdı[81].

Digər tərəfdən, 1988-ci ildə qəbul edilən "İcarə müqaviləsi"nə görə, fermerlərdən bir və ya bir neçə ailə toplaşaraq bir ərazini uzun müddətli icarəyə götürərək əkib-becərəcək və bunun nəticəsində istehsal edilən məhsullar icarəyə verən ailəyə məxsus olacaqdı. Qorbaçov bu məsələ ilə bağlı "bu məsələdə bizim üçün ən vacib olan xalqın yalnız sözdə deyil, reallıqda da istehsalçı olmasıdır" deyirdi[82].

1988-ci ildə qəbul edilən digər bir əsasnamədə isə şəxsi istifadəyə verilən torpağın hər kolxoz üzvünün ümumilikdə iştirakından asılı olaraq müəyyənləşdirilməsi qərara alındı. Beləliklə, kolxozlar zaman keçdikcə kooperativ təşkilatlara çevriləcəkdi. Lakin bu qərarlar simvolik olaraq tətbiq edilirdi. Çünki rayon hakimiyyəti altında olan bu

---

[80] *История современной России.., Ч.1, с.103-106.*

[81] *Baxşəliyev, T. Göst. əsəri, s.697; Aydemir Baş, F.B. SSCB'nin Çöküş Sebepleri Üzerine bir değerlendirme // - Bakı: Tarix və onun problemləri, 2021 № 4, - s.161.*

[82] *Gorbaçov, M. Perestroika Ülkemiz ve Dünya için Yeni Düşünce / M.Gorbaçov. - İstanbul: Güneş yayınları - Çeviri: K.Yargıcı, - 1988. - s.82.*

kolxozlarda dövlətə verilən məhsulun miqdarı, şəxsi sahələrin böyüklüyü və s. kimi məsələlər antiyenidənqurma qüvvələri olan yerli hökumət tərəfindən müəyyənləşdirilirdi. Fermerlərə icarəyə vermək üçün ayrılan torpaqlar bu qrup tərəfindən xüsusilə yararsız torpaqlardan seçilirdi və əkin üçün lazım olan alətlərə malik olmayan fermerlər üçün torpaq icarəyə götürmək heç bir məna kəsb etmirdi. Bu da dəyişikliyə qarşı böyük bir maneə yaradırdı. Belə ki, 1991-ci ilə qədər torpaqların sadəcə 2%-i, heyvanların isə 3%-i icarəyə götürülmüşdü. Nəticədə, 1988-ci ildə əkin, 1990-cı ildə isə sənaye istehsalı azalaraq ölkənin istehsal sahəsində ümumi milli gəlir 11% azalmışdı. Həmin dövrdə SSRİ-nin daxili və xarici borcu isə ümumi gəlirin 2/3-nə çatmışdır[83].

Reallıq budur ki, iqtisadi islahatların uğursuzluqla nəticələnəcəyi əvvəlcədən məlum idi. Bir çox partiya lideri və ideoloqlar dəyişikliklərin əksinqilabi xarakterdə olduğunu, "real sosializm" prinsipləri ilə ziddiyyət təşkil etdiyini iddia edirdilər. Nəticə olaraq, icazə verilən iqtisadi sahibkarlıq məhdud idi və bu səbəbdən müəssisələrin real müstəqilliyi təmin edilmədi. Dövlət tərəfindən sifariş edilən məhsulun qiyməti əvvəl olduğu kimi yuxarı təbəqənin göstərişi əsasında müəyyənləşdirilməyə davam etdi. Təsisçilərin iqtisadi müstəqilliyi və sahibkarlığı təmin edilmədi, idarəetmədə mərkəziyyətçilik hakim olmağa davam etdi[84].

1990-cı ildə N.İ.Rıjkov hökuməti akademik L.İ.Abalkinin rəhbərliyi ilə böhrandan çıxmaq üçün bir plan təklif etdi. Bu plana əsasən, 1991-1992-ci illərdə üç addımda mərhələli şəkildə bazar iqtisadiyyatına keçid planlaşdırılırdı[85]. Digər tərəfdən isə, bir qrup iqtisadçı S.Ş. Şatalin və Q.A.Yavlinskinin başçılığı ilə "500 gün" iqtisadi planını hazırladı. Planda ölkə iqtisadiyyatının yenidən qurulması, dövlət mülkiyyətinin özəlləşdirilməsi, dövlətin qiymət müəyyənetmə siyasətindən əl çəkməsi vacib hesab edilirdi. 1990-cı ilin martında Qorbaçov

---

[83] *Brzezinski, Z. Büyük Çöküş / Z.Brzezinski. – Ankara: Türkiye İş Bankası Kültür Yayınları – Çeviri: Keskin, G., Pakkan, G. – 2000. – s.279.*
[84] *Aydemir Baş, F.B. SSCB'nin Çöküş Sebepleri Üzerine bir değerlendirme, s.161.*
[85] *Turan, G. Sovyet Sonrası Orta Asya Sosyalist Devletten Sosyal Devlete geçiş / G.Turan. - İstanbul: Tasam yayınları, – 2006. – s.23.*

SSRİ-nin prezidenti seçiləndə N.İ.Rıjikov və L.İ.Abalkinin təklifini qəbul etdi. Digər planın qəbul edilməməsinin səbəbi isə siyasi məsələlər idi. Çünki "500 gün" planını Qorbaçovun rəqibi olan B.N.Yeltsin müdafiə edirdi. Rıjkov və Abalkinin "Əsas istiqamət" adlanan planının tətbiq edilməsinə başlandı. Lakin əvvəlki uğursuzluqlara görə tənqidlərə məruz qalan Rıjkov, 1990-cı ilin dekabrında səhhəti ilə bağlı vəzifəsindən istefa verdi.

1991-ci ilin yanvarından etibarən hökumətin rəhbəri V.S.Pavlov pul islahatı keçirərək 100 və 50 rublları yeniləri ilə əvəz etmək istədi. Bunun üçün 3 gün qədər qısa müddət verilən Pavlovun planı müddətin azlığına görə uğursuz oldu və bu cəhd xalq arasında narahatlığa səbəb oldu. Digər tərəfdən, həmin hökumətin nəqliyyat, ticarət sahəsində də qiymətləri ikiqat artırması inflyasiyanın artmasına səbəb oldu[86].

Qorbaçovun islahatlarının cəmiyyət həyatının bütün sahələrini əhatə etdiyini artıq qeyd etmişdik. Belə sahələrdən biri də mətbuat idi. Yenidənqurma ilə eyni vaxtda elan edilən islahatlardan biri də aşkarlıq idi. Bu anlayışın da yenidənqurma kimi, 1974-cü ildə Brejnev tərəfindən irəli sürülən, lakin tətbiq edilə bilməyən islahatlardan biri olduğu haqda fikirlər mövcuddur[87]. Bu islahat mədəniyyət xadimləri və xalqa qarşı təzyiqlərin aradan qaldırmasını, hakimiyyət və xalq arasındakı hüquqi uçurumun ləğv edilməsini, demokratikləşməni nəzərdə tuturdu. İctimai, mədəni, incəsənət, hüquq və digər sahələrlə bərabər, aşkarlıq, həm də kütləvi informasiya vasitələrinin və ictimai fikrin müstəqilləşməsinə də təsir edirdi. Bu islahat nəticəsində mətbuat üzərindəki senzura qaldırılmağa başlamış və tənqid azadlığı tətbiq edilmişdir.

Qorbaçovun elan etdiyi bu islahatlar öz partiya komandası və dövlət aparatı tərəfindən mənfi münasibətlə üzləşdi. Planlaşdırılan bu islahatın həyata keçirilməsi üçün Qorbaçov əvvəlcə həmin kadrları digərləri ilə əvəz etdi. L.İ.Brejnevin dövründən etibarən uzun müddət vəzifədə olan, yaşlılardan ibarət bu kadrlar, həm də Brejnevin dövrün-

---

[86] *Baxşəliyev, T. Göst. əsəri, s.700.*
[87] *McNaır, B. Glasnost, Perestroika and the Soviet Media / B.McNaır. - London: Routladge. –1991. – p.43.*

dəki durğunluğun (zastoy) əsas səbəbkarları olaraq görülürdülər[88]. Ümumiyyətlə, L.İ.Brejnevin dövrünü "gerontokratik idarəçilik" dövrü də adlandırırlar ("Gerontokratiya" - yunan dilində "geron"/"yaşlı" və "kratos"/"hakimiyyət, dövlət, güc" deməkdir. Siyasi idarəetmə formasını ifadə edir. Mahiyyət etibarilə, hakimiyyətin yaşlılara məxsus olduğu idarəetmə üsuludur).

Dəyişiklik qərarının ardınca Eduard Şevardnadze (1928-2014) xarici işlər naziri vəzifəsinə, yenidənqurmanın memarlarından olan və xarici siyasət danışıqlarında da iştirak edən Aleksandr Yakovlev (1923-2004) Siyasi Büro üzvlüyünə, Anatoli Çernyayev (1921-2017) Xarici siyasət məsləhətçisi vəzifəsinə, Vadim Medvedyev (1929-...) Sov.İKP Mərkəzi Komitəsinin Sosialist ölkələrinin kommunist və fəhlə partiyaları ilə əlaqələr şöbəsi rəhbərliyinə, Georgi Şahnazarov (1924-2001) isə xarici siyasətdə ikinci məsləhətçi vəzifəsinə gətirildilər[89]. Qorbaçov bildirirdi ki, edilən bu dəyişikliklərdə əsas məqsəd daha konstruktiv sosialist sisteminin qurulması olmuşdur.

Mətbuat azadlığı hüququnun verilməsi nəticəsində senzura tətbiq edilməsinə görə məhkum olunanlar azadlığa qovuşmuş, köçməyə məcbur edilmiş müxalif fikirlilərin vətənə qayıtmaları üçün çağırış edilmişdi. Bu çağırışın xitab etdiyi ən mühüm şəxslərdən biri də fizik, dissident, hüquq müdafiəçisi, 1975-ci ilin Nobel Sülh mükafatı laureatı Andrey Dmitriyeviç Saxarov olmuşdu. M.S.Qorbaçovun səyləri nəticəsində Siyasi Büroda qəbul edilən qərarla A.D.Saxarov və həyat yoldaşı publisist, dissident, hüquq müdafiəçisi Yelena Georgiyeva Bonner (Əlixanyan) 1986-cı ilin sonunda Moskvaya geri qayıtdılar[90]. A.D.Saxarov Sovet ordularının Əfqanıstana göndərilməsinə etirazlarına görə, 1980-cı ilin yanvarında 3 dəfə Sosialist Əməyi Qəhrəmanı adından, bütün dövlət mükafatlarından məhrum edilərək, Moskvadan Qorki şəhərinə sürgün edilmişdi. Onun geri dönməsinə icazə verilməsi SSRİ-də fərqli fikirliliklə mübarizənin başa çatması kimi qiymətləndirildi. Geri döndükdən

---

[88] *Alec, N. Stalinism and After. The Road to Gorbachev, p.177.*
[89] *Brejnevcilere aman yok // Cumhuriyet. – 1987, 5 Şubat. – s.6.*
[90] *Kaşoğlu, A. Liderlerin Sovyeti Devrimden perestroykaya / A.Kaşoğlu. –İstanbul: Çeviribilim yayınları – 2017. –s.266.*

sonra 1988-ci ilin noyabr-dekabr aylarında xaricə səfəri zamanı ABŞ prezidentləri R.Reyqan və C.Buşla, Fransa prezidenti F.Mitteranla, Böyük Britaniyanın Baş naziri M.Tetçerlə görüşmüş; 1989-cu ildə SSRİ Elmlər Akademiyasından SSRİ xalq deputatı seçilmişdi. Həyat yoldaşı Y.Bonner Azərbaycanda özünün ermənipərəst mövqeyi ilə tanınırdı. Hətta Saxarovu da özünün Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı mübarizəsi, Sumqayıt hadisələrində Azərbaycanı günahlandırmaq və s. kimi avantüralarına cəlb etdiyi məlumdur. Sovet-rus fiziki Sergey Kapitsa əbəs yerə demirdi ki, Andrey Saxarov Yelena Bonner tərəfindən "mahiyyət etibarilə siyasi biznesə cəlb edilmişdi"[91].

Aşkarlığa aid digər mühüm nümunə isə 1974-cü ildə "Arxepelaq QULAQ" əsərinə görə sovet hökuməti tərəfindən vətəndaşlıqdan çıxarılan və deportasiya edilən rus yazıçısı, dramaturq, publisist, 1970-ci ildə Ədəbiyyat sahəsində "Rus ədəbiyyatının dəyişməz ənənələrinə əməl etməsinə imkan verən mənəvi gücünə görə" Nobel mükafatı laureatı A.İ.Soljenitsinin geri dönməsi oldu. 1989-cu ildə Qorbaçovun səyi nəticəsində, əvvəlcə kitabının SSRİ-də çap edilməsinə icazə verilmiş, daha sonra isə 1991-ci ildə deportasiya qərarı ləğv edilmişdi[92].

Ümumilikdə, Aşkarlıq siyasəti çərçivəsində ölkədə müxtəlif fikirliliyin müdafiə olunmasına başlanmışdı. Bunun davamı olaraq, 1989-cu ilin payızında Şərqi Avropada meydana çıxan "məxməri inqilablar"dan sonra müxalifət nümayəndəsi olan "Regionlararası Deputatlar Qrupu" 2 dekabr 1989-cu ildə keçirilən II Xalq Deputatları Qurultayında 1977-ci il Konstitusiyasının 6-cı maddəsinin ləğvini tələb etdi. Bu maddədə qeyd edilirdi ki, *"Sovet İttifaqı Kommunist Partiyası sovet cəmiyyətinin aparıcısı və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin, dövlət və ictimai təşkilatlarının əsas nüvəsidir"*[93]. Müxalifətin bu tələbi bir

[91] *Сергей Капица: «Я как белая ворона!» / Санкт-Петербург онлайн фонтанка.ру, 13 июля 2009. [Электронный ресурс] - URL: https://www.fontanka.ru/2009/07/13/078/*

[92] *Volkov, S. Büyülü Koro. Lev tolstoy'dan Aleksandr Soljenitsin'e XX. Rus Kültür Tarihi / S.Volkov. - İstanbul: YKY, - Çeviri: Sabri Gürses, - 2010. - s.260.*

[93] *Кукушкин, Ю.С., Чистяков О.И. Очерк истории Советской Конституции. 2-е изд. Москва: Политиздат, - 1987, - с.319.*

çox mətbuat orqanı və tətil edən mədənçilər tərəfindən də dəstəklənmişdi. Lakin qurultay tələbi rədd etdi[94].

Yenidənqurma islahatları arasında ən mühümlərindən biri də SSRİ-də prezident idarəçilik üsuluna keçilməsi olmuşdur. SSRİ-də prezident idarəçiliyinə keçid məsələsi əvvəllər də bir neçə dəfə gündəmə gəlmiş olsa da (1936, 1962, 1970-ci illərdə), rədd edilmişdi. Bəzi mütəxəssislər (məsələn, Deqtev Q.V., Boqdanov S.V. və b.) bu etirazların əsas səbəbini prezident idarəçilik sistemində hakimiyyət bölgüsünün olması ilə izah edirlər ki, SSRİ-də hakimiyyət bölgüsü qəti olaraq qəbul edilmirdi. Belə ki, SSRİ-də ən yüksək vəzifə sahibi SSRİ Ali Sovetinin sədri hesab olunurdu. Faktiki olaraq isə ölkəni Sov.İKP MK Baş katibi idarə edirdi. SSRİ-də prezident postunun təsis edilməsi 1990-cı ilə aiddir. Belə ki, Qorbaçovun hakimiyyətə gəldiyi 1985-ci ilin dekabr ayında, o zaman Sov.İKP MK Təbliğat şöbəsinin rəhbəri Aleksandr Nikolayeviç Yakovlev ona, hakimiyyət sistemində islahatların əsas konturlarını əks etdirən "Siyasi şüurun imperativləri" adlı analitik qeydləri təqdim etmişdi[95]. Yakovlevin ideyaları həyata keçirilməsə də, bərabərində prezident idarəçiliyinə keçid məsələsini yenidən gündəmə gətirmiş oldu. 1990-cı ilin əvvəllərində Qorbaçovun yaxın ətrafında məsələnin qaçınılmaz olduğu haqqında qızğın müzakirələr gedirdi. Hətta, Qorbaçovun köməkçisi A.S.Çernyayev həmin günlərə aid qeydlərində yazırdı ki, Qorbaçov "*"sosialist ideyalarına sadiq kommunist" imicindən imtina etməyəcəksə, yenidənqurma siyasətində irəliləmə olmayacaq"*[96]. Belə bir şəraitdə, M.S.Qorbaçovun 1990-cı il fevral ayında prezident postunun təsis edilməsinin zəruri olduğunu bildirməsinin ardınca, mart ayının 14-də SSRİ Ali Soveti "SSRİ-də prezident postunun təsis edilməsi və Konstitusiyada (Əsas Qanun) dəyi-

---

[94] *Baxşəliyev, T. Göst. əsəri, s.705.*

[95] *Богданов, С.В. Формирование и развитие института президентской власти в СССР (1990-1991) // Вести Московского Университета, Серия 21, Управление (государство и общество), 2011, №3, с.107-108.*

[96] *Богданов, С.В. Göst. əsəri, s.111.*

şiklik edilməsi haqqında qanun" qəbul etdi[97]. 1990-cı il mart ayının 15-də Xalq Deputatları Sovetinin III qurultayında 1.329 nəfər lehinə, 495 nəfər əleyhinə olmaqla, M.S.Qorbaçov SSRİ prezidenti seçildi[98].

Qurultayda müzakirə edilən mühüm məsələlərdən biri də Konstitusiyanın 6-cı maddəsinin ləğvi ilə bağlı idi. 6-cı maddə ləğv olunmadı, bu formada redaktə edildi: *"Sovet İttifaqı Kommunist Partiyası, digər siyasi partiyalar, habelə həmkarlar ittifaqları, gənclər və digər ictimai təşkilatlar, kütləvi hərəkatlar özlərinin Şuralara seçilmiş nümayəndələri vasitəsilə Xalq deputatları və başqa formalarda Sovet dövlətinin siyasətinin işlənib hazırlanmasında, dövlət və ictimai işlərin idarə edilməsində iştirak edirlər"*[99]. Bununla da, Sov.İKP hakimiyyət üzərində inhisarını itirdi və SSRİ-də o vaxta qədər artıq faktiki mövcud olan çoxpartiyalı sistem qanuniləşdirildi.

Prezident vəzifəsinin təsis edilməsi ilə daha bir dövlət orqanı – "Federasiya Şurası" (Совет Федерации) yaradıldı. M.S.Qorbaçovun *"partiyalı idarəetmə sistemində Sov.İKP MK Siyasi Bürosunun ekvivalenti"* adlandırdığı[100] Federasiya Şurası İttifaq respublikalarının yüksək vəzifəli şəxslərindən ibarət olacaqdı. Səlahiyyətləri:

- İttifaq Müqaviləsinə əməl edilməsinə nəzarət;
- Milli siyasətin həyata keçirilməsi üçün tədbirlərin işlənib hazırlanması;
- Millətlərarası münaqişələrin və mübahisələrin həll üçün tövsiyələrin işlənib hazırlanması;
- İttifaq respublikalarının fəaliyyətinin koordinasiyası və SSRİ Prezidentinin səlahiyyətində olan digər məsələlərin həllində onların iştirakının təmin edilməsi[101].

---

[97] *Закон СССР от 14 марта 1990 г. №1360-I «Об учреждении поста Президента СССР и внесении изменений и дополнений в Конституцию (Основной Закон) СССР». [Электронный ресурс] - URL: https://projects.rusarchives.ru/statehood/09-28-zakon-prezident-sssr.shtml; История современной России.., Ч.1, с.208-214.*
[98] *Горбачев, С.М. Жизнь и реформы. Кн.1, с.489.*
[99] *Yenə orada, s.485.*
[100] *Yenə orada.*
[101] *Богданов, С.В. Göst. əsəri, s.117.*

Lakin həyata keçirilən digər islahatlar kimi, prezident idarəçiliyinə keçilməsi də mövcud problemləri azaltmadı, hətta əksinə yenilərinin meydana çıxmasına səbəb oldu. M.S.Qorbaçovun dedikləri bu fikri bir daha təsdiq edir: *"Qərargahı olan, marşallar və generallarla əhatə olunmuş, lakin ixtiyarında ordu hissələri olmayan bir baş komandan düşünün... III qurultaydan sonra biz təxminən belə vəziyyətdə idik. Prezidentimiz vardı, ştabımız -Federasiya Şurası və Prezident Şurası- vardı, lakin dayağımız yox idi... Prezident idarəçiliyinə keçilməsilə bağlı doğru qərar qəbul etmiş olsaq da, mahiyyət etibarilə bu başlanğıc mərhələdən uzağa gedə bilməmişdik, sonra nə etməli olduğumuz haqda düşünməmişdik..."* [102].

1990-cı ilin iyulunda keçirilən Sovet İttifaqı Kommunist Partiyasının XXVIII qurultayı partiyanın yeni proqramını qəbul etdi və məqsədinin demokratik sosializm qurmaq olduğunu bəyan etdi. Əslində bu, Qorbaçov və onu dəstəkləyənlərin Qərbi Avropadakı sosial demokratlarla yaxınlaşması demək idi. Lakin Sov.İKP-ni parlamentar demokratik partiyaya çevirmək mümkün olmadı. XXVIII qurultaydan sonra bir il ərzində 4 milyon insan Kommunist partiyasını tərk etdi. 1990-cı ilin dekabrında SSRİ Xalq Nümayəndələrinin IV Qurultayında mühafizəkarların köməyi ilə M.S.Qorbaçova yeni adı ilə Nazirlər Şurası adlandırılan hökuməti idarə etmək hüququ verildi. Maliyyə naziri V.S. Pavlov istefa verən N.İ.Rıjkovun əvəzinə Nazirlər Şurasının sədri oldu. M.Qorbaçovun təkidi ilə partiya işçisi olan G.İ.Yanayev yeni təsis edilən sədr köməkçisi vəzifəsinə təyin edildi.

1991-ci ilin yanvarında Ali Sovet SSRİ-nin saxlanması ilə bağlı Ümumittifaq Referendumun keçirilməsini təsdiq etdi. Qorbaçov Sovet İttifaqının bütün respublikalarında yeni ilttifaq müqaviləsinin imzalanması ilə bağlı müzakirələr aparmaq çağırışı etdi. "Nezavisimaya qazeta" 16 noyabr tarixli sayında yazırdı ki, *"M.Qorbaçov 15 mart tarixli telemüraciətində yenidənqurma siyasətinin davamlı olmasının birbaşa referendumun müsbət nəticəsi ilə bağlı olduğunu bildirib və*

[102] *Горбачев, С.М. Жизнь и реформы. Кн.1, с.490.*

*hər kəsi referendumda "hə" cavabını verməyə çağırıb"* [103]. Qorbaçovun çağırışına 9 respublika müsbət cavab verdi. Belə ki, yeni ittifaq müqaviləsi ilə respublikaların hüquqlarının artırılması, iqtisadi baxımdan onlara daha çox hüquq verilməsi, hətta respublikaların "suveren" statusunun tanınacağı vəd edilirdi. Ümumilikdə, yeni ittifaq müqaviləsinin 13 layihəsi hazırlanmışdı ki, bunlardan 7-si, 5-i Mərkəzi Asiya respublikaları olmaqla 7 respublika tərəfindən hazırlanmışdı[104].

17 mart 1991-ci ildə RSFSR, Belarus SSR, Ukrayna SSR, Qazaxıstan SSR, Qırğızıstan SSR, Tacikistan SSR, Türkmənistan SSR, Özbəkistan SSR və Azərbaycan SSR-də Sovet İttifaqının saxlanması barədə referendum keçirildi. 80% iştirakın olduğu referendumda səs verənlərin 77%-i Sovet İttifaqının saxlanmasına səs verdi. Digər altı respublikada isə mərkəzi hökumətlərin səsvermədən imtina etməsinə baxmayaraq, yerli sovet şuraları seçki qutuları yerləşdirdi. Estoniya, Latviya, Litva, Moldova, Gürcüstan və Ermənistan hökumətləri xalqa referendumu boykot etmək barədə çağırış etdilər. Ermənistan və Gürcüstanda boykota iştirak zəif olsa da, digər respublikalarda kifayət qədər iştirak müşahidə edildi. Bu ölkələrdə də ümumi əhval-ruhiyyə ittifaqın saxlanması lehinə idi. Lakin müstəqillik istəyən hökumətlər referendumu qeyri-qanuni elan etdilər. 1991-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının idarəçilik hüququ aradan qaldırıldı. 1991-ci ilin iyununda ilk çoxpartiyalı seçki keçirildi. 19 avqust 1991-ci ildə KQB sədri, bəzi siyasi büro üzvləri və generallar Moskvada çevrilişə uğursuz cəhd etdilər. Çevrilişə cəhddən sonra Qorbaçovun siyasi çöküşü daha da sürətləndi[105]. Çevriliş cəhdi 17 mart 1991-ci ildə keçirilmiş olan

---

*[103] Телеобращение М.Горбачева перед референдумом / «Независимая газета», 16 марта 1991 г., № 33, - с.1. [Электронный ресурс] - URL: https://yeltsin.ru/archive/periodic/53835*

*[104] Ruintən, S., Əlisgəndərli, C. SSRİ Mərkəzi hökumətinin Mərkəzi Asiya və Qafqaz respublikalarına münasibətdə siyasətinin xarakteri haqqında, s.135.*

*[105] Tuncer Kılavuz, İ. Gorbaçov'dan Putin'e Rus Milliyetçiliğinin Gelişimi // -İstanbul: Uluslararası Siyaset Bilimi ve Kentsel Araştırmalar Dergisi, 2019. №7/1, -s.103; Волгин, Е.И. КПСС в контексте политического кризиса 19-21 августа 1991 г. // Вестник Московского Университета, Серия: Политические Науки, 2009, No2, с.26.*

referenduma əsasən 20 avqust 1991-ci ildə imzalanmalı olan yeni ittifaq müqaviləsinin də ləğv edilməsinə səbəb oldu. M.S.Qorbaçov avqust ayının 23-də xalqa müraciətində bildirdi ki, artıq *"gələcək hərəkət planları haqqında respublikaların rəhbərləri ilə danışıb və çox güman ki, müqavilənin imzalanması üçün yeni tarix yaxın vaxtda müəyyənləşdiriləcək. Bundan sonra yeni İttifaq Konstitusiyasının və yeni seçki qanununun qəbul edilməsi, ittifaq parlamentinin və prezident seçkilərinin keçirilməsi lazım gələcək"* [106].

Qorbaçovun dövründə artan sosial, siyasi və iqtisadi böhran zamanı Sovet İttifaqına daxil olan respublikaların tabeliyindəki bəzi muxtar qurumlar da mövcud qarışıqlıqdan istifadə etməyə çalışırdılar. Məsələn, 1988-ci ildən etibarən Qafqazda Ermənistan SSR və Azərbaycan SSR arasında Dağlıq Qarabağ münaqişəsi başlamışdı[107]. Bu münaqişə təkcə Dağlıq Qarabağ bölgəsində qalmayıb, Azərbaycanın ikinci ən böyük sənaye şəhəri olan Sumqayıtda da qarışıqlıq meydana gəlmişdi. Sumqayıt hadisələrindən sonra Qorbaçovun 20 iyul 1988-ci ildə "Kommunist" qəzetində dərc edilən açıqlamasında muxtar bölgələrdə problemlərin olduğunu, bunları qəbul etdiklərini, lakin bu problemlərin Azərbaycanın ərazi bütövlüyünə toxunulmadan həll edilməli olduğunu bildirilirdi. Həmçinin, elan edilən qərarda Azərbaycan-Ermənistan sərhədlərinin və konstitusiya ilə müəyyənləşdirilən ərazi bütövlüyünün dəyişdirilməsinin mümkün olmadığı, bu qərarın SSRİ Konstitusiyasının 78-ci maddəsində öz əksini tapan *"hər hansı sovet respublikasının özünün razılığı olmadan sərhədləri dəyişdirilə bilməz"* müddəasına əsaslandığı ifadə edilirdi[108]. Verilən açıqlamalar və sakitləşdirmə cəhdləri nəticəsiz qalmış, Ermənistan SSR Ali Şurası yekdilliklə

---

*[106] Заявление М.С.Горбачева по советскому телевидению 22 августа 1991 года // Известия, № 201 [23467], 23 августа 1991 года, с.1-2. [Электронный ресурс] - URL: https://yeltsin.ru/archive/periodic/53659*

*[107] Sarıahmetoğlu, N. Karabağ / N.Sarıahmetoğlu. - İstanbul: IQ Kültür Yayıncılık – 2011. – s.52-53; Tuncerli, Ö. Dağlık Karabağ Sorunu Kapsamında 1988 Sumgayıt Olayları // - Ankara: Ulisa: Uluslararası Çalışmalar Dergisi, 2019. №3/2, - s.137.*

*[108] Özsoy, B., Baş Aydemir F.B. Küresel Çözümsüzlükten Vatan Muharebesine: Dağlık Karabağ'da Minsk Grubu'nun Rolü Üzerine Bir Değerlendirme // - Isparta: Süleyman Demirel Üniversitesi Vizyoner Dergisi (Vizyoner), - 2022. - № 13/33, – s.145.*

Dağlıq Qarabağın Ermənistana birləşdirildiyini bəyan edərək gərginliyin daha da artmasına səbəb olmuşdur. Bu qərarlardan sonra ermənilər silahlanaraq hücumlara başlamışlar. Bölgədə sakitliyi təmin etməkdə uğursuz olan sovet hökumətinin Dağlıq Qarabağı birbaşa Moskvaya tabe etməsi vəziyyəti daha da gərginləşdirdi. Baş verən hadisələr qarşısında Azərbaycan Xalq Cəbhəsi və işğala etiraz edən qruplar mitinqlər təşkil edərək Azərbaycanın ərazi bütövlüyünün qorunmasını tələb etmiş, dəmiryol xətlərini məhv edərək Ermənistan və Gürcüstanla quru yolu əlaqəsini kəsmişdilər[109]. Bakıdakı mövcud gərginliyə görə Moskva rəhbərliyi Sovet Ordusunu Bakıya göndərmiş, yanvarın 19-dan 20-nə keçən gecə Bakıda hərbi vəziyyət elan etmiş və ordu hissələri Bakıya daxil olaraq mülki əhaliyə hücum etmişdir[110]. Rəsmi məlumatlara görə, sovet ordusunun hücumu nəticəsində 131 nəfər həlak olmuş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdü[111]. Hadisənin ardınca həyatını itirənlər üçün Azadlıq meydanında anım mərasimi təşkil edilmiş və ölənlər hazırda Şəhidlər Xiyabanı (Dağüstü Park) adlanan yerdə dəfn edilmişdir[112]. Ümumilikdə isə, Ermənistanın iddiaları nəticəsində Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra iki dövlət arasında müharibəyə çevrilərək 1994-cü ilə qədər davam etmişdir[113] ki, bu müharibə Azərbaycan tarixi, siyasi ədəbiyyatlarında I Qarabağ müharibəsi adlandırılır.

---

[109] *Özyılmaz, E.V. Geçmişten günümüze Dağlık Karabağ // Ankara: Gazi Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 2013. – № 15(2), – s.200.*

[110] *Aydemir, F.B. Azerbaycan'da 20 Yanvar (Qara Yanvar) Katliamı ve Türk Yurdu Dergisi // Bakı: Bakı Universitetinin Xəbərləri, 2020. № 4, - s.147; Çevikel, Ş., Baş Aydemir, F.B. Azerbaıjan-Russıa Relatıons In The Perıod From The Fırst Karabakh War To The Vıctory In The Second Karabakh War // Bakı: Sivilizasiya Bakı Avrasiya Universiteti, 2022. 11№ 2, - p.64.*

[111] *Azərbaycan tarixi. VII cild, s.212.*

[112] *Bayrakdar, O., Aydemir Baş, F.B., Çevikel, Ş. Ulus Kent Kimliğinin Oluşumunda Meydanların Rolü Üzerine Bir Değerlendirme: Bakü Örneği // Eskişehir: Genel Türk Tarihi Araştırmaları Dergisi, - 2022. № 4, - s.947.*

[113] *Yalçınkaya, A. Kafkasya'da siyasi gelişmeler / A.Yalçınkaya. - İstanbul: Lalezar Kitabevi - 2006. – s.134; Çevikel, Ş., Baş Aydemir, F.B. Azerbaıjan-Russıa Relatıons In The Perıod From The Fırst Karabakh War..., s.64.*

1985-1991-ci illərin islahatları çərçivəsində *mətbuat sahəsində də dəyişikliklər* baş verməkdə idi. Ümumilikdə SSRİ-də mətbuat sovet ideologiyasını təbliğ və təşviq edən əsas orqan idi. Bütün yaşlar üçün xüsusi qəzet və jurnallar (məsələn, "Pravda" ("Правда"), "Komsomolskaya pravda" ("Комсомольская правда"), "Pionerskaya pravda" ("Пионерская правда"); həyatın bütün sahələri üzrə xüsusi jurnallar (məsələn, "Elm və həyat" ("Наука и жизнь"), "Sovet idmanı" ("Советский спорт"), "Kino" ("Кино") və b.) nəşr edilirdi. 1912-ci ildən nəşr edilən "Pravda" qəzeti Kommunist partiyasının mərkəzi orqanı (nəşrinə başlandığı zaman, Rusiya Sosial Demokrat Fəhlə (bolşevik) Partiyasının – RSDFP(b)), sonralar ən nüfuzlu sovet nəşri, ümumittifaq qəzeti idi. Onun ilk nömrəsinin nəşr edildiyi 5 may günü SSRİ-də "Mətbuat günü" kimi qeyd edilirdi. SSRİ-nin xaricdə təbliği məqsədilə də bir sıra qəzet və jurnallar nəşr edilirdi (məsələn, 80-ci illərin sonlarında 21 xarici dildə nəşr edilən "Sovet İttifaqı" ("Советский Союз") jurnalı, "Yeni zaman" ("Новое время"), "Beynəlxalq həyat" ("Международная жизнь"), "XX əsr və dünya" ("XX век и мир") siyasi jurnalları; "Sovet hərbi icmalı" ("Совесткое военное обозрение"), "Sovet qadını" ("Советская женщина") jurnalları). Respublikalarda yerli qəzet və jurnallar nəşr etdirilirdi (məsələn, "Sovet Azərbaycanı", "Sovet Özbəkistanı" və b.). Eyni zamanda SSRİ-də oxunan xarici mətbuat orqanları da mövcud idi ki, bunlar əsasən sovet ideologiyasına zidd olmayan qəzet və jurnallar idilər (əsasən sosialist ölkələrinin mətbuatı)[114].

Ümumilikdə, SSRİ-də hər zaman mətbuata böyük əhəmiyyət verilmişdir, lakin yenidənqurma illərində bu marağın daha da artdığı müşahidə olunurdu. Aşkarlıq islahatının təsiri ilə, xüsusilə də, 1990-cı il avqust ayının 1-də senzuranın ləğvindən və "partiyasızlaşdırılma"dan sonra daha çox tənqidi yazıların nəşr edilməsinə başlanmışdı[115].

SSRİ daxilindəki problemlərlə bağlı yazılar dərc edən "Oqonyok" ("Огонёк") jurnalı, "Moskva xəbərləri" ("Московские новос-

[114] *Печать в СССР в 1985 году. Статистический сборник. Москва, «Финансы и статистика», - 1986, - 311 с.; Печать в СССР в 1990 году. Статистический сборник. Москва, «Финансы и статистика», - 1991, - 284 с.*
[115] *История современной России.., Ч.1, с.357.*

ти”), “Ədəbiyyat qəzeti” (“Литературная газета”) nəşrləri getdikcə daha böyük kütlə tərəfindən oxunmağa başlanmışdı. 1989-cu ildə “Arqumentlər və faktlar” (“Аргументы и факты”) qəzetinin nəşri 30 milyon nüsxəyə çatmış, Ginnesin rekordlar kitabına düşmüşdü. 1990-cı ildə “Mətbuata dair” qanunun qəbul edilməsilə[116] müstəqil kütləvi informasiya vasitələrinin yaranması sürətlənmiş, yeni qəzet və jurnalların nəşr edilməsinə, televiziya verilişlərinin yayımlanmasına başlanmışdı (məsələn, “Nezavisimaya qazeta” (“Независимая газета”), “Stolitsa” (“Столица”) jurnalı, “Vesti” (“Вести”) proqramı və s.). Beləliklə, mətbuatın müxtəlif fikir və ideologiyalardan bəhs edə biləcəyi azad mühit yaranmışdı. Stalinin şəxsiyyətinə pərəstişin səbəblərini, zülmkar idarəçiliyi tənqid edən yazılar dərc olunmağa başlanmışdı. 1987-ci ildə repressiya qurbanlarına bəraət verilməsi üçün komissiya yaradılmış, 1930-1950-ci illər arasında repressiyaya uğrayanlara bəraət verilmişdi[117]. Əvvəllər dərc edilməsi qadağan edilən arxiv sənədləri nəşr edilməyə başlanmış, sovet tarixi işıqlandırılmağa çalışılmışdır. Əvvəllər dərc edilməsinə icazə verilməyən N.İ.Buxarin və L.D. Trotskinin əsərləri nəşr edilmişdir. 1987-ci ilin yanvarında Sov.İKP MK-nın plenumunda Qorbaçovun aşkarlıqın daha da genişləndirilməsinə dair çıxışından sonra daha çox tənqidi məqalələr nəşr edilməyə başlanmışdı[118]. Bu qərardan sonra D.S.Merejkovski, V.V.Nabokov, V.F.Xodaseviç, A.P.Platonov, B.A.Pilnyak, V.A.Şalamov kimi mühacirət və repressiyaya məruz qalan yazıçıların əsərləri çap edilmişdir.

Aşkarlıq siyasətinin təsiri ilə atılan bu addımlar sovet təzyiqinin azalmasına dair sübut olmaqla yanaşı, yenə də tamamilə müstəqilliyə qovuşmaq məsələsi demək deyildi. Belə ki, M.S.Qorbaçov çıxışlarında qeyd edirdi ki, “*söz azadlığından, aşkarlıqdan danışsaq belə, burjua təbliğatı, “psixoloji müharibə” məsələlərini də unutmamaq lazımdır. Unutmamaq lazımdır ki, “psixoloji müharibə” – insanların dünyagörüşü, baxışları, düşüncələri, mənəvi, sosial dəyərləri uğrunda*

[116] *Yenə orada, s.358.*

[117] *Baxşəliyev, T. Göst. əsəri, s.702.*

[118] *Полынов, М.Ф. М.С.Горбачев и новое политическое мышление: истоки, основные идеи, результаты // НИР. 2012. №2 (4). - с.142.*

*mübarizə deməkdir. Sinfi düşmənlərimiz sosializmə nifrət edənlərin müasir texniki vasitələrlə təchiz edilmiş nəhəng təbliğat aparatını yaradıblar. Bu baxımdan, ideoloji diversiyaların qarşısını almağa, sosializm haqda, sosialist həyat tərzi haqda gerçəkləri qoruyub saxlamağa hazır olmaq lazımdır ... Lakin bizim kütləvi informasiya vasitələrimiz təbliğat məsələlərində mövcud imkanlarından tam istifadə edə bilmirlər"*[119].

Ümumilikdə, bəzi ümumittifaq səviyyəli qəzet və jurnallarla bağlı 1990-cı il məlumatlarını nəzərdən keçirsək, yenidənqurma illərində mətbuat sahəsində və əhalinin mətbuata münasibəti ilə bağlı baş verən dəyişiklikləri aydın şəkildə görmək mümkündür:

*Cədvəl 1.*

<table>
<tr><th colspan="2">Tirajı azalan qəzet və jurnallar</th><th colspan="2">Tirajı çoxalan qəzet və jurnallar</th></tr>
<tr><th>Orqanın adı</th><th>Tiraj</th><th>Orqanın adı</th><th>Tirajı</th></tr>
<tr><td>"Pravda" qəzeti</td><td rowspan="4">40%-ə qədər azalmışdı</td><td>"Arqumentı i faktı" qəzeti</td><td>31,5 mln</td></tr>
<tr><td>"Kommunist" jurnalı</td><td>"Komsomolskaya pravda" qəzeti</td><td>20,3 mln</td></tr>
<tr><td>"Aqitator" jurnalı</td><td>"Trud" qəzeti</td><td>20 mln</td></tr>
<tr><td>"Politiçeskoye samoobrazovaniye" jurnalı</td><td>"İzvestiya" qəzeti</td><td>9,4 mln</td></tr>
<tr><td></td><td></td><td>"Literaturnaya qazeta"</td><td>4,2</td></tr>
<tr><td></td><td></td><td>"Oqonyok" jurnalı</td><td>4 mln</td></tr>
<tr><td></td><td></td><td>"Novıy mir" jurnalı</td><td>2,7 mln</td></tr>
</table>

*Mənbə: История современной России: Документы и материалы (1985–1999), Ч.1, с.358.*

[119] *История современной России.., Ч.1, с.339-340.*

Cədvəldən də göründüyü kimi, Mərkəzi hökumətin əsas təbliğat orqanı olaraq tanınan nəşrlərin oxunması azalmış, əvəzində, müxalif düşüncəli, tənqidi yazıların dərc edildiyi nəşrlərə tələbat artmışdı.

1985-1990-cı illərdə bütünlükdə SSRİ-də Mərkəzi Asiyanın türk xalqlarının dillərində nəşr edilən qəzet və jurnallar sahəsində vəziyyətin necə dəyişdiyini aşağıdakı cədvəllərdən görmək mümkündür.

*Cədvəl 2.*

İslahatların başladığı 1985-ci ildə nəşr edilən
qəzet və jurnal sayının 1990-cı illə* müqayisəsi

| | 1985 | | 1990 | |
|---|---|---|---|---|
| | Qəzet / illik tiraj (min n.) | Jurnal / illik tiraj (min n.) | Qəzet / illik tiraj (min n.) | Jurnal / illik tiraj (min n.) |
| Ümumilikdə SSRİ-də | 8.407 / 43.370.210 | 1.524 / 2.640.634 | 8.415 / 47.743.687 | 1.631 / 3.057.549 |
| Özbək dilində | 204 / 819.849 | 32 / 5.265 | 11 / 50.658** | 38 / 133.577 |
| Qazax dilində | 175 / 336.785 | 32 / 2.228 | 198 /385.259 | 34 / 25.955 |
| Qırğız dilində | 62 / 139.578 | 15 / 635 | 71 /160.366 | 17 / 10.891 |
| Türkmən dilində | 56 / 146.827 | 9 / 438 | 55 /161.115 | 16 / 11.775 |

*Mənbə: Печать в СССР в 1985 году; Печать в СССР в 1990 году.*

** Artıq qeyd etdiyimiz kimi, SSRİ mətbuatının 1991-ci illə bağlı statistik məlumatlarını əldə etmək mümkün olmadığına görə, müqayisə 1990-cı ilə görə aparılmışdır.*

*** Mənbələrdə 1990-cı ildə Özbəkistanda nəşr edilən qəzetlər haqqında məlumata rast gəlinmir. Bu cədvəldə göstərilən rəqəm bütünlükdə SSRİ-də özbək dilində nəşr edilən qəzetlərin sayını göstərir.*

*Cədvəl 3.*

1985 və 1990-cı illərdə ümumilikdə SSRİ-də və
Mərkəzi Asiyanın türk respublikalarında nəşr edilən qəzetlərin sayı

| | 1985 | 1990 |
|---|---|---|
| Ümumilikdə SSRİ-də | 8.427 | 8.434 |

| | | |
|---|---|---|
| Qazaxıstan | 449 | 496 |
| Qırğızıstan | 111 | 128 |
| Özbəkistan | 286 | -* |
| Türkmənistan | 69 | 72 |

*Mənbə: Печать в СССР в 1985 году, c.62; Печать в СССР в 1990 году, s.62.*
** Mənbələrdə 1990-cı ildə Özbəkistanda nəşr edilən qəzetlər haqqında məlumata rast gəlinmir.*

*Cədvəl 4.*

1990-cı ildə ümumilikdə SSRİ-də və Mərkəzi Asiyanın türk respublikalarında nəşr edilən müxtəlif səviyyəli qəzetlərin sayı

| | SSRİ / 1 dəfəlik tiraj (min n.) | Qazaxıstan / tiraj (min n.) | Qırğızıstan / tiraj (min n.) | Özbəkistan / tiraj (min n.) | Türkmənistan / tiraj (min n.) |
|---|---|---|---|---|---|
| Cəmi | 8.434 / 225.064 | 496 / 6.754 | 128 / 1.622 | - | 72 / 1.183 |
| Ümum-ittifaq | 43 / 110.810 | - | - | - | - |
| Respublika | 159 / 30.742 | 17 / 1.937 | 10 / 796 | - | 8 / 665 |
| Vilayət | 329 / 25.266 | 40 / 2.351 | 5 / 202 | - | 6 / 158 |
| Muxtar respublika və vilayət | 97 / 4.281 | - | - | - | - |
| Şəhər | 803 / 24.639 | 26 / 615 | 3 / 229 | - | 5 / 82 |
| Rayon | 2.853 / 18.735 | 284 / 1.251 | 58 / 313 | - | 41 / 223 |

*Mənbə: Печать в СССР в 1985 году; Печать в СССР в 1990 году.*
*Qeyd: 1) 1990-cı il məlumatlarında Özbəkistan Respublikasında qəzet nəşri ilə bağlı məlumat verilməyib. 1989-cu il məlumatına görə, Özbəkistanda 6.593 nüsxə tirajla 279 qəzet nəşr edilmişdi;*
*2) 1990-cı ildə Qazaxıstanda əhalinin hər 100 nəfərinə 40, Qırğızıstanda 37, Türkmənistanda 32 qəzet düşürdü.*

Yuxarıdakı cədvəllərə baxdığımızda, islahatların başladığı 1985-ci illə müqayisədə 1990-cı ildə mətbuat orqanlarının sayının artdığını görmək mümkündür. Qəzet və jurnalların, eyni zamanda bədii, tarixi, siyasi ədəbiyyatların nəşri sahəsində baş verən dəyişikliklər isə ümumilikdə ictimai-siyasi fikrin formalaşmasına, milli kimlik məsələlərinin bir daha gündəmə gəlməsinə səbəb oldu.

## 1.2. Mərkəzi Asiyanın türk respublikalarında ictimai-siyasi, iqtisadi vəziyyət

*Qazaxıstan.* 1985-ci ilin mart plenumundan sonra digər ittifaq respublikalarında olduğu kimi Qazaxıstanda da qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi istiqamətində qərarlar qəbul edildi: özünüidarə və özünümaliyyələşdirmə ilə bağlı proqramlar hazırlandı, respublikanın siyasi və iqtisadi sahələrdə müstəqilliyinin təmin edilməsinin vacibliyi məsələləri elan edildi. Lakin bütün bunlara baxmayaraq, respublikada vəziyyət, ümumilikdə ölkənin hər yerində olduğu kimi, böhranlı olaraq qalmaqda idi. Respublikanın vəziyyətini daha da ağırlaşdıran bir məqam isə, SSRİ xalq təsərrüfatı sistemində ona daha çox xammal bazası kimi baxılması idi. Hətta islahatlar dövründə də davam etdirilən siyasətin nəticəsində vəziyyət getdikcə ağırlaşırdı. Nəticədə, 1989-cu ildə respublikada əkilən taxılın yarısı, ətin 1/3-i, istehsal olunan xam neftin 90%-i, kömür və qara metal filizlərinin ¾-ü, əlvan metallar və ərintlərin 2/3-si çox aşağı qiymətlərlə mərkəzə daşınırdı. İstifadə etdiyi yüngül sənaye və dəmir yolu nəqliyyatı üçün avadanlıqların 95%-ə qədərini, metal kəsən dəzgahların 2/3-ni, hətta trikotaj və pambıq parçalarının 45%-ni, bütün avtomobilləri, kənd təsərrüfatı maşınlarını, məişət texnikasını və əksər istehlak mallarını idxal etmək məcburiyyətində qalan Qazaxıstan, Mərkəzi hökumətin düzgün olmayan siyasəti nəticəsində dotasiya hesabına yaşayan respublika vəziyyətində qalmaqda idi[120].

[120] *Назарбаев, Н.А. Избранные речи. Том 1. 1989-1991 гг. Астана, ИД «Сарыарка», - 2009, - с.13.-14.*

Qazaxıstan həmçinin, SSRİ hökuməti tərəfindən açıq etiraf edilən narazılığın baş verdiyi ilk respublika olaraq bilinməkdədir. Belə ki, 16 dekabr 1986-cı ildə Qazaxıstan Kommunist Partiyası MK-nin plenumunda Birinci katib Dinməhəmməd Əhməd oğlu Kunayev vəzifəsindən azad edilərək, yerinə Gennadi Kolbin seçilmiş[121], Qazaxıstanın idarəçiliyi məsələsi Mərkəzi hökumət tərəfindən Moskvanın iradəsi ilə həll olunmuşdu. Qeyd edək ki, bir çox araşdırmalarda müasir Qazaxıstanın formalaşmasında Dinməhəmməd Əhməd oğlu Kunayevin (Dinmuxammed Axmedulı Konaev) rolu böyük olduğu qeyd edilir. Həmçinin bildirilir ki, qazax türklərinin, o cümlədən Qazaxıstanın sonrakı inkişafında mühüm rol oynamış Nursultan Nazarbayevin də ölkə idarəçiliyində, kommunist partiyası rəhbərliyində iştirak etmələrini təmin edən şəxs məhz Kunayev olmuşdu[122]. Bu yanaşma ilə bağlı bir də M.S. Qorbaçovun fikirlərinə baxarsaq, fərqli mənzərə ilə rastlaşarıq. Belə ki, Qorbaçov xatirələrində yazır ki, *"... əvvəllər Kunayevin Nazarbayevə münasibəti yaxşı olub, hətta onu himayə edib. Lakin əvvəllər "borclu qalmayan" Nazarbayev, sonradan daha çox müstəqil olmağa cəhd göstərib. Bundan başqa, respublikada böyük həcmdə qanunsuz xərclərin, xüsusilə də valyuta xərclərinin olduğunu aşkar etdikdən sonra Birinci şəxs üçün təhlükəyə çevrilib. Nəticədə, 1985-ci ildə Kunayevin "respublikada narahatlıq yaradanlarla" bağlı şikayətləri çoxalmışdı və o, mənimlə görüşmək istəyirdi. Şikayətlərində bildirirdi ki, Qazaxıstan MK Siyasi Bürosundakı vəziyyət hakimiyyətə gəlmək istəyən Baş nazir Nazarbayevin intriqalarının nəticəsində yaranmışdır. Hətta onun çox təhlükəli olduğunu bildirərək, Moskvaya ya da Xarici İşlər nazirliyi xətti ilə ölkədən xaricə göndərilməsini təklif edirdi ... mən ona bildirdim ki, Qazaxıstan MK-nın bir qrup üzvü ilə görüşmü-*

*[121] Кан, Г.В. История Казахстана. - Алматы: Алматыкітат баспасы, - 2011. - с.221; Ханова, И.Е. Республика Казахстан. Очерк политической и экономической истории, Труды Института постсоветских и межрегиональных исследований. Москва, 2019. № 2. - с.233.*
*[122] Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri, s.22; Cummings, S. Power and Change in Central Asia / S. Cummings. - London and New York: Routledge. – 2002. – p.60.*

*şəm, onlar hesab edirlər ki, siz ciddi səhvlərə yol verirsiz ... belə vəziyyətdə, söhbət Qazaxıstan MK Siyasi Bürosu üzvlərinin də iştirakı ilə keçiriləcək Siyasi Büroda davam etdirilməlidir. Belə olduqda, Kunayev "lazım deyil, gedəcəyəm" deyə cavab verdi... mən isə "indiki şəraitdə bu, düzgün addım olar, müdriklik edərsiz" dedim və onun vəzifəsinə kimin gətirilməsini məsləhət gördüyünü soruşdum. ... Kunayev nə Kamalidenovun, nə Auelbekovun, nə də Nazarbayevin adını çəkmədi, hətta "Mixail Sergeyeviç, indi yerli qazaxlardan kimsə gətirilə bilməz. Mövcud çətin şəraitdə Birinci katib vəzifəsinə rus təyin edilməlidir" deyə cavab verdi"*[123]. Qorbaçov hesab edir ki, beləliklə Kunayev Nazarbayevin təyinatına mane olmaq istəmişdir. Sonradan Sov.İKP MK Siyasi Bürosunda G.V.Kolbinin namizədliyi üzərində dayanılır, Qazaxıstan KP Siyası Bürosu da bu qərarla razılaşır. Lakin hadisələrin sonrakı gedişi bu qərarın səhv olduğunu göstərdi.

Kolbinin təyin edilməsinin səbəbi, Ulyanovsk Partiya Vilayət Komitəsində Birinci katib vəzifəsini icra edərkən qeyri-rus millətlərlə birgə işləməsi və bu sahədə təcrübəsinin olması idi. Lakin bu dəfə vəziyyət fərqli oldu. Qazax türkləri uzun müddət hakimiyyətdə olan qazax əsilli D.Ə.Kunayevin əvəzinə yenə qazax əsilli idarəçinin seçiləcəyinə ümid edirdilər. Bəzi araşdırmaçılara görə, problem hətta Kolbinin rus olması deyil, Qazaxıstandan kənar şəxsin hakimiyyətə gətirilməsi idi[124].

Qazax dilində dekabr ayı mənasını verən "Jeltoksan" və ya Alma-Ata hadisələri başlayanda, etirazçıların Kommunist Partiyası Mərkəzi Komitəsinə göndərilən məktublarında və mitinqlərdə nümayiş etdirdikləri pankartlarda "*Kolbin, Rusiyaya qayıt*", "*Qazaxıstan qazaxlarındır*" kimi şüarlar öz əksini tapmışdı. Nümayişçilər qazax Nazarbayevlə yanaşı Qazaxıstanda vəzifədə olan V.Demidenko və N.Morozov kimi rus əsilli siyasətçilərin adlarını da yazaraq, onlardan birinin seçilməsini uyğun hesab etdiklərini də dilə gətirirdilər. 17-18 dekabrda təşkil edilən nümayişlərdə gənclər "*Yenidənqurma təhrif edilir, de-*

---

*[123] Горбачев, С.М. Жизнь и реформы. Кн.1, с.497-498.*

*[124] Aydemir Baş, F.B.; Çevikel, Ş. Bağımsızlık Yolunda Azerbaycan ve Orta Asya'daki Kitlesel Hareketler // Bakı: Tarix və onun problemləri, 2022 № 1 - s.199; Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri, s.58-59.*

*mokratiya haradadır?"* kimi pankartlar nümayiş etdirərək, islahatlar nəticəsində bu etirazları etmə hüquqlarının olduğunu bildirirdilər. 16 dekabr günortadan sonra 15:00 radələrində, Kolbinin seçildiyi elan olunandan sonra toplaşmağa başlayan gənclərin sayı ertəsi gün daha da artaraq, etirazlarına davam etdilər. D.Kunayev Qazaxıstan KP MK-nə çağrılaraq, ondan etirazçılarla danışaraq onları sakitləşdirməsi istəndi, lakin qısa müddət sonra bu qərardan imtina edib onu evinə göndərdilər. Sonra isə Qorbaçovun Kunayevə zəng edərək etirazları onun təşkil edib etmədiyini soruşması etirazların təşkilatçısının Kunayev olduğunu fikirləşdiklərindən xəbər verir. Kunayev Qorbaçova etirazçılar haqqında bir şey bilmədiyini söyləmiş, Qorbaçov isə cavabında lazımi tədbirlər görülərək etirazların yatırılacağını bildirmişdi. Tezliklə etirazların sərt şəkildə yatırılmasına cəhd edilməsi yeni tətbiq edilən islahatların həyata keçirilməsində problemlərin olduğunu göstərirdi. Hadisələrə müdaxilə edilmədən əvvəl nümayişçilərlə danışmaq üçün Qazaxıstan KP MK üzvlərindən ibarət qrup (Mendibayev, Nazarbayev ve Mukaşev) meydana göndərildi. Nümayişçilərin tələbləri dinlənildi, onların istəklərini bildirmələri zamanı hər hansı mənfi münasibətə rast gəlinmədi. Meydana toplaşan insanlar «nəyə görə yerli bir rəhbər seçilmədi?» sualını verirdilər, lakin demək olar ki, bu sualın cavabını oraya gələn KP MK üzvləri də bilmirdilər[125]. Burada qeyd edək ki, bu məsələyə münasibət heç o zamanki sovet rəhbərliyi sıralarında da birmənalı olmamışdı[126]. Azərbaycanlı araşdırmaçı İ.Məmmədov o zaman SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini olmuş Heydər Əliyevin məsələyə münasibətindən bəhs edərək yazır ki, "... *Kremldə müsəlman və türk dünyasından söhbət gedərkən ... heç kimə əhəmiyyət vermədən müstəqil fikrini söyləyən Heydər Əliyev Qazaxıstanda rəhbərlik dəyişdirilərkən, Qazaxıstana rus yox, qazax rəhbərlik etməlidir fik-*

---

[125] *Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri, s.58-59; yenə onun. Almaatada 1986 Aralık Olayları: Jeltoksan, s.422.*

[126] *Məmmədov, İ.M. Türk dünyasının böyük oğlu, s.14-17; Казиев, С.Ш. Перестройка и кризис национальных отношений в Казахстане (1985-1991 гг.) // Вестник Томского государственного университета. История. 2015. № 3 (35). с.59.*

*rini söyləmiş və bu fikirdə qəti dayanmışdır ... özü də başa düşürdü ki, Siyasi Büroda tək qalacaq, yenə də öz fikrindən dönmürdü"*[127].

17 dekabr səhər saatlarından dinc formada davam edən etirazlara axşam müdaxilələr edilməyə başlandı. Yanğınsöndürən maşınların izdihamın üzərinə hərəkət etməsilə çaxnaşma baş vermiş, tələbələr cavab olaraq avtomobillərə od vurmuş və müqavimət göstərmişdilər. Gecə saatlarında güc tətbiq edilərək bölgədəki nümayişlər dağıdılmış, nəticədə yaralanan və ölənlər olmuşdu. Həmin gecə Moskvadan Sov.İKP MK, Daxili İşlər Nazirliyi, MTN və SSRİ prokurorluğundan göndərilən bir qrup vəzifəlidən Alma-Ataya gələrək hadisəni araşdırmaları tələb olunmuşdu. Bu etirazlar Alma-Ata ilə yanaşı Qazaxıstanın digər şəhərləri olan Cazkazqan, Karaqandı, Taldıkorqan, Arkalık, Kökşetav, Sarıözək, Talqar, Pavlador və Çimkənddə də baş vermişdi, lakin bu şəhərlərdə hadisələr Alma-Atadakı qədər güclü olmamışdır[128]. 18 dekabrda nümayişlər davam edərkən təhlükəsizlik qüvvələri güc tətbiq edərək etirazları yatırmağa çalışmış, bu zaman bir çox insan yaralanmışdır. 1987-ci ilin iyulunda Sov.İKP MK-də Alma-Ata hadisələri müzakirə edilərkən, qazax xalqı "millətçilikdə" ittiham olunmuş, bundan sonra yerli kadrlardan məsələyə fərqli mövqe nümayiş etdirənlərin əleyhinə kampaniya aparılmasına başlanmışdı[129].

Həmin ərəfədə Qazaxıstan MK-da keçirilən iclasdan sonra komissiya tərəfindən verilən bəyanatda bu nümayişləri təşkil edənlərin narkoman və sərxoşlardan ibarət olması kimi həqiqəti əks etdirməyən açıqlamalar verilmişdi. Hadisələrdən sonra rəsmi olaraq 3 ölü və 200-ə qədər yaralının olduğu bildirilmişdi[130]. Lakin M.Alaşbek 15 tələbə, 7 polis və yüzlərlə digər yaralının olması barədə yazır[131]. Müxtəlif mənbələrdə müxtəlif rəqəmlərə rast gəlinməsi, rəsmi rəqəmlərin həqiqəti əks etdirməsi barədə şübhə yaradır. Alma-Ata hadisələrindən sonra bir il ərzində Daxili İşlər Nazirliyi 58 naməlum şəxsi dəfn etmişdir. Onların

---

[127] *Məmmədov, İ.M. Türk dünyasının böyük oğlu, s.16.*
[128] *Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri, s.63.*
[129] *Назарбаев, Н.А. Избранные речи. Том 1. 1989-1991 гг., с.16.*
[130] *Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri, s.76.*
[131] *Alaşbek, M. Kazakistan'da İsyan // Ankara: Türk Yurdu, – 1987. № 8, - s.58.*

Alma-Atadakı hadisələr zamanı ölməsi təxmin edilmiş, lakin sübut edilməmişdir. Hadisələrdən sonra 2 ay müddətində Alma-Ataya giriş məhdudlaşdırılmış, ona görə də hadisələr barədə məlumat əldə etmək istəyən xarici jurnalistlər və mətbuat nümayəndələri yalnız 2 ay sonra, 19 fevral 1987-ci ildə şəhərə giriş üçün icazə veriləndən sonra Alma-Ataya daxil olmuşdular. Qərb jurnalistləri şəhərə daxil olduqda artıq etirazlara qoşulan nümayişçilərin çoxu həbs edilmişdi. Belə vəziyyətdə hadisələrin baş verdiyi prosesə dair məlumat əldə etmək çətin olmuşdur. Həm də, bu hadisələrin araşdırılmasına Moskva rəhbərliyi və G.Kolbin mane olmuş, hadisələrin araşdırılması 1989-cu ildə G.Kolbinin vəzifədən istefa verməsindən sonra mümkün olmuşdur[132].

Daha əvvəl qeyd olunduğu kimi, 1989-cu ildə SSRİ-nin daxilində meydana çıxan dəyişikliklərin ardınca SSRİ Xalq Nümayəndələri Məclisi qurulmuş və həmin il seçkilər keçirilmişdi. Bu məclisə Qazaxıstandan seçilən millət vəkilləri arasında qazax ziyalılarından olan Muxtar Şahanov və Oljas Süleymanov da var idi. Həmin dövrdə məclisin iclasları televiziyada birbaşa göstərilirdi. Muxtar Şahanov da bu vəziyyətdən istifadə edərək məclisin iclasında Alma-Ata hadisələrini gündəmə gətirərək araşdırılmasını və həqiqətlərin ortaya çıxarılmasını tələb etmişdir. Onun tələbini birbaşa göstərilən iclas zamanı dilə gətirməsi Qorbaçov və Kolbini narahat etmişdir[133]. Buna baxmayaraq M.Şahanovun bu tələbi, G.Kolbinin Qazaxıstan MK Birinci katibi vəzifəsindən ayrılaraq Moskvaya göndərilməsindən sonra, 22 iyun 1989-cu ildə N.Nazarbayevin Qazaxıstan Kommunist Partiyası rəhbərliyinə gəldikdən sonra həyata keçirilmişdir[134]. Belə ki, Qazaxıstan Kommunist partiyasının Birinci katibi vəzifəsinə seçilmiş Nursultan Nazarbayevin qarşısına qoyduğu əsas məsələlərdən biri, Sov.İKP MK-nın "qazax millətçiliyi" haqqında 1987-ci il iyul tarixli qərarın dəyişdirilməsi oldu. 1989-cu il sentyabr ayının 19-da Moskvada Sov.İKP MK-nın

---

[132] *Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri, s.74.*
[133] *Yenə orada, s.124.*
[134] *Başaran, D. Jeltoksan Ayaklanması ve Bu Ayaklanmanın Kazakistan'ın Bağımsızlığındaki Rolü // Ankara: Bölgesel Araştırmalar Dergisi, 2017. №1 (1), - s.76; Saray, M. Yeni Türk Cumhuriyetleri Tarihi, s.209.*

plenumunda çıxışı zamanı həmin qərarda *"qazax xalqı üçün təhqiramiz olan və əsaslandırılmamış "qazax millətçiliyi" ifadəsinin işlədildiyini ... respublika ictimaiyyətinin və kommunistlərinin iradəsini ifadə edərək, qazax xalqının mənliyinə və şərəfinə, beynəlmiləl mahiyyətinə ləkə olan qərara yenidən baxılmasını xahiş etdiyini"* bildirmiş və nəticədə, istədiyinə nail olmuşdu[135].

Bundan başqa, respublikada Alma-Ata hadisələrinin araşdırılması üçün komissiya yaradılmışdı[136]. Bu komissiya qurulmadan "Jeltoksan" adı ilə yaradılan cəmiyyət bu mövzuda ilk addımlarını atmışdı. Cəmiyyəti quranlar isə bu hadisələr əsnasında nahaq cəzalandırılanlardan, həbs edilənlərdən ibarət idi. SSRİ zülmünün azalması ilə 1990-cı ildə qurulan "Təhqiqat komissiyası"nın rəhbərliyinə Muxtar Şahanov gətirilmişdi[137]. Qazaxıstan Sovet Sosialist Respublikası Ali Şurası 24 sentyabr 1990-cı ildə Jeltoksan Hadisələrini təhqiqat komissiyasının hazırladığı 101 səhifəlik araşdırma nəticələrinə görə, Jeltoksan hadisələri qazax xalqının digər xalqlara qarşı düşməncəsinə etdiyi üsyan deyil, demokratik hüquqlarını müdafiə edənlərin həyata keçirdiyi nümayişdir. Hadisələrin bu həddə çatmasında səbəbkar nümayişçilər deyil, rəhbərlərin dinc nümayişə qarşı həll yolu tapmaq və nümayişçilərlə razılığa gəlmək əvəzinə, ilk andan etibarən şiddətə əl atmalarıdır. Hadisələrdən 41 nəfər məsul müəyyən edilmişdir. Hadisələr zamanı təhlükəsizlik qüvvələrinin nümayişçilərə qarşı dəmir dəyənək və digər alətlər, yanğınsöndürən maşınlar və itlərdən istifadə etmələrini göstərən sübutlar əldə edilmişdir. Komissiyanın əldə etdiyi nəticələrə görə, başda Qazaxıstan Sovet Sosialist Respublikasi keçmiş Daxili İşlər Naziri G.N.Knyazev və onun köməkçisi E.O.Basarov olmaqla, Jeltoksan hadisələrindən məsul şəxslərin aldıqları mükafatlar və fəxri adların geri alınmasını və hadisələr zamanı edilən cinayətlərdən birbaşa cavabdeh olanların vəzifədən kənarlaşdırılması tələb edilmişdir. Hadisələrə

[135] *Назарбаев, Н.А. Избранные речи. Том 1. 1989-1991 гг., с.18-19.*

[136] *Ölçekçi, H. Tarihi süreç içerisinde Kazakistan'da Rus varlığı // Ankara: Bilig, 1996. № 2, - s.68.*

[137] *Topay, M. Muhtar Şahanov'un Hayatı, Eserleri, Edebi kişiliği ve Jeltoksan Olaylarındaki rolü: / Yüksek Lisans tezi. / - Muğla, 2019. - s.99.*

görə cəzalandırılanların işlərinə yenidən baxılması və 17 dekabr gününün Demokratik Dirçəliş Günü kimi qəbul edilməsi təklif edilmişdir[138].

Qorbaçov islahatları çərçivəsində, G.Kolbinin Birinci katibliyi dövründə Qazaxıstan KP MK aşkarlıq siyasəti əsasında yeni bir qərarla keçmişdə haqsız yerə "xalq düşməni" elan edilən şəxslərin günahsız olduğunu bildirilmiş, onlara bəraət verilmişdir. Beləliklə, 1930-1950-ci illərdə haqsız yerə Stalinin qırğınına məruz qalmış "Alaş" partiyasının Alixan Bukeyhanov, Ahmet Baytursınov və Mir Yakup Duvlatov kimi liderləri, Mağcan Cumabayev, Cüsippek Aymavıtov kimi milli yazıçı və şairlərin adları qadağa siyahısından çıxarılmış, əsərlərinin yenidən nəşr edilməsi və xalqa çatdırılmasına imkan yaradılmışdır.

Qorbaçovun islahatlarının sonrakı illərdə daha təsirli formada tətbiq edilməsilə Qazaxıstanda da artıq müstəqil təşkilatlar qurulmağa başlamışdır. Onlardan biri də Muxtar Şahanovun başçılığı ilə qurulan "Aral və Balxaş Komitəsi"dir. Aral və Balxaş göllərindəki suyun əkin üçün həddindən artıq istifadəsi nəticəsində göllər qurumağa başlamış, bu da öz növbəsində, ekoloji problemə çevrilmişdi. Muxtar Şahanov komitəni həmin problemi işıqlandırmaq və həll yolu tapmaq üçün yaratmışdı. Aral gölü ilə bağlı fəaliyyətlərinə görə, 1992-ci ildə Rioda ona Birləşmiş Millətlər Ekologiya Mükafatı verilmiş və adına fəxri kitab yazılmışdır[139].

1989-cu ildə Oljas Süleymanovun rəhbərliyi ilə "Nevada-Semipalatinsk antinüvə hərəkatı" (hazırda, "Nevada-Semey") yaradıldı. Hərəkatın məqsədi 1949-cu ildən Qazaxıstan ərazisində həyata keçirilən nüvə silahlarının sınaqlarının qarşısının alınması idi. Semipalatinsk (Semey) hərbi poliqonunda həyata keçirilən bu sınaqların nəticəsində havada radiasiya artmaqda, bölgədə yaşayan xalqın sağlamlığı üçün böyük təhlükə yaratmaqda idi[140]. Ümumilikdə, Mərkəzi Asiyanın ən böyük respublikası olan Qazaxıstanın ərazisi SSRİ dövründə bir çox sınağın həyata keçirildiyi məkana çevrilmişdi. Nüvə silahı sınaq-

---

[138] *Topay, M. Muhtar Şahanov'un Hayatı, Eserleri, Edebi kişiliği ve Jeltoksan Olaylarındaki rolü, s.101.*
[139] *Kara, A., Yeşilot, O. Avrasya'nın Yükselen Yıldızı Kazakistan, s.43.*
[140] *Ханова, И.Е. Göst. əsəri, c.233.*

larının ekologiyaya və insanlara təsir etməsi, torpaqların əkin üçün istifadə edilərək suvarma üçün göllərdən həddindən artıq istifadə edilməsi yeni problemlərin meydana çıxmasına səbəb olmuşdu. Xüsusilə ekoloji tarazlığın pozulması nəticəsində Mərkəzi Asiya respublikaları uşaq ölümləri statistikasına görə ittifaq respublikaları arasında ən yüksək göstəricilərin olduğu yer idi[141].

Qazaxıstan ərazisində SSRİ və Çin dəfələrlə nüvə silahı sınaqları keçirmişdilər. 1949-1989-cu illərdə SSRİ Semipalatinsk bölgəsində 470 atom bombası sınağı keçirmişdi. Onlardan 354-ü yerin altında, qalanları isə yerin üstündə və havada partladılmışdı. Həmçinin, bu bölgəyə yaxın olan ərazidə Çin də nüvə silahı sınaqları keçirmişdi. Çinin rəsmi bəyanatına görə Sintzyan bölgəsində 44 sınaq keçirilmişdi. Onlardan yalnız 11-i yerin altında partladılmışdı. 2002-ci ildə İngiltərə Onkologiya Mərkəzində təhqiqat aparan alimlər Semipalatinsk bölgəsində tədqiqatlar aparmışdır. İngilis təhqiqat qrupunun araşdırmaları nəticəsində nüvə sınaqlarının həyata keçirildiyi bölgənin təqribən 150 km uzaqlığında yaşayan insanların genlərində dəyişikliklərin baş verdiyi məlum olmuşdur. Bu nüvə sınaqlarına görə uşaqlar əlil doğulmağa başlamış və uşaq ölümlərinin sayı gündən-günə anormal formada artmağa başlamışdı[142]. Bu səbəbdən Semipalatinsk bölgəsi Birləşmiş Millətlər Təşkilatı tərəfindən təhlükəli bölgə kimi qəbul edilmişdi[143].

G.Kolbin bu hadisələrdən sonra 22 iyul 1989-cu ildə Birinci katib vəzifəsindən getmişdir. Onun yerinə isə Nursultan Nazarbayev Qazaxıstan KP MK Birinci katibi olmuşdur. Nazarbayev vəzifəyə gəldikdən qısa müddət sonra 22 sentyabr 1989-cu ildə qazax türkcəsinə Qazaxıstanın rəsmi dil statusu verilmişdir. Lakin eyni qanuna əsasən rus dili "millətlərarası ünsiyyət dili" statusuna malik olmuşdur. Həmin dövrdə ölkə ərazisində rus dilinin təhsil, media, dövlət orqanlarında başlıca rol oynamasını nəzərə alsaq, qazax dilinin statusunun kağız

---

[141] *Məmmədli, N., Göst. əsəri, s.44.*
[142] *Kafkasyalı, A. Bağımsızlıklarının 20. Yılında Kazakların İstiklâl Mücadelesi Tarihine Bir Bakış // İzmir: Türk Dünyası İncelemeleri Dergisi, – 2012. № 12(1), s.186.*
[143] *Məmmədli, N., Göst. əsəri, s.45.*

üzərində qaldığını başa düşə bilərik. Lakin qanunun 5-ci bölməsinin 2-ci maddəsində qeyd olunan və qazax dilinin malik olduğu hüquqlara hörmətlə yanaşılacağını bəyan edən bu ifadələr dilin statusunun yüksələcəyinə zəmanət kimi qəbul edilə bilər: "*Qazax dili dövlət tərəfindən qorunur, Qazaxıstan SSR onun dövlət orqanlarında, sosial qurumlarda, təhsil, mədəniyyət, elm müəssisələrində, xidmət və rabitə bölməsində, və s. yerlərdə aktiv istifadəsini təmin edir*"[144]. 27 sentyabr 1990-cı ildə bu qanuna əlavələr edilmişdir[145]. SSRİ hakimiyyəti altında olan Qazaxıstanın belə qanun qəbul etməsi qazax dilinin qazax xalqı tərəfindən istifadəsinə əhəmiyyət verildiyini göstərir.

Ümumiyyətlə Nazarbayev Qazaxıstanın hüquqlarını müdafiə edən və maraqlarını təmin edən bir rəhbər olmuşdur. O, Qazaxıstanın Moskvadan deyil, Alma-Atadan idarə edilməsinin vacibliyini bildirərək, ölkəsinin daha müstəqil qərarlar almalı olduğu barədə fikirlərini qeyd etmişdir. Qazaxıstanın əhəmiyyəti üçün sovet siyasətində daha çox söz sahibi olmasının vacibliyini müdafiə etmiş, respublikalararası iqtisadi ticarətin daha ədalətli formada olmasının vacibliyini bildirmişdir. Onun Qazaxıstan SSR-in təbii sərvətlərinə (xüsusilə təbii qaz, mədən və b.) dünya bazarına uyğun qiymətlər verilməsinin vacibliyini müdafiə etməsi digər respublikalar tərəfindən də dəstəklənmişdir. Nazarbayev vəzifəyə gələndən qısa müddət sonra SSRİ-dəki ən mühüm rəhbərlərdən birinə çevrilmişdi. Qazaxıstanın azad bazar iqtisadiyyatına keçməsi üçün lazımi qərar və tədbirləri gördükdən sonra bunu həyata keçirmək üçün ölkə daxilində və xaricində səfərlərə başlamışdı. Qazax xalqının azad bazar iqtisadiyyatına keçməsi üçün xüsusi mülkiyyət, torpaq və iş sahibi olmasının vacibliyini qeyd etmiş və bu mövzuda 1991-ci ildə mühüm qanuni dəyişikliklər etmişdir[146].

1990-cı ildə SSRİ-də Prezident vəzifəsinin təsis edilməsi və seçilməsi məsələsinin müzakirə edildiyi Xalq Sovetlərinin III qurultayında müzakirələrdə N.Nazarbayev də fəal iştirak etmişdi. M.S.Qor-

---

[144] *Urakova, L. Geçmişten Günümüze Kazakistan'daki Dille İlgili Yasa Koyuculuğa Genel Bir Bakış // Eskişehir: Türkbilig, 2014. № 28, - s.98.*
[145] *Кан, Г.В. История Казахстана, с.221.*
[146] *Kara, A., Yeşilot, O. Avrasya'nın Yükselen Yıldızı Kazakistan, s.45.*

baçov bununla bağlı xatirələrində yazır ki, *"müzakirələrdə ilk çıxış edənlərdən biri də Nazarbayev idi. O, prezident postunun təsis edilməsi ideyasını və mənim namizədliyimi dəstəklədi, həm də "çoxmənalı şəkildə "prezident üsul idarəsinin tətbiq edilməsi ideyası ilə respublikaların müstəqilliklərini genişləndirmək cəhdləri arasında hiss edilməkdə olan gərginliyin aradan qaldırılması" məqsədilə ittifaq respublikalarında da eyni modelin tətbiq edilməsinin doğru olacağını söylədi ... ümumilikdə, ittifaq respublikalarında prezident idarəçiliyinə keçilməsi mənim planlarıma daxil deyildi. Respublikalar da başa düşürdülər ki, mərkəzi hakimiyyət möhkəmlənməkdədir və öz müstəqilliklərini itirmək istəmirdilər. Və yaranmış imkandan istifadə edərək, təhlükəsizliklərini təmin etmək istəyirdilər ... təcrübəli və hiyləgər siyasətçi, Qazaxıstan lideri məğlubiyyətsiz oyun oynadı"* [147]. Bundan sonra, Konstitusiyada dəyişikliklərdə səs çoxluğunu ala bilməyəcəyindən ehtiyat edən Qorbaçov, Nazarbayevin təklifi ilə razılaşmalı olduğunu qeyd edir.

SSRİ-də prezident seçkilərinin ardınca, Qazaxıstan SSR Ali Soveti 24 aprel 1990-cı il tarixdə "Qazaxıstan SSR Prezidenti vəzifəsinin təsis edilməsi və Qazaxıstan SSR Konstitusiyasına (Əsas Qanununa) əlavə və dəyişikliklərin edilməsi haqqında" Qanun qəbul etdi[148]. Həmin qərarla Nursultan Nazarbayev Qazaxıstan SSR Prezidenti seçildi[149].

1991-ci il 19-21 avqustda Moskvada dövlət çevrilişi cəhdindən sonra, sentyabr ayında Qazaxıstan Kommunist partiyasının ləğv edilməsi qərarı qəbul edildi. Oktyabr ayının 25-də "Qazaxıstan Respublikasının dövlət suverenliyi haqqında" bəyannamə qəbul edildi[150]. Bundan sonra, 1991-ci il dekabr ayının 1-də keçirilən ümumxalq seçkilərində Nursultan Nazarbayev Qazaxıstan Respublikasının prezidenti

---

[147] *Горбачев, С.М. Жизнь и реформы, Кн.1, с.485.*

[148] *Закон Казахской Советской Социалистической Республики от 24 апреля 1990 года «Об учреждении поста Президента Казахской ССР и внесении изменений и дополнений в Конституцию (Основной Закон) Казахской ССР». Информационно-правовая система нормативных правовых актов Республики Казахстан «Әділет». [Электронный ресурс] - URL: https://adilet.zan.kz/rus/docs/Z900001000_*

[149] *Назарбаев, Н.А. Избранные речи. Том 1. 1989-1991 гг., с.16.*

[150] *Yenə orada.*

seçildi. Dekabr ayının 10-da Qazaxıstan SSR adı dəyişdirilərək Qazaxıstan Respublikası adlandırıldı, 16 dekabrda Qazaxıstanın dövlət müstəqilliyi elan edildi[151].

*Özbəkistan.* Özbəkistan SSRİ-nin tərkibinə daxil edildikdən sonra sovet dövrü boyunca özbək liderlər tərəfindən idarə olunmuşdur. 1959-cu ildə Şərəf Rəşidov Özbəkistan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi təyin edilmiş və 1983-cü ilə qədər bu vəzifədə qalmışdır. 1982-ci ildə L.Brejnevin ölümündən sonra bütün SSRİ-də bir sıra dəyişikliklər baş vermişdi. Bu dəyişikliklərdən və yeniliklərdən ilk təsirlənən respublikalardan biri də Özbəkistan SSR olmuşdu.

SSRİ-nin dağılması ərəfəsində Özbəkistanda bir neçə müxtəlif hadisə baş vermişdi. Bunlardan birincisi "Pambıq işi" və ya başqa adları ilə "Özbək işi", "rəşidovşina" kimi tanınan prosesdir. Bu proses tədqiqatın xronologiyasından bir qədər kənara çıxsa da, hadisələrin başlanğıcını qısaca qeyd etmək hadisələrin başa düşülməsi baxımından faydalı olacaqdır. 1983-cü ildə Özbəkistan SSR DTK Buxara Vilayət İcraiyyə Komitəsinin sədri Müzəffərovun rüşvət alması ilə bağlı şikayətlər olduqdan sonra, həmin ilin sentyabrında SSRİ Prokurorluğunda T.X.Qdlyanın başçılığı ilə istintaq qrupu yaradılmış, bu qrupda müxtəlif vaxtlarda 200-dən çox işçi fəaliyyət göstərmişdir. 5 illik istintaqdan sonra 70 nəfər təqsirli bilinmiş və onlardan 40 nəfər həbs edilmişdir. Lakin bu İstintaq qrupunun 5 illik araşdırması dövründə bir çox vətəndaşdan istintaq qrupunun əməkdaşlarının qanunu pozması və rüşvət tələb etməsi barədə şikayət məktubları daxil olmuşdur. İlk vaxtlar mərkəzi hökumət bu vəziyyətə o qədər də əhəmiyyət verməsə də, xalqdan gələn şikayətlərin getdikcə artması və mərkəzi hakimiyyətin əvvəlki gücünü itirməsi nəticəsində bu vəziyyətin qarşısıalınmaz problemlər yarada biləcəyi ehtimalına görə SSRİ Ali Soveti Rəyasət Heyəti hüquqşünaslardan, alimlərdən və hüquq-mühafizə orqanlarının əməkdaşlarından (mühafizəçilərdən) ibarət komissiya təşkil etdi. Bu komissiyanın araşdırmaları nəticəsində T.X.Qdlyan və N.V.İvanovun istintaq qrupunda işləyərkən qanuna tabe olmamaları, Özbəkistanda yük-

[151] *Казахстан. Национальная энциклопедия, 1 Том. А-В, с.45.*

sək vəzifəli şəxslərin haqsız yerə ittiham edilib həbs edilmələri məlum olmuşdur. Bundan əlavə, 1989-cu ildə Qdlyanın cəmi 3 gün, İvanovun isə cəmi 1 gün Özbəkistanda olduğu müəyyən edildikdən sonra onlar vəzifədən uzaqlaşdırılaraq insanlarda yaranan bu narahatlığın qarşısını almağa cəhd göstərmişlər. Digər tərəfdən, bu istintaq qrupuna müxtəlif adamlar təyin edilmiş və İstintaq qrupu araşdırmalarını davam etdirmiş, lakin bu proses ərzində Sovet İttifaqının dağılması ilə tədqiqat işləri yarımçıq qalmış, yekunlaşmamışdır[152].

Əvvəllər Sov.İKP MK şöbə müdiri, M.S.Qorbaçovun köməkçisi, sonradan SSRİ prezident aparatının rəhbəri olmuş Valeriy Boldin 2000-ci illərdə Rusiyanın "Kommersant Hakimiyyət" jurnalına verdiyi müsahibələrdə qeyd edir ki, *"Şərəf Rəşidovun ittiham edildiyi "pripiskalar"da o zaman Sov.İKP MK-nın kənd təsərrüfatı üzrə katibi olan M.S.Qorbaçovun rolu çox olmuşdur. Belə ki, o, Y.Andropov Baş katib seçildikdən sonra özünün "bütün bacarıqlarını" göstərməyə cəhd edir, cavabdeh olduğu kənd təsərrüfatı ilə bağlı nələrsə etməyə cəhd göstərirdi və bu baxımdan da, daha çox pambıq verilməsi üçün Rəşidova təzyiq edirdi. Belə yüksək "öhdəliklərin" birinin qəbulundan sonra Baş katib Y.Andropov şəxsən Rəşidova zəng edərək bu rəqəmlərin nə qədər gerçək, nə qədər şişirdilmiş olduğunu soruşdu və bu zəng, əslində Rəşidovun sonunun başlanğıcı oldu. Belə ki, ümumilikdə hər hansı millətçilik məsələlərinə münasibətdə çox sərt mövqe tutan Andropov, Rəşidovun özbək milli mədəniyyətini dəstəkləməsindən narazı idi və respublika idarəçiliyində baş verən digər səbəblər sonrakı hadisələrə sadəcə təkan vermiş oldu"*[153]. Bundan başqa, rus tarixçisi Aleksandr Kolpakidzenin fikrincə, Andropovla Rəşidov arasında şəxsi fikir ayrılıqları olması, xüsusən də Rəşidovun Sovet ordusunun Əfqanıstana daxil olmasını səhv hesab etməsinin də bu məsələlərə təsiri olmuş, Özbəkistanda korrupsiya və rüşvətlə bağlı araşdırmalara başla-

[152] *Məmmədli, N. Göst. əsəri, s.26-27.*

[153] *Евгений, Ж. «Горбачёв сорвался с резьбы и вертелся сам по себе» // журнал «Коммерсантъ Власть», №19 2001, с.60. [Электронный ресурс] - URL: https://www.kommersant.ru/doc/264501*

nılmışdır[154]. Yeri gəlmişkən qeyd edək ki, o zaman Siyasi Büronun üzvü olan Heydər Əliyevin, Y.Andropovun onun əleyhinə məhkəmə kampaniyası başlatmağa hazırlaşdığı ilə bağlı Ş.Rəşidova xəbərdarlıq da etdiyi və Rəşidovun bundan sonra intihar etdiyi ilə bağlı fikirlər də mövcuddur[155]. Özbəkistanlı tarixçi Söhrət Salamov da özünün "Süqut. Millətçilik və antaqonizm" adlı kitabında bu məsələ ilə bağlı məlumat verir və bildirir ki, *"bu məlumatdan iki xalqın arasını vurmaq məqsədilə istifadə etməyə cəhd göstərənlər var. Lakin Şərəf Rəşidovun əsas cangüdəni Sadulla Məhəmmədkulov məsələnin belə olmadığını bildirir ... əgər belə bir xəbərdarlıq olubsa da, Heydər Əliyevin özünün yaxın dostunu onu gözləyən təhdid barədə xəbərdarlıq etməklə mənəvi borcunu yetirib*"[156].

Burada qeyd edək ki, Özbəkistanda pambıqçılıqla bağlı bəzi mühüm irəliləyişlərin məhz Ş.Rəşidovun (1959-1983) adı ilə bağlı olduğu[157], həmçinin onun özbək milli mədəniyyətinin inkişafına xüsusi diqqət verdiyi düşüncəsi də mövcuddur. Bu baxımdan heç təsadüfi deyil ki, müstəqilliyin ilk illərində Ş.Rəşidov (ölümündən sonra) bəraət almış, hətta Özbəkistan prezidenti İslam Kərimovun 1994-cü il 4 fevral tarixli

---

*[154] KGB O'zbekistonga qarshi: tarixchi «paxta ishi»ning yashirin sabablarini ma'lum qıldı / Online naşr "Kun.Uz", may 21, 2019. [Elektron resurs] - URL: https://kun.uz/uz/news/2019/05/21/kgb-ozbekistonga-qarshi-tarixchi-paxta-ishining-yashirin-sabablarini-malum-qildi*

*[155] К книге Кучиева «Победитель». Взгляд из Канады / Газета «Nuz.uz» (Новости Узбекистана), – 18 февраль, 2021. [Электронный ресурс] – URL: https://nuz.uz/svobodnoe-mnenie/1188728-k-knige-kuchieva-pobeditel-vzglyad-iz-kanady.html; Шараф Рашидов / Международная онлайн энциклопедия людей. [Электронный ресурс] – URL: https://timenote.info/ru/person/view?id=24156*

*[156] Саламов Ш. Крах. Национализм-антагонизм. / Ш.Саламов. – Ташкент: «Истиклол нури», 2018, - с.12. [Электронный ресурс] - URL: http://web2.anl.az:81/read/page.php?bibid=602299&pno=3*

*[157] Shokırova, F. Göst. əsəri, s.60; Dadabaev, T. Evaluations of perestroika in post-Soviet Central Asia: Public views in contemporary Uzbekistan, Kazakhstan and Kyrgyzstan: // California: In Communist and Post-Communist Studies , – 2016, 49(2), – p.189.*

fərmanı ilə mükafatlandırılmışdır[158]. Lakin bir qədər sonra yenə də onun haqqında məsələyə münasibət dəyişdi və hazırda birmənalı deyil.

Pambıq işi çərçivəsində 430 kolxoz və sovxoz rəisi, 1300 rəis müavini, 84 pambıq zavodu müdiri, 340 pambıq fabrikinin mütəxəssisi, 69 partiya, daxili işlər və prokurorluq əməkdaşları, Özbəkistanda, Rusiya Federasiyasında, Ukraynada, Qazaxıstanda, Gürcüstan və Azərbaycandakı sənaye işçiləri araşdırılmışdı. Ümumilikdə 22 min nəfər mühakimə edilmişdi. Onlardan 600 nəfəri müxtəlif idarəçilərdən, 10 nəfəri isə Sosialist Əməyi Qəhrəmanı idi. Nəticədə, ümumilikdə 1.813 partiya əməkdaşı vəzifədən kənarlaşdırılmışdı[159]. M.Qorbaçovun Baş katib təyin olunması ilə vəziyyət dəyişmədi. Onun hakimiyyətə gəlməsindən 10 gün sonra Özbəkistanın Daxili İşlər Naziri Qəhrəmanovun həbsi ilə başlayan vəzifədən kənarlaşdırma və kadr dəyişikliyi sürətlə davam etmişdir[160]. Ş.Salamov qeyd edir ki, *"1989-cu ilin may ayında Qdlyan istintaqdan kənarlaşdırıldı və SSRİ Baş prokurorunun baş köməkçisi Viktor İvanoviç İlyuxinin rəhbərliyi ilə Qdlyannın istintaq qrupu ilə bağlı təhqiqatlara başlandı. İstintaq prosesində bir çox qanun pozuntularına yol verildiyi müəyyənləşdirildi. Nəticələr hər kəs üçün çox gözlənilməz oldu. Qdlyanın Özbəkistanda 140 milyon manat nağd pul müsadirə etdiyini deməsinə rəğmən, bütün zinyət əşyaları, bank əmanətləri və nağd pullar da daxil olmaqla, müsadirə edilən məbləğ 30 milyon manatdan az müəyyənləşdirildi. Qalan pulların harada olduğu ilə bağlı suallar yarandı ..."* [161]. Ş.Salamov daha sonra yazır: *"Qdlyanın istintaq qrupu haqqında təhqiqat aparmış V.İ.İlyuxin sonralar memuarlarında və müxtəlif KİV-lərə müsahibələrində dəfə-*

[158] *Указ президента Республики Узбекистан "О присуждении государственной премии Республики Узбекистан имени Алишера Навои в области литературы, искусства и архитектуры" в области архитектуры "главному автору идеи и творческому руководителю строительства" / Ведомости Верховного Совета Республики Узбекистан,1994 г., №2, ст.65. [Электронный ресурс] - URL: https:// lex.uz/ru/docs/2344749*

[159] *Рашидова Г.Ш., Комилов Д.А. Шароф Рашидов: ИНсон - давр кузгусида ва давр, Ташкент: Тасвир – 2017. – 330.*

[160] *Cucciolla, M. Göst. əsəri, s.317.*

[161] *Саламов Ш. Göst. əsəri, s.16-17.*

*lərlə bildirib ki, o zamanlar Azərbaycan SSR Milli Təhlükəsizlik Komitəsinin sədri olmuş İvan İvanoviç Qorelovskinin məlumatlarına əsaslanaraq, Qdlyanın Özbəkistanda "müsadirə etdiyi" milyonlarla pulların Qarabağda "vuruşduğunu" deyə bilər. Sonralar Azərbaycan SSR Prokurorluğunun xüsusi qrupu tərəfindən Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində mövcud vəziyyətin müəyyənləşdirilməsi məqsədilə aparılan araşdırmalarda da bu fakt təsdiqləndi. Məlum oldu ki, T.X.Qdlyan həqiqətən mütəmadi və sistemli şəkildə separatçı "Qarabağ" hərəkatını maliyyələşdirib"*[162].

Aşkarlıq islahatının təsiri ilə Özbəkistanda aparılan "Pambıq işi" ilə bağlı xəbərlərin geniş işıqlandırılması, Sovet İttifaqında Özbəkistan və Mərkəzi Asiya əleyhinə təsəvvürün yaranmasına səbəb olmuşdur. Partiya və idarəçilikdə həyata keçirilən "təmizləmə" (чистка) fəaliyyətləri Özbəkistanda yerli idarəçiliyi zəiflətmiş, özbəklərin qürurunu incitmiş və gələcək siyasi hadisələr üçün zəmin yaratmışdır. 1988-ci il dekabrın 4-də Daşkənd Universitetində özbək dili ilə bağlı keçirilən yığıncaq millətçilik nümayişinə çevrilmişdir. Tələbə sözçüsü özbək dilinin dövlət dili elan olunmasını istəmiş və bəzi tələbələr İslamı simvolizə edən yaşıl bayraq açaraq Quran oxuduqları üçün din və millətçilik birlikdə özünü göstərməyə başlamışdır[163]. Burada gənclər "*Ruslarsız Özbəkistan*", "*Rədd olsun ruslar*" kimi şüarlar səsləndirirdilər[164]. 23 aprel 1989-cu ildə Daşkənddə tələbələrin yaşadıqları bölgədə daha bir qarşıdurma baş vermişdi. Bu proses Özbəkistanda millətçi və dini hissləri, əcnəbilərə qarşı düşmənçiliyi artırmışdı. Dərc edilən xəbərlər Moskvadan gələn anti-din təbliğatı ilə birləşdikdə, içdən-içə qaynayan Özbəkistan meydana gəlmişdi.

Bundan əlavə, 1980-ci illərin ikinci yarısında yüksək işsizlik səviyyəsinə görə özbəklər digər etnik qrupları kənarlaşdırmağa başladılar. Belə bir mühitdə, Fərqanə vadisində yaşayan və əhalinin 4%-ni

---

*[162] Саламов Ш. Göst. əsəri, s.17-18.*

*[163] Aydıngün, A. Balım. Ç. Bağımsızlıklarının Yirminci Yılında Orta Asya Cumhuriyetleri Türk Dilli Halklar-Türkiye ile ilişkiler / A.Aydıngün, Ç.Balım. Ankara: Atatürk Kültür Merkezi - 2012. – s.232.*

*[164] Məmmədli, N. Göst. əsəri, s.80.*

təşkil edən Ahıska türkləri ilə gərginlik meydana gəldi və 1989-cu ildə ahıska türklərinin ikinci deportasiyası ilə nəticələnən Fərqanə hadisələri yaşandı. Fərqanə vilayətinin şimal-qərbində yerləşən Kuvasay şəhərində ilk olaraq başlayan qarşıdurmada 1 nəfər ölmüş, 53 nəfər yaralanmışdı[165]. Bu hadisə ilə bağlı araşdırma aparılsa da, hadisələr digər bölgələrə də yayılmışdı. 3-4 iyun 1989-cu ildə bir çox Ahıskalı gəncə spirtli içki və narkotik verildiyi müəyyən edilmişdir. Ahıska türklərinin evləri qırmızı lövhələr vurularaq hücuma açıq hala gətirilmiş, onlara məxsus evlər və yaşadıqları ərazidəki hər şey yandırılmış, yaşanan hadisələr zamanı təxminən 112 nəfər həlak olmuşdur[166]. SSRİ hökuməti bu hadisələrə ən qısa zamanda müdaxilə etdiyini açıqlamış və 16.282 Ahıska türkünü Daşkəndə, oradan da təyyarələrlə Rusiyanın Smolensk vilayətinə və digər bölgələrinə köçürdüyünü bildirmişdir[167]. Bununla belə, mayın 23-24-də başlayan gərginlik iyunun ilk günlərində artaraq münaqişəyə çevrildi. Sovet əsgərlərinin bölgəyə müdaxilə üçün gəldiyi tarix isə 4 iyundur. Bölgədəki vəziyyətdən xəbərdar olan SSRİ Daxili İşlər Nazirliyinin bu hadisələrə 3 gün gecikmə ilə müdaxilə etməsinin səbəbi isə gizli qalmış və illər keçməsinə baxmayaraq, bu məsələ ilə bağlı hələ də məntiqli izahat verilməmişdir[168].

Həmin dövrdə Özbəkistanda təxminən 109.000 Ahıskalı yaşayırdı. Hadisələrdən sonra bir il ərzində 17 mindən çox Ahıska türkü Qazaxıstana, 20 minə yaxını Rusiyanın digər bölgələrinə, 40 minə yaxını Azərbaycana köç etmişdi[169].

---

[165] *Ro'ı, Y. Central Asian Riots and Disturbances, 1989-1990: Causes and Context // London: Central Asian Survey, – 1991, 10 (3), – p.24.*

[166] *Devrisheva, F. Göst. əsəri, s.1178; Аккиева, С.И. Турки-Месхетинцы В Кбр: Демографическое и Этнокультурное Развитие Нальчик: Издательский отдел ИГИ КБНЦ РАН, - 2016. - с.17.*

[167] *Бугай, Н.Ф. Турки-месхетинцы в России: выбор пути, перспектива (1990-е - начало 2020-х годов). История в документах / Н.Ф. Бугай. - Москва: Филинь, 2022. - с.40.*

[168] *Devrisheva, F. Göst. əsəri, s.1178.*

[169] *Бугай, Н.Ф. Гонов. А.М. (ред.) По решению правительства Союза ССР. Нальчик : Эль-Фа, 2003. – с.838.*

Ümumilikdə Ahıska türklərinin bölgəyə gəlişi məsələsinə aydınlıq gətimək istəsək, qeyd edilməlidir ki, Stalinin 31 iyul 1944-cü ildə təsdiqlədiyi qanunla Gürcüstandakı 220 kənd və bölgədə yaşayan Ahıska türkləri öz torpaqlarından Mərkəzi Asiyaya sürgün edilmişdilər. Təxminən 80.000 ahıska türkü sürgün edilmiş, 20 minə yaxını isə sürgün zamanı yaranan əlverişsiz şərait səbəbindən həyatını itirmişdir. Fərqanə bölgəsinə köçən ahıskalılar Özbəkistan, Qırğızıstan və Qazaxıstan sərhədləri daxilində müxtəlif kəndlərdə dağınıq şəkildə məskunlaşdırılmışdılar[170]. Stalinin vəfatından sonra Ahıska türkləri də digər deportasiya olunmuş xalqlar kimi bəraət alsalar da, onlara repatriasiya hüququ verilmədi. Bu baxımdan, Ahıska türkləri geri dönə bilmək üçün mübarizəyə başladılar. 1960-cı illərdə başlayan bu mübarizə 1970-ci illərdə rəsmiləşdi. Birləşmiş Millətlər Təşkilatına (BMT) və Türkiyənin Moskvadakı səfirliyinə yazılan məktublar və ərizələr Sovet rəhbərliyini narahat etsə də, Ahıska türklərinin tələbi cavabsız qalırdı. Qorbaçovun dövründə ahıskalıların öz torpaqlarına qayıtmaq cəhdlərinin qarşısı gürcülər tərəfindən alınmışdır. Qısa müddətə SSRİ dağılmağa başlamış və Gürcüstan SSRİ-dən ayrılmaq istəyən ilk respublikalardan biri olmuşdur. Digər tərəfdən, sovet hakimiyyəti həm bunun qarşısını almağa, həm də ahıskalıların geri qayıtması məsələsindən Gürcüstana təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı. Fərqanə hadisələri prosesində DTK-nın özbək və ahıskalıları bir-birinə qarşı mübarizəyə təhrik etdiyi ehtimal edilir[171].

Bu dövrdə ahıskalıların Fərqanədən köç etməsinə baxmayaraq, bölgədə gərginlik davam edirdi. Çox keçmədən bu dəfə də qırğızlarla özbəklər arasında Oş hadisələri kimi tanınan toqquşmalar baş vermişdi. Bölgədə sabitliyi təmin edə bilməyən Özbəkistan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbəri Rafiq Nişanov vəzifəsindən uzaqlaşdırıldı və 1989-cu il iyunun 23-də İslam Kərimovla əvəz olundu. Kərimov Fərqanə hadisələrinin təkrarlanmaması üçün kütləvi nüma-

---

[170] *Hacılı, A. Poladoğlu, A. Ahıska Türk Folkloru / A.Hacılı, A.Poladoğlu, Ankara: Atatürk Kültür Merkezi, – 2001. – s.47.*
[171] *Məmmədli, N. Göst. əsəri, s.36.*

yişləri və yığıncaqları qadağan etdiyini, demokratiyanı dondurduğunu elan edərək işə başladı. Xalq kütlələrinin etimadını qazanmaq üçün kolxoz üzvlərinə fərdi evlər tikmək imkanı və heyvandarlıq üçün torpaq sahəsi verdi. Kərimov çıxışlarında xalqın gəlir səviyyəsinin aşağı olmasından və Kremlin siyasətindən şikayətlənirdi.

Özbək xalqı arasında formalaşan müstəqillik tələbləri nəticəsində 1990-cı ilin iyununda partiyanın qurultayında Kərimov və nümayəndələr özbək dilinin dövlət dili olmasını istədilər. Bundan əlavə, qurultay Siyasi Büronun keçmiş üzvlərini yenidən seçməmiş, Mərkəzi Komitənin üzvlərindən dörddə üçünü dəyişdirmişdi. İ.Kərimov Rəşidovu korrupsiya ilə bağlı fikirlərinə görə bir tərəfdən tənqid etmiş, eyni zamanda tərifləmişdir. Bu prosesdə Rəşidovun adı bir küçəyə verilmiş və heykəli ucaldılmışdır. Çox keçmədən özbək dili dövlət dili elan edilmiş və dil barədə tətbiqetmələri planlaşdırmaq üçün komissiya yaradılmışdı[172].

1991-ci ilin avqustunda Qorbaçova qarşı uğursuz çevriliş cəhdindən sonra həmin ilin sonunda Sovet İttifaqının dağılması ilə Özbəkistan müstəqillik əldə etmişdir. Respublikada idarəçilik təcrübəsi olan yeganə qrup Kommunist partiyası sıralarından çıxan yüksək vəzifəli şəxslər idi. Kərimov və ətrafındakılar 1991-ci il sentyabrın 1-də Özbəkistanın müstəqilliyini elan etdilər. Özbəkistan Kommunist partiyası ləğv edildi, adı Özbəkistan Xalq Demokratik Partiyası olaraq dəyişdirildi.

Ümumilikdə SSRİ-də ittifaq respublikaları arasında ilk olaraq Özbəkistanda prezident idarəçiliyinə keçilmişdir. 1990-cı il mart ayının 24-də Özbəkistan SSR Ali Soveti "Özbəkistan Respublikasının Prezidenti vəzifəsinin təsis edilməsi və Özbəkistan Respublikasının Konstitusiyasına (Əsas Qanun) əlavə və dəyişikliklər edilməsi haqqında" Qanun qəbul etdi[173]. Həmin iclasda Özbəkistan Kommunist Parti-

---

[172] *Jo'rayev , N. O'zbekiston tarixi / N. Jo'rayev. Karimov , Sh. − Toshkent: Sharq, − 2011. – s.690.*

[173] *Закон Республики Узбекистан от 24.03.1990 г. № 4-XII "Об учреждении поста Президента Республики Узбекистан и внесении изменений и дополнений в Конституцию (Основной закон) Республики Узбекистан" // Все законодательство Узбекистана. [Электронный ресурс] - URL:*

yasının Baş katibi İslam Kərimov Özbəkistan SSR prezidenti seçildi[174]. Müstəqilliyin elanından sonra, 1991-ci il dekabr ayının 29-da ümumxalq seçkiləri yolu ilə Özbəkistan respublikasının prezident seçkiləri keçirildi. Seçkilərdə İslam Kərimovun qalib gələcəyini proqnozlaşdırılırdı. Belə ki, müvəffəqiyyət qazanmasının əsas şərti olaraq, onun həm hakim elita ilə, həm də Özbəkistanda böyük nüfuza malik olan din xadimləri ilə ümumi dil tapa bilməsi göstərilirdi. Orta Asiya Müsəlmanlarının Dini İdarəsinin seçkiqabağı kampaniyaya müdaxilə etməməyə söz verməsinin müqabilində, İslam Kərimov açıq şəkildə bəyan etmişdi ki, o, *"bir müsəlman olaraq ruhanilərin göstərişlərini yerinə yetirəcək"*. Mütəxəssislərin fikrinə görə, bu vəd, keçmiş birinci katibin seçkilərdə respublika möminlərinin əksəriyyətinin səsini almasına yardım edəcəkdi[175] və etdi də. İ.Kərimov bu dəfə artıq müstəqil Özbəkistan Respublikasının prezidenti seçildi[176].

*Qırğızıstan.* Qırğızıstan Mərkəzi Asiyanın türk respublikaları arasında müstəqilliyini ilk elan etmiş respublika olmuşdur. Digər respublikalarda olduğu kimi, Qırğızıstanda da müstəqilliyə aparan yol suverenlik haqqında dialoqla başlamışdı. Lakin bəzi araşdırmaçılara görə (məsələn, Zakurdayeva K., Yaromşuk T., Raimberdiyeva A. və b.), digər respublikalardan fərqli olaraq Qırğızıstanda bu dialoqun meydana çıxma səbəbi mənzil problemi olmuşdu[177].

---

*https://nrm.uz/contentf?doc =289807_zakon_respubliki_uzbekistan_ot_24_03_1990_g_n_4xii_ob_uchrejdenii _posta_prezidenta_respubliki_uzbekistan_i_vnesenii_izmeneniy_i_dopolneniy_v_konstituciyu_(osnovnoy_zakon)_respubliki_uzbekistan&products=1_vse_zakonodatelstvo_uzbekistana*

[174] *Ислам Абдуганиевич Каримов (1938-2016). Биография. [Электронный ресурс] - URL: http://www.press-service.uz/ru/about/biography/*

[175] *Игорь, Р. Выборы Президента: поэт против бывшего лидера коммунистов / «Независимая газета», №170, 28 декабря 1991, - с.3. [Электронный ресурс] - URL: https://yeltsin.ru/archive/periodic/53970*

[176] *Ислам Абдуганиевич Каримов (1938-2016). Биография.*

[177] *Закурдаева, К., Ярмощук, Т., Раимбердиева А. «Я был бездомным». Национальные движения в республиках накануне распада СССР. Кыргызстан / Телеканал «Настоящее время», 31 августа 2023 года. [Электронный ресурс] - URL: https://www.currenttime.tv/a/ussr-kyrgyzstan/32571358.html*

Qırğızıstan 1936-cı ildə Sovet İttifaqının tərkibində sərhədləri müəyyən edilərək Qırğızıstan Sovet Sosialist Respublikası kimi qurulduqdan sonra qırğız liderlər tərəfindən idarə edilmişdi. SSRİ dövründə Qazaxıstan və Özbəkistanda olduğu kimi, Qırğızıstanda da çoxmillətli struktur yaranmışdı. Sərhədlər müəyyən edilərkən etnik özbəklərin sıx yaşadığı Oş bölgəsi Qırğızıstan sərhədləri daxilində qalmışdı. Qırğızlar köçəri mədəniyyətə malik bir cəmiyyət olsalar da, sovet dövründə oturaq həyata keçmiş, kolxoz təsərrüfatına cəlb edilmişdilər. Bundan sonra əkinçilik əsas məşğuliyyət sahəsinə çevrilmişdi. Bundan əlavə, köçərilikdən oturaq həyata keçdikdən sonra əsil-nəcabətli ailələrin inzibati quruluşa böyük təsiri olmuşdur. Yəni qırğızlar arasında tayfa bölgüsü mövcud olmuş, sovet dövründə də idarəçinin hansı bölgədən (Şimal, yaxud Cənub), tayfadan olması mühüm əhəmiyyət kəsb etmişdir[178].

Qırğızıstanda çoxmillətli quruluşun yaranmasının səbəbləri aşağıdakılardır:

✓ Rusların inzibati idarəçilikdə iştirak etməsi və rusların hər bir bölgədə yerləşdirilməsi. Gələn ruslar daha çox Bişkekdə və digər mərkəzi yerlərdə, qırğızlar isə daha çox kənd yerlərində məskunlaşırdılar.

✓ İkinci dünya müharibəsi illərində Sovet İttifaqının Avropa hissəsindəki sənaye mərkəzləri zərər dəyməməsi və fəaliyyətini davam etdirməsi üçün Mərkəzi Asiyaya köçürülmüşdü. Lakin müharibədən sonra da yaradılmış zavodlar fəaliyyətini davam etdirmişdir. Həm bu zavodlara işləməyə gələnlərin, həm də Almaniyaya yaxın bölgədə yaşayan avropalıların almanlarla əməkdaşlıq etməsinin qarşısının alınması məqsədilə onların da bir qrupu məcburi olaraq Qırğızıstanda məskunlaşdırılmışdır[179].

✓ Həmçinin, Qafqazdan deportasiya edilmiş Ahıska türkləri və digər xalqlar həm də burada məskunlaşdırılmışdılar.

---

[178] *Alkan, H. Orta Asya Türk Cumhuriyetlerinde Siyasal hayat ve kurumlar / H.Alkan – Ankara: USAK yayınları – 2011. – s.207.*

[179] *Abazov, R. Sovyet Sisteminde Kırgızistan: Millî Devletin İnşası ve Millî Kimliğin Doğuşu // Türkler Ansiklopedisi [33 clddə] Ankara: Yeni Türkiye Yayınları, C.19, - 2002. – s.532.*

Bütünlükdə bu köçlər nəticəsində qırğızların öz ölkələri daxilindəki sayı 1926-1959-cu illərdə 67%-dən 40,5%-ə qədər azalmış, öz ölkələri daxilində say çoxluğunu itirmişdilər[180]. Hətta, slavyan mənşəli əhalinin sayı çox yüksək olduğundan, Qırğızıstanda slavyan xalqlarının həmrəylik günü bayram kimi qeyd olunmağa başlanmışdı[181].

Əhalinin milli tərkibinin dəyişməsi ilə bərabər, şəhərlərdə ilk növbədə "gəlmə mütəxəssislər"in mənzillə təmin olunmasına üstünlük verilirdi. Hətta vəziyyət o yerə çatmışdı ki, yerli əhali "gəlmələrin" mənzillərində kirayə yaşamaq məcburiyyətində qalırdı. Bütün bunlar isə onsuz da ağır olan vəziyyəti, bir qədər də ağırlaşdırırdı. 1980-ci illərdə bütünlükdə SSRİ-də mənzil tikintisi sahəsində problemlər yaşanması səbəbindən əhalinin mənzillə təminatı ləng gedirdi. Fərdi ev tikintisi üçün torpaq sahəsi alınması da mümkün deyildi, şəhərlərin yaxınlığında olan torpaqlar kolxoz və sovxozlara məxsus idilər. Yerli hökumət orqanlarının əhali ilə əməkdaşlıq etməməsi onunla nəticələndi ki, 1989-cu ilin yaz aylarında paytaxt Frunzedə (indi, Bişkek) əhali özü torpaq sahələrini ələ keçirməyə başladı. Hökumətin məsələyə müdaxiləsi ictimai-siyasi hərəkat olan "Yardım"ın («Ашар») meydana çıxmasına səbəb oldu[182].

Respublikada idarəçilik sahəsində də böyük problemlər mövcud idi. Sovet hakimiyyətinin ilk illərindən Stalin hakimiyyətinin sonuna qədər Qırğızıstanda idarəçilər tez-tez dəyişirdilər. 1950-ci ildə Birinci katib vəzifəsinə gələn qırğız İshak Razzakkov "kadr və idarəçilik siyasətində qırğızlaşdırma" ittihamı ilə vəzifəsindən uzaqlaşdırılana qədər 11 il vəzifədə qalmışdı. Razzakkovdan sonra 1961-ci ildə Türkədun Usubəliyev baş katib olmuşdu. Usubəliyev Brejnev dövründə Moskvaya bağlı idarəçilik siyasəti yürütdüyünə görə uzun müddət bu vəzifədə qalmışdı. Çünki bu itaətkar münasibət qarşısında mərkəzdən iqti-

---

[180] *Alkan, H. Göst. əsəri, s.206.*
[181] *Məmmədli, N. Göst. əsəri, s.48.*
[182] *Закурдаева, К., Ярмощук, Т., Раимбердиева А. «Я был бездомным»...; Зайнидин, К. О проблемах партогенеза в Кыргызстане // Центральная Азия и Кавказ, 2004, №5(35), с.8. [Электронный ресурс] - URL: https://ca-c.org.ru/journal/2004/journal_rus/cac-05/cacR5(35)2004.pdf*

sadi qazanc əldə etmək daha asan idi. Usubəliyev iqtisadiyyatda və dildə ruslaşdırmaya heç bir müqavimət göstərməmiş, dəstəkləyici siyasət yürütmüşdür. O, rus dilini çoxmillətli ölkənin əvəzolunmaz ortaq dili hesab etmişdir. Bu siyasət qırğızların öz dillərindən istifadənin azalmasının ən mühüm səbəbi olmuşdur. Belə ki, 1980-ci illərin ortalarında paytaxtdakı 69 ümumtəhsil məktəbindən yalnız 3-ü qırğız dilində təhsil verirdi. Ona görə də Usubəliyev rus dilinin yerli dilin çatışmazlıqlarını aradan qaldırmasını bəyan etməkdən çəkinməmişdir[183].

Qırğızıstan digər respublikalarla müqayisədə resurs baxımından problemləri daha çox olan bir ölkə idi, bu baxımdan, Moskvadan iqtisadi və investisiya yardımı almaq hər zaman mühüm əhəmiyyət kəsb etmişdir. Usubəliyev hakimiyyəti müddətində Moskvadan ən çox iqtisadi tələblər edən idarəçilərdən biri olmuş və bu səbəbdən də o, bir sıra araşdırmalarda "resursa ac olan lider" kimi təsvir edilir[184]. T.Usubəliyevin bu davranışı onun mərkəzə sadiq qalmasını təmin etmiş, nəticədə Brejnevlə mehriban münasibətlərin meydana gəlməsinə səbəb olmuşdu. Məsələn, 1981-ci ildə Usubəliyev Sovet İttifaqı KP-nin qurultayında Sovet İttifaqı Energetika və Elektrik Nazirliyinə Narın çayı üzərində su elektrik stansiyasının yaradılması ilə bağlı müraciət etmiş, müraciətdən bir il əvvəldən mərkəzdəki nazirliklərə bu mövzuda intensiv tələbkarlıq ərizələri göndərilməsini təmin etmiş və SES-in yaradılmasına nail olmuşdur. Bu səylər nəticəsində respublikanın elektrik ehtiyacını ödəməklə yanaşı, həm də ixracatçıya çevrilmişdir. Lakin Usubəliyev və komandasının iqtisadiyyatı yalnız mərkəzdən gələn resurslarla davam etdirməklə təşkil etməsi, innovasiya və məhsuldarlığın artırılmasına yönəlmiş siyasət müəyyən edə bilməməsi ölkə üçün iqtisadi problemə çevrilmişdir[185].

Usubəliyev Qırğızıstanda rəsmi olaraq tanınmasa da, şimal-cənub bölgüsündə Şimalı təmsil edirdi. Ümumiyyətlə, bu iki tayfa arasında ba-

---

*[183] Huskey, E. The Rise of Contested Politics in Central Asia: Elections in Kyrgyzstan, 1989-90 // Glasgow: Europe-Asia Studies, – 1995, 47 (5), – p.815.*

*[184] Beissinger, M. R. In Search of Generations in Soviet Politics // Cambridge: World Politics, – 1986, 38 (2), – p.312.*

*[185] Yenə orada, s.313.*

lans var idi. 1985-ci ilin oktyabrında Usubəliyevin yerinə keçmiş Absamət Məsəliyev cənub klanını təmsil edirdi. Yeni Birinci katib təyin edilən Məsəliyev əvvəllər İssık gölün Birinci katibi və Mərkəzi Komitədə sənaye və nəqliyyat üzrə katib vəzifələrində çalışmışdı. Məsəliyevin önə çıxmasına baxmayaraq, sonradan aydın olmuşdu ki, bu şəxs islahatçılıqdan daha çox mühafizəkarlığa meyllidir. Qorbaçovun islahatları Qırğızıstana çatanda Məsəliyev və komandasının mərkəzlə münasibətləri gərginləşdi. Xüsusən də Qorbaçovun təyin etdiyi rusiyalı İkinci katib Kiselyov adət-ənənənin əksinə olaraq aktiv və müdaxiləçi mövqe nümayiş etdirərək, Məsəliyev və onun komandasının narahatlığına səbəb oldu. Bunun ardınca, daha iki vacib vəzifə təyinatı baş verdi. Vasilenko Partiya orqanları şöbəsinin müdiri, İvanenko isə Qırğızıstan Mərkəzi Komitəsinin rəhbəri təyin edildi. Bu şəxslər bütün regionda və Qırğızıstanda etnik bölgüyə əsaslanan yeni inzibati struktur yaratmaq üçün çox sayda etnik qırğız idarəçiləri vəzifədən uzaqlaşdırdılar. Məsəliyev isə ümumiyyətlə islahatlara maraqsız idi və islahat əleyhinə siyasət yeridirdi[186].

İqtisadi baxımdan Sovet dövründə Qırğızıstan əkinçilik və heyvandarlıq ölkəsi olaraq bilinirdi. 1989-cu ildə əhalinin 62%-i kənd yerlərində yaşayırdı. Qırğızıstanın Moskvanın iqtisadi yardımına ehtiyac duymasında onun əkinçilik və heyvandarlıqdan kifayət qədər gəlir əldə etməməsi təsirli olmuşdur. 1980-ci illərdə neftin qiymətinin düşməsi, mədənlərin və bəzi metalların SSRİ xaricindəki ölkələrə satış qiymətlərinin aşağı düşməsi SSRİ-nin 5 illik iqtisadi planını alt-üst etmişdi. SSRİ-dəki iqtisadi problemlər dotasiya hesabına yaşayan Qırğızıstana daha çox təsir etmişdi. Belə olan halda Qırğızıstan Elmlər Akademiyasının direktor müavini Turar Koyçuyevin başçılıq etdiyi bir qrup siyasətçi mərkəzin iqtisadiyyata nəzarətini sorğulamağa başlamışdı. T.K.Koyçuyev və onun komandası Qırğızıstanın mineral ehtiyatlarının, su və elektrik enerjisinin dünya qiymətləri ilə müqayisə oluna bilməyəcək qədər ucuz satıldığını qeyd edərək Moskvanı tənqid etməyə başladılar. Koyçuyev və komandası iqtisadi cəhətdən müstəqil olma-

---

[186] *Məmmədli, N. Göst. əsəri, s.49; Huskey, E. Gost. əsəri, s.817.*

ğın və resursların satış qiymətini dünya qiymətləri ilə eyni səviyyəyə qaldırmasının Qırğızıstan iqtisadiyyatının problemlərini həll edəcəyi qənaətində idilər[187].

1980-ci illərin ikinci yarısı Qırğızıstanda da siyasi partiyaların, ictimai birliklərin, diskussiya klublarının meydana çıxdığı dövr olmuşdur. Bu mənada, respublikada yaradılan ilk təşkilatlardan biri "Yardım" («Ашар») adlı qeyri rəsmi həmrəylik təşkilatı olmuşdu və Qırğızıstanda ilk kütləvi vətəndaş itaətsizliyi aktları da məhz bu təşkilatın üzvləri tərəfindən həyata keçirilmişdi[188]. Ölkədəki iqtisadi durğunluq kənddən şəhərə miqrasiyaya səbəb olurdu. Kəndlərdə yaşayan qırğız gəncləri iş tapmaq üçün Bişkek və Oş şəhərlərinə gəlməyə başlamışdılar. Bu, gənclərin iş və evlə təmin olunmaması həmin şəhərlərdə gərginliyin artmasına təsir edirdi. Həmin gənclər, yəni şəhərlərdə məskunlaşan, lakin orada daimi yaşayış yeri olmayan kənd gəncləri "Yardım" həmrəylik təşkilatını yaratdılar və hökumətin onların tələblərini yerinə yetirməsinə nail oldular, yəni yaşayış evlərinin tikilməsi üçün torpaq sahələri ala bildilər. Qeyd edək ki, ümumilikdə belə bir fikir mövcuddur ki, mənzil problemi respublika əhalisinin suverenlik mübarizəsinə qatılmasının əsas səbəbləri sırasında ən öndə gələni olmuşdur[189].

"Bayraq" («Асаба») adı altında qurulan digər təşkilat isə daha çox millətçi istiqamətli qrup idi. Bu qrup vaxtaşırı kütləvi nümayişlər təşkil edirdi. Əksəriyyətin ruslar olduğu, texniki və inzibati vəzifələrdə rusların üstünlük təşkil etdiyi sənaye şəhərlərində iş və yaşamaq üçün yer tapa bilməmələri nəticəsində bu qruplar daha da qütbləşmişdilər. Onlar gecəqondular quraraq böyük şəhərlərin ətrafında yaşamağa başlamışdılar. Sonralar bu qruplar qırğız dilinin rəsmi dil kimi qəbul edilməsi, məşğulluq və təhsildə qırğızlara üstünlük verilməsi, ev tikilməsi və torpaq ayrılması kimi tələblərini səsləndirməyə başladılar.

Oş şəhərində daha təhlükəli hadisələr baş verirdi. Burada özbəklər intensiv yaşayırdılar və Özbəkistanda yaradılmış "Ədalət" qrupu ilə sıx

---

[187] *Abazov, R. Göst. əsəri, s.534.*
[188] *Зайнидин, К. Göst. əsəri, s.8.*
[189] *Закурдаева, К., Ярмощук, Т., Раимбердиева А. «Я был бездомным».*

əlaqədə olan gənclər təşkilatları yaradılmışdı. Bu iki qrup arasında gərginlik getdikcə dərinləşirdi. Bu təşkilatlardan başqa siyasi arenaya həmçinin siyasi diskussiya klubları çıxmağa başlamışdı: "Qırğız komsolu" qəzeti yanında "Demos", Elektron Hesablama Maşınları zavodu yanında "Zamandaş" ("Современник"), Dövlət Plan Komitəsi İqtisadiyyat institutu yanında "Mövqe" («Koz karaş»), Oş şəhərində "Oş əyaləti" ("Oş Aymaqı"), "Vətəndaş təşəbbüsü" («Атуулдук демилге») milli-demokratik birlikləri və b. Sonradan onların əksəriyyətinin bazasında Qırğızıstan Demokratik hərəkatı formalaşdı[190]. Eyni zamanda, qırğız gənclər Moskvada "Ədalət" («Акыйкат») cəmiyyətini yaratdılar[191].

Məsəliyev "Aşar" və "Bayraq"ın qırğız dili ilə bağlı tələblərini rədd etdi, çünki bu, etnik ayrı-seçkiliyə səbəb olacaqdı. Beləliklə, Məsəliyev nüfuzunu itirməkdə davam etdi. Lakin bütün müqavimətə baxmayarq, 1989-cu ildə ictimaiyyətin təzyiqləri nəticəsində qırğız dili dövlət dili, rus dili isə "SSRİ xalqlarının dövlətlətlərarası ünsiyyət dili" statusunda təsdiq edildi[192]. 1990-cı ilin fevralında keçirilən Ali Sovet seçkilərində partiya daxilində mühafizəkar-islahatçı fərqi özünü daha qabarıq şəkildə göstərdi. Bu, Qorbaçovun islahatlarından sonra keçirilən ilk seçkilər idi. Seçki nəticəsində Qırğızıstan KP-nin üzvləri Ali Sovetin 90%-ni qazansalar da, parlamentə müstəqil namizədlər də daxil oldu. Bundan əlavə, millət vəkilləri üçün regional və tayfa əlaqələrinin artan əhəmiyyəti ilə müxtəlifliyin parlamentdə həlledici rol oynadığı bir vəziyyət meydana çıxmışdı.

Mənzil problemi 1990-cı ilin yayında resublikanın cənubunda, Oş hadisələri kimi bilinən, Oş, Uzgen və onlara yaxın yaşayış məntəqələrində özbəklərlə qırğızlar arasında iri miqyaslı toqquşmaya gətirib çıxardı. Özbəklər yaşadıqları bölgədə çoxluq təşkil etsələr də, idarəçilikdə kifayət qədər təmsil olunmamışdılar. Bu bölgədə 25 regional katiblik var idi və onlardan yalnız 1-i özbək idi[193]. İki qrup arasındakı

---

[190] *Зайнидин, К. Göst. əsəri, s.8.*

[191] *Закурдаева, К., Ярмощук, Т., Раимбердиева А. «Я был бездомным».*

[192] *"Сенектик доорго" кечиккен кошок, Sentyabr 8, 2015. [Elektron resurs] - URL: https://www.azattyk.org/a/kyrgyz_communism_obit_blog/27231827.html*

[193] *Huskey, E. Göst. əsəri, s.827.*

gərginliyin bir sıra səbəbləri vardı. Bunlardan ilki, özbəklərin bölgədəki bazarlarda ticari cəhətdən güclü və fəal qrup olması nəticəsində qırğızların burada zəif qalması idi. Digər səbəb, kənddən gələn qırğızların özlərinə məskunlaşmaq üçün ev tapa bilməməsi və özbəklərin bölgəsindən yer ayrılması nəticəsində özbəklərin buna qarşı çıxmasıdır[194]. Bundan başqa, qırğız dilinin dövlət dili elan olunması respublikanın yerli özbək əhalisi arasında özbək dilinin statusu ilə bağlı narazılığın meydana çıxmasına səbəb oldu. Belə ki, o dövr üçün ümumilikdə Qırğızıstanda özbəklər əhalinin 30%-ni təşkil edirdilərsə, Oş vilayətində 50% idilər[195]. Haqlarının qorunması üçün özbək gəncləri 1990-cı ilin əvvəllərində "Ədalət" ("Адолат") təşkilatını yaratdılar. Əsasən özbək mədəniyyətinin qorunması uğrunda mübarizə aparan təşkilatın bəzi üzvləri tərəfindən muxtariyyət tələbləri də irəli sürülürdü ki, bu da onsuz da mövcud olan gərginliyi bir qədər də artırırdı. Belə bir şəraitdə qırğızların haqlarını qorumaq üçün "Oş vilayəti" ("Oş Aymaqı") təşkilatı yaradıldı. Yerli hökumət orqanları ilə uğursuz danışıqlardan sonra təşkilat üzvləri özbəklərin işlədiyi Lenin kolxozuna aid əkin yerlərini zəbt etdilər. Nəticədə, 1990-cı il iyunun 4-dən başlayan və 10-dək davam edən qanlı qarşıdurmalarda 120 Özbək, 50 Qırğız və 1 rus həlak olmuş, 5.000-ə yaxın insan (qətl, hücum, talan və yaralanma) da hadisələrin iştirakçısı olmuşdu[196]. Fövqəladə vəziyyətin elan edilməsi və ordu hissələrinin bölgəyə yeridilməsi ilə toqquşmalar dayandırılmışdı.

Bu toqquşmalar başlamadan təxminən bir ay əvvəl 24 ictimai və siyasi qrup Bişkekdə Qırğızıstan Demokratik Hərəkatını (QDH) qurmuşdular. Bu hərəkatın beş həmsədri var idi: K.Aktamov, T.Diykabayev, C.Ceksheev, K.Mathaziyev, T.Turgunaliyev. Bu qrup Oş hadisələrinə görə parlamentdən kənarda müxalifətin daha da fəallaşmasını təmin etdi. QDH Oş hadisələrinin hərtərəfli araşdırılması, höku-

[194] *Aydemir Baş, F.B.; Çevikel, Ş. Bağımsızlık Yolunda Azerbaycan ve Orta Asya'daki Kitlesel Hareketler, s.199; Derviş, L., Devrısheva, K. Sovyet Sosyalist Cumhuriyeti Dönemi Kırgız Tarihine Bir Bakış // Türk Dünyası Araştırmaları Dergisi, 2015. № 111 (219), – s.56.*

[195] *Закурдаева, К., Ярмощук, Т., Раимбердиева А. «Я был бездомным».*

[196] *Tıshkov, V. Göst. əsəri, s.135.*

mətin istefası və Özbəkistana elektrik enerjisinin verilməsinin dayandırılması tələbi ilə nümayişlərə başladı. Bu nümayişləri araşdırmaq üçün Moskva 300-dən çox müstəntiq göndərdi. Həmin hadisələrlə eyni zamanda Sovet İttifaqı Kommunist Partiyasının XXVIII qurultayında A.Məsəliyevi dəstəkləyən Liqaçov KP-dəki vəzifəsindən azad edildi. Bu məsələ vəziyyətin A.Məsəliyevin əleyhinə dəyişməsinə səbəb oldu. Qırğızıstan KP-nin qurultayında Oş hadisələrinin müzakirəsi ilə partiyadaxili parçalanma daha da artdı. 1990-cı ildə bazar iqtisadiyyatına keçid, Birinci katibliyə son qoyularaq prezidentlik vəzifəsinin yaradılması böyük dəyişiklərin ilkin addımları idi.

1990-cı il sentyabr ayının 24-də Qırğızıstan Ali Soveti "Qırğızıstan SSR-də prezident postunun təsis edilməsi və Qırğızıstan SSR Konstitusiyasına (Əsas Qanun) əlavə və dəyişikliklər haqqında" Qanun qəbul etdi[197]. Prezident seçkiləri A.Məsəliyev və Baş nazir A.Curnanquliyevin namizədliyini irəli sürsə də, heç biri lazımi dəstəyi əldə edə bilmədilər. Nəticədə prezidentliyə namizədlərin sayı artdı. Seçkilər on namizədin yarışına çevrildi. Bu arada Məsəliyev İkinci katib olmaq istəyən cənublu Turğunəliyevi təsdiq etməməklə cənubluların dəstəyini də itirdi. Bu zaman Elmlər akademiyasının üzvü, 46 yaşlı Əsgər Akayevin adı gündəmə gəldi. Kəmində doğulan Ə.Akayev şimallıların dəstəkləyəcəyi namizəd idi. Eyni zamanda, Oş hadisələrinə görə hakimiyyətdən uzaq qalan özbək azlıqlar cənublu qruplarla tez-tez toqquşduqları üçün özbəklərin dəstəkləyə biləcəyi namizəd idi. Akayevin Qorbaçovun islahatlarını dəstəkləyən bəyanatları və islahatçı kommunist partiyası üzvlərinin dəstəyini alması və QDH-nın Akayevi namizəd kimi dəstəkləməsi ona seçkilərdə qalib gəlməyə imkan yaratdı. Ə.Akayev 1990-cı il oktyabrın 28-də keçirilən seçkilərdə qalib gəldi[198].

---

[197] *Закон Киргизской ССР от 24 октября 1990 года № 222-XII "Об учреждении поста Президента Киргизской ССР и внесении изменений и дополнений в Конституцию (Основной Закон) Киргизской ССР». Централизованный Банк данных правовой информации Кыргызской Республики. [Электронный ресурс] - URL: http://cbd.minjust.gov.kg/act/view/ru-ru/909*

[198] *Məmmədli, N. Göst. əsəri, s.51; Alkan, H. Göst. əsəri, s.214.*

İslahatçı prezident olan Ə.Akayev Qırğızıstan KP-də çoxluq təşkil edən mühafizəkar qruplarla işləməkdə problemlər yaşamağa başladı. Xüsusən də KP rəhbərləri Akayevin bəyanatlarından və islahatçı siyasətin qüvvəyə minməsi cəhdindən narahat idilər. Buna baxmayaraq, Ə.Akayev islahatlara davam etdi. Ölkənin adı dəyişdirilərək Qırğızıstan adlandırıldı və rəsmi dilin qırğız dili olması üçün fəaliyyətə başlanıldı. Hətta Kommunist partiyasının fəaliyyətini məhdudlaşdırmağa çalışdılar. Qırğızıstan Daxili İşlər Nazirliyi 1991-ci ildə verdiyi bəyanatda Kommunist partiyasının nazirlik daxilində fəaliyyətinin qadağan edildiyini bəyan etdi. Bu arada 1991-ci ilin avqustunda Moskvada Qorbaçova qarşı çevriliş cəhdi edildi. Qırğızıstan çevrilişdən dərhal sonra qınaq mesajı dərc etdi və demokratiyanın tərəfində olduğunu bir daha vurğuladı. Demək olar ki, eyni zamanda prezident Akayev də Qırğızıstanın müstəqilliyi üçün çalışırdı. Nəhayət, 31 avqust 1991-ci ildə Qırğızıstan müstəqilliyini elan etdi. Oktyabr ayında keçirilən seçkilərdə Ə.Akayev 95 faiz səslə müstəqil Qırğızıstanın ilk prezidenti seçildi[199]. Kommunist olmayan və islahatlara çox meylli bir lider olması səbəbindən Qərb ölkələri Ə.Akayevə xüsusi diqqət yetirdilər. Sonrakı prosesdə qərbli şərhçilər Qırğızıstan üçün "Demokratiya adası" ifadəsini işlətməyə başladılar.

*Türkmənistan.* Sovetlər Birliyi qurulduqdan sonra Mərkəzi Asiyada sərhədləri Sovet hökuməti tərəfindən müəyyən edilən dövlətlərdən biri də Türkmənistan idi. Stalin və Brejnev dövründə həyata keçirilən siyasət nəticəsində Türkmənistan pambıq istehsalında Özbəkistandan sonra ikinci yeri tuturdu. Türkmən torpaqlarının şərqindən keçən və ölkənin ən böyük su mənbəyi olan Amudərya üzərində tikilmiş bəndlər və digər su kanalları arasında dayaq kanalları çəkilmişdi. Bu layihə ilə ölkənin cənubu, xüsusən də Kopet dağının ətəkləri kənd təsərrüfatı istehsalı sahələrinə çevrilmişdi. 1913-cü ildə ildə 69 milyon ton pambıq istehsal edə bilən Türkmənistan suvarma kanallarının isti-

---

[199] *Məmmədli, N. Göst. əsəri, s.53; Saray, M. Kırgızlar ve modern Kırgız Devleti'nin kuruluşu/ M.Saray. - İstanbul: Kesit Yayınları – 2022. – s.185; Осмонов О.Ж. Кыргызстан тарыхы (Байыркы доордон азыркы мезгилге чейин): Жогорку окуу жайлары учун окуу китеби. Онд., толук. 7-бас. - Б.: «Бийиктик плюс», – 2019. – с.497.*

fadəyə verilməsi ilə 1940-cı ildə 211 milyon ton, 1950-ci ildə 276 milyon ton, 1970-ci ildə isə 869 milyon ton pambıq istehsal edəcək vəziyyətə gəlmişdi[200]. Sovet hökuməti əvvəlcə Amudərya çayı və Atammət gölündən Mərv şəhərinə su kanalını (1959), sonra isə 1961-1962-ci illərdə Aşqabada uzanan və Tejen üzərindən keçən başqa bir su kanalını istifadəyə vermişdi[201].

SSRİ dövründə düyü istehsalı da mühüm yer tuturdu. Lakin Sovet İttifaqının 5 illik təsərrüfat planlarında istehsala olan tələbatın getdikcə artması türkmən torpaqlarına mənfi təsir göstərdi. Pestisidlərin həddindən artıq istifadəsi nəticəsində Özbəkistandakı kimi, türkmən torpaqlarında da təbii tarazlıq pozulmuşdu. Pambıq və çəltikdən sonra digər istehsal sahələrində ənənəvi olaraq atçılıq və maldarlıq mühüm yer tuturdu. Qoyunçuluqda üstünlük təşkil edən "qaragül" növünün yunundan məşhur türkmən xalçaları toxunurdu[202].

İkinci dünya müharibəsi illərində SSRİ-nin Avropa hissəsində yerləşən sənaye müəssisələrinin mühüm hissəsi daha təhlükəsiz hesab edilən Mərkəzi Asiyaya köçürülmüşdü. Həm mühüm sənaye istehsalı müəssisələrinin Mərkəzi Asiyaya köçürülməsindən, həm də 1950-ci illərdən başlayaraq Türkmən torpaqlarında böyük təbii qaz ehtiyatının olması aşkar edildikdən sonra SSRİ-nin mühüm istehsal rayonlarından birinə çevrilmişdi. Türkmənistan SSRİ tərkibində Rusiyadan sonra ən böyük təbii qaz ehtiyatına malik respublika idi. Ona görə də Türkmənistan təbii qazı həm region ölkələri, həm Rusiya, həm də Şərqi Avropa ölkələri üçün mühüm enerji mənbəyi idi. Bununla belə, sovet sisteminin nəticəsi olaraq ölkədəki təbii qaz Türkmənistanda emal edilməkdənsə, SSRİ-nin digər respublikalarına göndərilirdi. Ölkənin şimalından və cənubundan çıxarılan təbii qaz iki əsas marşrutla Rusiyaya nəql edilirdi. Bunlardan birincisi Mərvdən Xivəyə qədər uzanır və şimalda Darqanatadakı yataqlardan çıxarılan təbii qaz da bu kanal va-

---

[200] *Elibüyük, M. Türkmenistan'ın Ekonomik Atlası / M.Elibüyük, G.Altıbayev – Ankara: TİKA, – 2002. – s.28.*
[201] *Yenə orada, s.21.*
[202] *Məmmədli, N. Göst. əsəri, s.53.*

sitəsilə şimala nəql edilirdi[203]. Ölkədəki sərvətlərin başqa bölgələrə daşınması və emalı SSRİ-nin dağılmasından sonra böyük problemlər yaratmışdı.

Ümumiyyətlə, Türkmənistan kənd təsərrüfatı cəmiyyəti kimi seçilirdi. Türkmən tayfalarının müqaviməti ilə torpaqların kollektivləşdirilməsi digər respublikalara nisbətən gec başlamışdı. 1929-cu ilə qədər türkmən əkinçilərinin cəmi 15%-i kolxozlarda birləşirdilər. Kollektivləşdirmə prosesi 1940-cı illərin əvvəllərində başa çatmışdı. Lakin türkmənlərin şəhərlərdə məskunlaşma səviyyəsi aşağı olaraq qalırdı. 1970-ci ildə paytaxt Aşabadın cəmi 38,2 %-i türkmənlərdən ibarət idi[204]. Respublika əhalisinin 70%-ni təşkil edən türkmənlərin əksəriyyəti kənd yerlərində yaşayırdı. Monotip istehsal strukturu (yəni xammalın istehsal olunduğu respublikadan başqa respublikada emalı) əslində sovet sistemindən tam asılılıq demək idi. Ölkədə istehsal olunan pambığın emalı üçün sənaye müəssisələri yaradılmamışdı. İttifaq daxilində istehsal olunan pambıq xammal kimi mərkəzləşdirilmiş planlaşdırma ilə istehsal sahələrinə paylanırdı. Türkmənistan digər İttifaq ölkələrindən pambıq istehsalı müqabilində ehtiyac duyduğu ərzaq və digər kənd təsərrüfatı məhsullarını mərkəzi planlaşdırma yolu ilə əldə edirdi. Bu vəziyyət mövcud istehsal strukturunun şaxələndirilməsi istiqamətində yeni siyasətin işlənib hazırlanmasına mane olmuşdur.

Türkmənistan SSR KP-nin Birinci katibi vəzifəsinə 1947-ci ilə qədər ruslar təyin edilirdi. Bu tarixdən sonra Moskva hökuməti digər respublikalarda olduğu kimi, Türkmənistanda da hökmranlığını qoruyub saxlamaq üçün mərkəzə sadiq idarəçilər təyin etmişdi. Bəzi türkmən liderləri Moskvanın yeritdiyi siyasətə qarşı çıxmış və türkmənlərin ölkənin siyasi və iqtisadi sahələrində daha çox iştirak etməsi üçün çalışmışlar. Türkmən idarəçilərin bu səyləri Moskvanın diqqətini cəlb etdi. Kommunist partiyasının Birinci katibi Sühan Babayev və Mədəniyyət və İdeologiya şöbəsinin müdiri Nurcemal Durdiyeva 1958-ci

[203] *Elibüyük, M. Göst. əsəri, s.53.*
[204] *Devlet, N. Büyük İslam Tarihi Çağdaş Türkiler / N.Devlet. - İstanbul: Çağ yayınları. – 1993. – s.357.*

ildə yaxınları ilə birlikdə burjua millətçisi olmaqda ittiham edilərək partiya sıralarından xaric edildilər. Bununla da Türkmənistan KP daxilində lokallaşmanın qarşısı alınmışdı. Lakin Brejnev dövründə respublikalarda yerli inzibati idarəetmənin gücləndirilməsinə yönəlmiş mərkəzi siyasət dəyişikliyi nəticəsində türkmən idarəçilər təyin olunmağa başlamışdı[205]. Bunun ən mühüm nümunəsi 1969-1985-ci illər arasında Birinci katib vəzifəsində çalışmış Məhəmmədnəzər Qapurovdur. O, vəzifədə olduğu dövrdə türkmənlərin maraqlarını müdafiə edən millətçi təmayüllü ziyalı dairələrinə qarşı böyük təzyiqlər göstərmiş; ziyalıların, gənclərin millətçilik ideyalarından əl çəkməsi, ateist təhsil sisteminin qurulması üçün çox səy göstərmişdir.

1980-ci illərin birinci yarısında xalqın öz adət və ənənələrini qorumaq əzmi istər-istəməz türkmən liderlərini Moskvaya qarşı yeni taktika tətbiq etməyə vadar etmişdir. Moskvanın əmrlərini yerinə yetirmiş kimi davranan türkmən liderləri türkmən ziyalılarına qarşı daha dözümlü olmağa başladılar. Türkmənistanda ateist təhsil sistemi davam etsə də, buna qarşı çıxan ziyalılara və gənclərə qarşı əvvəlki kimi sərt münasibət göstərilməmişdir. Şübhəsiz ki, bunda aparılan islahatların təsiri olmuşdur.

1985-ci ildə Qorbaçov vəzifəyə gələrkən Qapurov vəzifədən uzaqlaşdırılmış, onun yerinə Saparmurad Niyazov təyin edilmişdi. Bundan əlavə, türkmən ziyalıları pambıq və təbii sərvətlərin (təbii qaz və neft) mərkəzə çox ucuz satılmasına etiraz etməyə başlamışdılar. Bu etirazların yüksək səslə dilə gətirilməsinin ən böyük səbəbi isə Qorbaçovun islahatları idi. Türkmənistan SSR hökumət büdcəsi üçün hər il Moskvadan 344 mln rubl almasına baxmayaraq, pambıq və təbii qaz, eləcə də digər istehsal malları da daxil olmaqla gəlirinin 530 mln rublunu Moskvaya verirdi. Bu vəziyyətə qarşı etirazlarını artıran türkmən ziyalıları bu məsələ ilə bağlı ölkənin zəngin resurslara malik olmasına baxmayaraq resursların xammal kimi emal üçün başqa bölgələrə gön-

[205] *Roy, O. Yeni Orta Asya ya da Ulusların İmal edilişi, s.150.*

dərilməsini tənqid etdilər. Digər tərəfdən, ölkədə işsizliyin 40%-ə çatmasını vurğulayaraq bu problemin həllini tələb edirdilər[206].

S.Niyazovun fəaliyyəti iki mühüm məsələ üzərində qurulmuşdu. Birincisi, o, Türkmənistanda tayfaçılığa qarşı çıxaraq millətin vahid olması fikrini müdafiə etdi. İkincisi isə, digər respublikalarda olduğu kimi, dil problemi idi. Hökumətin qərarı ilə 1989-cu ildə türkmən dili rus dili ilə yanaşı rəsmi dil statusu aldı[207]. Türkmənistan 1990-cı ilin avqustunda suverenliyini, 1991-ci ilin oktyabrın 27-də isə müstəqilliyini elan etdi. Müstəqillik əldə etdikdən sonra keçirilən seçkilərdə S.Niyazov prezident seçildi və 2006-cı ilə qədər bu vəzifədə qaldı. Ona, 1993-cü ildən sonra bütün türkmənlərin başçısı mənasına gələn "Türkmənbaşı" deyilirdi. Burada maraqlı bir məqamı qeyd etmək istərdik. "Nezavisimaya qazeta" 28 dekabr 1991-ci il tarixli nömrəsində yazırdı ki, Türkmənistan parlamenti MDB-nin yaradılması haqqında müqaviləni və ona əlavə olan 21 dekabr Alma-Ata protokolunu ratifikasiya etdikdən sonra, prezident S.Niyazov parlamentdəki çıxışında *"özünün vahid, yenilənmiş İttifaqa sadiqliyini bir daha təsdiq etdi və bildirdi ki, İttifaqın dağılmasında Türkmənistan günahkar deyil. Dağılma proseslərinin səbəbkarı idarəçiliyi əldən vermək istəməyən, bir söz deyib, tamamilə başqa iş görən keçmiş ölkə rəhbərliyidir"*[208].

Burada Çexiyanın Karlov Universiteti "Beynəlxalq tədqiqatlar institutu"nun Rusiya və Şərqi Avropa tədqiqatları kafedrasının professoru Horak Slavomirin məsələ ilə bağlı fikirlərinin heç də yanlış olmadığını qeyd etmək istərdik. Belə ki, o, 1989-1991-ci illərdə Türkmənistanda alternativ inkişaf imkanlarının olub-olmadığı ilə bağlı araşdırmalarından sonra belə qənaətə gəlir ki, *"SSRİ-də islahatların həyata keçirildiyi o illərdə nə Birinci katib S.Niyazov, nə də bütünlükdə*

[206] *Məmmədli, N. Göst. əsəri, s.54.*

[207] *Özcan, K. Türkmenistan Cumhuriyeti // Bağımsızlıklarının 25. Yılında Türk Cumhuriyetleri, - İstanbul: Türk Dünyası Belediyeler Birliği Yayınları, - Editör: A.Kara, F.Solak, – 2017, – s.191.*

[208] *Игорь Ж. Президент Ниязов уступать не намерен: «Никто не вправе диктовать нам каких-либо условий» / «Независимая газета», №170, 28 декабря 1991, с.3. [Электронный ресурс] - URL: https://yeltsin.ru/archive/periodic/53970*

*Türkmənistan rəhbərliyi islahatların keçirilməsində maraqlı deyildilər. Onlar daha çox əldə etmiş olduqları mövqeləri qoruyub saxlamağa çalışırdılar... S.Niyazov respublikada sovet Mərkəzi hökumətinin tapşırıqlarını sədaqətlə yerinə yetirməyə davam edirdi. Tabeliyində olanlara nə qədər sərt davranırdısa, tabeliyində olduqlarına bir o qədər loyal münasibət göstərirdi ... "yenidənqurma lideri olmayan" Niyazov, altenativ inkişaf cəhdlərinin qarşısını lap başlanğıcdan alırdı. Nəticədə, ictimai-siyasi proseslər deyil, şəxsiyyət amili Türkmənistanda baş verən hadisələrdə həlledici rol oynadı"*[209]. Belə ki, Türkmənistanda müxalif fikirlilik təqib olunurdu. Bütünlükdə SSRİ-də olduğu kimi, Türkmənistanda da ziyalılar arasında müxtəlif partiyalar, birliklər yaradılması, cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak etmək təşəbbüsləri özünü göstərməyə başlamışdı. Məsələn, türkmən mədəniyyətinin dirçəlişi, türkmən dilinin statusunun artırılması, latın əlifbasına keçilməsini, türkmən tarixi ilə bağlı diskussiyaların keçirilməsi və s. məsələləri gündəmə gətirən, parlament və prezident seçkilərində iştiraka qatılmağa cəhd edən Xalq demokratik siyasi hərəkatı "Aqzıbirlik" (və ya qeydiyyat kitabında yazıldığı adla "Cəmiyyət 32")[210], "Bazar" ("Payhas") klubu (1991), Türkmənistanın ilk müstəqil jurnalı "Dayaq" ("Dayanç"), "Ədəbiyyat və incəsənət" («Эдебият ве Сунгат») və b. qeyd etmək olar. Lakin bütün belə təşkilatların, onların qurucularının təqib olunması nəticə etibarilə ölkədə müxtəlif fikirliliyə son qoyulmasına gətirib çıxardı[211]. Fikrimizcə bu deyilənlər, hadisələrin baş verdiyi dövrdə SSRİ-nin dağılması məsələsinə münasibətin heç də birmənalı olmadığının göstəricisi kimi də qəbul edilə bilər. 1990-ildə demokratik müxalifətin təzyiqi ilə qəbul edilən Türkmənistan

---

*[209] Горак, С. Туркменистан между 1989 и 1991 гг.: Был ли шанс альтернативного развития? / Вестник Кыргызского национального университета имени Жусупа Баласагына, 2016, №3(87), с.156. [Электронный ресурс] - URL: https://vestnik.knu.kg/wpcontent/uploads/2019/05/vestnik_knu_3_2016 _new.pdf*

*[210] Закурдаева, К. Страна потомственных диссидентов. Национальные движение в республиках накануне распада СССР. Туркменистан / Телеканал «Настоящее время», 17 февраля 2022. [Электронный ресурс] - URL: https://www .currenttime.tv/a/ussr-turkmenistan/31707540.html*

*[211] Горак, С. Göst. əsəri, s.157-159.*

SSR-də "Dil haqqında" qanunla türkmən dili rus dili ilə birlikdə dövlət dili statusu aldı[212].

11 oktyabr 1990-cı ildə Türkmənistan SSR Ali Soveti "Türkmənistan SSR-də prezident idarəetmə formasının təsis ediməsi və Türkmənistan SSR Konstitusiyasına (Əsas Qanun) əlavə və dəyişiklik edilməsi haqqında" qanun qəbul etdi[213]. İlk prezident seçkiləri 1990-cı il oktyabr ayının 27-də keçirildi. Türkmənistan Ali Sovetinin Sədri Saparmurad Niyazov 1990-cı ildə Türkmənistan SSR, 1991-ci ildə Türkmənistan Resublikasının Prezidenti seçildi.

Qeyd etmək lazımdır ki, Mərkəzi Asiyanın digər türk respublikaları ilə müqayisədə daha qapalı bir ölkə olan Türkmənistanın tarixi haqqında daha ətraflı məlumatlar əldə etmək olduqca çətindir. Ölkənin tarixi ilə bağlı edilən nəşrlər dövlətin nəzarəti və icazəsi ilə hazırlanır. Bu baxımdan, digər respublikalarla müqayisədə, Qorbaçov dövründəki ictimai-siyasi, sosial-iqtisadi vəziyyət də daxil olmaqla, ümumilikdə Türkmənistanla bağlı məlumat almaq üçün mənbələr çox azdır.

* * *

*Bütün deyilənləri ümumiləşdirsək*, qeyd edilməlidir ki, araşdırdığımız 1985-1991-ci illər SSRİ tarixinin mühüm dövrlərindən birini təşkil edir. Rusiyalı tədqiqatçı İ.N.Panarin hesab edir ki, *"SSRİ-nin əleyhdarları üçün uğurun zirvəsi M.S.Qorbaçovun Sov. İKP MK-nın Baş katibi seçilməsi oldu. M.Qorbaçovun namizədliyinin irəli sürülməsi Sov.İKP MK və SSRİ DTK-sı üçün strateji itki, onun əleyhdarları üçün isə qələbə idi"*[214]. Belə ki, 1985-ci ildə Sovet İttifaqının süqutundan əvvəl sonuncu rəhbəri olan M.S.Qorbaçovun hakimiyyətə gəlməsindən sonra, SSRİ-də mövcud olan böhran vəziyyətini düzəltmək

---

[212] *Kara, M. Hazar ötesi Türkmenleri ve Türkmenistan // Ankara: Türk Dünyası Dil ve Edebiyat Dergisi, 2002. №14, - s.240.*

[213] *Закон Туркмениской ССР от 11 октября 1990 г. №300-XII «Об учреждении президентской формы правления в Туркменской ССР и внесении изменений и дополнений в конституцию (основной закон) Туркменской ССР» – Меджлис Туркменистана. [Электронный ресурс] - URL: https://mejlis.gov.tm/single-law/342?lang=ru*

[214] *Панарин, И.Н. СМИ, пропаганда и информационные войны.*

üçün ölkə həyatının bütün sahələrini əhatə edən "Sürətləndirmə", "Aşkarlıq" və "Yenidənqurma" islahatları elan olundu. Lakin bu islahatlar süqutun qarşısını ala bilmədi, dünyanın siyasi xəritəsində SSRİ məkanında 15 -o cümlədən, Mərkəzi Asiyada 5- yeni müstəqil dövlət meydana çıxmış oldu. Bütünlükdə bu dövr hadisələrinin Mərkəzi Asiyanın türk respublikaları üzrə nəticələri aşağıdakı kimi olmuşdur:

- ✓ Respublikaların iqtisadi həyatında mövcud olan problemlər daha da kəskinləşmiş, hətta müəyyən mənada respublika həyatının digər sahələrində baş verən problemləri daha da dərinləşdirmişdir;
- ✓ Aşkarlıq və demokratikləşmə siyasəti ilə söz və mətbuat azadlığı, insan haqları kimi məsələlərə diqqətin artırılması məqsədilə həyata keçirilən tədbirlər (senzuranın ləğv edilməsi, dissidentlərin və siyasi məhkumların əfv edilməsi, ictimai təşkilatların və hərəkatların yaradılması və s.) gözlənilən nəticəni verməmiş, əksinə SSRİ-nin dağılmasını sürətləndirmişdir;
- ✓ Prezident idarə üsuluna keçilməsi respublikalarda onsuz da mövcud olan müstəqillik meyllərini bir qədər də artırmış, Sov.İKP idarəçiliyi çərçivəsində mövcud olan ierarxik asılılığı (mərkəz-yerli idarəçilik asılılığını) təmin etmək mümkün olmamışdır.

İdeoloji sahədə mövcud olan boşluqlar ittifaq respublikalarında müxtəlif xarakterli münaqişələrin baş verməsinə səbəb olmuşdur:

- ✓ Qazaxıstanda rus əsilli Q.Kolbinin Qazaxıstan Mərkəzi Komitəsinin Birinci katibi təyin edilməsi qazax xalqının etirazına səbəb olmuş və 1986-cı ildə Alma-Ata (Jeltoksan) adı ilə tanınan etirazların qanlı şəkildə yatırılması ilə nəticələnmişdir;
- ✓ 1989-cu ildə Özbəkistanda özbəklərlə ahıska türkləri arasında baş vermiş qarşıdurmalar nəticəsində ahıskalılar ikinci dəfə deportasiyaya məruz qalmışlar;
- ✓ 1990-cı ilin iyununda "Oş hadisələri" - qırğızlarla özbəklər arasında toqquşmalar baş vermişdir. 1989 və 1990-cı illərdə meydana çıxan bu münaqişələr hələ də Özbəkistan, Qırğızıstan və Tacikistan arasında yerləşən Fərqanə vadisində gərginlik və qarşıdurmalar bu günə qədər davam etməkdədir;

Burada qeyd edək ki, ümumilikdə mövcud olan tarixi-siyasi ədəbiyyatların böyük əksəriyyətində SSRİ-nin dağılması mərhələsində baş vermiş münaqişələrin hamısının milli münaqişə kimi göstərilməsini düz hesab etmirik. Belə ki, fikrimizcə, SSRİ Mərkəzi hökuməti bu münaqişələri milli münaqişələr kimi təqdim etməklə, daha çox, diqqəti əsas səbəblərdən yayındırmağa cəhd etmişdir. Münaqişələrin nəticəsində maraqlı olan qüvvələr isə, hadisələri daha da dramatikləşdirmək üçün bütün cəmiyyətlərdə ən həssas məsələlərdən biri olan milli qarşıdurmadan faydalanmağa çalışırdılar. Bizə görə, Mərkəzi Asiyada baş verən münaqişələrdən fərqli olaraq, Qafqazda və Baltikyanı ölkələrdə baş verən münaqişələr daha çox geosiyasi münaqişələr idilər. Mərkəzi Asiyada baş verən münaqişələr isə, müəyyən məqamlarda milli mahiyyət kəsb etsələr də, Qazaxıstanda inzibatı-idarəçilik sahəsində yol verilmiş səhvlərlə bağlı olmuş, Özbəkistanda və Qırğızıstanda isə daha çox sosial-iqtisadi problemlərin nəticəsi kimi meydana çıxmışdılar.

- ✓ Bütünlükdə SSRİ-nin davamı olaraq, Mərkəzi Asiya respublikalarında da prezident idarəçiliyinə və çoxpartiyalı sistemə keçilmişdir;
- ✓ Bütünlükdə SSRİ-də, o cümlədən digər respublikalarda olduğu kimi, Mərkəzi Asiyanın türk respublikalarında da mətbuat sahəsində həm kəmiyyət, həm keyfiyyət, həm də mahiyyət baxımından böyük dəyişikliklər baş vermişdir. Belə ki, 1985-ci illə müqayisədə 1991-ci ildə nəşr edilən mətbuat orqanlarının sayı artmış, müxalifət mövqeli qəzet və jurnalların nəşrinə başlanmış; beynəlxalq aləm, ictimai-siyasi, tarixi xarakterli xəbərlər üstünlük təşkil etməyə başlamışdı. Bütün bunlar isə, əhalinin ictimai-siyasi fəallığının artdığının göstəricisi idi.

# II FƏSİL.
# 1985-1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDAKI VƏZİYYƏTİN AZƏRBAYCAN SSR MƏTBUATINDA ƏKSİ

## 2.1. Azərbaycan SSR-də mətbuat

Millətlərin tərəqqisində, xüsusən də milli şüurun inkişafında mətbuatın rolu əvəzedilməzdir. Azərbaycan mətbuat tarixi araşdırmaları günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır. İxtisasca tarixçi, peşəsi jurnalist olan Akif Aşırlı 2009-cu il tarixli "Azərbaycan mətbuat tarixi" araşdırmasında milli mətbuatı özünə qədərki araşdırmaçılar və Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin "Milli mətbuat tarixi" kafedrasının təklif etdiyi bölgülərə əsaslanaraq, aşağıdakı mərhələlərlə araşdırmanın doğru olacağı qənaətindədir:

1. "Əkinçi"yə qədərki hazırlıq dövrü;
2. Azərbaycan milli mətbuatının yaranması (1875-1917-ci illər);
3. Azərbaycan Xalq Cümhuriyyəti dövrü mətbuatı (1918-1920-ci illər);
4. Sovet dövrü Azərbaycan mətbuatı (1920-1991-ci illər);
5. Müasir Azərbaycan dövrü mətbuatı (1991-ci ildən başlayan dövr)[215].

Bizim də doğru hesab etdiyimiz bu bölgünü əsas götürərsək, qeyd edilməlidir ki, Azərbaycan mətbuatı tarixində ilk qəzet Rusiyada qəbul edilmiş qanunları Qafqaz xalqına çatdırmaq məqsədi ilə Tiflisdə nəşr edilən "Tbilisi xəbərləri ("Тифлисские ведомости") sayıla bilər. Bu qəzet 1829-cu ildə gürcü dilində, 1830-cu ildə fars dilində, 1832-ci ildə isə Azərbaycan dilində nəşr edilmişdi. Qəzetin Azərbaycan dilində adı "Tiflis əxbarı" idi[216]. Azərbaycan dilində nəşr olunan nömrələr günümüzə qədər gəlib çatmasa da, arxiv sənədlərinə əsasən onun

[215] *Aşırlı, A. Azərbaycan mətbuatı tarixi (1875-1920), s.11-12.*
[216] *Mətbuat tarixi. [Elektron resurs] - URL: https://www.azerbaijans.com/content_741_az.html*

Azərbaycan dilində də nəşr olunduğu məlumdur[217]. 1845-ci ildə rus dilində "Zaqafqazskiy vestnik" adı ilə nəşr edilən qəzet Azərbaycan dilində "Qafqazın bu tərəfinin xəbəri" adı ilə nəşr edilmişdir. Bu qəzet də digər qəzet kimi Rusiyada qəbul edilən qanunları ictimaiyyətə çatdırmaq məqsədi ilə nəşr edilmişdir. Lakin bu qəzetlər yalnız çar orqanlarının rəsmi məlumatlarını ictimaiyyətə çatdırdığı üçün müstəqil Azərbaycan mətbuatının başlanğıcı kimi Həsən bəy Zərdabinin 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti qəbul edilir[218].

22 iyul 1875-ci ildə nəşr olunmağa başlayan qəzetin 1877-ci ilə qədər ayda iki dəfə olmaqla cəmi 56 nömrəsi nəşr olunmuşdur. Qafqazda ilk müstəqil türk qəzeti olduğu üçün mühüm əhəmiyyət kəsb edən qəzetdə, bir çoxlarının düşündüyü kimi[219], yalnız kənd təsərrüfatı ilə bağlı xəbərlər dərc edilmirdi. Qəzetin əsas məqsədi xalq arasında mütərəqqi, maarifçi ideyaları yaymaq, fanatizmə, xürafata, cəhalətə qarşı mübarizə aparmaq idi. Bu baxımdan, qəzetdə siyasət, iqtisadiyyat, mədəniyyət, fəlsəfə, ədəbi tənqid, biologiya, nəbatət haqda da yazılar nəşr edilirdi[220]. Qəzetin səhifələrində dövrünün görkəmli ziyalılarından Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani və b. məqalələr dərc etdirirdilər. "Əkinçi" qəzeti özündən sonrakı nəşrlər üçün zəmin hazırlamış oldu. "Əkinçi" qəzetinin nəşr edildiyi 22 iyul tarixi Azərbaycanda Mətbuat günü kimi qeyd olunur.

"Əkinçi"dən sonra Azərbaycanda Hacı Səid, Cəlal və Kamal Ünsizadə qardaşlarının nəşr etdirdikləri "Ziya" (1879-1880), "Ziya-yi Qafqaziyyə" (1880-1884), "Kəşkül" (1883-1891) qəzetləri nəşr olunmuşdur. Lakin çar hökumətinin təzyiqləri ilə bu nəşrlər də qısa müddətdə fəaliyyətini dayandırmışdır. Bu tarixdən sonra Məhəmməd Ağa Şahtanskiyə aid "Şərqi rus" qəzeti (1903-1905) nəşr olunmağa başlanmışdır. Azərbaycanın ilk gündəlik qəzeti kimi 1905-ci ilə qədər nəşr olunmuşdur.

---

[217] *Aşırlı, A. Göst. əsəri, s.5.*
[218] *Yenə orada, s.7; Tohidi Rüstəmova S. Azərbaycan dövri mətbuatı, s.4.*
[219] *Erol, A. Türk Kültür ve Fikir Hayatında Ekinçi (1875-1877) // Ankara: Bilig – 2006, № 39, – s.54.*
[220] *Əkinçi, 1875-1977. Tam mətni. – Bakı: Avrasiya Press, – 2005. – s.11.*

1905-ci ildə rus-yapon müharibəsində rusların məğlubiyyəti nəticəsində baş verən inqilabdan sonra çar hökuməti konstitusiyalı idarəetməni qəbul etməyə məcbur oldu. Bu vəziyyət bütün Rusiya müsəlmanlarında olduğu kimi Azərbaycan mətbuatında da nisbi azadlıq mühitinin yaradılmasına yol açmışdı. Belə şəraitdə Azərbaycanda çoxlu kitablar, qəzetlər nəşr olunmağa başladı. Bu müddət ərzində rus dilində nəşr edilən "Kaspi" qəzeti mühüm əhəmiyyət kəsb edir. Ümumilikdə, 1905-1920-ci illər arasında Azərbaycanda altmışa yaxın qəzet və jurnal nəşr olunmuşdur[221]. Onlardan siyasi və mədəni baxımdan seçilənləri bunlardır: "Həyat" (1905-1906), "İrşad" (1905-1908), "Təkamül" (1906-1907), "Bürhani Tərəqqi" (1906-1911), "Molla Nəsrəddin" (1906-1931), "Füyuzat" (1906-1907)[222]. Xüsusilə Cəlil Məmmədquluzadənin 1906-cı ildə nəşr etməyə başladığı "Molla Nəsrəddin" Azərbaycan xaricində bütün şərqdə oxunan satirik jurnal olmuşdur. Bu dövrdə uşaqlar, valideynlər və müəllimlər üçün nəzərdə tutulan mətbuatın da əsası qoyulmuşdur. Bu dövr Azərbaycan tarixində dərin izlər qoyan yazıçıların yetişdiyi bir dövr olduğuna görə də xüsusi əhəmiyyət kəsb edir.

1913-1916-cı illərdə Birinci dünya müharibəsinə görə Azərbaycanda hakimiyyətə yaxın siyasi baxışları özündə əks etdirən liberal nəşrlər də vardı. Bununla belə, bir tərəfdən senzura olduğu da qeyd edilməlidir. Bu səbəbdən dərc edilən nəşrlər daha çox uşaqlar üçün və xeyriyyə məqsədli idi[223].

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə mətbuatda da yeni dövr başlamışdır. Bu dövrdə demokratik və bolşevik nəşrlər dərc edilmiş, İran və Türkiyənin sosial-demokrat, siyasi, mədəni-maarif birliklərinin nəşrləri Azərbaycanda nəşr olun-

*221 Akarslan, Z. Azerbaycan'da Kültürel Uyanış ve Basın // İstanbul: Avrasya İncelemeleri Dergisi – 2019, №8 (1), – s.11; Yıldırım, İ. M. Azerbaycan'da Matbuat Hareketlerinin Başlangıcı // Bursa: Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi – 2013, №2/2, – s.149.*
*222 Akpınar, Y. Azeri Edebiyatı Araştırmaları / Y.Akpınar – İstanbul: Dergah yayınları, – 1994. – s.94.*
*223 Tohidi Rüstəmova S. Göst. əsəri, s.40.*

maq imkanı tapmışdır. Dövrün mühüm yazıçı və jurnalistlərindən M.Ə.Rəsulzadə, Ş.M.Xiyabani, Hacıbəyov qardaşlarının adları ön plana çıxır[224]. Lakin AXC dövrü qısa müddətli olmuş və 28 aprel 1920-ci ildə rus ordularının gəlişi ilə Azərbaycanda sovet hakimiyyəti qurulmuşdur. Qısa müddət mövcud olmasına baxmayaraq, AXC dövründə 30 oktyabr 1919-cu ildə parlamentdə ilk dəfə olaraq "Mətbuat haqqında Əsasnamə" qəbul edilmiş və "Azərbaycan cümhuriyyəti hökumətinin əxbarı"nda nəşr olunmuşdur. Beləliklə, AXC dövründə Azərbaycanda mətbuatın ilk hüquqi əsasları müəyyən edilmişdir[225]. Bolşevik mətbuatında haqqında mənfi münasibət bildirilməsinə baxmayaraq, bu Əsasnamə normativ aktları müəyyənləşdirərək mətbuatdaki məsuliyyətsiz çıxışların qarşısını almışdır. Belə ki, o dövrdə fərqli fikirləri müdafiə edən (menşevik, bolşevik islam və s.) mətbuat orqanları fəaliyyət göstərirdi ki, bu da dövlətin ideoloji əsaslarına mənfi təsir edirdi. Bu əsasnamə ilə bunun qarşısının alınması, həmçinin Avropadakı kimi KİV sisteminin yaradılması planlaşdırılırdı[226]. Lakin AXC süqut etdikdən sonra bolşevik olmayan nəşrlərin fəaliyyəti tədricən sona çatmış, onların əvəzinə Azərbaycan Kommunist Firqəsinin nəşrləri dərc olmağa başlamışdır.

1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanda sovet hakimiyyəti mövcud olmuş, kommunist ideologiyasını cəmiyyətə yaymaq üçün geniş mətbuat şəbəkəsi formalaşdırılmışdı. Dövlət qurumları, müxtəlif qadınlar, gənclər, ədəbiyyat və maarif kimi müxtəlif cəmiyyətlərin öz nəşrləri çap olunmağa başlanmışdı. Bu nəşrlərin fəaliyyətinə kommunizmi dəstəkləmək şərti ilə icazə verilirdi. Müxtəlif fikir və mülahizələrin yazılması və nəşri getdikcə daha çox senzuraya məruz qalırdı və bu senzura 1980-ci illərin sonlarına, Qorbaçov islahatlarının həyata keçirildiyi vaxta qədər davam etmişdir.

SSRİ hakimiyyəti dövründə Azərbaycanın rəsmi nəşri kimi "Kommunist" qəzeti nəşr olunurdu. Qeyd edək ki, qəzetin ilk nömrəsi

---

[224] *Tohidi Rüstəmova S. Göst. əsəri, s.41.*
[225] *Aşırlı, A. Göst. əsəri, s.131.*
[226] *Dünyaminqızı, Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər), s.28-29.*

1919-cu il avqustun 29-da, yəni Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu zaman nəşr edilmişdi. Azərbaycan bolşeviklərinin nəşr etdirdiyi birinci nömrə gizli çap olunmuşdu. Həmin nömrəni Ruhulla Axundov redaktə etmişdi. 1920-ci ildə Azərbaycanda sovet hökuməti qurulduqdan sonra, aprel ayının 30-dan Əliheydər Qarayevin redaktorluğu ilə rəsmi olaraq nəşr olunmağa başlamışdır[227]. 27 avqust 1991-ci ildə adı "Xalq qəzeti" olaraq dəyişdirilmiş qəzet bu günə kimi nəşrini davam etdirir[228]. 1985-1991-ci illər arasında qəzet 4 səhifə həcmində nəşr olunurdu[229]. Araşdırma aparılarkən qəzetin bəzi nömrələrini və ya bəzi nömrələrin çatışmayan səhifələrini əldə etmək mümkün olmamışdır. Məsələn, 1990-cı ilin 18-27 yanvarında 20 Yanvar hadisələri ilə üst-üstə düşən nömrələrlə bağlı məlumat yoxdur. Bu nömrələrin ümumiyyətlə çap olunmadığı ehtimal edilir.

Bu dövrdə Azərbaycan mətbuatında, bütünlükdə SSRİ mətbuatında olduğu kimi, müxtəlif sahələrə və müxtəlif auditoriyalara hesablanmış qəzet və jurnallar nəşr edilirdilər ki, onlardan biri də qadınlarla bağlı "Azərbaycan qadını" jurnalı idi. İlk olaraq, Azərbaycan KP MK-nın 2 may 1923-cü il tarixli qanununa əsasən xüsusi olaraq Azərbaycan qadınları üçün "Şərq qadını" jurnalının nəşrinə qərar verilmişdi. Həmin ilin noyabrında nəşr həyatına başlayan jurnalın məqsədi Azərbaycan qadınlarını ictimai-siyasi həyata uyğunlaşdırmaq idi. İlk nömrəsi Ayna Sultanovanın redaktorluğu ilə nəşr edilən jurnal, 1938-ci ildən sonra "Azərbaycan qadını" adını almışdır[230]. Qorbaçov dövründə bu jurnalda Mərkəzi Asiya ölkələrindən Qazaxıstan haqqında yalnız bir şeirə rast gəlinir. Mərkəzi Asiya ölkələri ilə bağlı heç bir xəbər olmamaqla yanaşı, bu jurnalın bir nömrəsi Türkiyə Prezidenti Turqut Özalın həyat yoldaşı Semra Özalın 1991-ci ildə Azərbaycana səfərinə həsr olunmuşdu[231].

---

[227] *Aşırlı, A. Göst. əsəri, s.12.*
[228] *Məhərrəmov E.Ə., Məhərrəmli A.E. "Xalq qəzeti"nin (Kommunist) yaranması və inkisafı tarixindən, s.82.*
[229] *Baxşəliyev, T. Göst. əsəri, s.465.*
[230] *Milli Kitabxana "Şərq qadını jurnalı – 100" adlı virtual və eyni adlı ənənəvi sərgi təqdim edib. [Elektron resurs] – URL: https://xalqqazeti.az/az/medeniyyet/151019-milli-kitabxana-serq-qadini-jurnali*
[231] *Səmra Özal Azərbaycanda // Bakı: Azərbaycan Qadını, – 1990, №10-12. – s.1-2.*

SSRİ dövründə Azərbaycanda muxtar respublika, şəhər və rayon səviyyəli qəzet və jurnallar da nəşr olunmuşdur. Onlardan, Bakı – “Bakı”, “Baku”; Gəncə - "Kirovabad kommunisti"; Naxçıvan - "Sovet Naxçıvanı"; Xankəndi - "Sovetskiy Karabax"; Mingəçevir - "Mingəçevir işıqları", "Oqni Minqeçeura"; Sumqayıt - “Sosialist Sumqayıtı” və b. adlarını qeyd edə bilərik[232]. Bu qəzetlərdə əsasən nəşr olunduqları bölgənin sosial-iqtisadi inkişafı, mədəniyyəti ilə bağlı xəbərlər dərc edilirdi.

1985-ci ildən “Aşkarlıq” və “Yenidənqurma”nın təsirləri, digər respublikalarda olduğu kimi, Azərbaycanda da görünməyə başlamışdı. Ümumilikdə SSRİ-nin dağılmasına qədər olan müddətdə müxtəlif ideyalara malik nəşrlər getdikcə artmaqda idi. Xüsusilə mətbuata öz təsirini göstərən islahatlar nəticəsində 1989-cu ildə “Azərbaycan” qəzeti, “Azadlıq” qəzeti; 1990-cı ildən Azərbaycanın ilk müstəqil qəzetlərindən olan “Qarabağ” qəzeti; Azərbaycan könüllü “Qayğı” cəmiyyətinin nəşri “Aydınlıq” qəzeti; həftəlik ictimai-siyasi qəzet olan “Ayna” və “Zerkalo” qəzetləri; Milli İstiqlal partiyasıının qəzeti “Millət” qəzeti; Hüquqşünaslar İttifaqının mətbu orqanı kimi təsis edilib, sonradan müstəqil qəzetə çevrilən “Ədalət” qəzeti; Nazirlər Kabinetinin mətbuat orqanı kimi yaradılan “Respublika” qəzeti və digərləri nəşr edilməyə başlanmışdı. Və mahiyyət etibarilə, bu dövr mətbuatında əsasən Azərbaycanın problemlərinin işıqlandırılmasına üstünlük verilirdi. Statistik məlumatlara görə, 1990-cı ildə Azərbaycanda 520.368 mln nüsxə tirajla 168 adda qəzet nəşr edilirdi. Əhalinin hər 100 nəfərinə 60 qəzet düşürdü[233].

*Cədvəl 5.*

1985-ci və 1990-cı ildə Azərbaycanda nəşr edilən qəzetlərin sayı

| 1985 | | 1990 | |
|---|---|---|---|
| Sayı | Tirajı (mln. nüsxə) | Sayı | Tirajı (mln. nüsxə) |
| 144 | 512 | 168 | 520,4 |

*Mənbə: Печать в СССР в 1985 году, с.154; Печать в СССР в 1990 году, с.104.*

[232] *Mətbuat tarixi. [Elektron resurs] - URL: https://www.azerbaijans.com/content_741_az.html*

[233] *Печать в СССР в 1990 году, с.84.*

Bu mətbuat orqanlarından araşdırmamızda respublika səviyyəli "Azərbaycan", "Kommunist", "Xalq qəzeti", "Azadlıq", "Azərbaycan gəncləri" qəzetlərində nəşr edilən məlumatlardan daha çox istifadə edilmişdir. Nəyə görə məhz bu qəzetlərin seçildiyi məsələsinə aydınlıq gətirməyin lazım olduğunu düşünürük. *"Kommunist" və "Xalq qəzeti"* ilə bağlı yuxarıda məlumat vermişik. Burada sadəcə Azərbaycan Sovet Ensiklopediyasında qəzet haqqında yazılan bu məlumatları əlavə etmək istərdik ki, *"Kommunizm quruculuğu dövründə sosialist demokratiyasının hərtərəfli genişləndirilməsi və təkmilləşdirilməsi, yeni insan tərbiyəsi və fəal həyat mövqeyinin formalaşdırılması və s. qəzetin aparıcı mövzuları olmuşdur. Həmçinin, V.İ.Leninin əsərləri Azərbaycan dilində ilk dəfə bu qəzetdə -1920-1940 illərdə- nəşr edilmişdir. 1981-ci ildən 460.000 tirajla nəşr edilirdi. 1923-cü ildə "Azərbaycan SSR Qırmızı Əmək Bayrağı", 1969-ci ildə "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilmişdi"*[234]. Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəzetin nəşri dayandırılmış, sonradan "Xalq qəzeti" adı ilə nəşrinə davam edilmişdir. "Xalq qəzeti" gündəlik 600.000 tirajla nəşr edilən ictimai-siyasi qəzetdir[235].

*"Azadlıq" qəzeti* 1989-cu ildən nəşr edilən gündəlik ictimai-siyasi qəzetdir. Azərbaycan Xalq Cəbhəsi Partiyasının həftəlik nəşri kimi yaradılıb. İlk müxalifət qəzetidir. Azərbaycanda materialları kompüterdə yığılan ilk qəzetdir[236]. 1996-cı ildən həftədə 6 dəfə nəşr edilir.

*"Azərbaycan gəncləri"* qəzeti 1919-1990-cı illərdə nəşr edilib. Azərbaycan SSR Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin orqanı idi. AXC dövründə "Gənc işçi" adı ilə nəşrinə başlanmışdı. Sonra AXC-nin təqibi nəticəsində fəaliyyəti dayandırıldı. 1923-cu ildən nəşri bərpa edildi. Həftədə 3 dəfə nəşr edilirdi. II Dünya müharibəsi illərində nəşri dayandırıldı. 1945-ci ildən "Azərbaycan gəncləri"

---

*[234] Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. V cild. Bakı, ASE Baş Redaksiyası, 1981, s.465.*
*[235] Xalq (qəzet, Azərbaycan) / Nina.az, avqust 7 1991. [Elektron resurs] - URL: https://www.wikimedia.az-az.nina.az/Kommunist_(q%C9%99zet).html*
*[236] Azadlıq qəzetinin 25 yaşı tamam olub // Modern.az İnformasiya Agentliyi, dekabr 24, 2014. [Elektron resurs] - URL: https://modern.az/news/69518/*

adı ilə fəaliyyəti bərpa edildi. 1976-cı ildən tirajı 430.000 nüsxə idi. 1931 ildə Azərbaycan SSR-nin "Qırmızı Bayraq Ordeni" ilə təltif edilmişdi[237].

*"Azərbaycan" qəzeti* rəsmi dövlət nəşridir. XX əsrin həm əvvəllərində, həm də sonlarında müstəqillik uğrunda, dövlətçilik naminə mübarizə aparan qəzetdir. "Azərbaycan Cümhuriyyəti hökumətinin Xəbərləri" kimi nəzərdə tutulmuş qəzetin Xalq Cümhuriyyəti dövründə 881 nömrəsi (Azərbaycan dilində 443, rus dilində 438 say) işıq üzü görmüşdü. İkinci fəaliyyəti dövründə 1000-ci sayının çapdan çıxması münasibətilə qəzetin kollektivini təbrik edən ümummilli lider Heydər Əliyev yazırdı: *"Əsası 1918-ci ildə qoyulmuş "Azərbaycan" qəzeti müstəqil dövlətçilik tariximizdə öz yeri olan nəşrlərdəndir. Vaxtilə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi qəzeti kimi nəşr olunmuş "Azərbaycan" xalqımızın istiqlal mübarizəsində mühüm xidmətlər göstərmişdir. Məlum tarixi səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti kimi, "Azərbaycan" qəzetinin də ömrü uzun olmamışdır. Xalqımız əsrin əvvəllərində itirdiyi müstəqilliyini əsrin axırlarında bərpa etdiyi zaman "Azərbaycan" qəzeti də yenidən fəaliyyətə başladı və müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət qəzeti kimi həyatda layiqli yerini tutdu"*[238].

Qeyd edək ki, araşdırma üçün mənbə seçimi zamanı başlanğıc mərhələdə, Azərbaycan mətbuatının ən nüfuzlu dövlət və müxalifət qəzetləri, eyni zamanda fərqli auditoriyalar üçün nəzərdə tutulmuş qəzetlər sırasından seçim etməyin doğru olacağını hesab etdik və yuxarıda adları çəkilən mətbuat orqanları müəyyənləşdirildi. Lakin araşdırma nəticəsində məlum oldu ki, 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarında cərəyan edən hadisələrlə bağlı xəbərlər əsasən "Kommunist" və "Xalq qəzeti"ndə nəşr edilmişdir. Araşdırma üçün müəyyənləşdirilən digər qəzetlərin əldə edə bildiyimiz saylarında müvafiq məlumatlara rast gəlinmədi. Adı çəkilən qəzetlər Azərbaycan və

---

[237] *Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. I cild. Bakı, ASE Baş Redaksiyası, 1976, s.157-158.*

[238] *İstiqlalımızın yadigarı və tarixin ən qüdrətli Azərbaycan salnaməçisi // Azərbaycan. – 2019. – 21 iyun. – s.6-7.*

SSRİ Mərkəzi Hökuməti ilə bağlı xəbərlərə üstünlük vermişlər. Bəhs olunan dövrdə qəzet nəşri ilə bağlı çətinlikləri və məhdudiyyətləri nəzərə alarsaq, məsələnin belə qoyuluşunu başa düşmək mümkün olar. Bu baxımdan, araşdırmamızda "Kommunist" və "Xalq qəzeti"nin materialları əsasında təhlil və müqayisəyə cəhd ediləcəkdir.

## 2.2. Qazaxıstandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi

"Kommunist" qəzetinin 1985-1989, "Xalq qəzetinin" 1989-1991-ci illər aralığında nəşr olunmuş nömrələrini təhlil edərkən, Qazaxıstanla bağlı məsələlərin həm dönəmsəl, həm də mövzu baxımdan qismən işıqlandırıldığını görmək mümkündür. Qəzetlərin səhifələrində Qazaxıstanın "Yenidənqurma və aşkarlıq" dövrünün ilk vaxtları ilə bağlı daha çox ictimai-siyasi, sosial-iqtisadi və mədəni xarakterli məsələrindən bəhs edilir, hər il təkrarlanan hadisələrə, əsasən bayram nümayişləri (məsələn, 1 may), məhsul yığımı, büdcə hesablanması və s. kimi məqalələrə yer verilirdi. Həmçinin qəzetlərdə Azərbaycan-Qazaxıstan əlaqələrinin bütün sahələrdə əməkdaşlığı məsələsinin işıqlandırıldığını müşahidə etmək mümkündür. Lakin 1986-cı ilin Alma-ata (Jeltoksan) hadisələri haqqında məlumatlara, demək olar ki, rast gəlinmir. Yalnız Qazaxıstan Kommunist Partiyasının plenumunda məsələnin müzakirə zamanı hadisə ilə bağlı respublika KP Birinci katibinin verdiyi qiymətdən bəhs edilir. Bunu, SSRİ Mərkəzi hökuməti tərəfindən 1986-cı ilin əvvəllərində elan edilmiş aşkarlıq siyasətinin hələ də əməli nəticələrinin olmaması ilə izah edə bilərik. Ümumilikdə Azərbaycan SSR-də dərc olunmuş mətbuat orqanlarına baxdığımızda, xüsusilə də 1985-1989-cü illərdə nəşr edilmiş qəzetlərdə daha çox mövcud rejimi dəstəkləyən, mədəni sosial-iqtisadi uğurlardan bəhs olunan məqalələrin yazıldığını görürük.

"Kommunist" qəzetinin 8 fevral 1985-ci il tarixli sayında 1985-ci il fevralın 7-də Azərbaycan Dövlət rəsm qaleriyasında "Sovet Qazaxıstanı rəssamlarının rəngkarlığı" sərgisinin keçirilməsi ilə bağlı məlumat verilmişdir. Məlumatda qeyd edilirdi ki, *"sərgidə müxtəlif dövrlərə aid qazax rəssamlarının nümayiş etdirilmiş əsərlərində milli*

*rəssamlıq ənənələri müasir təsvir vasitələri ilə sintez edilmiş, Qazaxıstanın zəngin mənzərələri, əməkçi insanların mənəvi aləminin zənginliyi təsvir edilmişdir"*[239].

Şair Çingiz Əlioğlunun Qazaxıstan səfərindən "Kommunist" qəzeti "Qardaş salamı" adlı məqaləsində bəhs etmişdi. Məqalədə qeyd edilirdi ki, *"Çingiz Əlioğlu Qazaxıstanda məskunlaşmış 80 min azərbaycanlının yaşadığı yerləri ziyarət edərək orada "Azərbaycan kitabı" tədbirində iştirak etmiş, həmçinin bir çox qazax ziyalıları ilə, o cümlədən, Qazaxıstan Yazıçılar İttifaqının sədri Oljas Süleymanovla tanış olmuşdur. Oljas Süleymanov azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) 1988-ci ildəki deportasiyasına, Qarabağdakı mürəkkəb vəziyyətə işarə edərək yeni dövrün Azərbaycan üçün həm dramatik, həm də milli ləyaqətin yüksək bir zirvəsi olduğunu vurğulamışdır"*[240].

Növbəti xəbər, 1990-cı ildə Qazaxıstanda Azərbaycan kitab günlərinin təşkil edilməsi ilə bağlı olmuşdur. Xəbərdə, "*"Otan" kitab mağazasında təşkil olunan tədbirdə həm Azərbaycan klassik ədəbiyyatı, həm də müasir yazıçıların əsərləri böyük rəğbət gördüyü, həmçinin oxucuların diqqətini ən çox çəkən stendlərdən birinin də Azərbaycan tarixinin son dövründən və Qarabağda baş verən gərginlikdən bəhs edən kitablar olduğu qeyd edilmişdir. "Qara yanvar. Bakı-1990: sənədlər və materiallar" məcmuəsi və "2 il davam edən faciə" fotoalbomu da yaxın dövr Azərbaycan tarixinə aid ən çox diqqəti cəlb edən nəşrlər arasında yer almışdır. Bu sərgidə Azərbaycan dilində kitabların çoxluğu Qazaxıstanın paytaxtında və onun regionlarında yaşayan minlərlə azərbaycanlılar üçün çox önəmli bir hadisə idi. Azərbaycanlı oxucular öz kitbxanalarını ana dilində kitablarla zənginləşdirmişdilər. Bu tipli sərgilər Qazaxıstanın Enbekşi-qazax, Keskelen rayonlarında və Çimkənd vilayətində də keçirilmişdir. Qazaxıstanda keçirilən sərginin Azərbaycanda cavab görüşü keçirilməsinin planlaşdırıldığı*" qeyd olunmuşdur[241].

---

[239] *Qazaxıstan lövhələrdə // Kommunist. – 1985, 8 fevral – s.3.*
[240] *Qardaş salamı // Kommunist. – 1989, 12 yanvar. – s.3.*
[241] *Azərbaycan kitabı Qazaxıstanda // Kommunist. – 1990, 16 avqust. – s.3.*

"Kommunist" qəzetinin 8 may 1987-ci ildə nəşr olunan xəbərində *"Mərkəzi Qazaxıstanda kömür mədəninin aşkara çıxarılmasının 150 illiyi və Karaqanda vilayətinin yaranmasının yarım əsrlik yubileyi münasibətilə nəşr olunmuş "Karaqanda. Karaqanda vilayəti" ensiklopediyası satışa buraxıldığı qeyd edilir və yeni elmi-məlumat nəşrində respublika fəhlə sinifinin tarixinə dair, ölkənin iri kömür bazasında iqtisadiyyatın və elmin inkişafı, ədəbiyyat və incəsənət xadimləri haqqında materialların daxil olduğu"* yazılmışdır[242].

1989-cu ildə "Kommunist" qəzetində daha bir mədəniyyət xəbəri dərc olunmuşdu. Xəbərdə Kumanqazı adına Alma-ata Dövlət Konservatoriyasının professoru, türk xalqları mədəniyyətinin tədqiqatçısı Tamara Əlibaqiyevanın uyğur mədəniyyəti və tarixindən bəhs edən "On iki uyğur muğamı" monoqrafiyasının işıq üzü gördüyü yazılırdı: *"Monoqrafiyada uyğurların musiqi mədəniyyətindən, həmçinin yaşlı nəslə mənsub uyğur muğam ifaçıları - Mattayir Xasanov, Nurmuhamməd Nəsibov, Qadirrazı Muhəmmədov, Qolur Qadirhacıyev, Sultanmurad Razamovun həyat və yaradıcılığı haqqında, o cümlədən musiqi terminləri lüğəti, arxaik sözlər, şəxs və yer adları, qədim sözlər lüğəti və uyğur xalqının tarixindən bəhs olunduğu bildirilir. Türk xalqlarının ortaq mədəniyyət və ortaq musiqi xətlərinin olduğunu vurğulayan müəllif, şərq xalqlarının eyni köklərə sahib olması, həmçinin musiqilərdəki oxşarlıqlardan bəhs edir. Azərbaycan xalqını türk olaraq görməyən məqalədə onun uyğur mədəniyyəti ilə olan oxşar xətləri şərq mədəniyyətinin nüanslarına bağlanılır"*[243].

"Kommunist" qəzetinin digər bir xəbəri isə kino sahəsi ilə bağlı olmuşdur. *"Məlum olduğu kimi, SSRİ-nin 1941-ci ildə II Dünya müharibəsinə daxil olması ilə İttifaq dövlətləri də o zamankı deyimlə, Böyük Vətən müharibəsinin iştirakçısına çevrildilər. İttifaq dövlətlərindən minlərlə gənc hərbi səfərbərliyə cəlb olunaraq cəbhəyə yollandı. Digər sovet millətləri kimi qazaxlar da bu müharibədə minlərlə itki verdi. Onlardan biri Qazaxıstanda ilk Sovet İttifaq Qəhrəmanı adı almış igid*

[242] *Vətənimizdə // Kommunist. – 1987, 8 may. – s.1.*
[243] *Muğam haqqında yeni tədqiqat // Kommunist. – 1989, 26 sentyabr. – s.2.*

*qazax qızı Aliyə Moldaqulovadır. "Snayper Aliyə" filmi onun həyat və döyüş fəaliyyətindən bəhs edir. 1985-ci ildə Qazaxıstanda onun haqqında film çəkilərkən baş rollardan birini Azərbaycanın məşhur aktyoru Ceyhun Mirzəyevə təklif etdilər. O, faşizm üzərindəki qələbədən sonra yapon militaristlərinə qarşı döyüşmüş mayor Valeh Salayevi canlandırmışdır"*[244].

1989-cü ilin sonlarında Qazaxıstanın mədəni həyatında önəmli bir digər hadisə yeni incəsənət muzeyinin fəaliyyətə başlaması oldu. Muzey Kustanay şəhərində fəaliyyətə başlamışdı. Muzeyin ilk eksponatı isə Azərbaycanlı rəssam Qəyyur Yunusovun Sovet mədəniyyət fondunun Kustanay şöbəsinə hədiyyə verdiyi "Uşaqlığın ağ quşları" qrafik əsəri olmuşdur. "Kommunist" qəzetinin xəbərində, sərgi ilə bağlı "Lenin yolu" vilayət qəzetində sərgi haqqında rəy dərc oldunduğu qeyd edilmişdi[245].

Aydındır ki, Qazaxıstan SSRİ-ə daxil olan ən güclü ittifaq respublikalarından biri olmuşdur. Mədəniyyət sahəsində fərqləndiyi kimi önəmli idman yarışlarına da ev sahibliyi etmişdir. 1985-1991-ci illərdə SSRİ də keçirilən müxtəlif idman yarışları və çempionatlara Qazaxıstan ev sahibliyi etmişdi. "Kommunist" qəzeti öz səhifələrində həm ümumilikdə bu yarışlar, həm də xüsusi olaraq, bu yarışlarda qalib gələn Azərbaycan idmançılar haqqında məlumatları geniş işıqlandırmışdı. Məsələn, 1986-ci ilin avqustunda Qazaxıstanın paytaxtı Alma-atada keçirilmiş boks üzrə SSRİ çempionatında ittifaq dövlətlərindən iki yüz nəfərdən çox boksçu iştirak etmişdi. Çempionatda iştirak edənlərin sırasında müxtəlif illərdə Olimpiya, dünya və Avropa çempionu olmuş önəmli boksçular var idi. Azərbaycanı bu yarışda Bakıdan, Kirovabaddan (Gəncə) və Sumqayıtdan olan idmançılar təmsil edirdilər[246]. Həmçinin, qazaxıstanlı idmançılar 1986-ci ildə Azərbaycanda keçirilən "Böyük Vətən müharibəsi"nin 40 illiyinə həsr olunmuş V Ümumittifaq kənd oyunlarında oxatma üzrə ittifaq respublikaları ara-

---

*[244] Həmyerlimiz "Qazaxfilm"də // Kommunist. – 1985, 22 avqust. – s.2.*
*[245] Qazaxıstanda müvəffəqiyyət // Kommunist. – 1989, 2 dekabr. – s.3.*
*[246] Fəxri kürsüdə // Kommunist. – 1986, 9 mart. – s.2.*

sında ikinci yerə, güləş üzrə yarışlarda birinci yerə və samboçuların yarışlarında da uğurlar əldə edərək yarışlarda fərqlənmişdilər[247].

1988-ci ildə SSRİ üzrə cüdo çempionatı da Qazaxıstanın paytaxtı Alma-Atada keçirilmişdir. "Kommunist" qəzeti bu yarışı Avropa çempionatları ilə müqayisə edərək, onları eyni səviyyəli yarışlardan hesab edir. Azərbaycanlı cüdoçuların da iştirak etdiyi bu yarışda Sumqayıt şəhərindən Fərhad Rəcəbli 1981-ci ildə qazandığı bürünc medalına, bu yarışda da gümüş medal qazanaraq SSRİ-in olimpiya komandasına namizədlik qazanmışdılar[248].

Çoxmillətli bir ölkə olan SSRİ-də hər hansı dini və milli bayramlar keçirilməsə də quruluşu dəstəkləyən, ideologiyasına güc qatan təbliğat xarakterli bayramlar keçirilirdi. 1 may - Beynəlxalq Əmək günü SSRİ-də ən önəmli günlərdən biri sayılırdı. "Kommunist"qəzetində bu bayramlarla bağlı hər il yazılar dərc olunmuşdur. Ölkənin hər yerində keçirilən 1 may bayramında, Qazaxıstanın paytaxtı Alma-Atada keçirilən bayram nümayişində Qazaxıstan Komunist Partiyasının birinci katibi D.Ə.Kunayev nümayiş iştirakçılarını 1 may Əmək günü münasibətilə təbrik etmiş və bu münasibətlə "Kommunist" qəzetində təbrik xəbəri dərc olunmuşdur[249]. Qeyd edək ki, Mərkəzi hakimiyyətin tədricən zəiflədiyi, Qarabağ müharibəsinin şiddətləndiyi son dövrlərdə bu tip bayramlar haqqında yazılara rast gəlinmir.

SSRİ-ə daxil olan ölkələrin hamısında hər il qeyd edilən bayramlardan biri də "Böyük Oktyabr" inqilabının ildönümü bayramı idi. Bu inqilabın ildönümləri ittifaq dövlətlərində Leninə sədaqət əlaməti olaraq qeyd edilir və "Kommunist" qəzeti bu tədbirləri geniş işıqlandırırdı. Məsələn, qəzetin 1986-ci il 8 noyabr tarixli sayında, bütün sovet ölkələrində olduğu kimi Qazaxıstan SSR də də "Böyük Oktyabr" inqilabının 69-cu il dönümü qeyd edildiyi; Qazaxıstanın paytaxtı Alma-atada keçirilən tədbirdə Sovet İttifaqı Komunist partiyası Mərkəzi

---

[247] *Ümumittifaq kənd oyunlarında // Kommunist. – 1985, 19 avqust. – s.2; Ümumittifaq kənd oyunlarında // Kommunist. – 1985, 20 avqust. – s.2; Ümumittifaq kənd oyunlarında // Kommunist. – 1985, 22 avqust. – s.2.*
[248] *Gümüş kürsüdə // Kommunist. – 1988, 14 fevral. – s.2.*
[249] *Respublikalarda şənliklər // Kommunist. – 1985, 1 may. – s.1.*

Komitəsinin Siyasi bürosunun üzvü, Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi D.Ə.Kunayev bayram şənliklərinin iştirakçılarını təbrik etdiyi haqda xəbər dərc olunmuşdu[250].

Azərbaycan və Qazaxıstanda məhsul yığımı zamanı azərbaycanlı mexanizatorların Qazaxıstanın müxtəlif bölgələrində qazax qardaşlarına dəstək olmağa getməsi ənənə halını almışdı. 1985-ci ildə də məhsul yığımına yardım etmək üçün 100 nəfər azərbaycanlı mexanizator Qazaxıstanın Kustanay vilayətinə getmişdi ki, onlardan biri də Zərdab rayonundakı Səməd Vurğun adına kolxozun mexanizatoru Sultan Ələşrəfov idi. O, Yesil rayonunun "Komsomolski" sovxozuna fərdi dəvət almışdı. Öz səhifələrində bu məsələni işıqlandıran "Kommunist" qəzeti yazırdı ki, *"Qazaxıstanın xam torpaqlarının istifadəyə verildiyi 30 il ərzində azərbaycanlı mexanizatorlar həmişə biçimlərdə iştirak etmişdilər"*[251]. Növbəti il "Kommunist" qəzeti yenə də eyni adlı məqalə ilə azərbaycanlı mexanizatorların Qazaxıstana taxıl biçiminə dəstəyindən xəbər vermişdi. Bu dəfə azərbaycanlı mexanizatorlar Turqay vilayətində - Amangəldi rayonunun müxtəlif təsərrüfatlarında fəaliyyət göstərmişdilər. Məqalədə azərbaycanlı mexanizator Qarəddin Gözəlovdan bəhs edərək onun 30 ildir ki, Qazaxıstanın Kustanay, Turqay və Selinoqrad vilayətlərinin xam torpaqlarının taxılçılarına kömək etmək üçün gəldiyi vurğulanır. Onun fədakar əməyi müxtəlif orden və medallarla təltif edilmişdi[252]. 1987-ci ildə isə digər illərlə müqayisədə daha çox 1.500 mexanizator taxıl biçini üçün Qazaxıstana getmişdi[253].

Azərbaycanlı mexanizatorların Qazaxıstan əkinçilərinə köməyə getməsi Qazaxıstanda azərbaycanlı avto-nəqliyyatçılar haqqında film çəkilməsinə səbəb olmuşdu. "Avtomobilçi" həvəskarlar kinostudiyasının çəkdiyi "Azərbaycan Qazaxıstana" sənədli filmində yenidənqurmanın təsərrufat tədbirlərindən danışır. Eyni zamanda qardaş respublikaya taxıl məhsulunu tez və itkisiz yığmağa kömək edən 1.500 nəfərlik işçi dəstəsindən bəhs edir. Film festivallar və müsabiqələr üçün

---

[250] *Respublikalarda şənliklər // Kommunist. – 1986, 8 noyabr. – s.1.*
[251] *Qazaxıstana, dostluq biçininə // Kommunist. – 1985, 3 avqust. – s.1.*
[252] *Qazaxıstana, dostluq biçininə // Kommunist. – 1986, 2 avqust. – s.1.*
[253] *Zəmilər səslənəndə… // Kommunist. – 1987, 22 avqust. – s.2.*

nəzərdə tutulmuşdu. Filmdə eyni zamanda avtomobilçilərin problemlərindən də bəhs olunurdu[254].

Film çəkilməsilə kifayətlənməyən Qazaxıstan Kommunist partiyası daha sonra azərbaycanlı işçilərə təşəkkür məktubu da ünvanlamışdı. Təşəkkür məktubu Qazaxıstan Kommunist partiyası Kokcetav Vilayət komitəsi vilayətinin təsərrufatlarında taxıl yığımında iştirak edən azərbaycanlı sürücülərə göndərilmişdi. Məktubda deyilirdi ki, *"Azərbaycanlı sürücülər vilayətin 11 rayonunda böyük hunər göstərmişlər. Lenin, Qızıl Ordu, Ckalov, Vəlixanov rayonlarında çalışan sürücülər işlərini bitirərək digər təsərrufatlara da kömək etmişlər"*[255]. Azərbaycanlı sürücülər Qazaxıstanın sərt iqlimində ağır işlərdə səmərəli fəaliyyət göstərdikləri üçün fəxri fərmanlarla da təltif edilmişdilər. Taxıl biçininə köməyə gedən son dəstə 1987-ci ilin dekabr ayında geri döndü. Bu haqda məlumat dərc edən qəzetdə qeyd edilirdi ki, onlar Qazaxıstanda 95 min ton taxıl tədarükünə nail olmuşdular[256].

Həmçinin vurğulamaq lazımdır ki, 1987-ci ildən sonra bu haqda məqalələr dərc edilməmişdir. Bütünlüklə SSRİ-də başlanan milli azadlıq hərəkatları və xüsusilə Azərbaycanda Qarabağ mövzusunun gündəm olması önəmli bir səbəb ola bilər. Digər ehtimallardan biri də, artıq bu ənənənin sona çatmasının mümkünlüyü ilə bağlıdır.

Rejimin rəsmi mətbuat orqanı olan "Kommunist" qəzeti hər ilin sonuna doğru gələcək ilin büdcə planlaşdırılmasını da səhifələrində dərc edirdi. Büdcə bölgüsünə baxdığımızda ən böyük məbləğ RSFSR, daha sonra Ukrayna SSR, üçüncü isə Qazaxıstan SSR-in payına düşürdü[257].

"Kommunist" qəzeti Sov.İKP MK Siyasi Burosunun üzvü SSRİ Nazirlər Sovetinin sədri N.İ.Rıjkovun 1987-ci il dekabrın 14-18-də Qazaxıstana rəsmi səfəri haqqında ətraflı məlumat dərc etmişdi: *"O respublikanı gəzmiş, bir sıra sənaye müəssisələrini ziyarət etmiş ... Alma-*

[254] *Azərbaycan-Qazaxıstan: Dostluq körpüsü // Kommunist. – 1987, 23 may. – s.2.*
[255] *Sağ olun, dostlar! // Kommunist. – 1987, 28 oktyabr. – s.2.*
[256] *Qazaxıstandan fəxri fərmanla // Kommunist. – 1987, 23 dekabr. – s.2.*
[257] *SSRİ-in 1986-ci il dövlət büdcəsi haqqında qanun // Kommunist. – 1985, 27 noyabr. – s.1.*

*Ata pambıq parça kombinatında yeni parça və naxış nümunələri ilə tanış olmuş, əməkçilərlə görüş zamanı yüngül sənayedə əməyin məhsuldarlığını və keyfiyyətini hər vasitə ilə yüksəltməyin vacibliyini vurğulamışdı. Rıjkov "Qazaxpolimetal" Dövlət İstehsal Birliyinin baş müəssisəsi olan Üst-Kamenoqorsk qurğuşun-sink kombinatında olmuş və məlumat almışdı ki, bu kombinatın fəaliyyəti dövlət istehsal birliyi yaradılması üçün faydalı olmuşdur. Belə ki, birliklərin əlaqələndirilmiş şəkildə inkişafı məsələlərini həll etmək asandır. Daha sonra Rıjkov Ekibastuz istilik-energetika kompleksinə getmiş, Ekibastuzdakı 2-ci DRES-in tikinti meydançasına, "Vastoçnıy" və "Boqatır" kömür mədənlərinə baxmışdır. Rijkov Selinoqrad yaxınlığında Ümumittifaq Elmi-Tədqiqat Taxıl Təsərrüfatı İnstitutunda, Çezqazan Əlvan Metallurgiya Elmi-İstehsal Birliyi cənub mədəninin 65 nömrəli şaxtasında olmuşdu. Respublikaya səfəri zamanı sosial problemlərin necə həll edildiyinə, mənzil tikintisinə, əhalinin ərzaq malları ilə təchiz olunmasına böyük diqqət yetirilmişdi. Səfərin gedişində Qazaxıstan KP Karaqanda, Selinoqrad, Çezqazan vilayət komitələrində müşavirələr keçirilmiş, müşavirədə respublikanın və regionun ən vacib məsələləri müzakirə edilmişdir"*[258].

Mərkəzi Asiya sovet respublikalarına nəzərən Qazaxıstanda tənqidi fikirin daha sərbəst olduğunu "Kommunist" qəzetində verilən məlumatlardan da müşahidə etmək olur. Keçirilən iclaslarda ölkədəki problemlərdən bəhs edilir, bunlar sərt tənqid edilirdilər. Digər Mərkəzi Asiya dövlətlərinə baxdığımızda isə bu kimi tənqidi fikirlərə rast gəlinmir. "Kommunist" qəzetinin "Qazaxıstan KP MK plenumunda" adlı məlumatında qeyd edilirdi ki, *"1987-cı il yanvarın 10-da Qazaxıstan KP MK-nın plenumu keçirilmişdir. Plenumda heyvandarlıq məhsullarının istehsalını artırmaq, əhalinin heyvandarlıq məhsulları ilə təchizatını yaxşılaşdırmaq sahəsində respublika aqrosənaye kompleksinin vəzifələri nəzərdən keçirilmişdi. Qazaxıstan KP MK-in Birinci katibi Kolbin çıxış edərək bir çox sahələrdəki əyintiləri tənqid etmişdi. Kolbin çıxışında bildirmişdi ki, respublikada heyvandarlığın inkişafı sahəsində görülən tədbirlər zamanın tələbinə cavab vermir, təsərrüfat-*

---

[258] *Qazaxıstana səfər // Kommunist. – 1987, 20 dekabr. – s.2.*

*ların əsl elmi metodlarına keçməyə cəhd edilmir və arxayınçılığa yol verilir. Eyni zamanda işlərin ləngiməsinin səbəblərindən biri olaraq kadrların seçilməsində və yerləşdirilməsində ciddi nöqsanlar olduğu vurğulanmışdı. Bunun əsas səbəbi olaraq kadr seçimində dostluq və qohumbazlıq səbəbindən vəzifəyə gətirilmə və ya işində uğurlu olmayan birini işdən çıxarmaq əvəzinə başqa bir vəzifəyə təyin edilməsi göstərilmişdir. Bu kimi problemlərin aradan qaldırılması üçün müəyyən tədbirlərin görülməsi qərarlaşdırılmışdı. Həmçinin plenumun qərarına əsasən Qazaxıstan KP MK İkinci katibi vəzifəsində çalışan O.S.Miroşxini S.Kubaşov əvəz etmişdir"*[259].

Qazaxıstan Kommunist Partiyasının XVI qurultayı əmək kollektivlərinin elmi-texniki tərəqqinin sürətləndirilməsinə, qənaət və qənaətçilik rejiminin gücləndirilməsinə, yaradıcılıq təşəbbüslərinin inkişaf etdirilməsinə istiqamətlənmişdi. Qazaxıstan SSR Nazirlər Sovetinin sədri N.A.Nazarbayevin "1986-1990-cı illərdə və 2000-ciilədək olan dövrdə SSRİ-in iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin layihəsi haqqında" etdiyi məruzə "Kommunist" qəzetinin 1986-cı il tarixli sayında işıqlandırılmışdı[260].

1987-ci ildə SSRİ-də "Qanunçuluğu möhkəmlətmək" şuarı altında ittifaq respublikalarındakı qanunsuzluqların və özbaşnalıqların qarşısının alınması haqqında ümumi müzakirə keçirildi. "Kommunist" qəzeti bu haqda yazırdı: *"Qazaxıstan, Mərkəzi Asiya və Zaqafqaziya respublikaları Daxili İşlər Nazirlikləri rəhbər işçilərinin birgə seminar-müşavirəsi qanunun qüvvəsinin təsirli inandırma ilə mükəmməl əlaqələndirilməsi, demokratiyanın və aşkarlığın genişlənməsi şəraitində Daxili İşlər Nazirliyi sisteminin bütün bölmələrinin fəaliyyətinin əsaslı sürətdə yenidən qurulması kimi məsələlərə həsr olunmuşdu. Müşavirədə qeyd edilmişdi ki, daxili işlər orqanları cinayətkarlığa, alkoqolizmə, narkomaniyaya qarşı mübarizəni gücləndirmişlər. Lakin buna baxmayaraq, bütün hüquq muhafizə orqanlarının fəaliyyəti hələ*

---

*[259] Qazaxıstan KP MK plenumda // Kommunist. –1986, 12 yanvar. – s.1.*

*[260] Qardaş respublikaların kommunist partiyalarının iclasları // Kommunist. –1986, 9 fevral. – s.1.*

*də kifayət qədər dəqiq əlaqələndirilmir, milis orqanlarının bir-biri ilə və partiya, həmkarlar ittifaqı, komsomol təşkilatları, əmək və tədris kollektivləri ilə qarşılıqlı fəaliyyəti zəif təşkil edilmişdir. Müşavirədə həmçinin 1986-ci il dekabr ayındaki Jeltoksan hadisələrinə toxunaraq bildirildi ki, Alma-Atada millətçi əhval-ruhiyyəli qrupların cəmiyyətə zidd hərəkətlərinin qarşısının alına bilməməsinin səbəblərindən biri, qarşılıqlı fəaliyyətin zəifliyi olmuşdur"*[261].

"Kommunist" qəzeti Qazaxıstan KP MK-nin 1988-ci ildə keçirilmiş plenumundan bəhs edərək yazırdı ki, plenumda*"Alma-Atada baş verən 1986-ci il hadisələrinə toxunulmuş, Jeltoksan hadisələrinin bilavasitə səbəbkarı olan Kolbin Sovet hakimiyyəti illərində Qazaxıstanın iqtisadi, sosial və mənəvi inkişafında böyük müvəffəqiyyətlər qazandığını, lakin 1986-cı ilin dekabrında qazax gənclərinin millətçi əhval-ruhiyyəli qrupların emosional çıxışların baş verdiyini vurğulamışdı. Bu çıxışların səbəbini Sov.İKP MK-nın keçmiş rəhbərliyinin və bir çox partiya komitələrinin Lenin milli siyasətinin həyata keçirilməsində ciddi səhvlərə yol verilməsində gördüyünü bildirmişdir. Həmçinin qeyd olunurmuşdur ki, Kunayevin və Brejnevin şəxsi dostluğu, respublikanın inkişafında mənfi rol oynamış, ən kəskin şəkildə proteksionizmə yer verilmişdir. Respublikada mənfi hallar törədənlər iqtisadi, sosial və mədəni sahələrdə kəskinləşən problemlərdən millətçiliyi qızışdırmaq üçün istifadə etmişlər"*[262].

Qazaxıstan KP MK-in 1990-ci ildə keçirilən plenumu ilə bağlı məlumatda "Kommunist" qəzeti yazır ki, plenumda *"respublikada siyasi islahatların keçirilməsinin vacibliyi vurğulanmış, ictimai münasibətlər sistemində, dövlət işlərinin idarə edilməsinin təkmilləşdirilməsində partiyanın rolu və yeri haqqında, respublika partiya təşkilatlarının yenilənməsi haqqında müzakirə aparılmışdır ... Qazaxıstan SSR konstitusiyasına yenidən baxılması və bu Konstitusiyanın altıncı maddəsinin dəyişdirilməsi haqqında təşəbbus irəli sürülmüşdür. Həmçinin "Qazaxıstan SSR prezidenti vəzifəsinin təsis olunması və Qazaxıstan*

---

[261] *Qanunçuluğu möhkəmlətməli // Kommunist. – 1987, 15 mart. – s.2.*

[262] *Qazaxıstan KP MK-in plenumu // Kommunist. – 1988, 7 iyun. – s.1.*

*SSR Konstitusiyasına dəyişikliklər və əlavələr" haqqında qanun qəbul edilməsi tələb edilmişdir"*[263].

Qəzetin 27 aprel 1990-ci il tarixli xəbərində "*"Qazaxıstan KP MK-da müzakirə edilən "Qazaxıstan SSR prezidentlik vəzifəsinin təsis olunması və Qazaxıstan SSR Konstitusiyasına dəyişikliklər və əlavələr" haqqında qanunun Qazaxıstan SSR Ali Sovetinin sessiyasında qəbul edildiyi bildirilir. Bu qanuna dəyişikliyi müttəfiq respublikaların həqiqi suverenliyi, bərabərliyi əsasında sovet federasiyasının yenilənməsi ilə açıqlayırlar. Plenum iştirakçıları Qazaxıstan KP MK-in Birinci katibi N.A.Nazarbayevin respublika prezidenti vəzifəsinə namizədliyini tövsiyə etdilər. Ali sovetin sessiyasında N.A.Nazarbayev Qazaxıstan SSR-in ilk prezidenti seçildi. Nazarbayev eyni zamanda Qazaxıstan KP MK-in birinci katibi vəzifəsində qalaraq Qazaxıstan SSR Konstitusiyasının ona verdiyi hüquqla iki vəzifəni icra etməyə haqq qazandı"* yazılmışdı[264]. Artıq qəzetin səhifələrində Qazaxıstanda baş verən siyasi proseslərlə bağlı xəbərlərə daha çox yer ayrılmağa başlandığını görmək mümkündür.

"Kommunist" qəzeti 1991-ci il 5 aprel tarixli sayında Qazaxıstanla Çin arasında rabitə əlaqələrinin yardılması üçün addımlar atıldığı ilə bağlı məlumat dərc etmişdi. Xəbərdə Çinin xüsusilə uyğurlar yaşadığı Sintszyan Uyğur Muxtar rayonu ilə Qazaxıstan arasında birbaşa əlaqələr yarandığı xəbər verilirdi. İki dövlət arasındakı razılığa əsasən, Qazaxıstanla Çinin sərhəd bölgəsini təşkil edən Uyğur muxtar bölgəsi arasında telefon və poçt rabitəsinin genişləndirilməsi nəzərdə tutulmuşdu[265].

1988-ci ildən başlayan Ermənistan-Azərbaycan arasındakı gərginliyin danışıqlar yolu ilə həllini tapmağa çalışan ölkələrin sırasında ön yerlərdə Qazaxıstan gəlirdi. 1990-cu il Qazaxıstan SSR Ali Sovetinin yeni çağırışında Qazaxıstan SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali sovetlərinə, SSRİ Xalq deputatları Sovetlərinə müraciət qəbul olunmuşdu. Müraciətdə bildirilirdi ki, "*Qardaş müttəfiq respublikaların əsl suverenliyə can atdıqlarına tərəfdar çıxaraq, Qazaxıstan SSR Ali Soveti*

---

[263] *Qazaxıstan KP MK-in plenumu // Kommunist. – 1990, 25 aprel. – s.1.*

[264] *Qazaxıstan prezidenti seçilmişdir // Kommunist. – 1990, 27 aprel. – s.1.*

[265] *Salam,Urumçi // Kommunist. – 1991, 5 aprel. – s.2.*

*eyni zamanda ölkənin müxtəlif regionlarında qeyri-sabit vəziyyətlə əlaqədar dərin təşvişini və narahatlığını ifadə edir. Əminik ki, ölkənin hər hansı regionunun iqtisadi, sosial, milli-mədəni inkişafının bütün problemləri ancaq SSRİ Konstitusiyası və respublikaların konstitusiyaları, qüvvədə olan qanunlar əsasında həll edilməlidir. Sizi ümumi evimizdə vəziyyətin sabitləşdirilməsi üçün, hər bir sovet adamının həyatının, şərəf və ləyaqətinin qorunması üçün bütün nüfuzunuzdan və səlahiyyətinizdən istifadə etməyə çağırırıq"*. "Kommunist" qəzeti bu müraciəti də öz səhifələrində dərc etmişdi[266].

SSRİ-nin tərkibindəki müttəfiq respublikalar Yeni ittifaq müqaviləsi üçün hazırlıqlar aparırdıqları dövrdə "Kommunist" qəzeti Qazaxıstan parlamentinin dördüncü sessiyasında deputatların bu məsələni müzakirə edərək yalnız müəyyən dəyişikliklərdən sonra müqaviləni imzalayacaqlarını bildirməsi haqqında xəbər dərc etmiş[267]; Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda İttifaq müqaviləsinin imzalanmasının yubadılmasının ölkədə baş verən mürəkkəb sosial-iqtisadı vəziyyəti daha da çətinləşdirə biləcəyinə olan qorxu səbəbindən onun tezliklə imzalanmasına tərəfdar olduqlarının bildirildiyi haqqında məlumat dərc etmişdi[268].

27 avqust 1991 tarixindən başlayaraq rejimin rəsmi qəzeti olan "Kommunist" qəzeti artıq "Xalq qəzeti" olaraq dərc olunmağa başlayır. Qəzetin dərc etdiyi xəbərlər sırasında Qarabağda baş verən gərginliyi həll eləmək üçün Qazaxıstan prezidenti Nazarbayev və Rusiya prezidenti Yeltsinin 1991-ci il 20-24 sentyabrda Azərbaycanda rəsmi səfərdə olduğu haqda məlumat da var idi[269]. Belə ki, SSRİ-nin dağılması ərəfəsində Ermənistan SSR-in əsassız iddiaları gün keçdikcə daha da şiddətli və zorakı bir hal almağa başlayırdı. Suveren respublika rəhbərlərinin danışıqları zamanı Qarabağ problemini həll etmək məqsədilə irəli sürül-

---

[266] *Sessiyada fasilə elan edilmişdir // Kommunist. – 1990, 29 aprel. – s.2.*
[267] *Son saatda // Kommunist. – 1991, 26 iyun. – s.3.*
[268] *Son saatda // Kommunist. – 1991, 23 iyul. – s.1.*
[269] *Ruintən, S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri) / S.Ruintən. – Bakı: Adiloğlu, – 2005. – s.89-91; Rusiya və Qazaxıstan prezidentləri Azərbaycanda // Xalq qəzeti. – 1991, 21 sentyabr. – s.1.*

müş təkliflər paketini müzakirə etmək nəzərdə tutulmuşdu. Qəzetdə prezidentlərin Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinə yola düşməsi haqqında xəbər verilmişdi.

Sentyabr ayının 24-də bu xəbərin davamı olaraq "Xoş məramlı səfər" adlı məlumatda Rusiya və Qazaxıstan prezidentlərinin Xankəndində (o vaxt, Stepanakert -müəl.) Azərbaycan və erməni icmaları ilə görüşərək münaqişənin sülh yolu ilə həll edilməsinə çalışdıqları bildirilirdi: *"Qazaxıstan və Rusiya prezidentləri erməni xalq deputatı Arkadiy Manuçarovun irəli sürmək istədiyi "proqram"ı dinləməmişdilər. Deputat, Rusiyaya erməni "Dağlıq Qarabağ Respublikası"nı tanımağı təklif etmiş, lakin Yeltsin bu təklifi rədd edərək, məsələnin onun səlahiyyətinə aid olmadığını bildirmişdi. Yeltsin deyirdi ki, nə o, nə də Nazarbayev müstəqil Azərbaycanın daxil işlərinə qarışmaq, xüsusən də ona aid olan problemləri onun "başı üzərindən" həll etmək fikrində deyillər. Həmçinin qeyd etmək lazımdır ki, Nazarbayev və Yeltsin Xankəndində* (o zaman, Stepanakert – müəl.) *olarkən erməni icması azərbaycanlılara qarşı təxribatlarını davam etdirmişdilər. Belə ki, Azərbaycan kinostudiyasının operatoru Elxan Əliyev, əvvəl Sovet binasının qarşısındakı meydanda döyülmüş, daha sonra naməlum şəxslər tərəfindən qaçırılmışdı. Bir müddət girov kimi saxlanılan Elxan Əliyev azad edildikdən sonra bildirmişdi ki, ermənilərin niyyəti onu həbs olunmuş dörd erməni ilə dəyişdirmək olub"*[270]. Bütün hallarda Qazaxıstan münaqişənin həll edilməsində maraqlı tərəf idi və Qarabağ məsələsində həlledici tərəf rolunu üstlənərək müşahidəçi qrupun tərkibini də təşkil etmişdi.

"Xalq qəzeti" Qazaxıstanla bağlı növbəti xəbərlərin birində yazırdı ki, Qazaxıstan, artıq son günlərini yaşayan SSRİ-ni təşkil edən dövlətlərin yeni birlik ətrafında birləşməsinin zəruriliyini ifadə edir. Elə bu vaxtda Qazaxıstanda rejimin rəsmi qəzeti olan "Sosialistik Qazaxıstan" qəzeti artıq "Egemendi Qazaxıstan" (Suveren Qazaxıstan) adı ilə nəşr

[270] *Xoş məramlı səfər // Xalq qəzeti. – 1991, 24 sentyabr. – s.3.*

olunacağını elan etdi. Onun yeni şüarı: *"Azadlıq, bərabərlik, qardaşlıq"dır*[271].

"Xalq qəzeti" həmçinin 1991-ci il iyun ayının 1-də SSRİ prezidenti, Sov.İKP MK Baş katibi M.S.Qorbaçovun[272], yenə həmin il sentyabr ayının 30-da Azərbaycan Respublikasının o zamanki prezidenti Ayaz Mütəllibovun[273]; oktyabr ayının 16-da Almaniya Federativ Respublikasının xarici işlər naziri Hans-Ditrix Genşerin[274] Qazaxıstana rəsmi səfərləri haqqında da məlumatlar dərc edirdi.

"Xalq qəzeti"nin 24 dekabr 1991-ci ildə nəşr olunan nömrəsində artıq SSRİ-nin ömrünü başa vurduğu qeyd edilirdi. Eyni zamanda, *"Yeni yaranan Müstəqil Dövlətlər Birliyi hansı vədləri verir?"* sualına da cavab verilmişdi: *"Keçmiş Sovet İttifaqının üzvlərindən təşkil edilmiş MDB, onu imzalayan dövlətlərə bir sıra öhdəliklər təmin edirdi. Bu öhdəliklərə bir-biri arasında münasibətlərdə dövlət suverenliyinin və suveren bərabərliyin, öz müqəddəratını təyin etmək hüququnun, hüquq bərabərliyi və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinin qarşılıqlı sürətdə tanınması və onlara hörmət edilməsi, zor işlətməkdən və zor işlətməklə hədələməkdən, iqtisadi və hər hansı digər təzyiq metodlarından imtina olunması, mübahisələrin dinc yolla aradan qaldırılması, insan azadlıqlarına, o cümlədən milli azlıqların hüquqlarına hörmət edilməsi, hamı tərəfindən qəbul edilmiş digər beynəlxalq hüquq vasitələri və normalarının vicdanla yetirilməsi əsasında inkişaf etdiriləcək demokratik hüquqi dövlətlər qurmağa çalışaraq; bir birinin ərazi bütövlüyünü, mövcud sərhədlərin pozulmaz olduğunu qəbul edərək və bunlara hörmət edərək; dərin tarixi kökləri olan əməkdaşlıq münasibətlərini möhkəmlətməyin xalqların mənafelerinə cavab verdiyini, sülh və təhlükəsizlik işinə xidmət etdiyini bildirərək; vətəndaş sülhünün və millətlərarası həmrəyliyin saxlanılması üçün özlərinin məsuliyyətini dərk edərək; Müstəqil Dövlətlər Birliyi yaradılması*

[271] *Operativlik yaxşı şeydir, amma həqiqət daha vacibdir // Kommunist. – 1991, 15 iyun. – s.3.*
[272] *Qazaxıstan torpağında görüşlər // Kommunist. – 1991, 1 iyun. – s.1.*
[273] *Qazaxıstana xoş məramla // Xalq qəzeti. – 1991, 1 oktyabr. – s.1.*
[274] *AFR ilə birbaşa əməkdaşlıq // Xalq qəzeti. 1991, 18 oktyabr. – s.2.*

*haqqında sazişin məqsədlərinə və prinsiplərinə tərəfdar olaraq aşağıdakıları bildirirlər; Birliyin iştirakçıları bərabərlik əsasında yaradılan və birliyin iştirakçıları arasında sazişlərlə müəyyənləşdiriləcək qaydada fəaliyyət göstərən əlaqələndirici təsisatlar vasitəsilə hüquq bərabərliyi prinsipi əsasında qarşılıqlı fəaliyyət göstərəcəklər"*[275].

"Xalq qəzeti"nin 1991-ci il 24 dekabr tarixli sayında dərc etdiyi xəbərdə bildirilirdi ki, *"Müstəqil Dövlətlər Birliyinin yaranması haqqında "Alma-Ata Bəyannaməsi" ilə Sovet Sosialist Respublikalar İttifaqı öz varlığını itirmiş oldu. Birlik üzləri bəyannamənin prinsiplərinə sözsüz əməl etmə vədi verdilər. Bəyannaməni Azərbaycan, Belarusiya, Qazaxıstan, Ermənistan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna imzaladılar"*[276]. Qeyd edək ki, Azərbaycan MDB-yə 1993-cü ilin sentyabr ayında üzv olub.

## 2.3. Özbəkistandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi

"Kommunist" qəzetində 1985-1991-ci illərdə Özbəkistan SSR-lə bağlı xeyli məlumat mövcuddur. Lakin bu məlumatlar siyasi hadisələrdən uzaq, daha çox sosial-iqtisadi həyatla bağlıdır. SSRİ dövründə Azərbaycanla Özbəkistan arasında pambıq yarışını aparılırdı ki, bununla bağlı xəbərlərə "Kommunist" gəzetinin səhifələrində geniş yer verilirdi. Özbəkistanla bağlı verilən xəbərlərin fərqli xüsusiyyəti, bu xəbərlərdə 1989-cu ilin Fərqanə hadisələrinə də yer ayrılmasıdır. Fərqanədən deportasiya edilən Ahıska türklərinin bir hissəsinin Azərbaycana köç etməsini, bu məsələnin Azərbaycan mətbuatında az da olsa işıqlandırılmasının əsas səbəblərindən hesab edə bilərik.

1985-ci ilin aprel plenumundan sonra "Kommunist" qəzetndə Özbəkistanla bağlı verilən ilk xəbər 1 may şənlikləri ilə bağlı olmuşdur. Belə ki, bütün SSRİ-də ən təmtəraqlı bayramlardan hesab olunan 1 may - Beynəlxalq əmək günü Özbəkistanda da xüsusi olaraq qeyd edilirdi.

[275] *Alma-Ata bəyannaməsi // Xalq qəzeti. 1991, 24 dekabr. – s.2.*
[276] *Yenə orada.*

Bu bayram nümayişlərinin ölkənin hər yerində təşkil edildiyi ilə bağlı verilən xəbərdə Özbəkistan haqqında da məlumat verilmişdir[277].

Kommunist partiyasının eyni adlı rəsmi qəzeti ölkədə qəbul olunmuş qanunları, qərarları, fərmanları öz nömrələrində dərc edirdi. Elə bu səbəbdən qəzeti təhlil edərkən böyük əksəriyyətinin iclaslardan, iclaslarda qəbul olunan qərarlardan və bu kimi rəsmi sənədlərdən ibarət olduğunu görmək mümkündür. Məsələn, 1985-ci il iyulun-2 də Kreml sarayında İttifaq Sovetinin iclasında müzakirə edilən məsələlər 2 gün sonra “Kommunist” qəzetində dərc edilmişdi. SSRİ Ali Sovetinin on birinci çağırış sessiyası ilə bağlı “Kommunist” qəzetinin 4, 5 və 6 iyul tarixli saylarında “Qaydanı və mütəşəkkilliyi möhkəmlətməliyik” başlığı altında məlumatlar dərc olunmuşdu. Məlumatlarda bildirilirdi ki, *“İttifaq respublikalarının nümayəndələrinin iştirak etdiyi iclasda Özbəkistan Respublikasının Həmkarlar İttifaqları şurasının sədri deputat N.M.Mahmudov qanunçuluğu möhkəmlətmək üçün həmkarlar ittifaqının gördüyü işlərdən bəhs edib, çıxışında tapşırılan iş üçün kadrların məsuliyyətini yüksəltmək, dövlət, plan və əmək intizamını möhkəmlətmək məqsədilə həmkarlar ittifaqının gördüyü işlər haqqında məlumat verib”*[278].

Yuxarıda qeyd olunduğu kimi, Özbəkistan, SSRİ-nin əsas pambıq bazası hesab olunurdu. Lakin Özbəkistanla birlikdə Türkmənistan, Tacikistan və Azərbaycan da SSRİ-də önəmli pambıq mərkəzləri olaraq bilinirdilər. Bu respublikalar arasında ənənə halını almış yoxlama briqadalarının Azərbaycana gəlişi hər il “Kommunist” qəzetində əks olunmuşdur. Hər il pambıq yığımı zamanı Azərbaycana gələn bu briqadaların, 1985-ci ildə Azərbaycanın müxtəlif bölgələrində olması, Azərbaycan tarlalarını gəzərkən həm müsbət, həm də çatışmayan cəhətləri qeyd etmələri, ümumilikdə Azərbaycan pambıqçılarının gərgin

---

[277] *Respublikalarda şənliklər // Kommunist. – 1985, 1 may. – s.1.*

[278] *Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. – 1985, 4 iyul. – s.2; Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. – 1985, 5 iyul. – s.2; Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. – 1985, 6 iyul. – s.1.*

əməyini yüksək qiymətləndirdikləri haqda xəbərlər qəzetin bir neçə sayında ard-arda dərc edilmişdir[279].

Özbəkistan SSR həm ittifaq ölkələri, həm də qonşu dövlətlərlə əməkdaşlıqlara həmişə istəkli olmuşdur. Bu baxımdan, "Kommunist" qəzetinin də Özbəkistanın digər dövlətlərlə qurduğu iki tərəfli əlaqələrdən və əməkdaşlıqlardan bəhs edən yazılarına rast gəlinir. 1986-ci ilin 15 dekabrında Əfqanıstan Xalq Demokrat Partiyası Mərkəzi Komitəsinin Baş katibi Məhəmməd Nəcibulla (Doktor Nəcib) Daşkəndə rəsmi səfər etmişdi. Bununla bağlı xəbərdə qeyd edilirdi ki, *"Leninin abidəsi önünə əklil qoymaqla başlanan rəsmi səfərdə daha sonra Daşkənd Dövlət Universitetində Sovet-Əfqanıstan dostluq mitinqdə iştirak etmişdir. Mitinqdə çıxış edən Məhəmməd Nəcibulla bildirmişdi ki, yeni həyat quruculuğunda Sovet İttifaqının qardaşlıq yardımı üçün Əfqanıstan xalqı hər zaman minnətdar olacaqdır"*[280].

1986-cı ildə Daşkəndə növbəti rəsmi səfər SSRİ ilə sıx əməkdaşlıq edən "Malqaş inqilabı Avanqardı Partiyası"nın Baş katibi, Madaqaskar Demokratik respublikasının prezidenti Didye Ratsiraka tərəfindən edilmişdi. O, Moskva rəsmi səfərini bitirdikdən sonra həyat yoldaşı ilə Daşkəndi də ziyarət etmiş və "Kommunist" qəzetində bu haqda xəbər dərc edilmişdi[281].

1987-ci ildə Özbəkistan daha bir xarici qonağa ev sahibliyi etdi. Bu dəfə Malaziya baş naziri Özbəkistanın tarixi şəhəri olan Səmərqəndi ziyarət etdi. "Kommunist" qəzeti "qədim şəhərin arxitekturasına heyran olmuş" Malaziya baş naziri M.Məhəmmədin gəlişi haqqında məlumat vermiş və bildirmişdi ki, *"Mahathir Məhəmməd əvvəlcə paytaxt Daş-*

---

[279] *Xeyirxah məsləhətlər // Kommunist. – 1986, 10 avqust. – s.2; Qardaş respublikaların yarışı // Kommunist. – 1985, 8 avqust. – s.1; Qardaş respublikaların yarışı // Kommunist. – 1986, 8 avqust. – s.1; Qardaş respublikaların yarışı // Kommunist. – 1988, 3 avqust. – s.2; Qəlbimiz də pambıq kimi ağdır // Kommunist. – 1989, 9 avqust. – s.2; Səmimi görüşlər, faydalı məsləhətlər // Kommunist. – 1986, 9 avqust. – s.2; Yubiley ilinə zərbəçi əmək // Kommunist. – 1987, 23 avqust. – s.2.*
[280] *SSRİ-dən getmişdir // Kommunist. – 1986, 16 dekabr. – s.3.*
[281] *Daşkəndə yola düşmüşdür // Kommunist. – 1986, 27 sentyabr. – s.3.*

*kənddə naməlum əsgərin məzarı önünə əklil qoymuş. daha sonra Özbəkistan SSR Xalq Təsərrufatının Nailiyyətləri Sərgisinə baxmışdır"*[282].

Özbəkistana edilmiş rəsmi səfərlərdən ən əhəmiyyətlisi şübhəsiz ki, İttifaq lideri Qorbaçovun Daşkəndi ziyarəti olmuşdu. Bu səfərin həm daxili, həm də xarici siyasətlə əlaqədar əhəmiyyəti vardı. İlk mərhələdə Daşkənddə Əfqanıstan Respublikasının prezidenti, ƏXDP MK-in baş katibi Nəcibulla ilə görüşən Qorbaçov həmkarı ilə bir neçə bəyanat vermişdi[283]. Bundan sonra Qorbaçov Özbəkistan kolxozlarını ziyarət etmişdi və "Kommunist" qəzeti bununla da bağlı xəbər paylaşmışdı: *"Ziyarət zamanı o, kolxozçularla açıq söhbət etmiş, onların problemlərini dinləmişdir ... əsasən kolxozçuların mənzil təminatı, keyfiyyətli radio aparatlarının, müasir mebel və avtomaşınların gətirilməsindən danışılaraq, kolxozçuların həyat səviyyəsinin yüksəldilməsinin əsas məsələ olduğu vurgulanmışdır"*[284].

1991-ci ilin noyabr ayında "Xalq qəzeti"ndə Özbəkistan-Belarusiya əməkdaşlıq əlaqələrinin qurulması haqqında "Kənardan təyziq olmadan" adlı yazı dərc olunmuşdu. Artıq son günlərini yaşayan İttifaqın respublikalarının əksəriyyətinin öz müstəqilliyini elan etməsi səbəbindən, "Xalq qəzeti" onları suveren respublikalar adlandırırdı. Daşkənddə baş tutan görüşdə Özbəkistan prezidenti İslam Kərimov, və Belarus Ali Sovetinin sədri Stanislav Şuşkeviç iki dövlət arasında dövlətlərarası münasibətlərin əsasları haqqında müqavilə, habelə ticarət-iqtisadi əlaqələr haqqında hökümətlərarası saziş imzalamışdılar[285].

Tarixə keçmişə dayanan əməkdaşlıq və dostluq münasibətlərini gələcəyə daşımaq üçün 1991-ci ildə həmçinin Azərbaycan və Özbəkistan respublikaları arasında da əməkdaşlıq müqavilələri imzalanmışdı. "Xalq qəzeti" 1991-ci il 22 oktyabrda Özbəkistan və Azərbaycan arasında imzalanmış ikitərəfli müqavilələrin şərtlərini dərc etmiş və bildir-

---

*[282] Qonaq ölkəni gəzir // Kommunist. – 1987, 4 avqust. – s.2.*
*[283] Qorbaçovun Nəcbibulla ilə görüşü // Kommunist. – 1988, 8 aprel. – s.2.*
*[284] Yeni tərzdə düşünməli, qətiyyətlə fəaliyyət göstərməli // Kommunist. – 1988, 9 aprel. – s.2.*
*[285] Özbəkistan - Belarus əlaqələri: kənardan təyziq olmadan // Xalq qəzeti. – 1991, 8 noyabr. – s.3.*

mişdi ki, *"imzalanmış müqavilələr iki ölkə arasında siyasi, iqtisadi, mədəni, elmi və digər əlaqələri inkişaf etdirmək əzmini nümayiş etdirir, yeni quruculuq prinsiplərində insan haqları, beynəlxalq hüquq normaları, bir-birilərinin ərazi bütövlüyü və suverenliyinə tərəfdar çıxırlar"*[286].

"Kommunist" qəzetinin növbəti xəbəri Özbəkistanın paytaxtında SSRİ Mərkəzi hökuməti ilə Orta Asiya respublikaları və Qazaxıstan arasında baş tutmuş görüş haqqında olmuşdu. Yeni ittifaq müqaviləsinin müzakirəsi görüşdə müzakirə olunan ən önəmli məsələ idi. Bu görüşdə Azərbaycan nümayəndə heyəti də iştirak etmişdi[287].

"Kommunist" qəzetində Özbəkistanla bağlı xəbərlərdə Özbəkistanın mədəni həyatı haqqında xeyli yazı dərc olunmuşdur. Bu yazılarda həm Özbəkistanda baş verən tədbirlər, həm özbək mədəniyyət xadimlərinin Azərbaycanda qatıldığı konsert və tədbirlər, həm də Özbəkistanın elm və ədəbiyyat xadimlərinin Azərbaycan yazıçılarının həyat və yaradıcılığını öyrənən elmi əsərləri haqqında məlumatlar verilirdi. Məsələn, "Kommunist" qəzetinin 1986-cı ilin əvvəllərinə aid saylarının birində qeyd edirdi ki, *"Daşkənddə Nizami adına Pedaqoji İnstitutun "SSRİ xalqları ədəbiyyatı" kafedrasının müdiri vəzifəsində çalışan, filologiya elmləri doktoru professor N.M.Maleyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin mədəni irsindən bəhs edən "Nizami Gəncəvi irsi və onun təlim-tərbiyəvi əhəmiyyəti" adlı bir kitab tərtib etmişdir. Kitabın ən diqqətəlayiq xüsusiyyəti onun o zamana qədər məlum olmayan mənbələrdən istifadə edilərək yazılması idi"*[288].

Qəzetin növbəti saylarının birində, görkəmli Azərbaycan yazıçılarının əsərlərinin SSRİ xalqları tərəfindən böyük rəğbətlə qarşılanması, yaradıcılığı özbək oxucular tərəfindən rəğbətlə qarşılanan azərbaycanlı yazıçı Gülhüseyn Hüseynoğlunun 50 mənsur şeir və 3 hekayədən

---

[286] *Ruintən, S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində, s.102-104; Azərbaycan-Özbəkistan əməkdaşlığının yeni üfüqləri // Xalq qəzeti. – 1991, 22 oktyabr. – s.1.*
[287] *Prezidentlərin görüşü başladı // Kommunist. – 1991, 14 avqust. – s.1.*
[288] *Özbəkistandan töhfə // Kommunist. – 1986, 18 mart. – s.1.*

ibarət "Gül ömrü" kitabının özbək dilinə tərcümə edilməsi haqqında xəbər dərc olunmuşdu[289].

"Kommunist" qəzetində Özbəkistanın mədəni həyatı ilə bağlı nəşr olunan xəbərlər sırasında Daşkənddə 1986-ci ildə IX, 1988-ci ildə X Beynəlxalq kino festivallarının keçirilməsi xəbərləri də vardır. Beynəlxalq kino festivalları sosial ədalət və istiqlaliyyət uğrunda, əsarətə və zorakılığa qarşı, humanizm və sülh ideyalarının bərqərar olması uğrunda Asiya, Afrika və Latın Amerikası kinematoqrafçılarının işlərinə baxış xarakteri daşımışlar[290]. Beynəlxalq kino festivalının baş mükafatı olan "Qızıl simurq"u almaq üçün təqdim edilmiş bütün əsərlərin motivində "Sülh, sosial tərəqqi və xalqların azadlığı uğrunda" devizi özünü göstərirdi. Festivalda Çin, Hindistan, Gürcüstan, Misir və Kuba kinematoqrafçıları müxtəlif nominasiyalarda qalib olmuşdular[291].

Məlum olduğu kimi, 1941-1945-ci illəri əhatə edən, SSRİ xalqları üçün "Böyük Vətən" müharibəsi adlanan SSRİ-in İkinci dünya müharibəsində cəlb edildiyi zamanlarda Gürcüstanda yaşayan Ahıska (Mesxeti) türkləri Türkiyə ilə sərhəddə yaşaması səbəbindən SSRİ tərəfindən "böyük təhlükə mənbəyi" hesab olunaraq, 1944-cü ildə Mərkəzi Asiyaya sürgün edilmişdilər. Bu ağır və çətin sürgündə yüzlərlə Ahıska (Mesxeti) türkü məhv olmuş, sağ qalanlar Orta Asiya və Qazaxıstan respublikalarının ərazilərində məskunlaşdırılmışdılar. Ən çox yaşadıqları respublika isə Özbəkistan SSR olmuşdu. Stalinin vəfatından sonra deportasiya olunmuş xalqların bəraət almalarına baxmaraq, Ahıska (Mesxeti) türkləri və Krım tatarlarına repatriasiya hüququ tanınmamışdı. Öz doğma torpaqlarına geri dönə bilməyən Ahıska (Mesxeti) türklərinin bir hissəsi SSRİ-nin digər bölgələrinə, o cümlədən Azərbaycana köçsə də, eyni zamanda, sürgün edildikləri bölgələrdə, o cümlədən Özbəkistanda yaşamağa davam edənlər də olmuşdu. 1989-cu ildə Özbəkistanda yaşayan Ahıska (Mesxeti) türkləri ilə etnik özbəklər arasında vəziyyət gərginləşdi və özbəklərin onlara qarşı radikal

[289] *Özbək dilində // Kommunist. – 1988, 30 mart. – s.1.*
[290] *Daşkənd festivalının filmləri // Kommunist. – 1986, 3 iyun. – s.2.*
[291] *Festivalın qalibləri // Kommunist. – 1988, 1 iyun. – s.1.*

çıxışları baş verdi. "Fərqanə hadisələri" kimi yadda qalan bu hadisələrdən sonra gəlmələr bölgəni tərk etmək məcburiyyətində qaldılar. Bölgəni tərk edən Ahıska (Mesxeti) türklərinin ən böyük köçü isə Azərbaycan ərazisinə oldu. Rejmin rəsmi orqanı olan "Kommunist" qəzeti hadisələrin baş verdiyi zaman qısa da olsa bu hadisələrdən bəhs etmişdi. 15 iyul 1989-cu ildə dərc edilmiş "Fərqanə od tutub yanırdı" adlı məqalədə Fərqanə hadisələrindən söhbət açılır, hökumətin gördüyü tədbirlərin yetərsiz olduğu, zülmə məruz qalan tərəfin köçürülməsinin səhv olduğu qeyd edilirdi. Məqalədə həmçinin yazılırdı ki, *"radikal çıxışların qarşısını almaq üçün hökumət gec qalmış, bölgəyə gələn polis dəstələri tez və adekvat tədbirlər görməmişdilər"*. Ahıska (Mesxeti) türklərinin ata yurdu olan Gürcüstana geri qaytarılması məsələsi də problemin həll yollarından biri olaraq ortaya qoyulur, eyni zamanda bunun çətinliyindən də bəhs edilirdi[292].

Yuxarıda qeyd olunduğu kimi, Fərqanə hadisələri səbəbindən Özbəkistanı tərk edən Ahıska (Mesxeti) türklərinin ən çox köç etdiyi ərazilərdən biri də Azərbaycan SSR olmuşdu. Elə bu səbəbdən, Özbəkistan KP MK-nın katibi M.H.Xalmuhəmmədov Özbəkistan SSR-in bir sıra idarələrinin məsul qrupu ilə birlikdə bir həftəlik Azərbaycan SSR-ə gəlmişdi. Gəlişinin əsas səbəbi, köç etmiş Ahıska (Mesxeti) türkləri ilə maraqlanmaq və, əgər mümkün olarsa, onları geri qayıtmağa razı salmaq idi. Müsahibə zamanı katib bildirir ki, Fərqanə faciəsi zamanı 40 min türk Özbəkistanı tərk etmiş, onlardan 10 min nəfəri Azərbaycan SSR-ə gəlmişdir. Baş verən hadisələrdən təəssüflə bəhs edən katib, türklərin Özbəkistana geri dönəcəyinə ümid etdiyini bildirmişdi[293].

Digər ittifaq dövlətləri kimi Özbəkistan da SSRİ-də baş verən yenilikləri həyata keçirməyə çalışırdı. Artıq ölkələri prezidentlər idarə edirdi ki, prezident vəzifəsinin təsis olunması ilə Özbəkistan da öz prezidentini seçmişdi. "Kommunist" qəzetinin 27 mart 1990-cı ildə çıxan sayında qeyd edilirdi ki, *"24 mart tarixində Özbəkistanda gizli səsvermə yolu ilə prezident seçkiləri keçirilmiş və Özbəkistan KP MK-nın*

---

[292] *Fərqanə od tutub yanırdı // Kommunist. – 1989, 15 iyul. – s.1.*
[293] *Etimadı bərpa etməli // Kommunist. – 1989, 18 iyul. – s.1.*

*Birinci katibi İ.A.Kərimov Özbəkistan Sovet Sosialist Respublikasının ilk prezidenti seçilmişdir”*[294].

“Xalq qəzeti” 1991-ci il 6 sentyabr tarixli sayında “Özbəkistanın dövlət müstəqilliyinin əsasları haqqında” qanun qəbul olunduğu haqqında[295], qanuna əsasən Özbəkistan Müdafiə İşləri Nazirliyi yaradılması və yeni yaradılan nazirliyin milli qvardiya və alternativ hərbi xidmət təşkil etmək hüququna malik olduğu haqda xəbər yayınlamışdı. Xəbərdə həmçinin, Özbəkistanın tərkibində olan Qaraqalpaqstan Respublikasının ərazi bütövlüyünün və süverenliyinin qəbul edildiyi, onun Özbəkistanın tərkibindən azad surətdə çıxmaq hüququnun saxlandığı bildirilirdi[296].

“Xalq qəzeti” 17 sentyabr tarixli sayında 1991-ci ilin avqustunda SSRİ-nin paytaxtında baş vermiş qiyamın Özbəkistandan da yan keçmədiyi haqqında məlumat vermişdi. Məlumatda deyilirdi ki, *“Respublika Kommunist Partiyası Sov.İKP-nin tərkibindən çıxmış, öz nümayəndələrini onun mərkəzi orqanlarından geri çağırmışdır. Həmçinin Özbəkistan Kommunist partiyasının əsasında keyfiyyətcə və prinsipcə yeni siyasi təşkilat -Özbəkistan Xalq Demokrat partiyası- yaradılmışdı”*[297].

Müstəqillik yolunda irəliləyən Özbəkistan milli atributlarını da tərtib etməyə başlamış, ilk dəfə noyabrın 18-də Daşkənddə Prezident sarayı üzərində Özbəkistanın yeni bayrağı -aypara və on iki ulduz təsviri olan üçrəngli dövlət bayrağı- qaldırılmışdı. Qərar elə həmin gün Özbəkistan Ali Sovetinin sessiyasında “Dövlət bayrağı haqqında” qanunun qəbul olunması ilə verilmişdi. Sessiyada həmçinin, prezident seçkilərinin və Özbəkistanın istiqlaliyyəti haqqında ümumxalq referendumunun keçirilməsi də 29 dekabra təyin edilmişdi[298]. 29 dekabra təyin olunan prezident seçkilərinə Xalq Demokratik partiyasından İslam

---

*[294] Özbəkistan SSR-in prezidenti seçilmişdir // Kommunist. – 1990, 27 mart. – s.1.*

*[295] Закон Республики Узбекистан от 31 августа 1991 г. № 336-XII «Об основах государственной независимости Республики Узбекистан». [Электронный ресурс] - URL: https://lex.uz/docs/127879?ONDATE2=21.04.2021 &action=compare*

*[296] Dünya - dünən, bu gün, sabah // Xalq qəzeti. – 1991, 6 sentyabr. – s.1.*

*[297] Yeni siyasi təşkilat // Xalq qəzeti. – 1991, 17 sentyabr. – s.2.*

*[298] Yeni dövlət bayrağı // Xalq qəzeti. – 1991, 20 noyabr. – s.1.*

Kərimov namizəd göstərilmişdi[299]. Özbəkistan Ali Soveti Rəyasət heyəti prezident seçkilərinin şəffaf keçirilməsi üçün xarici ölkələrdən və suveren respublikalardan müşahidəçilər dəvət etmişdi[300]. 29 dekabr seçkilərinin nəticəsində ölkə prezidenti İslam Kərimov xalq səsverməsi ilə yenidən prezident seçilmişdi.

## 2.4. Qırğızıstandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi

SSRİ-in tərkibinə daxil olan respublikalardan biri də Qırğızıstan idi. Qırğızıstan Mərkəzi Asiya dövlətləri içərisində xüsusilə 1985-1991-ci illərdə Azərbaycanla ən zəif əlaqələrə malik olan respublika olmuşdur. 1985-1991-ci illərdə nəşr edilmiş "Kommunist" qəzetinin nömrələrini təhlil edərkən, Qırğızıstanla əlaqədar məlumatlara çox az rast gəlinmişdir. Qırğızıstanla bağlı məlumatlar əsasən, 1991-ci ildə SSRİ-in dağılması və müstəqil Qırğızıstan dövlətinin yaranması, həmçinin öz müstəqilliyini tanıtma cəhdlərindən ibarət xəbərlərdir. "Kommunist" qəzetinin 1986 və 1989-cu ildə çap olunmuş nömrələrində ümumiyyətlə Qırğızıstanla bağlı bir məlumata rast gəlinmir. Bu səbəbdən təhlil olunan hadisələr Qırğızıstanın 1985, 1987, 1988, 1990 və 1991-ci il hadisələrini əhatə edir. Ümumilikdə isə, Qırğızıstana aid xəbərlər daha çox ümumi xarakterli "Vətənəmizdə" başlığı ilə verilən kiçik bildirişlərdən ibarətdir.

"Kommunist" qəzetinin 1985-ci il 4 iyul tarixli sayında SSRİ Ali Sovetinin on birinci çağırışı üçüncü sessiyasında ittifaq respublikalarının, o cümlədən Qırğızıstan nümayəndələrinin çıxışlarına yer verilmişdir. Qırğızıstan Kommunist partiyası Oş vilayət komitəsinin birinci katibi R.S. Kulmatov çıxışında Qırğızıstanın son doqquz ildə təbii qoruq fondunun sahəsinin artaraq ümumi sahəsi 440 min hektara çatması ilə bağlı məlumat vermiş, həmçinin bildirmişdi ki, İssık-kül gölünün sərvətlərinin qorunub saxlanılması xüsusi əhəmiyyətli bir işdir ona görə də burada yeni kurort zonası yaradılmağa başlanıb[301].

---

[299] *İslam Kərimov namizəd göstərilmişdir // Xalq qəzeti. – 1991, 21 noyabr. – s.2.*
[300] *Özbəkistan müşahidəçiləri dəvət edir // Xalq qəzeti. – 1991, 30 noyabr. – s.1.*
[301] *Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. – 1985, 4 iyul. – s.2.*

1987-ci ildə “Kommunist” qəzetində Qırğızıstanla bağlı yalnız bir xəbər yer almışdır ki, bu yazı da sosial-iqtisadi həyata aid xəbərlərdəndir. 1987-ci ilə aid xəbərdə Qırğızıstanın cənubunda ilk dəfə “Arslanbob” sahələrində qoz-findıq istehsalına başlamasından danışılır[302].

“Kommunist” qəzetinin 1988-ci il 26 aprel tarixli nömrəsində yenə “Vətənimizdə” bölməsində Qırğızıstanın Oş vilayətində və yenə sosial həyata aid bir yenilikdən bəhs edilir. Xəbərdə deyilir ki, *“tənha qocalara qayğı məqsədilə Oş vilayətində mərkəz yardılmışdır. Mərkəz gələcəkdə sanatoriya-profilaktoriya tikməyi nəzərdə tutmuşdur”*[303].

SSRİ son günlərinə yaxınlaşarkən onun tərkibində olan dövlətlər də aralarında əməkdaşlıq müqavilələrinə meyl etməyə başlamışdılar. Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan-Qırğızıstan əlaqələri passiv olsa da, 1990-ci ilin yayında iki ölkə arasında 1991-ci il üçün əməkdaşlıq müqaviləsi imzalanmışdı. Bu məqsədlə Qırğızıstan SSR Nazirlər Soveti sədrinin birinci müavini M.A.Aseyinovun başçılıq etdiyi nümayəndə heyəti Bakıya gəlmişdi. “Kommunist” qəzeti bununla bağlı yazırdı ki, *“Görüş zamanı respublikalar arasında ikitərəfli əməkdaşlıq konsepsiyası nəzərdən keçirilmiş, iqtisadi əlaqələrin genişləndirilməsi müzakirə edilmişdir. Həmçinin iki ölkə arasında 1991-ci il üçün saziş layihəsi hazırlanmışdır. Layihədə istehsal texniki təyinatlı məhsulun və xalq istehlakı mallarının respublikalar arası göndərişlərinin gələn il üçün miqdarını artırmaq hədəflənmişdir. Həmçinin, birgə müəssisələr yaratmaq, barter əməliyyatı aparmaq, Azərbaycana ət və digər kənd təsərüfatı məhsullarının göndərilməsini artırmaq haqqında razılaşmalar əldə edilmişdir”*[304].

Qırğızıstanın ikitərəfli əməkdaşlıq üçün müqavilə bağladığı digər bir ölkə də yenə ittifaqa üzv dövlətlərdən olan Rusiya olmuşdu. Bu haqda “Kommunist” qəzetinin “Son saatda” bölməsində yazılırdı ki, *“1991-ci ildə Rusiya prezidenti Yeltsin ölkələrarası əməkdaşlığı inki-*

*[302] Vətənimizdə // Kommunist. – 1987, 19 iyul. – s.1.*
*[303] Vətənimizdə // Kommunist. – 1988, 26 aprel. – s.1.*
*[304] Danışıqlar başlandı // Kommunist. – 1990, 23 avqust. – s.1.*

*şaf etdirmək üçün Bişkekə səfər etmiş, səfər zamanı iki ölkə arasında qarşılıqlı maliyyə sazişləri imzalanmışdır"*[305].

"Kommunist" qəzeti özünün 1991-ci il 27 iyun tarixli son nömrəsində Qırğızıstan Ali Sovetinin iclası haqqında da məlumat vermişdi. Məlumatda qeyd edilirdi ki, *"qırğız xalqı müzakirəyə təqdim edilmiş "Torpaq haqqında" qanundan narazıdır. Qanun layihəsində narazılığa səbəb olan ikinci maddənin birinci hissəsi idi. Orada deyilirdi ki, "Torpaq qırğız xalqının sərvətidir və Qırğızıstan Respublikasının müstəsna mülkiyyətindədir". Ölkə prezidenti "bu maddə qəbul edilərsə, respublikada vəziyyət ağırlaşa bilər" deyərək, maddənin həmin hissəsinə veto qoyaraq sənədi yenidən müzakirə üçün parlamentə göndərmişdi"*[306].

"Millətlər həbsxanası" adlanan çoxmillətli Sovet ittifaqı xalqlarının nümayəndələri ucsuz-bucaqsız ölkənin müxtəlif əyalətlərində hərbi xidmət keçirdilər. Sovet rəhbərliyi xüsusən türk-müsəlman əhalinin döyüş ruhunu öldürmək və hərbi hazırlığını yox səviyyəsinə endirmək üçün türk dövlətlərindən olan əsgərlərin hərbi xidmətini tikinti batalyonlarında yerinə yetirilməsinə xüsusi diqqət yetirirdi. 1991-ci il 27 sentyabr tarixli "Xalq qəzeti"ndə yazılırdı ki, *"Qırğızıstan prezidenti Əsgər Akayev SSRİ-in müxtəlif əyalətlərində tikinti batalyonlarında hərbi xidmət keçən qırğız gənclərinin geri qaytarılması və qalan hərbi xidmətlərini Qırğızıstan ərazisində başa vurmaları haqqında qanun qəbul etmişdir. Bu fərman sadacə hərbi inşaatçılara aid edilir və digər qoşun növlərinə şamil edilmirdi"*[307].

SSRİ-də 1991 də təsis edilmiş prezident idarəçiliyinin ittifaq respublikalarında da tətbiq olunduğunu qeyd etmişdik. Qırğızıstanın həm təyinat yolu ilə, həm də ilk seçki yolu ilə seçilmiş prezidenti Əsgər Akayev olmuşdur. "Xalq qəzeti"nin məlumatına əsasən, *"Akayev seçicilərin 95%-dən çoxunun səsini toplayaraq prezident seçilmişdi"*[308].

---

[305] *Son saatda // Kommunist. – 1991, 23 iyul. – s.1.*
[306] *Qırğızıstan Ali Sovetinin sessiyası // Kommunist. – 1991, 27 iyun. – s.1.*
[307] *Əsgər Akayevdən inşaatçı gənclərə // Xalq qəzeti. – 1991, 27 sentyabr. – s.1.*
[308] *Ə. Akayev prezident seçilmişdir // Xalq qəzeti. – 1991, 17 oktyabr. – s.1.*

Demək olar ki, bu xəbər, bəhs olunan dövrdə Qırğızıstanın daxili siyasi həyatı ilə bağlı verilən tək məlumat olmuşdur.

## 2.5. Türkmənistandakı vəziyyətin Azərbaycan SSR mətbuatında əksi

1985-ci il Türkmənistanda yubileylər ili kimi yadda qalmışdır. Türkmən xalqının Rusiyanın tərkibinə "könüllü" qatılmasının 100 illiyi və Türkmənistan Kommunist partiyasının 60 illiyi münasibəti ilə Türkmənistanın keçdiyi inkişaf yolunun nailiyyətlərindən bəhs edən materiallar "Kommunist" qəzetinin səhifələrində yer almışdı. Qəzet həmçinin Türkmənistanın sosial-iqtisadi və mədəni həyatındakı inkişafından uzun-uzadı bəhs etmişdir[309].

Böyük həcmdə təbii qaz ehtiyatlarına malik olan Türkmənistan SSRİ-nin çox mühüm respublikalarında biri idi. Bu baxımdan, Sov. İKP MK XXVII qurultayında iştirak edən S.Niyazov qaz çıxarılması və onun emal olunmasında mövcud olan problemlərdən, onların həlli yollarından danışmış, Türkmənistan ərazisində təbii qaz emalı zavodunun yaradılmasından bəhs etmişdi. "Kommunist" qəzeti bu haqda geniş məlumatı özünün 4 iyul 1985-ci il tarixli nömrəsində dərc etmişdi[310].

"Kommunist" qəzetində Türkmənistanın suveren dövlətlərlə imzaladığı müqavilələr və bu müqavilələr əsasında qurulan əməkdaşlıqdan da bəhs edilirdi. Məsələn, qəzetin 14 avqust 1990-cı il tarixli nömrəsində Azərbaycan SSR və Türkmənistan SSR arasında iqtisadi, elmi texniki və mədəni əməkdaşlıq haqqında ikitərəfli saziş imzalanması məqsədilə Türkmənistan SSR hökümət nümayəndələrinin Bakıya gəlməsi haqqında məlumat dərc edilmişdi[311].

Qəzetin 13 avqust 1991-ci il tarixli nömrəsində dərc edilən yazıda bildirilirdi ki, Türkmənistan Ali Sovetinin sessiyası suveren dövlətlərin yeni ittifaq haqqında müqaviləsinin şərtlərini bəyənmiş və ölkə prezidenti S.Niyazov müqaviləni imzalamaq üçün vəkil edilmişdir. Məlumatda həmçinin, Ali Sovetin sessiyasında Türkmənistan SSR-in

---

[309] *Böyük qələbələr ili // Kommunist. – 1985, 3 fevral. – s.1.*
[310] *Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. – 1985, 4 iyul. – s.2.*
[311] *Danışıqlar başlandı // Kommunist. – 1990, 14 avqust. – s.1.*

Özbəkistan və Qırğızıstan respublikaları ilə imzaladığı müqavilələrin də patifikasiya edildiyi bildirilirdi[312].

1978-ci il İran İslam inqilabından sonra SSRİ-İran əlaqələri olduqca gərgin bir dövrə qədəm qoymuş, iki ölkə arasında sərhədlər bağlanmışdı. Bu, ən çox türk müsəlman əhali üçün, o cümlədən Türkmənistan əhalisi üçün çətinlik yaratmışdı. Türkmənistanla İran sərhəddinin bağlı qalması uzun illər ayrı düşmüş qohumların, ailələrin görüşməsi yolunda maneə idi. SSRİ-də başlanan çöküşlə birilikdə müstəqilliklərini elan edən respublikalar sərhəd problemlərini də özləri həll etməyə başlamışdılar. İki ölkə arasında əldə edilmiş razılığa əsasən, Türkmənistan və İranın sərhədyanı rayonlarının sakinləri digər ölkədə yaşayan qohumları ilə görüşə bilərdilər. Artıq bu razılığa əsasən hər iki ölkənin vətəndaşlarının ildə 4 dəfə 15 günlük icazələrlə qonşu ölkəyə səfər edə biləcəyi haqda xəbər "Xalq qəzeti"ndə dərc edilmişdi[313].

"Xalq qəzeti"nin Türkmənistanla bağlı xəbərlərdən biri də, müstəqilliyini elan etmiş respublikanın tanınmaq istiqamətində fəaliyyəti ilə bağlı olmuşdu. Belə ki, Moskvada 19-21 avqust 1991-ci il qiyamı SSRİ-nin süqutunu qaçınılmaz etmişdi. İttifaq respublikaları Moskvadakı uğursuz çevriliş cəhdinin ardınca artıq öz suverenliklərini elan etmişdilər və ümumxalq referendumu yolu ilə öz müstəqilliklərini rəsmiləşdirməyə çalışırdılar. Eyni zamanda, müstəqilliklərin dünya dövlətləri tərəfindən tanınması da mühüm məqamlardan biri idi. Müstəqilliyini 1991-ci il oktyabrın 27-də elan etmiş Türkmənistanın prezidenti S.Niyazov həmin ilin dekabrında Ankarada rəsmi səfərdə olarkən, öz ölkəsinin müstəqilliyinin tanınmasını xahiş edir. Rəsmi Ankara bu işdə ehtiyatlı davranmağa çalışırdı. Türkiyə Xarici İşlər naziri Hikmət Çətin bildirmişdi ki, *"Türkiyə Respublikası Türkmənistanın istiqlaliyyətini tanımaq məsələsini SSRİ-yə münasibətdə ümumi siyasəti çərçivəsində müzakirə edir. Bu siyasət fərdi tələblərə əsaslanmır.*

*[312] Türkmənistan muqaviləni imzalayacaq // Kommunist. – 1991, 13 avqust. – s.1.*
*[313] Türkmənistan-İran: qohumlar görüşürlər // Xalq qəzeti. – 1991, 26 sentyabr. – s.1.*

*Biz artıq bu məsələni nazirlikdə müzakirə etmişik və yaxın vaxtda baş nazirə müraciət edəcəyik"*[314].

Azərbaycan mətbuatında Türkmənistanın mədəniyyət xəbərlərinə də yer ayrılırdı. Məsələn, "Kommunist" qəzeti 1985-ci il 1 noyabr nömrəsində Azərbaycan yazıçısı F.Mustafayevin "Yer tutanlar" pyesinin Aşqabadda Türkmənistan Dövlət Akademik Dram Teatrında nümayiş edilməsi ilə bağlı məlumat dərc etmişdi[315].

SSRİ-də, 1917-ci il oktyabr ayının 25-də Rusiyada bolşeviklərin hakimiyyəti ələ keçirdiyi gün (yeni təqvimlə 7 noyabr), "Böyük Oktyabr inqilabı"nın ildönümü olaraq bütün müttəfiq respublikalarda xüsusi təmtəraqla qeyd edilirdi. Türkmənistan 1987-ci ildə hadisənin 70 illik yubileyini "Xalqların dostluğu mədəniyyətlərin dostluğudur" devizi ilə Aşqabadda Azərbaycanın incəsənət xadimlərinin iştirakı ilə qeyd etmişdi. "Kommunist" qəzeti Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli adına Dövlət Simfonik orkestrinin qatıldığı bayram tədbirinin böyük rəğbətlə qarşılandığı haqda məlumat dərc etmişdi[316].

Azərbaycan SSR və Türkmənistan SSR arasında mədəni əlaqələr digər sahələrə nisbətən daha çox inkişaf etmişdi. Mədəniyyət günlərinin təşkil edilməsi, Azərbaycan musiqiçilərinin Aşqabbadda verdiyi konsertlər və yazıçılarının əsərlərinin səhnələşdirilməsi Azərbaycanla Türkmənistan arasındakı mədəniyyət bağlarının daha möhkəm olduğunu göstərirdi. 1989-cu ilin payızında Türkmənistanda "Azərbaycan mədəniyyəti günləri" təşkil edilmişdi. "Azərbaycan mədəniyyəti günləri" çərçivəsində Azərbaycan xalça və tətbiqi sənət nümunələri Aşqabad muzeyində sərgilənmiş və böyük rəğbətlə qarşılanmışdı. "Kommunist" qəzeti Türkmənistan xalçalarının gözəlliyindən bəhs edərək bildirirdi ki, *"türkmənləri xalçaçılıq sahəsində təəccübləndirmək imkansızdır. Lakin keçirilən sərgi Azərbaycan xalçaçılığından öyrəniləcək çox şey olduğunu nümayiş etdirdi"*[317].

---

[314] *Türkiyə Türkmənistanı tanıya bilər // Xalq qəzeti. – 1991, 6 dekabr. – s.1.*

[315] *"Yer tutanlar" Aşqabad səhnəsində // Kommunist. – 1985, 1 noyabr. – s.1.*

[316] *Dostlara musiqi salamı // Kommunist. – 1987, 21 may. – s.1.*

[317] *İncəsənət marşurutları ilə // Kommunist. – 1989, 3 oktyabr. – s.1.*

* * *

*Fəsildə deyilənləri yekunlaşdıraraq qeyd edə bilərik ki,* 1985-ci ildə M.S.Qorbaçovun SSRİ rəhbərliyinə gəlməsi ilə, bütünlükdə SSRİ-də həyata keçirilməsinə başlanmış "Aşkarlıq" islahatının gətirdiyi dəyişikliklər Azərbaycan mətbuatına da təsir etmişdi. Respublikada nəşr edilən qəzet və jurnalların həm sayında, həm də mahiyyətində dəyişikliklər baş vermişdi. Belə ki, digər respublikalarda olduğu kimi, Azərbaycanda da nəşr edilən qəzet və jurnalların sayı artmış, müxtəlif səpkili mətbuat orqanlarının nəşr edilməsinə başlanmışdı. Əgər 1985-ci ildə respubikada 512 milyon nüsxə illik tirajla 144 adda qəzet nəşr edilirdisə, 1990-cı ildə 520,4 milyon nüsxə tirajla 168 adda qəzetin nəşr edildiyi məlumdur. Saydan başqa mahiyyət baxımından da dəyişikliklər baş vermişdi. Dövlət mətbuat orqanları ilə bərabər, müstəqil və müxalifət qəzet və jurnallarının da nəşr edilməsinə başlanmışdı (məsələn, 1989-cu ildə "Səhər", "Azadlıq", "Yeni Müsavat" qəzetləri; 1990-cı ildə "Ayna"/ "Zerkalo" qəzetləri; 1991-ci ildə "Səs", "İki Sahil" qəzetləri və b.). Ermənistanın Azərbaycana təcavüzünə Mərkəzi hökumətin etinasız münasibətinə etiraz olaraq, 1991-ci ilin avqust ayında Respublika Kommunist Partiyası Mərkəzi Komitəsi, Azərbaycan SSR Ali Soveti və Azərbaycan SSR Nazirlər Sovetinin orqanı "Kommunist" qəzetinin fəaliyyəti dayandırılmış, qəzet az sonra "Xalq qəzeti" adı ilə nəşrini davam etdirmişdi. Araşdırılan dövrün ilk illərində müstəqil və müxalifət qəzetlərin olmaması, həmçinin həyata keçirilən aşkarlığın təsirinin respublikalarda daha çox 1988-ci ildən hiss edilməyə başlaması səbəbindən, tədqiq etdiyimiz dövrün ilk illərində, Azərbaycan mətbuatında Mərkəzi Asiyanın türk respublikaları ilə bağlı xəbərlər bir o qədər də çox olmamışdır. Verilən xəbərlər də, əsasən iqtisadi və mədəni sahələrlə, yaxud bayram şənlikləri ilə bağlı ümumi informasiya xarakterli xəbərlər olmuşdur.

Həm də bu səbəbdəndir ki, artıq qeyd etdiyimiz kimi, araşdırma üçün mənbə seçimi zamanı başlanğıc mərhələdə, Azərbaycan mətbuatının ən nüfuzlu dövlət və müxalifət qəzetləri, eyni zamanda fərqli auditoriyalar üçün nəzərdə tutulmuş qəzetlər sırasından seçim etdiyimizə baxmayaraq, apardığımız araşdırma nəticəsində məlum olmuş-

dur ki, 1985-1991-ci illərdə Mərkəzi Asiyanın türk respublikalarında cərəyan edən hadisələrlə bağlı xəbərlər əsasən "Kommunist" və "Xalq qəzeti"ndə nəşr edilmişdir. Araşdırma üçün müəyyənləşdirilən digər qəzetlərin əldə edə bildiyimiz saylarında müvafiq məlumatlara rast gəlinməmişdir. Bu baxımdan, araşdırmamızda "Kommunist" və "Xalq qəzeti"nin materialları əsasında təhlil və müqayisə aparılmışdır.

Respublikalarla bağlı dərc edilən xəbərər üzrə ayrı-ayrılıqda aparılan araşdırma zamanı gəlinən nəticə aşağıdakı kimi olmuşdur:

✓ Qazaxıstanla bağlı əldə etdiyimiz ümumilikdə 39 məlumatın 17-si ictimai-siyasi, 13-ü sosial-iqtisadi, 9-u elm və mədəniyyət, idman xəbərləri olmuşdur. Qeyd edək ki, dərc edilən xəbərlər sırasında, Qazaxıstan prezidenti N.Nazarbayevin Rusiya prezidenti B.Yeltsinlə birlikdə Azərbaycanla Ermənistan arasındakı münaqişənin həlli məqsədilə vasitəçilik təşəbbüsü ilə 21 sentyabr 1991-ci ildə birlikdə Azərbaycana gəlmələri kimi hadisələr də "Kommunist" qəzetinin səhifələrində işıqlandırılmışdı. Lakin islahatların lap başlanğıcında, 1986-cı ilin dekabrında baş verən Alma-Ata (Jeltoksan) hadisələri ilə bağlı Azərbaycan mətbuatında demək olar ki, heç bir xəbər dərc edilməmişdir. Yalnız İttifaq respublikalarının DİN rəhbər işçilərinin 1987-ci il Moskva müşavirəsi və Qazaxıstan Kommunist partiyasının 1988-ci il plenumu haqqında verilən xəbərlərdə bu məsələnin də müzakirə edilən məsələlər sırasında olması ilə bağlı müəyyən məlumata rast gəlmək mümkündür.

✓ Özbəkistanla bağlı əldə etdiyimiz 26 xəbərin 17-si ictimai-siyasi, 6-sı sosial-iqtisadi, 3-ü elm və mədəniyyət, idman xarakterli olmuşdur. 1989-cu il Fərqanə hadisələri nəticəsində Ahıska türklərinin Azərbaycanda məskunlaşması prosesi ilə bağlı məlumatların verilməsi zamanı "Kommunist" qəzetində həmçinin müəyyən qədər Fərqanə hadisələri də işıqlandırılmışdır.

✓ Azərbaycan mətbuatında digər türk respublikaları ilə müqayisədə ən az xəbər Qırğızıstanla bağlı verilmişdir. Əldə etdiyimiz 8 məlumatın 3-ü ictimai-siyasi, 5-i sosial-iqtisadi xarakterli olmuşdur və onlarda əsasən, 1990-ci ildən sonra qurulan ikitərəfli əlaqələrdən, Ə.Akayevin qərarlarından bəhs edilir. 1990-cu ildə Oş hadisələri –

Qırğızıstanın cənubunda qırğızlarla özbəklər arasındakı toqquşma ilə də bağlı; həmçinin, mədəniyyət sahəsi ilə bağlı da hər hansı xəbərə rast gəlinmir.

- ✓ Türkmənistanla bağlı əldə etdiyimiz 9 xəbərdən 4-ü ictimai-siyasi, 1-i iqtisadi, 4-ü mədəniyyət sahələrinə həsr edilmişdir.

Respublikalar üzrə məlumatları ümumiləşdirsək, demək olar ki,

- ✓ bütün xəbərlərdə hadisələr Mərkəzi hökumətin mövqeyi nəzərə alınaraq işıqlandırılmış,
- ✓ siyasi mövzularla bağlı xəbərlərə çox az yer ayrılmış,
- ✓ milli məsələlərlə bağlı xəbərlərə isə, demək olar ki, toxunulmamışdır.

Bütün bunların səbəbi isə, fikrimizcə:

1) Aşkarlıq («гластность») və "yeni təfəkkür" («новое мышление») siyasətlərinə keçilməsinin elan edilməsinə baxmayaraq, idarəçilikdə inzibati-amirlik sisteminin davam etməsi;

2) SSRİ siyasi sistemində dəyişikliklərə (o cümlədən müstəqil və müxalif mətbuat orqanlarının yaranması, senzuranın ləğvi və s.) gec keçilməsi, mətbuatın dövlət nəzarətində olması və mövcud rejimin təhlükəsizliyi çərçivəsində fəaliyyət göstərməsi olmuşdur.

# III FƏSİL. 1985-1991-Cİ İLLƏRDƏ MƏRKƏZİ ASİYANIN TÜRK RESPUBLİKALARINDAKI VƏZİYYƏTİN TÜRKİYƏ MƏTBUATINDA ƏKSİ

## 3.1. Türkiyədə mətbuat

Türkiyənin mətbuat tarixini meydana çıxması, formalaşması və inkişafı baxımından ümumilikdə 3 dövrə ayıra bilərik: Osmanlı dövrü mətbuatı; Milli mübarizə dövrü mətbuatı və Cümhuriyyət dövrü mətbuatı. Bu dövrlərin hər birinin özünü də müvafiq alt mərhələlərə ayırmaq mümkündür. Belə ki, Türk dilində ilk qəzetin nəşr olunduğu 11 noyabr 1831-ci il Türkiyədə mətbuat tarixinin başlanğıcı kimi qəbul edilir. "Təqvim-i Vakayi" dövrün yenilikçi sultanı II Mahmudun cəhdləri ilə nəşr edilmişdi. Həftəlik nəşri nəzərdə tutulan qəzetdə bu məqsədi həyata keçirməkdə bəzi problemlər yarandığından aktual xəbərlər qəzetdə müntəzəm dərc edilə bilməmiş, 1860-cı ildən isə rəsmi qəzet kimi hökumətin qərarlarını ictimaiyyətə çatdıran qəzetə çevrilmişdir. 1892-ci ildə qəzet çap səhvinə görə 1908-ci ilə qədər bağlı qalmışdır[318]. 1908-ci ildən "Təqvim-i Vakayi" nəşrini bərpa etsə də, 24 noyabr 1922-ci ildə siyasi səbəblərə görə yenidən bağlanmışdır. Bununla belə, 1920-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən nəşr olunmağa başlayan "Ceride-i Resmiye" qəzeti "Təqvim-i Vakayi" qəzetinin davamı hesab edilir. 1928-ci ildən "Ceride-i Resmiye" dövlətin rəsmi mətbuat orqanı kimi dərc edilməyə başlamış, "Təqvim-i Vakayi"dən fərqli olaraq, yalnız Məclis tərəfindən təsdiq edilmiş və yenilənmiş qanunları dərc etmək, bu qanunları ictimaiyyətə çatdırmaqla kifayətlənmişdir. Bu səbəbdən "Ceride-i Resmiye" araşdırmaya cəlb edilməyib[319].

"Takvim-i Vakayi" ilə başlayan mətbuat tarixi 1840-cı ildə özəl sərmayə ilə dərc olunan ilk qəzet "Ceride-i Havadis"lə davam etmişdir. Bu qəzet də hökumətdən yardım aldığına görə yarı rəsmi hesab

---

[318] *Topuz, H. Türk Basın Tarihi, s.6.*
[319] *Resmi Gazete Tarihçesi. [Elektron resurs] - URL: https://www.resmigazete.gov.tr/*

edilir. 1860-cı ildə "Tercüman-ı Ahval" qəzeti dərc edilməyə başlamış, müxbir heyəti ilə marağa səbəb olan bu qəzetdə dövrün bir çox məşhur şair və yazıçıları öz əsərlərini dərc etdirmişdir. 1864-cü ildə "Mətbuat Nizamnaməsi" qəbul edilmiş və qəzetlər bu qanuna tabe olmuşdur. 1867-ci ildə qəbul edilən "Ali Fərman"la hökumət mətbuat üzərində bütün səlahiyyətlərə malik olmuşdur. Bu Fərmanın müvəqqəti olacağı deyilsə də, 1909-cu ilə qədər qüvvədə qalmışdır. Beləliklə, qəzetlərdə hökumətin istəmədiyi yazılar dərc edildikdə, bağlanma təhlükəsi və təzyiqə məruz qalmışlar[320].

Birinci Dünya müharibəsində iştirak və Osmanlı dövlətinin müharibədə məğlub olması, İttifaq dövlətlərinin Anadolunu öz aralarında bölmək cəhdlərinə qarşı M.Kamalın Ankarada Qurtuluş hərəkatına başlaması ilə mətbuat da İstanbul və Ankara yanlısı olmaqla iki hissəyə ayrılmışdır. İstanbuldakı mətbuatdan Ankaradakı mübarizəni dəstəkləyən müxbirlərdən Cəlal Nuri (İleri) və onun kimi bir çox müxbir həbs edilərək Malta adasına sürgün edilmişdir. Anadoluda isə "Hukuk-u Beşer", Sivasda "İrade-i Milliye", Ankarada "Hâkimiyet-i Milliye", "Öğüt" kimi qəzetlər Kuvayi-Milliyeni canlandırmaq üçün həm yardım göstərmiş, həm də öz tərəfdarlarını artırmağa çalışmışlar[321]. Anadoludakı mübarizənin səsi olan "İrade-i Milliye" və "Hakimiyet-i Milliye" qəzetləri M.Kamalın əmri ilə nəşr olunmağa başlanmış və adları belə M.Kamal tərəfindən müəyyən edilmişdir. Yenə həmin dövrdə 6 aprel 1920-ci ildə Anadolu Agentliyi qurulmuşdur. Anadolu Agentliyinin yaradılması Anadolu mətbuatının rəsmi mənbələrə əsaslanan xəbərlər dərc etməsində mühüm rol oynamışdır[322].

29 oktyabr 1923-cü ildə Cümhuriyyət qurulduqdan sonra yenilikçi addımlardan biri kimi, 1928-ci il noyabrın 1-də Əlifba inqilabı baş verdi. Əlifba dəyişikliyindən sonra açılan milli məktəblərin yayılması ilə, 1 iyun 1929-cu ildən rəsmi yazışmalarda yeni hərflərdən istifadə məcburi hala gəldi. Bundan əlavə, əlifba inqilabından sonra oxu-

---

[320] *Topuz, H. Türk Basın Tarihi, s.49.*
[321] *Yenə orada, s.128-129.*
[322] *Tarihçe. Kuruluşundan bugüne Anadolu Ajansı. [Elektron resurs] - URL: https://www.aa.com.tr/tr/p/tarihce*

cu tapmaqda çətinlik çəkən böyük qəzetlərə dövlət maliyyə dəstəyi göstərərək, onların nəşr həyatını davam etdirməsinə şərait yaratdı[323]. 1931-ci il iyulun 25-də Məclisdə "Mətbuat qanunu" qəbul edilmiş, ardınca 1935-ci ildə Mətbuat qurultayı keçirilmişdir. Bu qurultayda mətbuatla hökumət arasında əməkdaşlığın artırılmasından bəhs edilmiş və 27 iyun 1938-ci il tarixli 3511 saylı qanunla "Mətbuat birliyinin yaradılması haqqında qanun" qəbul edilmişdir[324].

İkinci Dünya müharibəsi illərində müharibənin yaratdığı çətin mühitdə Cümhuriyyət Xalq Partiyası (CHP) öz gücünü saxlamaq və ölkəni hər hansı bir müharibə təhlükəsindən qorumaq üçün daha çox nəzarət tətbiq edən siyasət yürütməyə başladı. 1940-cı il aprelin 29-da "Mətbuat haqqında" qanunda dəyişiklik edilməklə milli hissləri təhqir edən, tarixi keçmişi təhrif edən nəşrlər qadağan edildi[325]. Bu dövrdən başlayaraq ölkənin siyasi həyatında baş verən dəyişikliklər mətbuata da öz təsirini göstərmişdir. 1946-cı ildə Cümhuriyyət Xalq Partiyasından başqa Demokratik Partiyanın (DP) qurulması ilə Türkiyədə təkpartiyalılıq dövrü sona çatdı. 1950-ci ildə Demokrat Partiyasının hakimiyyətə gəlməsi ilə mətbuatda bir sıra dəyişikliklər baş verdi. Seçki vədlərindən biri mətbuata azadlığı təmin etmək olduğu üçün DP hakimiyyətinin ilk dörd ilində bu vədləri yerinə yetirmək üçün addımlar atdı. "5680" saylı Mətbuat Qanunu ilə qəzet və jurnalların nəşri üçün bölgənin ən yüksək mülki orqanına məlumat vermək şərti kifayət qədər müəyyən edilmiş, qəzet sahiblərinin cinayət məsuliyyəti azaldılmış, mətbuat cinayətlərinin tətqibi prinsipləri dəyişdirilmiş və cavab hüququ yenidən təşkil edilmişdir[326]. Lakin qanunla verilən bu hüquq-

---

[323] *Kabacalı, A. Başlangıcından Türkiye'de Matbaa ve Yayın, s.75.*

[324] *Basın Birliği Kanunu. [Elektron resurs] - URL: https://www5.tbmm.gov.tr /tutanaklar/KANUNLAR_KARARLAR/kanuntbmmc018/kanuntbmmc018/kanuntbmmc01803511.pdf*

[325] *Salimoğlu, M. Matbuat Kanunu'nun 50. Maddesi Odağında Türkiye'de Basın Özgürlüğü: Cumhuriyet Gazetesi Örneği (1945-1947) //Online: Liberal Düşünce dergisi, 2022. №107, - s.105.*

[326] *Basın Kanunu. [Elektron resurs] - URL: https://www5.tbmm.gov.tr /tutanaklar/KANUNLAR_KARARLAR/kanuntbmmc033/kanuntbmmc033/kanuntbmmc03305680.pdf*

lar 1954-cü ildən sonra yenə xeyli məhdudlaşdırıldı və 1960-cı ilə qədər bir çox jurnalistlərə qarşı təhqiqatlar başladıldı. 1958-ci ildən Demokratik Partiya hökuməti populyarlığını itirdi, müxalifət mətbuatında tənqid sərtləşdi, hətta jurnalistlər həbsə məhkum edildi[327].

1960-cı ildə Hərbi çevrilişlə Türkiyə Silahlı Qüvvələrinin 38 üzvündən ibarət Milli Birlik Komitəsinin hakimiyyətinə keçən Türkiyədə nəşr edilən qəzet sayında azalma müşahidə edilmişdir. 1960-cı il çevrilişindən sonra ölkəni 1 il hərbi hökumət idarə etdi və sonra seçkilər keçirildi. Ancaq qəzetlərin sayında azalma 1970-ci ilə qədər davam etdi. 1970-ci ildən sonra isə İstanbuldakı mətbəələrin yeni texnologiyaya keçməsi və əllərində olan mətbəələri Anadoludakı yerli nəşriyyatlara göndərmələri Anadoludakı yerli mətbuatın güclənməsinə və yerli siyasətçilərin özlərinə ictimai rəy yaratmasına şərait yaratmışdır[328].

1980-ci il 12 sentyabr hərbi çevrilişi ilə ölkədə yenidən hərbi vəziyyət meydana gəlmiş, hərbçilərdən ibarət Milli Təhlükəsizlik Şurası hakimiyyəti ələ keçirmişdi. Ölkənin demokratiya tarixində mühüm bir gərginliyi təmsil edən bu dövrdə, müxtəlif siyasi baxışlara malik yüzlərlə jurnalistə qarşı istintaq aparılmışdır. 1982-ci ildə qəbul edilən qərarla Hərbi Vəziyyət Komandanlığına qəzetlərə və digər nəşrlərə senzura tətbiq etmək, onların çapını, nəşrini, yayılmasını, birdən çoxunun saxlanmasını və daşınmasını qadağan etmək, müsadirə etmək, mətbəələri bağlamaq, yeni nəşrləri icazə ilə yerləşdirmək kimi səlahiyyətlər verilmişdir. Həmin qərarda yalan və şişirdilmiş xəbərlər yayanların 2 ilə qədər həbs cəzasına məhkum ediləcəyi də qeyd edilmişdir[329]. 1982-ci ildə qəbul edilən Konstitusiyada əvvəlki dövrlə müqayisədə mətbuat azadlığının məhdud çərçivəsi cızılmış, 1983-cü ildə "Mətbuat qanunu"nun bir çox maddələrinə dəyişiklik edilərək cərimə-

---

[327] *Başgil, A.F. 27 Mayıs İhtilali ve Sebepleri / A.F.Başgil - İstanbul: Yağmur Yayınevi, - 2017. – s.109.*
[328] *Uçak, O., Erkal, A. Osmanlı'dan Günümüze Türkiye'de Yerel basının gelişim süreci // Konya: Selçuk İletişim Dergisi, 2019. №12/1, - s.100.*
[329] *Sayılgan, Ş. Türkiye'de Basın Özgürlüğü ve Cumhuriyet Dönemi Anayasalarının Basın Özgürlüğüne Yaklaşımları // İstanbul: Marmara İletişim Dergisi, 1992. №1, - s.285.*

lər artırılmışdır. Ölkədə artan gərginliyə və mətbuata təzyiqlərə görə, sentyabrın 12-dən sonra milli mətbuatın bir hissəsi və yerli mətbuatın əksəriyyəti siyasi məzmunda nəşrlər dərc etməkdən imtina etmişdir. 1980-1990-cı illər Türkiyədə hərbi çevrilişin kölgəsində keçmişdir. Hərbi idarəçiliyin əsas məqsədinin ölkədə baş verən qarşıdurmaların qarşısını almaq və "axan qanı" dayandırmaq olduğu bildirilirdi. Lakin digər hərbi çevrilişlərdə olduğu kimi, elan edilmiş hərbi vəziyyət tədbirləri və yaradılmış hərbi məhkəmələr, təbii olaraq ziyalılar başda olmaqla vətəndaşların fikir və ifadə azadlığını əngəlləyirdi[330].

1980-ci illərin ortalarından başlayaraq, Türkiyədə Turqut Özalın Baş Nazirlik və Prezidentlik dövrünü əhatə edən 10 illik dövrdə iqtisadiyyatda xarici ölkələrə açılma və liberallaşma cəhdləri, Şərq və Cənub-Şərq bölgələrində baş verən terror aktları öz izlərini buraxmışdır. Bu dövrdə yüzlərlə jurnalist cinayət məsuliyyətinə cəlb edilmiş, on illərlə həbsi tələb olunmuş, saysız-hesabsız qəzet və jurnalların nəşrinə qadağa qoyulmuş, yüzlərlə kitab müsadirə edilmişdir. Türkiyə mətbuatında tədqiqatçı jurnalistikanın öncüllərindən olan Uğur Mumcu və "Hürriyet" qəzetinin müxbiri Çetin Emec hücuma məruz qalaraq öldürülmüşdür. 1984-cü ildən sonra "dövlətin təhlükəsizliyinə xələl gətirən verilişlər" yayımlayanlarla bağlı işlərə Dövlət Təhlükəsizlik Məhkəmələrində baxılmağa başlanmışdır. Məlum olduğu kimi, 2004-cü ildə ləğv edilən bu məhkəmələr dövlətin ərazisinə və millətinə, azad demokratik quruluşa və Cümhuriyyətə qarşı törədilmiş, xüsusiyyətləri Konstitusiyada müəyyən edilmiş, dövlətin təhlükəsizliyinə bilavasitə aid olan cinayətlərə qarşı məsuliyyət daşıyırdı. Bu məhkəmələrdə mətbuatla bağlı işlərə baxılmağa başlaması mətbuat azadlığının məhdudlaşdırılması demək idi. 1980-ci ildə başlayan və sonrakı illərdə də davam edən dövlət iqtisadiyyatından liberal iqtisadiyyata keçid prosesi milli və yerli qəzetlərə hərbi rejim qədər təsir etmişdir. Kağızın qiyməti və ümumi iqtisadi dalğalanmalar səbəbindən bu dövrdə milli qəzetlər kimi yerli qəzetlərin də ək-

---

[330] *Sinan, B. 24 Ocak Kararları ve 12 Eylül Askeri Darbesinin Basına Olan Etkileri: Milliyet Gazetesi Örneği // Adnan Menderes Üniversitesi Dördüncü Kuvvet Uluslararası Hakemli Dergisi, 2018, Cilt 1, Sayı 1, s.78; Topuz, H. Göst. əsəri, s.259-263.*

səriyyəti bağlanmışdır. 1980-ci illərdə baş verən iqtisadi dəyişikliklər nəticəsində maliyələşməyən qəzetlər bir-bir bağlanmışdır. Bu dövrdə yeni iqtisadi vəziyyətlə ayaqlaşa bilən, yeni sərmayələr qoya bilən bizneslər bu prosesdən geri qalan qəzetlərin bağlanması ilə daha geniş sahədə aktivlik nümayiş etdirmək şansı əldə etmiş və 1990-cı illərdə geniş yayılan mətbuatda inhisarlaşma prosesinin əsasını qoymuşlar[331].

Günümüzdə Türkiyədə dövlət, müstəqil və müxalifət xarakterli olmaqla fərqli mətbuat orqanları fəaliyyət göstərməkdədir. Hazırki tədqiqat çərçivəsində məqsədimizin Türkiyə mətbuatını araşdırmaq olmadığını diqqətə çatdıraraq, Türkiyə mətbuatı ilə bağlı yuxarıda verdiyimiz məlumatla kifayətlənməyin; sadəcə araşdırmaya cəlb etdiyimiz qəzet və jurnalların haqqında bir qədər ətraflı məlumat verməyin doğru olacağını hesab edirik. Tədqiqat zamanı "Cümhuriyyət", "Milliyet", "Hürriyet", "Tərcüman" və "Türkiyə" qəzetləri, qismən "Türk yurdu" jurnalı araşdırılmış və təhlil edilmişdir.

*"Cümhuriyyət" qəzeti* M.Kamalın tapşırığı ilə 1924-cü il mayın 7-də Yunus Nadi tərəfindən təsis edilmişdir[332]. Qəzet Atatürkün ölümünə qədər hökumətin qeyri-rəsmi orqanı kimi nəşr edilmişdir. Atatürkün ölümündən sonra qəzetlə hökumət arasında uzaqlaşma baş vermiş, Nadir Nadinin II Dünya müharibəsi illərində yazdığı "Alman reallığı" başlıqlı yazıdan sonra onunla hökumət arasında gərginlik daha da artmışdır. Sonradan yazdığı məqalədə daha da irəli getdiyini etiraf edən Nadir Nadi baş verəcəklərin qarşısını ala bilməmişdir. Nazirlər Kabinetinin qərarına və dövlətin ümumi siyasətinə zidd yayımlar etdiyi üçün gəzet ilk dəfə 29 oktyabr 1934-cü ildə 10 gün, daha sonra 1940-cı ildə yeni eyni səbəbdən 3 ay müddətinə bağlanmışdır[333]. 1941-ci il iyulun 12-də iki gün, həmin ilin dekabrında isə bu dəfə də dövlətin xarici siyasətinə zidd olan məqalə dərc etdiyi üçün yenidən bir gün

---

*[331] Uçak, O., Erkal, A. Osmanlı'dan Günümüze Türkiye'de Yerel basının gelişim süreci, s.101.*
*[332] Kaya, E. Cumhuriyet Gazetesi'nin Kuruluşundan Günümüze Kısa Tarihi // İstanbul: İstanbul Üniversitesi İletişim Fakültesi Dergisi, 2010. № 39, – s.76.*
*[333] Yenə orada, s.78.*

müddətinə fəaliyyəti dayandırılmışdır[334]. II Dünya müharibəsindən sonra Türkiyədə çoxpartiyalı sistemə keçid prosesində "Cümhuriyyət" qəzetinin rəhbərliyində dəyişikliklər olmuşdur. Demokratik Partiya yarandıqdan sonra 1950-ci il mayın 14-də keçirilən seçkilərdə hakimiyyətə gəlməsi qəzetin fəaliyyətinə də təsir etmişdir. "Cümhuriyyət" qəzeti Demokrat Partiyasının müxalifətdə olduğu dövrdə danışıqları ilə hakimiyyətə gəldikdən sonrakı danışıqları arasında təzad olduğunu və belə davam edərsə, Demokrat Partiyasının uzun ömürlü olmayacağını iddia etmiş, 1957-ci ildən sonra CHP-yə dəstək olmağa davam etmişdir. 1960-cı il mayın 27-də hökumətin hərbi yolla ələ keçirilməsi zamanı bu hərəkatı dəstəkləyən "Cümhuriyyət" qəzeti tezliklə Milli Birlik Komitəsinin qərarlarından biri olan 212 saylı qətnaməni tənqid etmiş, digər səkkiz qəzetlə birgə bəyanat yayaraq qanunu tənqid etmişdir. Bu səylərdən heç bir nəticə əldə edə bilmədiyini görüb üç gün qəzeti dərc etməmək qərarına gəlmişdir. O, bu qərarın mətbuat azadlığını təhdid etdiyini bildirmişdir. Qəzet rəhbərliyindəki qarışıqlıq 1960-1970-ci illər arasında onun tirajının da azalmasına səbəb olmuşdur[335]. 1960-cı illərdən sonra "Cümhuriyyət" qəzeti getdikcə daha çox sol yönümlü qəzet kimi tanınmağa başlamışdır. 1980-ci ildən qəzetin müxalif kimliyi davam etsə də, bu dövrdə mətbuat üçün şərait çətinləşmişdir. Qiymət artımı ilə bağlı qəzetlər çətin vəziyyətə düşmüş, nəşr həyatlarını davam etdirə bilmək üçün öz səhifələrində reklamlara üstünlük verməyə başlamışdılar. Bu səbəbdən də sol yönümlü nəşrlər dərc edən Cümhuriyyət qəzeti də iqtisadiyyat səhifəsində liberal iqtisadiyyatı müdafiə edərək çox sayda reklam almaqla, öz varlığını qorumuşdur[336].

*"Milliyet" qəzeti* M.Kamal Atatürkün icazəsi ilə 1926-cı il fevralın 11-də Siirt Millət vəkili Mahmud Soydan tərəfindən nəşr edilməyə başlanmışdı. 1928-ci il dekabrın 1-dək ərəb hərfləri ilə nəşr olunan qəzet, 1935-ci ildə Ali Naci Karacan tərəfindən alınaraq "Tan" adı ilə nəşrini davam etdirmişdir. Lakin 1945-ci ildə "Tan" qəzetinin mətbəə-

---

[334] *Pektaş, Ş. Milli Şef döneminde Cumhuriyet Gazetesi / Ş.Pektaş. İstanbul: Fırat Yayınları – 2010. – s.48.*
[335] *Kaya, E. Göst. əsəri, s.80.*
[336] *Yenə orada, s.82.*

si bir qrup gənc tərəfindən talan edilir. Tan hadisəsi olaraq adlandırılan bu hadisəyə görə qəzet bağlanmış və 3 may 1950-ci ildə Ali Naci Karacan tərəfindən “Milliyet” adı ilə yenidən fəaliyyətə başlamışdır. Qəzetin müxbirləri arasında Refik Halid, Bədii Faiq, İsmail Hami Danişmend kimi müxbirlər var idi. 1954-cü ildə Abdi İpekçinin baş redaktor olması ilə “Milliyet” qəzeti Türkiyənin siyasi cəhətdən nüfuzlu qəzetlərindən birinə çevrildi. Daha sonra Peyami Safa, Reşat Ekrem, Çətin Altan kimi müxbirlər Milliyet qəzetində yazılar dərc etməyə başladılar. DP-nin yarandığı vaxtdan onu dəstəkləyən “Milliyet”, getdikcə sola meyl etmişdir. 1970-ci illərdə qəzet sosial-demokrat xətti ilə getməyə başlamış və tirajı 200 minə çatmışdır. Əsasən sol meylli yazılar dərc edən və buna görə də CHP-yə yaxın hesab edilən qəzet sağçı “Ədalət Partiyası”nı da öz yazılarına daxil etmişdir. 1970-ci illərin qarışıq mühitində qəzetin baş redaktoru və təsisçisi olan Abdi İpəkçi 1979-cu il fevralın 1-də siyasi sui-qəsd nəticəsində öldürülmüşdür. Bu sui-qəsddən bir il sonra Ərcüment Karacan qəzetin böyük bir hissəsini Aydın Doğana satmışdır. 1980-ci il 12 sentyabr çevrilişindən sonra qəzet çətin dövr yaşamış, oxucularını itirmişdir. 1980-ci illərin ortalarından etibarən hər gün qəzetdən kupon toplamaq müqabilində ensiklopediyalar və karton oyuncaqlar verməklə gəlirlərin artırması üsulu qəzetlər arasında populyarlaşmışdı. “Milliyyət” qəzeti də nəşr həyatını davam etdirmək üçün kupon qarşılığında hədiyyə vermək siyasətindən istifadə edərək mətbuatda varlığını davam etdirmişdir. Elə həmin illərdə liberal baxışla nəşr olunan qəzet, 2000-ci illərdəki siyasi xəttini solçu kimi təsdiqləmiş və sol yönümlü xəbərlər yazmağa davam etmişdir[337].

*“Hürriyyət” qəzeti* Türkiyədə çoxpartiyalı həyata keçid dövründə müxtəlif fikirlərin özünü ifadə etmə fürsəti tapdığı bir mühitdə 1948-ci il mayın 1-də Sedat Simavi tərəfindən nəşr olunmuşdur[338]. Qəzet siyasi məzmundan başqa əyləncə, idman, jurnal, sağlam həyat tərzi, gözəllik məsləhətləri və lətifələr kimi sahələrə yer verərək jur-

---

[337] *Milliyet gazetesi tarihi. [Elektron resurs] - URL: https://www.milliyet.com.tr/*
[338] *Özkır, Y. Hürriyet Gazetesi'nin Kimliği // Iğdır: Iğdır Üniversitesi Sosyal Bilimler Dergisi, 2013. № 3, - s.48.*

nalistikaya fərqli bir perspektiv gətirmişdir. Müasir çap üsullarından istifadə etməyə başlamış, məqalə yazılışında, forma və üslubunda dəyişikliklər etməklə jurnalistika terminlərini ədəbiyyatdan ayırmışdır. Bu addımları ilə o, jurnalistika sahəsində bir çox yeniliklərin qabaqcılı olmağı bacarmışdır. 1953-cü ildə Sedat Simavinin ölümündən sonra idarəçiliyə oğulları Haldun və Erol Simavi keçmişdir. İki qardaşın rəhbərliyi ələ keçirməsindən sonra 1960-cı illərdə "Hürriyyət" qəzeti təşkilatlanmış və yeni qurumlar yaradaraq böyüməyə davam etmişdir. Bu illərdə "Xəbər Agentliyi", "Hürriyyət Qəzet və Nəşriyyat", "Ven Ofset Qabaqcıl Mətbəə", "Hürriyyət Holdinq", "Hürriyyət Vəqfi" və "Hürriyyət Qəzeti Şirkətləri" yaradılmışdır. Reklam səhifələri ilk nəşrindən etibarən qəzetin maliyyə xərclərinin yarısını təşkil edirdi və illər keçdikcə səhifələrin sayı artsa da, reklamlar qəzetin yarısını əhatə edəcək formada artmağa davam etmişdir. 1994-cü ildə Aydın Doğana satılmışdır[339].

*"Tərcüman" qəzeti* də 11 oktyabr 1961-ci ildə nəşr olunmağa başlamışdır. Qəzetin təsisçiləri Kemal Ilıcak, Sadettin Çulcu və Ünal Sakmandır. Qəzetin ilk dövr müxbirləri arasında Türkiyənin mühüm şəxslərindən olan Yakup Kadri Karaosmanoğlu, Yaşar Nabi Nayır və Necip Fazıl Kısakürək kimi yazıçılar yer almışdır. İdeoloji cəhətdən milliyyətçi və mühafizəkar bir baxışı mənimsəyən qəzet Türk Dil Qurumunun yeni yaratdığı əks-müxalifətə çevrildi və fərqli fikirlərin bir araya gələrək bu vəziyyətə qarşı çıxmağın vacib olduğunu müdafiə etmişdir[340]. Taha Akyol 1986-cı ildə baş redaktor olduqdan sonra qəzet, kitab və əlavələr şəklində təqdimatlara diqqət yetirərək tirajını artırmışdır. 1993-cü ildə ilk qurucularından olan Kamal Ilıcakın vəfatından sonra iqtisadi problemlər yaşayan qəzet, Sedat Çolaka satılmış, 1995-ci ildə isə bağlanmışdır. Bağlanmasına baxmayaraq, qəzetə olan iddialarını davam etdirən Ilıcak ailəsi başqa qəzet nəşr etdirməyə başlasa da, 2005-ci ildə məhkəmə qərarı ilə "Tercüman"ın adını geri alaraq nəşrini davam etdirmişlər. Bununla belə, "Tercüman"ın ikinci nəşr həyatı 24 iyun 2010-cu ildə başa çatmışdır.

---

[339] *Özkır, Y. Göst. əsəri, s.53-55.*
[340] *Topuz, H. Göst. əsəri, s.252.*

*"Türkiyə" qəzeti* isə 22 aprel 1970-ci ildə Enver Ören tərəfindən təsis edilərək nəşr olunmağa başlamışdır. 1970-1972-ci illərdə "Həqiqət" adı ilə nəşr edilən qəzet, 1972-ci ildən "Türkiyə" adı ilə nəşrini davam etdirir. İdeoloji baxışı sağçı və mühafizəkar olan qəzet, Türkiyədə ilk dəfə abunə sistemini tətbiq etməklə yüksək satış rəqəmlərinə çatmışdır. Bu gün də nəşrini davam etdirməkdədir[341].

*"Türk yurdu" jurnalı* müəyyən fasilələrlə 1911-ci ildən günümüzə qədər nəşr edilən milliyyətçi jurnaldır. İlk sayında məqsədinin "Türklüyə xidmət etmək və faydalı olmaq" olduğu qeyd edilmişdir. Jurnalın nəşrində müxtəlif vaxtlarda zamanının çox böyük düşüncə sahibləri bir araya gəlmişlər (məsələn, Mehmet Emin Yurdakul, Ziya Gökalp, Yusif Akçura, Əhməd Ağaoğlu, İsmayıl Qaspıralı, Fuad Köprülü, Əhməd Zəki Validi Toğan, Celal Sahir, Abdulhak Şinasi və b.). 1987-ci ildən "Türk Ocağı Mərkəz Heyəti"nin yayın orqanı kimi nəşrini davam etdirməkdədir. Elə həmin ildən nəşr edilən sayları həmçinin online olaraq yayınlanmaqdadır. 1989-cü ilə qədər İstanbulda, daha sonra isə Ankarada nəşr edilir[342].

## 3.2. Qazaxıstandakı vəziyyətin Türkiyə mətbuatında əksi

Araşdırılan dövrdə Türkiyə mətbuatında Qazaxıstanla bağlı ən çox xəbər yazılan dövr Alma-Ata (Jeltoksan) hadisələrinin baş verdiyi zamana təsadüf edir. Hadisələrin baş verdiyi 16-18 dekabr 1986-cı ildə Sovet İttifaqının rəsmi xəbər agentliyi olan TASS belə bir xəbər yaymışdı: *"Dünən axşam və bu gün Alma-Atada millətçi ünsürlərin qızışdırdığı bir qrup tələbə gənc Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin bu günlərdə keçirilmiş plenumunun qərarını bəyənmədiklərini bildirərək küçələrə çıxıblar. Yaranmış vəziyyətdən sui-istifadə edən xuliqanlar, parazitlər və digər antisosial şəxslər hüquq-mühafizə orqanlarının əməkdaşlarına qarşı qanunsuz hərəkətlərə yol vermiş, o*

[341] *Türkiye Gazetesi. [Elektron resurs] - URL: https://www.turkiyegazetesi.com.tr/hakkimizda*
[342] *Tahir K. Türk Yurdu. [Elektron resurs] - URL: https://ataturkansiklopedisi.gov.tr/bilgi/turk-yurdu/?pdf=3306*

*cümlədən ərzaq mağazalarını, səxsi avtomobilləri yandırmış, şəhər sakinlərinə qarşı təhqiramiz hərəkətlər etmişlər”* [343]. Alma-Ata hadisələri haqqında sovet televiziyası da eyni gün xəbər verərək, bu məlumatı təsdiq etmişdi. Reuters, AP və UPI kimi qərb xəbər agentlikləri, həmçinin “Time”, “The Washington Post”, “Frankfurter Rundschau”, “Le Monde”, “Le express”, “Le Point” və b. da TASS-a əsaslanaraq bu xəbəri yaymışdılar[344]. Çernobıl nüvə partlayışından sonra Alma-Atadakı bu hadisələrinin də gizlətmədən mətbuatda dərc etməsində, şübhəsiz ki, Qorbaçovun aşkarlıq və yenidənqurma siyasətlərinin təsiri olmuşdur. Lakin hadisələr sovet agentliyi vasitəsilə onların istədiyi formada çatdırılırdı. Alma-Ata hadisələrindən təxminən dörd ay sonra Türkiyədən SSRİ-yə gedən ilk müxbir “Milliyət” qəzetindən Mehmet Ali Birand müşahidə və müsahibələrini Türkiyə ictimaiyyəti ilə bölüşmüşdür [345].

Türkiyə mətbuatında Alma-Ata (Jeltoksan) hadisələri, qazax lider Dinməhəmməd Kunayevin vəzifəsindən uzaqlaşdırılması hadisəsi “SSRİ-də ləğvetmə” və “Konayev vəzifədən uzaqlaşdırıldı” kimi qısa və sadə başlıqlarla bəyan edilmiş, Kunayevin Sovet İttifaqının keçmiş dövlət başçısı Leonid Brejnevin yaxın iş yoldaşı olması da xüsusi qeyd edilmişdir[346]. Kunayevin vəzifədən uzaqlaşdırılması ilə başlayan Alma-Ata hadisələri ilə bağlı xəbərlər TASS agentliyindən götürülmüşdür. Türk qəzetlərində xəbər başlıqları belə idi: *“Tələbələr Alma-Ata-da küçəyə axışdı. Sovetlərdə ilk nümayiş”*[347], *“Sovetlər qaynayır, Qazaxıstanda yüzlərlə türk nümayiş həyata keçirdi”* [348], *“Sovetlərdə etiraz nümayişləri”*[349], *“Ruslar nümayişi qanla boğdu”*[350]. Ümumilikdə,

[343] *Агубаев, Н. Желтоксан глазами очевидца // Exclusive, 15 декабря, 2022. [Электронный ресурс] – URL: https://exclusive.kz/zheltoksan-glazami-ochevidcza/*
[344] *Kaya, E. Göst. əsəri, s.104.*
[345] *Birand, M.A. Büyük Temizlik // Milliyet. – 1987, 13 Nisan. – s.1.*
[346] *Konayev Görevden alındı // Milliyet. – 1986, 17 Aralık. – s.6; SSCB’de Tasfiye // Türkiye. – 1986, 17 Aralık. – s.5.*
[347] *Öğrenciler Alma Ata’da sokağa döküldü. Sovyetler’de ilk gösteri // Milliyet. – 1986, 19 Aralık. – s.12.*
[348] *Kazakistan’da yüzlerce Türk gösteri yaptı. // Tercüman. – 1986, 19 Aralık. – s.1, 8.*
[349] *Sovyetlerde olaylı protesto gösterileri // Cumhuriyet. – 1986, 19 Aralık. – s.3.*
[350] *Ruslar gösteriyi kanla bastırdı // Tercüman. – 1986, 20 Aralık. – s.1.*

Türkiyə mətbuatında hadisələrlə münasibətdə vahid mövqedən danışmaq çətindir. Milliyyətçi "Tərcüman" qəzeti hadisələri TASS xəbər agentliyinə əsaslanaraq şərh etmiş, hadisələrin "milliyyətçi" xüsusiyyətinə diqqət çəkərək, SSRİ-nin Qazaxıstan Respublikasında türk əsilli Kommunist Partiyası liderini vəzifədən uzaqlaşdırıb yerinə rus əsilli şəxsin gətirilməsindən sonra yarandığını, bir çox insanın küçələrə axışaraq bu qərara etiraz etdiyini yazmışdır [351]. Liberal yönümlü olan "Milliyyət" qəzeti də, yenə TASS-a əsaslanaraq, Alma-Atada küçələrə axışan tələbələrin həyata keçirdiyi etiraz nümayişlərində mağaza və avtomobillərin yandırıldığını, nümayişlərin zorakılığa çevrildiyini yazırdı [352]. Sol yönümlü "Cümhuriyyət" isə hadisələri 3-cü səhifədə bəyan edir; TASS agentliyinin hadisələrə qoşulanlar üçün *"avaralar, parazitlər və antisosial» ifadələrindən istifadə etdiyini qeyd edən qəzet, eyni zamanda, Kunayevin respublikaya rəhbərliyinin son illərində ölkədə rüşvət, korrupsiya və iqtisadi çətinliklərin artdığını, yerli mətbuatın da bunu tez-tez dilə gətirdiyini*" də qeyd edirdi [353].

Alma-Ata hadisələri ilə bağlı Türkiyə mətbuatında sadəcə məlumat xarakterli yazılar verilməmiş, həm də hadisələrin araşdırılmasına cəhd göstərilmişdir. Məsələn, "Milliyət" qəzetindən Sami Kohen, "Tərcüman" qəzetindən Ergün Göze ilə Fahir Armaoğlu bu mövzu ilə bağlı bəzi məqalələr dərc etmişlər. Sami Kohen 20 dekabrda "Rusiyada nə baş verir" başlıqlı məqaləsində Alma-Ata hadisələrilə bağlı yazırdı: *"Sovet İttifaqında da belə şeylər olurmuş? Olmazdı, amma indi olur. Həm də ölkənin mərkəzində, Mərkəzi Asiyanın strateji mərkəzi Qazaxıstan Respublikasının paytaxtı Alma-Atada. Hadisənin maraqlı və mühüm tərəfi şübhəsiz, tələbələrin Kommunist partiyasının verdiyi qərara etiraz etmək üçün nümayişlər təşkil etməsidir. Bu vaxta qədər SSRİ-də partiyanın regional liderlərinin dəyişdirilməsinə qarşı bu formada etiraz edilməsi görünməmişdi. Hadisənin ikinci maraqlı tərəfi nümayişlərin ilk dəfə sovet agentlik və televiziyası tərəfindən, həm də*

*[351] Kazakistan'da yüzlerce Türk gösteri yaptı. // Tercüman. – 1986, 19 Aralık. – s.1, 8.*
*[352] Öğrenciler Alma Ata'da sokağa döküldü. Sovyetler'de ilk gösteri // Milliyet. – 1986, 19 Aralık. – s.12.*
*[353] Sovyetlerde olaylı protesto gösterileri // Cumhuriyet. – 1986, 19 Aralık. – s.3.*

*eyni gün göstərilməsidir. Bu, çox güman Moskvadakı xarici diplomatlar və jurnalistlər qədər sovet xalqını da təəccübləndirib ... İlk baxışda nümayişlərin səbəbi Qazaxıstan partiya lideri Dinməhəmməd Qonayevin vəzifəsindən uzaqlaşdırılması və onun yerinə Gennadi Kolbinin gətirilməsidir. Qonayev qazax və müsəlmandır. Kolbin isə rus əsillidir...”*[354]. Kohenin diqqəti ən çox cəlb edən şərhi isə, Alma-Ata hadisələrinin Kunayevə olan böyük sevgidən deyil, onun əvəzinə rus əsilli birinin gətirilməsindən yaranan narahatlığa görə baş verdiyini qeyd etməsidir. Müəllif hesab edir ki, illərlə davam edən ruslaşdırma siyasəti bu hadisələrin baş verməsinə təsir göstərmişdir [355].

Fahir Armaoğlu isə “Tərcüman” qəzetində bu mövzu ilə bağlı Dinməhəmməd Kunayevin vəzifədən uzaqlaşdırılması ilə baş verənlərin indiyə qədər görülməyən bir vəziyyət olduğunu, 16-17 dekabr tarixlərində Alma-Atada meydana çıxan bu hadisələrin çox ciddi məsələ olduğunu və buna görə də hökumətin bu hadisəni gizlətməyə cəsarət etmədiyini yazmışdır. Məqaləsinin davamında üsyanın milli xarakter daşıdığı və iyirmi illik hakimiyyəti dövründə Kunayevin “kommunist olmaqdansa qazaxlaşmağa”ya üstünlük vermiş olduğu barədə şərhlər vermişdir[356].

“Tərcüman” qəzetində digər bir müəllif, Ergun Göze bu mövzu ilə bağlı “Qazaxıstanda türk milliyyətçiliyi nümayişləri” başlığı altında belə bir yazı qələmə almışdı: “... *Rusiyada gözlənilməyən halda tələbə hərəkatının baş verməsi, təbii ki, rəhbərləri təəccübləndirdi. O rəhbərlər ki, Rusiyada az da olsa müstəqillik istəyənlərə qulaqlarını tıxamaq niyyətində idilər... Deməli, Rusiyada böyük bir böhran var və partlayış üçün zaman gözləyir. Bu vəziyyət qarşısında Kremlin sözçüsü “Pravda” qəzeti indi “Milliyyətçi hərəkat küçələrə axışıb” kimi şərhlər verir. Bilirsiniz ki, milliyyətçilik Rusiyada böyük cinayətdir. Təbii ki, rus kommunist partiyaçılığı rus milliyyətçiliyidir. Amma başqa dinlərə, millətlərə gəldikdə, milliyyətçilik cinayətdir. Hətta Rusiya*

---

[354] *Rusyada da oluyor… // Milliyet. – 1986, 20 Aralık. – s.5.*
[355] *Yenə orada.*
[356] *Armaoğlu, F. Kazakistan Ayaklanması // Tercüman. – 1986, 20 Aralık. – s.4.*

*başqa ölkələrdəki milliyyətçilik hərəkatını da sözdə dəstəkləyər, amma öz vətəndaşlarının milli duyğularına qulaq asmaz. Yenə də "Pravda"nın bu fikri doğrudur. Dinməhəmməd Qonayevin uzaqlaşdırılması rus milliyyətçiliyinin əsəridir. Fransanın "Fiqaro" qəzeti buna "Russificatione - Ruslaşdırma" deyir. Kremlin Dinməhəmməd Qonayevi uzaqlaşdıranda etdiyi rus milliyətçiliyidirsə, tələbələrin bu hərəkata qarşı etdikləri də türk milliyyətçiliyidir?"*[357].

Demək olar ki, Alma-Ata hadisələri ilə bağlı xəbərlər Türkiyə mətbuatında 19-20 dekabrda sovet agentliyi TASS-a əsaslanaraq verilmişdir. 21 dekabrdan etibarən türk mətbuatındakı xəbərlər daha çox qərb agentliklərinə əsaslanır. Alma-Atadakı hadisələri maraqla izləyən "Tərcüman" qəzeti Amerikan Associated Press (AP) agentliyinə əsaslanaraq dərc etdiyi "Kommunist dünyada nələrsə baş verir" başlıqlı xəbərdə sovet hakimiyyətinin ölkədə yaşayan türk-islam cəmiyyətini idarə etməkdə çətinlik çəkdiyini qeyd edərək, Qazaxıstanda baş verən hadisələrin buna misal olduğu, hadisədəki yeganə fərqin isə sovet mətbuatı tərəfindən bəyan edilməsi olduğunu bildirmişdir. Xəbərin davamında Qorbaçovun Daşkənddə etdiyi çıxışda rəhbərləri müsəlmanlığa qarşı mübarizəni sürətləndirməyə çağırdığını xatırlatmaqla yanaşı, Alma-Ata hadisələrinin dini məzmun daşımadığını da əlavə etmişdir[358]. Yenə "Tərcüman" qəzeti müxbirlərindən Zafer Altay "Bir üsyan", Yılmaz Öztuna isə "Qazaxıstanda hadisə" başlıqlı məqalələrini 22 dekabrda yazmışdılar. Z.Altay Rusiyada sistemin çökdüyünü iddia etmiş, Qazaxıstanın türk və müsəlman bir respublika olaraq ruslaşdırma siyasətinə qarşı çıxdığını, bu hadisələr əsnasında da TASS agentliyinin dərc etdiyi xəbərin reallığı əks etdirmədiyini, Alma-Atadakı nümayişlərə bəhs edilənin əksinə, minlərlə insanın qoşulduğunu, ölənlərin və yaralananların olduğunu bildirmişdi[359]. Y.Öztuna da dərc etdiyi yazısında Z.Altay kimi, TASS xəbər agentliyinin hadisələri təhrif edərək yazdığını, Sovet İttifaqının imperialist formada rus milliyyətçiliyi si-

[357] *Göze, E. Rusya'da Neler Oluyor // Tercüman. – 1987, 12 Ocak. – s.13.*
[358] *Komünist Dünya'da Bir Şeyler Oluyor // Tercüman. – 1986, 22 Aralık. – s.1, 4.*
[359] *Atay, Z. Bir isyan // Tercüman. – 1986, 22 Aralık. – s.4.*

yasətini həyata keçirdiyini tənqidi dillə çatdırmışdır. Həmçinin, Y.Öztuna Qazaxıstana rusun rəhbər olaraq göndərilməsinin səbəbinin Qazaxıstandakı etnik əhalinin sayının qazaxların lehinə dəyişməsinin qarşısını almaq olduğunu bildirmişdi[360].

23 dekabr 1986-cı il tarixli "Cumhuriyyət", "Türkiyə", "Tərcüman" və "Milliyyət" qəzetlərində Alma-Ata hadisələri nəticəsində Anadolu Agentliyi mənbə göstərilərək 15-i tələbə, 7-si polis olmaqla 22 nəfərin öldüyü və 20 nəfərin yaralandığı bildirilmişdi[361].

Qeyd etmişdik ki, Qazaxıstandakı hadisələri daha yaxından izləmək üçün ilk dəfə türk müxbir Moskvaya getmişdi. "Milliyyət" qəzetinin müxbiri olan Mehmet Ali Birand "Rusiyada nə baş verir?" başlıqlı məqaləsində Alma-Atadakı hadisələri araşdırmaq üçün komissiya yaradıldığını və komissiyanın rəhbərliyinə G.Kolbinin gətirildiyini, komissiyanın araşdıracağı məsələlərin isə alkoqolizm, narkotik və vəzifədən sui-istifadə olduğunu qeyd etmişdi. Sovet rəsmilərinə əsaslanaraq verdiyi bu xəbərin davamında Alma-Atada mağaza və avtomobillərin yandırıldığını, hətta yük maşınları ilə gənclərə içki paylandığını, çoxlu yaralının olduğunu, sayının dəqiq olmaması ilə yanaşı 50-ə yaxın ölünün olduğunu yazmışdı. Birand Qorbaçovun tətbiq etdiyi aşkarlıq siyasəti çərçivəsində artıq mühüm hadisələrin gizlədilməməsi və xalqa çatdırılması fikrini müdafiə edir[362]. Birandın bu xəbərini oxuyan "Tərcüman" qəzeti müxbirlərindən olan Ergün Göze iki həftə sonra Birandın yazısını tənqid edən məqalə dərc etdi: *"Hörmətli M.Ali Birandın "Rusiyada nə baş verir?" adlı məqaləsini görəndə Qazaxıstana aid, Qazaxıstandakı "azadlıq" hərəkatlarına dair bəzi məlumatlar vardır ümidi ilə sevindim və oxudum. Amma hörmətli Birand məqaləsini yalnız Qorbaçovun Rusiyaya və rus rejiminə vermək istədiyi yeni simaya həsr etmişdi ... Qazaxıstana aid heç bir baxış yox idi ...*

---

*360 Öztuna, Y. Kazakistan'da Olay // Tercüman. – 1986, 22 Aralık. – s.9.*
*361 Ayaklanmanın Bilançosu // Tercüman. – 1986, 23 Aralık. – s.4; Kazakistan'da durum // Milliyet. – 1986, 23 dekabr. – s.5; Kazakistan Olaylarında 22 kişi öldü // Türkiye. – 1986, 23 Aralık. – s.5; 15 Kazak öğrencinin öldürüldüğü ileri sürüldü // Cumhuriyet. – 1986, 23 Aralık. – s.3.*
*362 Birand, M.A. Rusya'da Neler oluyor? // Milliyet. – 1986, 29 Aralık. – s.1, 7.*

*Hörmətli Birandın Rusiyadakı ən kiçik yeniliyi xəbər dəyərinə qovuşduran məqaləsindən Qazaxıstana aid bir xəbər ala bilməsək də, həmin gün agentliklər və xarici mətbuatda Qazaxıstana dair xəbərlər verildi..."*[363]. Xəbərin davamında G.Kolbinə də nəzər yetirən Göze, Gürcüstanda gürcü milliyyətçiliyini yıxmaq üçün Şevarnadze ilə birlikdə çalışan Kolbinin Qazaxıstanda vəzifəyə gətirilməsinin təsadüf olmadığını, xüsusi məqsədlə seçildiyini bildirirdi[364].

Qazaxıstandakı hadisələrin qəzetlərdə müxtəlif formada əks olunması müxbirlər arasında müxtəlif mübahisələrə də səbəb olmuşdur. "Tərcüman" qəzetinin baş redaktoru Taha Akyol, 70 illik Bolşevik rejiminin bütün cəhdlərinə baxmayaraq müsəlman xalqın dini duyğularını silə bilmədiyini, əksinə bu duyğuların daha da inkişaf etdiyini iddia edərək Alma-Atadakı bu hadisənin dini və milli xarakterli olduğunu bildirirdi[365]. Akyolun bu fikirlərinə tamamilə qarşı çıxan "Cümhuriyyət" qəzetindən Ergun Balcı onun Alma-Ata hadisələri ilə bağlı şərhlərini mübaliğəli və tərəfkeş hesab etmiş, hadisələrin birdən inkişaf etdiyini və nümayişlər əsnasında tələbələri manipulyasiya etmək üçün iki yük maşını ilə "vodka və marixuana" tipli narkotik maddə paylandığını qeyd etmişdir[366].

Alma-Atadakı hadisələrdən sonra Qazaxıstana 2 ay xarici mətbuat nümayəndələrinin girişinə icazə verilməmişdi. 13 aprel 1987-ci ildə "Milliyyət" müxbiri Mehmet Ali Birand Moskvadan Alma-Ataya gəlmiş və bölgəyə gedən ilk türk müxbir olmuşdur. Müşahidələrini 3 günlük məqalə seriyası kimi "Böyük təmizlik" başlığı ilə dərc etmişdir. Birand Alma-Atada baş verən nümayişlər haqqında əvvəlcə bütün dünyanın təəccübləndiyini, sonra isə hər şeyin qaydasına düşdüyünü, Sovet rəsmilərinin ilk açıqlamalarından fərqli olaraq nümayişlərin əhəmiyyətinin gizlədilmədiyini, nümayişlər zamanı yaralanan və ölənlərin sayının elan edildiyini yazmışdı. Birandın yazdığına görə, Qaza-

---

[363] *Göze, E. Rusya'da Neler Oluyor // Tercüman. – 1987, 12 Ocak. – s.13.*
[364] *Yenə orada.*
[365] *Akyol, T. Rusya'da Milli-İslami Uyanış // Tercüman. – 1987, 3 Ocak. – s.8.*
[366] *Balcı, E. Sovyetler Birliği ve Milliyetçilik sorunu // Cumhuriyet. – 1987, 5 Ocak. – s.3.*

xıstanda təmizlik kampaniyasına başlanılmış, bu əsasda keçmiş rəhbər Kunayevin bütün köməkçiləri ilə birlikdə məsləhətçilərinin partiyadakı vəzifəsinə son verilmiş, bu şəxslərin verdiyi təyinatların böyük hissəsi ləğv edilərək ölkədə 200 nəfər vəzifədən uzaqlaşdırılmışdır. Birand, həmçinin Qazaxıstanda baş verən hadisələrlə bağlı istintaq hesabatının hazırlandandığını, nəticədə hadisələrdən kimin cavabdeh olduğunu, Kunayevin vəzifədən azad edilməsinin doğru qərar olub-olmadığını və "rüşvət, sui-istifadə, pis idarəetmə" ilə bağlı nümunələri özündə ehtiva edən hesabatın Moskvaya göndəriləcəyini, bu əsasda Qazaxıstanda "yeni təmizlik" dövrünə keçiləcəyini qeyd etmişdi[367].

İkinci məqalədə, 22 il vəzifədə olan Kunayevin dövlət içində dövlət kimi təşkilatlandığı, əsas mövqelərə öz adamlarını yerləşdirdiyi, milyonlarla rubl dəyərində korrupsiyaya yol verildiyi, ölkədə isə "Moskvaya açılan yolun və ya kranın" rəhbər şəxsi kimi göründüyü sovet rəsmilərinə əsaslanaraq bildirilirdi. Birandın nəzər saldığı digər məsələ, qazaxların Mərkəzi Asiya türk respublikaları arasında "mühafizəkar, ənənələrinə bağlı" millətlərdən olması, lakin digər türk respublikalarla müqayisə edildikdə din ünsürünün qazaxlar üçün özbək və ya türkmənlər qədər ön planda olmamasıdır. Birandın fikrincə, *"əgər bir qazaxdan soruşsaz, əvvəlcə qazax olduğunu söyləyər. Lakin bir özbək əvvəlcə müsəlman olduğunu bildirəcəkdir"* [368]. Bu da qazaxların milliyyətçi xüsusiyyətinin hadisələrə olan təsirini qeyd etməyə kifayət edir. Həmin məqalədə Birand mənbə kimi KP MK üzvlərindən Vladimir Aumanı göstərərək nümayişlərin səbəbi kimi Kunayevin vəzifədən uzaqlaşdırılması ilə maraqları təmin edilməyən bir qrupun gəncləri təşviq etməsi və onları idarə edərək belə bir nümayiş həyata keçirildiyini; ikinci səbəb kimi isə maraqlarını itirmək qorxusu ilə bu qrupun ənənələrə sadiq olan milliyyətçi gəncləri xüsusilə seçərək rus əsilli

---

[367] *Birand, M.A. Büyük Temizlik // Milliyet. – 1987, 12 Nisan. – s.1, 13; Birand, M.A. Büyük Temizlik // Milliyet. – 1987, 13 Nisan. – s.1.*

[368] *Birand, M.A. Kazakistan'da eski yönetim mafyası suçlanıyor. Acımasız soygun // Milliyet. – 1987, 14 Nisan. – s.14.*

şəxsin hakimiyyəti altına girməyin nəticələrinin yaxşı olmayacağını bildirərək onları razı saldığını göstərmişdir[369].

Birand üçüncü məqaləsində Qazaxıstanın demoqrafik strukturuna toxunmuşdur. Məqaləyə əsasən Qazaxıstanda 25 min qazax türkü yaşayırdı, lakin digər etnik qruplar arasında türklərin yox olub getməsi qeyd olunurdu. Zaman keçdikcə ruslar ön plana çıxarkən, qazaxlar ikinci dərəcəli millət kimi qəbul edilmiş, buna misal olaraq qazaxların rus dilini yaxşı öyrənmələrinə baxmayaraq, rusların qazax dilini öyrənməməsini göstərmişdir[370].

Alma-Ata hadisələrindən sonra Qazaxıstanla bağlı Türk mətbuatında diqqət çəkən hansısa bir xəbər dərc olunmamışdı. İki il sonra "Cümhuriyyət" qəzetinin 21 iyun 1989-cu il nömrəsində "Qazaxıstan qaynayır" başlığı ilə bir xəbər dərc edilmişdi. Bu xəbərdə Özbəkistandakı qarışıqlıqdan sonra Qazaxıstanda da bir qrupun idarə binalarına və mağazalara hücum etdiyi qeyd olunmuşdu. Mokvada nəşr edilən Ümumittifaq qəzet olan "Komsomolskaya pravda"ya istinad edilərək, dərc edilən xəbərdə üsyançı gənclərin qida məhsullarına tətbiq edilən kartoçka sisteminin ləğv edilməsini istədikləri tələb etdikləri bildirilmişdi. Xəbərin davamında, SSRİ-nin bir çox respublikalarında qarışıqlığın olduğu xüsusilə qeyd edilmişdi. BBC radiosunda bu xəbərlə bağlı Qazaxıstanda işsizliyin yüksək səviyyədə olması, xalqın ruslara sərt reaksiya göstərdiyi qeyd edilmişdi. Rus məmurlar və texniki işçilərin qazaxlardan daha çox maaş alması sosial narahatlığın səbəblərindən biri kimi qeyd edilmişdi[371].

Qazaxıstanla bağlı Türkiyə mediasının maraq göstərdiyi və bir çox xəbərlər dərc etdiyi dövr isə Türkiyə Prezidenti Turqut Özalın 15 mart 1991-ci ildə Sovet İttifaqı və Qazaxıstana səfər etdiyi dövr olmuşdur. Bu səfər zamanı imzalanan yeni müqavilələr Türkiyə mətbuatını uzun müddət məşğul etmişdir. Türkiyə ictimaiyyəti bu səyahəti

---

[369] *Birand, M.A. Kazakistan'da eski yönetim mafyası suçlanıyor. Acımasız soygun // Milliyet. – 1987, 14 Nisan. – s.14.*
[370] *Birand, M.A. 16 Milyonluk cumhuriyette sayları 25 bin, Kazakistan'da Türkler // Milliyet. – 1987, 15 Nisan. – s.14.*
[371] *Kazakistan Kaynıyor // Cumhuriyet. – 1989, 21 Haziran. – s.8.*

Özalla birlikdə səfər edən müxbirlər vasitəsilə izləmişdir. Özalın bu səfəri türk ictimaiyyətində Qazaxıstanın imicini daha da aşkara çıxarmış, Prezident Nursultan Nazarbayev bu imicin mühüm ünsürü olmuşdur. Eyni fikri Qazaxıstanda formalaşmış Türkiyə imici barəsində Özal üçün də söyləmək olar. Həmin gün Türkiyə qəzetlərində iki prezidentin bəyanatlarını özündə ehtiva edən xəbərlər dərc olunmuşdu. "Cümhuriyyət" qəzeti, Nazarbayevin suverenliklərini elan etdikdən sonra ölkəyə ilk səfər edən dövlət başçısının Türkiyə Respublikasının Prezidenti Turqut Özal olmasının "tarixi əhəmiyyət kəsb etməsi" bəyanatını vurğulamışdır. Prezidentlərin görüşündə bazar iqtisadiyyatına keçiddə Türkiyənin təcrübəsi, Türkiyə sahibkarları üçün Qazaxıstanda əlverişli investisiya şərtlərinin təmin edilməsi haqqında danışıqlar aparılması, Özalın Nazarbayevi Türkiyəyə dəvət etməsi bildirilirdi. Həmçinin, Özalın bu əlaqələrin daha da sıxlaşacağı və səfərlərin artacağı barədə fikirlərinə yer verilmişdi[372].

Səfərdə iştirak edən jurnalistlərdən Hasan Cemal "Cümhuriyyət" qəzetində *"Qazaxlar bizim heyətimizi çox yaxşı qarşıladı. Türkiyənin onlara əl uzatması, maraq göstərməsi tərəflərin hamısı üçün faydalı olacaqdır. Dünyəvi, modern və demokratik Türkiyə modelinin onlar üçün İrana, Əfqanıstana nisbətən daha çox maraqlı olacağı aydın məsələdir"* deyə yazırdı [373]. Həmin müxbir ertəsi gün verdiyi şərhdə bunları qeyd etmişdi: *"Soyuq müharibənin bitməsi Türkiyə baxımından Sovetləri uzaq qonşu olmaqdan kənarlaşdırır. Həmçinin, Mərkəzi Asiya türk olması ilə Azərbaycan və Türkiyəni yaxınlaşdırır. Bütün tərəflər üçün yeni üfüqlər açan bu şəraitdən istifadə etmək lazımdır"* [374].

26 sentyabr 1991-ci ildə Nursultan Nazarbayev Azərbaycan-Ermənistan münaqişəsində vasitəçilik müssiyası cəhdindən sonra Türkiyəyə gəlmişdi. "Cümhuriyyət" qəzetində "Qazaxıstanla dostluq körpüsü" başlığı ilə verilən xəbərdə telekommunikasiya, hava nəqliyyatı və radio-televiziya mövzularında əməkdaşlıq müqavilələrinin imzala-

---

[372] *Cemal, H. Altay Dağlarından Hazar Kıyısına // Cumhuriyet. – 1991, 16 Mart. – s.9.*
[373] *Yenə orada.*
[374] *Cemal, H. Bakü'den Dostluk Telleri // Cumhuriyet. – 1991, 17 Mart. – s.9.*

nacağı qeyd olunurdu[375]. Digər bir yazıda, hər şeydən əvvəl mədəniyyət körpüsünün qurulması, Özal və Nazarbayevin çox səmimi olması qeyd olunmuşdu. Həmçinin, Moskvada Qorbaçova qarşı uğursuz çevrilişdən sonra Nazarbayevin ilk rəsmi səfərini Türkiyəyə etməsinin mənalı və siyasi cəhətdən mühüm olması qeyd edilmişdi. Xəbərdə Nazarbayevin çevriliş cəhdinə qarşı sərt reaksiya göstərməsinin onu SSRİ-də mühüm şəxslərdən biri etməsi də xüsusilə vurğulanmışdı[376]. Ertəsi gün xarici xəbərlər bölməsində "Qazaxıstanla geniş əməkdaşlıq" başlığı ilə dərc edilmiş, Prezidentin sözçüsü səfir Kaya Topelin bəyanatlarını əks etdirən xəbərdə 6 maddə ilə hansı sahələrdə əməkdaşlıq ediləcəyi qeyd olunmuş, bu məsələlərlə bağlı "Əməkdaşlıq memorandumu"nun imzalanacağı qeyd edilmişdi[377].

15 dekabr tarixində "Cümhuriyyət" qəzetində Qazaxıstanla bağlı yarım səhifəlik xəbər dərc edilmişdi. Bölgəyə gedən müxbir Fatih Yılmazın Qazaxıstanda gördüklərindən bəhs etdiyi məqalələr seriyası ard-arda iki gün dərc edilmişdi. Xəbərdə dağılan SSRİ-də türk respublikalarından bəhs edilmiş, ardınca "Mərkəzi Asiya oyanır" başlığı qeyd olunmuşdur. Xəbərin birinci hissəsində türk respublikaları ilə bağlı ümumi məlumat məqsədli bir paraqraf mövcuddur. Ardınca Alma-Ataya ilk getdiyində tanış olduğu gənclərlə baş tutan dialoqundan bəhs etmişdir. 1989-cu ildə qurulan "Alaş" partiyası üzvü olan gənclərin Nazarbayev əleyhinə fikirlərindən bəhs etmiş və müsahibə edilən adı Gülkazi olan gənc qız "*Nazarbayev Türkiyə prezidenti Özal gələndə bu məsciddə namaz qılmaq üçün dayandı. Namaz qılmağı bilmir. Bizim məclisdən qızlar da gəlib burada namaz qılırdılar. Özal gedəndən sonra Nazarbayev bizi məqbərəyə (həbsxanaya) atdı. Türkiyə bizə silah versin, Nazarbayevi devirək. Özal Nazarbayevə qətiyyən pul verməməli olduğunu deyərək fikirlərini bildirib. Bu gənclər Qazaxıstanda Türk-İslam dövləti qurmaq istədiklərini və Turanın birliyinə töhfə vermək istədiklərini bildirirdilər*[378]. 16 dekabrdakı məqalədə isə qazax

[375] *Kazakistan'da dostluk köprüsü // Cumhuriyet. – 1991, 26 Eylül. – s.1.*
[376] *Kazakistan'la sıcak ilişkiler // Cumhuriyet. – 1991, 26 Eylül. – s.10.*
[377] *Kazakistan'la kapsamlı iş birliği // Cumhuriyet. – 1991, 27 Eylül. – s.10.*
[378] *Kazakistan'da 'Bozkurtlar'ın dirilişi // Cumhuriyet. – 1991, 15 Aralık. – s.7.*

mədəniyyəti tanıdılmış, qımızın (at südündən hazırlanmış içki) necə hazırlanması, at ətinə dair məlumatlar öz əksini tapmışdır. Xəbərin davamında "Qazaxıstanın Türkiyədən gözləntiləri" adlı kiçik başlıq altında son iki ildə Türkiyə və Qazaxıstan münasibətlərində mühüm addımların atıldığı və bunların artaraq davam etməsinin gözlənildiyi qeyd edilirdi. Həmçinin, Qazaxıstanda yerləşən tarixi məkanlar Ahmet Yesevi və Aslan Baba türbələrinin bərpasını Türkiyənin həyata keçirəcəyi yazılmışdır[379].

SSRİ-nin süqutundan sonra "Cümhuriyyət" qəzetində Qazaxıstanın Müstəqil Dövlətlər Birliyinə qoşulmaq istəyilə bağlı xəbər dərc edilmişdir. "Yeltsinin birliyi böyüyür" başlığı ilə dərc edilən xəbərdə Rusiya, Ukrayna və Belarusdan sonra Qazaxıstanın da bu birlikdə olmaq istəməsi, Nazarbayevin buna görə Moskva ilə əlaqə saxladığı yazılırdı. Xəbərdə həm də Boris Yeltsinin həftə sonu Alma-Ataya gedərək Nazarbayevi ziyarət edəcəyi qeyd olunmuşdu. Xəbərin davamında digər türk respublika liderlərinin də Türkmənistanın Aşqabad şəhərində görüşərək Müstəqil Dövlətlər Birliyinə qoşulmaq barədə müzakirə edəcəklərini, ümumilikdə türk respublikalarının da bu məsələdə müsbət fikirdə olduqları yazılmışdı[380].

## 3.3. Özbəkistandakı vəziyyətin Türkiyə mətbuatında əksi

Qorbaçov dövrünün başlaması ilə Türkiyə qəzetlərində Özbəkistanla bağlı bir neçə mədəniyyət xəbərinə, Turqut Özalın 1986-cı ildə Özbəkistana 24 saatlıq qısa səfəri ilə bağlı bir xəbərə, həmçinin 1989-cu ildə Fərqanə bölgəsində Ahıska türkləri ilə özbəklər arasında baş verən münaqişələrlə bağlı xəbərlərə, Özbəkistan prezidenti İslam Kərimovun müstəqillik ərəfəsində Türkiyə haqqında dediyi sözlərlə bağlı xəbərlərə rast gəlmək mümkündür. Bu xəbərlər "Cümhuriyyət", "Milliyyət", "Tərcüman" və "Hürriyyət" qəzetlərinin səhifələrində işıqlandırılmışlar. Fərqanə hadisələrindən sonra SSRİ-nin dağılmağa başla-

---

[379] *Bozkır atlılarının kımız şöleni // Cumhuriyet. – 1991, 16 Aralık. – s.7.*
[380] *Yeltsin'in birliği büyüyor // Cumhuriyet. – 1991, 12 Aralık. – s.10.*

dığı dövrdə Türkiyədən bir qrupun Daşkəndə səfəri və onların təəssüratları qəzetlərdə və "Türk Yurdu" jurnalında dərc olunmuşdur.

İlk dəfə 6 iyun 1986-cı ildə "Daşkənd Film Festivalından sonra Üçüncü dünyaya məxsus festival" başlıqlı xəbərdə jurnalist, yazıçı və kinoşünas Atilla Dorsayın təəssüratlarına yer verilmiş, az inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrin kino istehsalı üçün beynəlxalq forum yaratmaq səylərini yüksək qiymətləndirmiş və bunu düzgün təşəbbüs kimi qiymətləndirmişdir. Daşkənddə keçirilən kinofestivalın "Sülh, sosial tərəqqi və xalqların azadlığı naminə..." şüarının şəhərin görünən hər nöqtəsində asıldığını və bu sözlərə Türkiyə türkü kimi qatıldığını bildirən müəllif bu festivalın daha çox kino sənətinə həsr edilməli olduğunu və daha yaxşı təşkil olunsa daha çox diqqət mərkəzində olacağını dilə gətirmişdir. Festivalın alt temasında "Üç qitə kino festivalı" kimi Asiya, Afrika və Latın Amerikası ölkələri nəzərdə tutulmuşdu. Lakin müəllif ümumilikdə baxdığı filmləri bəyənmədiyini, belə bir festivalın öncülünün sovetlərin olmasını təqdir etsə də, sovetlərin qərbdən geri qaldığını və festivalın gözləntiləri doğrultmadığını bildirmişdi. Müəllifin festivalla bağlı tənqid etdiyi digər məqam isə təbliğatın həddən artıq çox olması və kinofestivalda belə təbliğatın aparılmasını düzgün hesab etməməsi idi[381]. Növbəti il 26 mart 1987-ci ildə dərc olunan xəbərdə SSRİ-də həm Moskvada, həm də Daşkənddə keçiriləcək kinofestivallarda nümayiş etdiriləcək türk filmlərindən bəhs edilmişdir. Türkiyə ilə SSRİ arasında imzalanan "Mədəni və elmi mübadilə proqramı" çərçivəsində Türkiyədən olan türk klassik musiqi sənətçisi Müşərref Akayın Qırğızıstan, Tacikistan, Türkmənistan və Azərbaycanda konsertlər verəcəyi də bildirilmişdi. Yenə həmin proqram çərçivəsində türk müğənni Ajda Pekkanın 1987-ci ilin dekabrında SSRİ-yə konsert vermək üçün gələcəyi bildirilmişdi. 1988-ci ildə Daşkənddə baş tutacaq Daşkənd kinofestivalına Türkiyədən "Anayurt oteli" filminin qatılacağı, türk aktyoru Kadir İnanırın isə qonaq sənətçi kimi Özbəkistana gedəcəyi yazılmışdı. Qeyd olunurdu ki, bu film fes-

[381] *Dorsay, A. Taşkent Film Festivali'nin ardından Üçüncü Dünya'ya özgü bir şenlik // Cumhuriyet. – 1986, 6 Haziran. – s.8.*

tivalı dövründə SSRİ-nin iki şəhərində "Türk filmləri həftəsi" təşkil olunacaq və təxminən iki həftə ərzində türk filmlərinin nümayiş etdiriləcəkdi. XV Beynəlxalq Film festivalına Sovet İttifaqından Moskva Dövlət Simfonik orkestrinin qatılacağı, Ankara və İstanbulda da "SSRİ filmləri həftəsi"nin keçiriləcəyi yazılmışdır[382]. İmzalanmış proqrama uyğun olaraq SSRİ ilə mədəniyyət və incəsənət sahəsində əlaqələrin yaxşılaşdırılması istiqamətində gözə çarpan addımlar atıldığı qeyd edilmişdi.

Turqut Özalın 1986-cı ildə SSRİ-yə səfəri zamanı Qorbaçovla görüşə bilməməsi mənfi hal kimi dəyərləndirilsə də, Özalla birlikdə səfər edən 160 nəfərlik heyət mühüm danışıqlar aparmışdı. Bu qrupdakı iş adamlarının əksəriyyəti Baş nazirin təşəbbüsləri ilə ticarət əlaqələrinin qurulması və inkişaf etdirilməsi məqsədilə səfərdə iştirak edirdi. "Cümhuriyyət" qəzetində yer alan "Özbəklərdən isti maraq" başlıqlı xəbərdə Özalın Özbəkistana 24 saatlıq qısa bir səfər etdiyi və Səmərqənddəki özbəklərin isti havaya baxmayaraq Türkiyədən gələn bu ziyarətçiləri görmək üçün saatlarla gözlədikləri qeyd edilmişdi. Özal çıxışı zamanı xaricdəki türklərlə maraqlandığını, münasibətlərin yaxşılaşdırılması istiqamətində addımların atılacağını qeyd etsə də, bu çıxışını humanitar bir nöqtədə saxlayıb, siyasi mövzulara qarışmamağa diqqət yetirmişdi. Xəbərdə Özalın bu sözləri xüsusi qeyd olunmuşdur: *"Bizim heç kimin torpağında gözümüz yoxdur"*. Bu açıqlama Özalın Qorbaçovu narahat edəcək hər hansı vəziyyət yaratmamağa xüsusi diqqət yetirdiyinin sübutudur[383].

1989-cu ilin iyun ayında Özbəkistanda "bir bazarda Ahıska türkləri ilə özbəklər arasında başlayan qarşıdurma" kimi təqdim edilən Fərqanə hadisələri Türkiyə qəzetlərində geniş işıqlandırılmışdı. Əvvəlcə "Cümhuriyyət" qəzetinin 5 iyun tarixli sayında sovet xəbər agentliyi TASS-a istinadən "Özbəkistanda qarşıdurma" adı ilə xəbər verilmişdi. Xəbərdə silahlı qruplarla polis arasında qarşıdurmaların başladığı, ölən və yaralananların olduğu hadisələrin Ahıska türklərinin yaşadığı Fər-

*[382] Türk Filmleri Moskova ve Taşkent Film Festivallerinde Sovyetler Birliği'ne sanat çıkarması // Cumhuriyet. 1987, 26 Mart. - s.10.*
*[383] Ergin, S. Özbeklerden sıcak ilgi // Cumhuriyet. – 1986, 30 Temmuz. – s.10.*

qanə vadisində baş verdiyi, silahlı qrupların rəsmi binalara da hücum etdiyi yazılırdı. Bölgədə komendant saatı elan olunduğu və hadisələri araşdırmaq üçün komissiyanın yaradıldığı bildirilirdi[384]. İyunun 6-da "Milliyet" qəzetində "Baltik respublikaları, Ermənistan, Azərbaycan, Gürcüstan və... indi də Özbəkistan" başlıqlı xəbərdə millət vəkili Rəhmətullah Əhmədovun çıxışlarına yer verilmişdi. Əhmədov "aşırı türklər" adlandırdığı Ahıska türklərindən bir qrupun özbəklərə hücum etdiyini iddia edərək *"Gənclər səbəbsiz yerə bu yola əl atıb"* kimi açıqlamalar vermişdi[385]. "Tərcüman" qəzeti də "Milliyət" qəzeti kimi "Fərqanədə özbək-Məsxət davası, Mərkəzi Asiyada türklər toqquşdu" başlıqlı xəbərində Rəhmətullah Əhmədovun sözlərinə yer vermişdi. Xəbərin məzmununda o, Stalinin "Türkiyə agenti" olduqlarını əsas gətirərək Gürcüstan ərazisindən Mərkəzi Asiyaya sürgün olunduqlarını da bildirilmişdi. Dəqiq olmayan məlumatlara əsasən, 2 nəfərin öldüyü, xəsarət alanların olduğu da xəbərlərdə qeyd olunmuşdu. İyunun 7-də "Milliyet" qəzetində "Özbəkistanda türklər boğaz-boğaza", "Cümhuriyyət" qəzetində "Özbəkistanda etnik gərginlik", "Tərcüman"da "Özbəkistanda qırğın", Hürriyet" qəzetində isə "Özbəkistanda insanlar bir-birini boğur, ölüm-dirim savaşı" başlığı ilə dərc edilmişdir. Bütün xəbərlər sovet agentlikləri və qəzetlərindən alınmış məlumatlara əsaslanmış, hamısında toqquşmaların davam etdiyi, ölənlərin sayının dəqiq olmasa da 48-50, yaralıların sayının isə 200-dən çox olduğu qeyd edilmişdi. Qorbaçovun *"etnik münaqişələrdə iştirak edənlərin ağlının səsinə qulaq asaraq bundan əl çəkməsi gərəkdir"* kimi açıqlamalar verdiyi, Fərqanə bölgəsinə 6 min nəfərlik təhlükəsizlik qüvvəsinin göndərildiyi bildirilmişdi[386].

---

*[384] Özbekistan'da çatışma // Cumhuriyet. – 1989, 5 Haziran. – s.3; Özbekistan'da çatışmalar devam ediyor // Cumhuriyet. – 1989, 6 Haziran. – s.3.*
*[385] Şimdi de Özbekistan // Milliyet. – 1989, 5 Haziran. – s.4.*
*[386] Özbekistan'da Türkler boğaz boğaza // Milliyet. – 1989, 7 Haziran. – s.4; Özbekistan'da etnik gerilim // Cumhuriyet. – 1989, 7 Haziran. – s.8; Özbekistan'da katliam // Tercüman. – 1989, 7 Haziran. – s.6; Özbekistan'da halk birbirini boğazlıyor, Ölümüne kavga // Hürriyet. – 1989, 7 Haziran. – s.12.*

İyunun 8-də dərc edilən xəbərlərdə hadisələrin bazarda baş verən münaqişədən başladığı[387] və hələlik nəzarət altına alındığı yazılsa da, "Milliyet" qəzeti Reuter xəbər agentliyinə əsaslanaraq gərginliyin hələ də davam etdiyini bildirmişdi[388]. "Tərcüman" qəzeti də "Pravda" qəzetinə istinadən verdiyi xəbərdə yerli idarəçilərin nəzarəti tamamilə itirdiyini və qarşıdurmaların davam etdiyini bildirmişdi[389]. Eyni nömrədə Fahir Armaoğlu yazısında Ahıska türklərinin adını Məshəti türkləri olaraq çəkmiş, onların tarixindən qısaca bəhs etmiş, sonra isə Qorbaçovu tənqid etmişdi. O, Qorbaçovun türklərə qarşı xüsusilə düşmən olduğunu, Qərb dünyası və Türkiyədəki sol dairələrin xalq məclisi seçdirdiyinə görə demokratiya adı ilə Qorbaçovu alqışladıqlarını, lakin Krım və Məshəti türklərinin insan haqlarına zidd vəziyyətinə göz yumduqlarını bildirmişdi[390].

İyunun 9-da "Cümhuriyyət" qəzetində çıxan xəbərdə toqquşmaların davam etdiyi və ölənlərin sayının 71-ə çatdığı bildirilmişdi. Hadisələrin Kokand şəhərinə də sirayət etdiyi, özbəklərin silah tapmaq üçün polis bölmələrinə basqın etdiyi, bəzi silahlı gənclərin Ahıska türklərinə qarşı bir növ ova başlayaraq onları tapdıqları yerdə hücum etdikləri qeyd edilmişdi[391]. Eyni xəbərin davamında məsələyə bir də tamamilə fərqli bir tərəfdən toxunulmuşdu. Xəbərdə kiçik bir başlıqla "Sünni-şiə qarşıdurması?" yazılmış və ardınca özbəklərlə ahıskalılar arasında münaqişənin belə kiçik bir səbəbdən yaranmasına şübhə ilə yanaşaraq, ağla gələn səbəblər arasında məzhəb fərqinin olduğu da qeyd edilmişdi. "Özbəklərin sünni, əslən gürcü olan məshətilərin şiə məzhəbindən olduğu" kimi cümlə yazılmışdı. Halbuki Ahıska türkləri gürcü deyillər, sadəcə Gürcüstandan sürgün edilmişdilər. Bundan əlavə, Ahıska türkləri də sünni məzhəbindəndirlər. Xəbəri hazırlayan müxbirin adı çəkilməsə də, onun məlumatda böyük səhvə yol verdiyi və oxucularda

[387] *Olayları Pazar kavgası başlattı // Cumhuriyet. – 1989, 8 Haziran. – s.8.*
[388] *Etnik gerginlik sürüyor // Milliyet. – 1989, 8 Haziran. – s.4.*
[389] *Özbekistan'da katliam sürüyor // Tercüman. – 1989, 8 Haziran. – s.6.*
[390] *Armaoğlu, F. Misket Türkleri // Tercüman. – 1989, 8 Haziran. – s.6.*
[391] *Sovyetler Birliği'nin Özbekistan Cumhuriyeti'nde Türkler arasındaki çatışmalar sürüyor Ölü sayısı 71'e yükseldi // Cumhuriyet. – 1989, 9 Haziran. – s.8.*

yanlış təsəvvür yaraddığını qeyd etmək lazımdır. Sonrakı günlərdə də qarşıdurmalarla bağlı xəbərlər davam etsə də, bir daha sünni-şiə məsələsinə toxunulmamışdı. İyunun 12-dək Türkiyə qəzetlərində toqquşmaların davam etməsi, yerli hökumətin hadisələrə müdaxilə etmək iqtidarında olmaması və bu səbəbdən Moskva tərəfindən günahlandırılması yazılmışdı[392].

"Cümhuriyyət", "Milliyet" və "Tərcüman" qəzetlərində Özbəkistanda hadisələrin 12 iyun tarixindən etibarən nəzarət altına alındığı və normallaşmağa başlamasına dair manşetlər dərc olunsa da, özbəklərin Ahıska türklərini istəmədiyi xüsusi qeyd edilmişdi. Ahıska türklərinin müvəqqəti olaraq düşərgələrə aparılaraq himayə altında saxlanıldığı da qeyd olunmuşdu[393].

İyunun 14-dən etibarən müvəqqəti düşərgələrə yerləşdirilən təxminən 10 min Ahıska türkünün Fərqanə bölgəsindən köçürülməsinə başlandığı bildirilmişdi. Digər tərəfdən, xəbərlərdə Ahıska türklərindən bəzilərinin aclıq aksiyası keçirdikləri, onların yoxsul həyat şəraitinə diqqət çəkməyə çalışdıqları da bildirilmişdi[394].

"Tərcüman" qəzeti bu hadisələrlə bağlı fərqli bir məqama toxunaraq yazırdı ki, sovet hakimiyyəti baş vermiş hadisələri "Özbəklərin məsxəti qırğını" kimi qələmə verməyə çalışır, lakin hadisələrin arxasında Özbəkistanda güclənən milli hərəkata zərbə vurmaq oyunları dayanır. Xəbərin davamında, Sovet İttifaqında yaşayan türklər və digər millətlər üçün yayımlanan Almaniyadakı "Hürriyyət" radiosundan alınan məlumata görə, Özbəklərin qurduğu 150.000 üzvü olan "Birlik", Ahıska türklərinin qurduğu "Vətənə dönüş milli hərəkatı" və "Krım

---

[392] *Güvenlik güçleri Özbekistan'daki kanlı olayları bastırmakta yetersiz kalıyor Özbekler öfkeyle saldırıyor // Cumhuriyet. – 1989, 11 Haziran. – s.8; Mesket Türkleri güç durumda: Güvenlik kuvvetleri aciz kalırken, ölü sayısı 80'e, yaralı sayısı da 800'e ulaştı Özbek terörü // Milliyet, –1989, 11 Haziran. – s.4; Özbekistan'da 9 bin kişilik güvenlik güçleri aciz kaldı Türkler arası savaş durdurulamıyor // Tercüman. – 1989, 10 Haziran. – s.6.*

[393] *Mesket Türkleri özel kamplara yerleştirildi // Milliyet. – 1989, 12 Haziran. – s.4; Özbekistan'da durum normale dönüyor // Cumhuriyet. – 1989, 12 Haziran. – s.8; Özbekistan'da normale dönüş başladı // Tercüman. – 1989, 12 Haziran. – s.6.*

[394] *Misket Türkleri açlık grevinde // Cumhuriyet. – 1989, 14 Haziran. – s.8.*

Tatarlarının Milli hərəkatı" adlı üç qeyri-rəsmi təşkilatın liderləri 8 iyunda birgə bəyanat yayaraq son hadisələri pisləmiş və qardaş qanını tökməməyə çağırış etmişdilər. Demokratik islahatlara çalışan üç təşkilatın "Fərqanə xalqına müraciət" başlığı ilə yaydığı bəyanatda 1944-cü ildən bəri bir yerdə yaşayan özbək və ahıskalıların milli hərəkatını sarsıtmaq üçün təxribatla qarşıdurmaya sövq edildiyi bildirilərək belə qeyd edirdi ki, *"Əziz qardaşlar, özbək, tacik, qırğız, Krım tatarları, məshəti türk qardaşlar. Tariximiz, dinimiz, dilimiz bir idi. Kasıblığımız, işsizliyimiz, bədbəxtliyimiz bir idi. İndi bizim faciəmiz də bir oldu. Dayanın, geri çəkilmək üçün deyil, məğlub olmaq üçün deyil, düşünmək üçün dayanın. Gəlin dayanaq və əsl problem yaradanları tapaq. Böyük karvanımızı başqa yola yönəltmələrinə imkan vermədən öz aramızda razılaşaq. Minlərlə əsrlik tariximizə, tarixdəki ulu əcdadlarımızın xatirəsinə, onların insanpərvərliyinə, ziyalılığına sadiq qalaq. Öz ortaq türklərimizə balta vurmayaq"*[395].

"Cümhuriyyət" qəzeti yazırdı ki, iyunun ikinci yarısından etibarən Ahıska türklərinin çoxu Rusiyanın mərkəzi bölgələrinə, Qazaxıstana, böyük əksəriyyəti Azərbaycana köçürülmüşdü[396]. Bir il sonra "Cümhuriyyət" qəzetində Türkiyənin Ahıska türklərinin kiçik bir hissəsini qəbul etməyə hazır olduğu və Ahıska türklərinin bu xəbəri sevinclə qarşıladığı haqda məlumat dərc edilmişdi[397]. Onların Türkiyəyə qəbulu və köçürülməsi haqqında qanun yalnız 1992-ci ildə təsdiq edilmiş[398] və kiçik bir qrup Ahıska türkü İğdır şəhərində yerləşdirilmişdi.

"Cümhuriyyət" qəzeti 22 oktyabr 1989-cu ildə Özbək dilinin dövlət dili olması üçün konstitusiya dəyişikliyinin qəbul edildiyi, rus dilinin ünsiyyət dili olaraq istifadəsinə davam ediləcəyi, həmçinin Baş

---

[395]*Misketler "Türkler'e hürriyet" bayrağını açtı // Tercüman. – 1989, 14 Haziran. – s.6.*
[396] *Misket Türkleri göç yolunda // Cumhuriyet. – 1989, 17 Haziran. – s.8.*
[397] *Ahıska Türkleri // Cumhuriyet. – 1990, 6 Haziran. – s.9.*
[398] *Ahıska Türklerinin Türkiye'ye Kabulü ve İskanına Dair Kanun // 2 iyul 1992-ci ildə qəbul edilmişdir. – Ankara: Kanun – 1992, s.7321-7322. [Elektron resurs] - URL: https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.3835.pdf*

nazir Kadırovun yerinə Mir Ahmet Kasımovun təyin edildiyini bildirən dərc etmişdi[399].

1990-cı ilin iyununda Qırğızıstanın Oş şəhərində qırğız və özbəklər arasındakı münaqişə ilə bağlı "Cümhuriyyət" qəzetində Özbəkistan prezidenti İslam Kərimovun Qorbaçovdan hərbi müdaxilə istədiyi yazılmış; Özbəkistandakı özbəklərin silahlanıb Qırğızıstana keçərək oradakı özbəklərə yardım etmək üçün getməyə cəhd etmələri və sərhəd rəsmilərinin onlara çətinliklə mane olmaları qeyd edilmiş; Oşdakı gərginliyin Özbəkistana da təsir etməsi və sərhəddə fövqəladə vəziyyət elan edilməsi haqqında xəbər verilmişdi[400].

Türk Dünyası Araşdırmaları Vəqfinin qurucusu və yazıçı olan Turan Yazqanın Türkiyədən bir qrup jurnalist və akademiklə birlikdə Bakı və Daşkəndə on günlük səfəri zamanı müşahidələrini təsvir edən bir məqalə Orhan Türker tərəfindən hazırlanmışdı. Milliyyətçi xətti ilə önə çıxan "Türk Yurdu" jurnalında dərc olunan səyahət qeydlərində Bakıda böyük maraq və həyəcanla qarşılandıqlarını, Daşkənddə də eyni marağı görəcəyini gözlədiyi halda, Bakıdakı kimi olmadığı qeyd edilmişdi. 1966-cı ildə zəlzələ nəticəsində dağılandan sonra yenidən qurulan şəhərin geniş yolları, parkları və yaşıl küçələri ilə diqqət çəkdiyini bildirsə də, Daşkənddəki mağazalarda mal çeşidinin çox az və keyfiyyətsiz olmasını bildirmişdi. O, əlifba dəyişikliyi məsələsinin də ciddi müzakirə olunduğunu, bunun ərəb, yoxsa latın əlifbası olması sualına düzgün cavab tapmağa çalışdıqlarını da bildirmişdi. Fərqanə hadisələrini xalqdan soruşduğunu, "KQB", "Stalinçilər", "radikal islam" kimi müxtəlif izahlar arasında müxbirə ən məntiqli gələn izahın *"Ahıska türklərinin daha az uşağa sahib olmaları, tərəvəz becərməyin onlara yaxşı gəlir gətirməsi, özbəklərin isə çoxuşaqlı və pambıq becərən kəndlilər olması; ahıskalıların müqayisədə daha yaxşı yaşamasının təhrikləri gücləndirməsi və bunun nəticəsində kiçik gərginliyin qarşıdurmaya çevrilməsi"* fikrinin öz fikrinə daha yaxın olduğunu əlavə etmişdi. Ölkənin əksər torpaqlarının pambıq yetişdirilməsi üçün ayrılmasının

---

[399] *Özbekçe 'devlet dili' // Cumhuriyet. – 1989, 22 Ekim. – s.8.*
[400] *Sınırda olağanüstü durum // Cumhuriyet. – 1990, 9 Haziran. – s.9.*

mənfi nəticələrinə toxunan jurnalist, xalqın da bu vəziyyətdən narahat olmasını və həll yolunun tapılmasının vacibliyini bildirmişdi[401].

"Cümhuriyyət" qəzetində yazılar dərc edən Sami Önal da eyni tarixlərdə Daşkənd səfərindən sonra təəssüratlarını həmin qəzetdə qələmə almışdı. Böyük ehtimalla eyni qrupla səyahət edən Önal Daşkənd haqqında ümumi təəssüratlarını bölüşmüşdü[402]. Oktyabrın 19-da səyahət qeydlərinə davam edən Önal Səmərqənd şəhərində gördüklərindən bəhs edərkən, üç Ahıska türkü ilə görüşüb onlara bir il əvvəl Fərqanədə baş verənlərə hadisəyə aid suallar verdiyini və onların cavabını ümimiləşdirərək yazırdı ki, "*... son illərdə aparılan yenidənqurma nəticəsində tikinti sektorunda yeni iş yerlərinin açılması pul qazanmaq imkanlarını artırmış, Ahıska türkləri bu imkanlaran istifadə etmiş, lakin özbəklər heç bir sahədə inkişaf etməyərək əkinçilikdə ilişib qalmış, buna görə də həyat standartları onlardan aşağı olmuşdur. Bu isə bir müddət sonra özbəklərdə narahatlıq yaratmağa başlamışdı. Bazarda baş verən mübahisə sadəcə bəhanə olmuşdur... Ahıskalılar Gürcüstana, öz torpaqlarına qayıtmaq istədiklərini, lakin gürcülərin bunu qəbul etmədiklərini, əksəriyyətinin Azərbaycana köç etdiyini və azərbaycanlıların onlara böyük köməklik göstərdiklərini*" bildirmişdilər[403].

Türkiyə mətbuatında 1991-ci ildə SSRİ-nin dağılmaqda olduğu dövrdə Özbəkistan tarixi və mədəniyyəti haqqında dərc edilmiş bir sıra qəzet xəbərləri mövcuddur. Məsələn, "Cümhuriyyət" qəzeti özünün dekabr tarixli saylarında Mərkəzi Asiyanın tarixinə dair xəbərlərdə Səmərqənd şəhərinin tarixi keçmişindən bəhs edir, bir növ özbək mədəniyyətinin təbliğatı aparılır[404]. Yenə "Cümhuriyyət" qəzeti növbəti saylarından birində Özbəkistan Prezidenti İ.Kərimovun Türkiyəni özlərinə nümunə götürdükləri, bundan sonra heç kimin boyunduruğunun altına girməyəcəkləri, dünyəvi bir dövlət olraq ölkədə fanatik çıxışlara

---

[401] *Türker, O. Taşkent- Bakü gezi notları // – İstanbul: Türk Yurdu – 1990, №10/38, – s.13-15.*

[402] *Önal, S. Taşkent'te lambada // Cumhuriyet. – 1990, 18 Ekim. – s.9.*

[403] *Önal, S. Mesketlerde yurtsuzluğun ezikliği // Cumhuriyet. – 1990, 19 Ekim. – s.9.*

[404] *Yılmaz, F. Semerkand'da 'binbir gece' gerçeği // Cumhuriyet. – 1991, 19 Aralık. – s.12; Yılmaz, F. Taşkent'te yükselen islam // Cumhuriyet. – 1991, 20 Aralık. – s.12.*

icazə verilməyəcəyi ilə bağlı sözləri dərc edilmişdi. Xəbərdə Kərimovun Atatürkdən təsirləndiyini bildirdiyi də qeyd edilirdi[405].

## 3.4. Qırğızıstandakı vəziyyətin Türkiyə mətbuatında əksi

Türkiyə mətbuatında Qırğızıstanla bağlı xəbərlərə digər respublikalarla müqayisədə bir qədər sonrakı dövrlərdə rast gəlinir.

Araşdırılan dövrdə Qırğızıstanla bağlı ilk xəbər 1987-ci ilə aiddir. “Aytmatov tanrısını axtarır” başlığı ilə dərc olunan xəbərdə məşhur Qırğız yazıçısı Çingiz Aytmatovun yeni “Qiyamət” romanının SSRİ-də bir ildə 1 milyon nüsxədən çox satıldığı qeyd edilmiş və müəllifin ədəbiyyatda “qlasnost hərəkatı”nın təmsilçisi kimi çıxış etdiyi bildirilmişdi. Həmçinin Qorbaçov SSRİ-sində Aytmatovun oynadığı rol, rus yazıçısı Maksim Qorkinin Lenin dövründə, yəni XX əsrin əvvəllərində oynadığı rolla müqayisə olunurdu. Aytmatov “Qiyamət” romanı ilə bağlı onu digər romanlarından fərqləndirən ən mühüm fərqin nə olduğu sualına, romanında ilk dəfə din mövzusuna toxunduğunu bildirmişdi. Romanın baş qəhrəmanının xristian olması və hekayənin buradan irəlilədiyini qeyd etmiş, müsəlman olduğu üçün ondan İslam dini ilə bağlı gözləntinin olduğunu, lakin mövzuya fərqli yanaşdığını bildirmişdi[406].

Qırğızıstanla bağlı digər xəbər TASS agentliyinə istinad edərək dərc edilmiş Qırğızıstan-Çin sərhədində 5 ballıq zəlzələ olması, lakin hər hansı itki və ziyanın olmaması ilə bağlı xəbər idi. Zəlzələ ocağının Narın şəhərinin 120 km şimal-qərbindəki bölgədə meydana çıxması qeyd edilmişdi[407].

Qorbaçovun dövründə Mərkəzi Asiya respublikalarında baş verən münaqişələrdən biri də 1990-cı ilin iyununda Qırğızıstanda qırğız və özbəklər arasında meydana çıxmışdı. İyunun 6-da “Cümhuriyyət”, “Tercüman” və “Türkiyə” qəzetlərində “Qırğızıstanda qarşıdurma” başlıqlı xəbərlərdə 11 nəfərin öldüyü, 200 nəfərin yaralandığı yazılmışdı. Sovet “İnterfaks” agentliyinə əsaslanan xəbərdə özbəklərin iyunun 4-

[405] *Yılmaz, F. Fanatizme izin vermem // Cumhuriyet. – 1991, 20 Aralık. – s.12.*
[406] *Aytmatov tanrısını arıyor // Cumhuriyet. – 1987, 17 Kasım. – s.9.*
[407] *Kırgızistan’da deprem oldu // Cumhuriyet. – 1989, 17 Nisan. – s.3.*

də qırğızların iddia etdikləri ərazilərdə ev tikməyə başlamasından sonra etiraz aksiyası keçirdikləri və qarşıdurmaların bundan sonra başladığı yazılırdı. Hökumətin və Kommunist Partiyası rəsmilərinin nümayişçiləri sakitləşdirmək cəhdlərinə baxmayaraq, 1.500 nəfərlik bir qırğız qrupunun özbəklərin etiraz etdiyi əraziyə gəlməsi və həmin vaxt qarşıdurmaların başlaması qeyd edilirdi. Xəbərin təfərrüatlarında bildirilirdi ki, təhlükəsizlik qüvvələrinin havaya atəş açması nəticəsində şəhər müxtəlif yerlərinə səpələnən özbəklər evlərə və iş yerlərinə, daha sonra isə rəsmi binalara hücum ediblər[408]. Ertəsi gün "Türkiyə" qəzetində yayılan xəbərə görə, hadisələr Oş şəhərindən Üzgen şəhərinə də keçmişdi[409]. Bildirilirdi ki, iyunun 8-dən etibarən hadisələr daha da genişlənərək Qırğızıstanın paytaxtı Frunzeyə yayılıb. İnterfaks agentliyinin verdiyi xəbərdə Özbəkistanla Qırğızıstan arasında sərhədlərin tamamilə bağlandığı, Daşkənddən Oşa uçuşların dayandırıldığı bildirilirdi. Xəbərin davamında Qorbaçovun müşaviri, SSRİ prezident şurasının üzvü Çingiz Aytmatovun Oş şəhərinə getdiyi yazılırdı. İttifaqın daxili işlər naziri Vadim Bakatim, Sovet İttifaqı Ali Sovetinin Millətlər Məclisində Qırğızıstandakı hadisələrlə bağlı münaqişələrin nəzarət altına alına bilməməsi, Özbəkistanla Qırğızıstan arasında müharibənin başlaya biləcəyi, Qırğızıstanda ölənlərin sayının 48-ə yüksəlməsi və təhlükəsizlik qüvvələrinin nümayişləri yatırmaqda yetərli olmaması haqqında açıqlamalar verilirdi[410].

İyunun 9-da Özbəkistan Prezidenti İ.Kərimov özbəklərin Qırğızıstana yaxın Əndican şəhərində toplaşaraq Qırğızıstana keçməyə cəhd etdiklərini, bunun qarşısını almaq üçün şəhərdə fövqəladə vəziyyət elan olunduğunu, Özbəkistanın digər şəhərlərində də iğtişaşların başladığını bildirmişdi. O, bu vəziyyətin Özbək-Qırğız müharibəsinə çevrilmə ehtimalı ilə əlaqədar M.Qorbaçovdan hərbi yardım tələb edərək bildirmiş-

---

[408] *Kırgızistan'da çatışma // Cumhuriyet. – 1990, 6 Haziran. – s.16; Kırgızistan'da kardeş kavgası // Tercüman. – 1990, 6 Haziran. – s.6.*

[409] *Alptekin, E. Kırgızistan'da olaylar büyüyor // Türkiye. – 1990, 7 Haziran. – s.6.*

[410] *Çatışmalar iç savaşa dönüşüyor // Cumhuriyet. – 1990, 8 Haziran. – s.9; Kırgızistan'da savaş tehlikesi // Tercüman. – 1990, 8 Haziran. – s.6; Özbek-Kırgız kavgası sürüyor // Hürriyet. – 1990, 8 Haziran. – s.14.*

di ki, *“bütün ölkənin köməyi və Müdafiə Nazirliyinin nəzarəti ələ keçirməsi ilə”* bunu həll etmək olar[411]. Ertəsi gün zirehli bölmələrin Oş və Frunze kimi şəhərlərdə vəziyyəti nəzarətə götürdüyü, lakin şəhər kənarında və kəndlərdə qarşıdurmaların davam etdiyi yazılırdı. Fransanın “Liberation” qəzetində hadisələrlə bağlı xəbərlərə yer verən “Tərcüman” qəzeti bu şərhə diqqət çəkmişdi: *“Ölkə müsəlmanlarının ruslara qarşı birləşə biləcəyi ehtimalı Moskvanın ürəyinə qorxu salırdı... bu absurd nifrət haradan gəldi belə?”*. Yenə Fransanın “Le Monde” qəzetinə istinadən *“Stalinin sərhədlərlə oynaması və bəzi qrupları qonşu ölkələrə sürgün etməsi və beləliklə də münaqişəli cəmiyyətlər yaratdığı üçün Mərkəzi Asiya xalqlarının sülh şəraitində yaşamasının çətinliyi”* şərhi də xəbərdə yer almışdı[412]. İyunun 11-də qarşıdurmaların davam etməsi ilə bağlı xəbərlər “Tərcüman” və “Türkiyə” qəzetlərində dərc olunmuşdu. Daha sonra iyunun 13-də “Türkiyə” qəzetində Erkin Alptekinin “Qırğızıstanda baş verənlər Rusiyaya qarşı üsyandır” başlıqlı xəbəri dərc olundu[413]. Xəbərdə Alptekinin türküstanlıların “Mədəniyyət və əməkdaşlıq dərnəyi”nin rəhbəri Əhəd Andicanla görüşü və onunla müsahibəsinə yer verilmişdi. Andican *“Tacikistan və Azərbaycanda olduğu kimi, ruslar ilk olaraq Qırğızıstanda Özbək-Qırğız münaqişəsini başladaraq müsəlman və millətçi qrupları günahlandırmağa çalışdılar. Halbuki reallıq tamamilə başqadır... Özbəklər də, qırğızlar da əslində rus əsgərləri ilə atışdı... münaqişənin əsasını Sovet hökumətinin Mərkəzi Asiyadakı türk respublikalarını istismar etməsinə qarşı üsyan təşkil edir”* deyə bildirmişdi. “The Wall Street” qəzetindəki şərhin də əlavə edildiyi xəbərdə Qırğızıstanda baş verən hadisələrin etnik münaqişələr kimi təqdim edilərək dünya ictimaiyyətinin aldadılmağa çalışıldığı, bu hadisələrin Cənubi Qafqaz və Baltikyanı respublikalarda baş verən hadisələrdən fərqlənmədiyi yazılırdı. Sovet hökumətinin etnik münaqişələr bəhanəsi ilə ölkənin bu bölgəsindəki zəngin yeraltı sərvətlərə nəzarət etmək üçün bölgəyə çoxlu sayda əsgər göndərməsi; hadisələr za-

[411] *Sınırda olağanüstü durum // Cumhuriyet. – 1990, 9 Haziran. – s.9.*

[412] *Kırgızistan’da insan avı // Tercüman. – 1990, 10 Haziran. – s.6.*

[413] *Alptekin, E. Kırgızistan olayları Rusya’ya karşı isyan // Türkiye. – 1990, 13 Haziran. – s.6.*

manı ölənlərin əsgərlərin xalqa atəş açması səbəbindən öldüyü; etnik münaqişə bəhanəsilə KQB və Daxili İşlər Nazirliyi hissələrin bölgəyə göndərildiyinə haqq qazandırmağa çalışdıqları qeyd edilmişdi. Sonda qəzet, son vaxtlar Mərkəzi Asiya respublikalarının siyasi, iqtisadi və mədəni azadlıq tələblərinə, bu respublikaların xarici ölkələrlə ticarət əlaqələri qurmağa başlamasına diqqət çəkmişdi[414].

Bundan təxminən bir ay sonra, iyulun 19-da Cümhuriyyət qəzetində "Qırğızıstanda daha 4 ölü" başlıqlı xəbərdə Oş bölgəsində qarşıdurmaların davam etdiyi, son 24 saatda 4 nəfərin həyatını itirdiyi bildirilmişdi. Maraqlıdır ki, bundan sonra Oş hadisələri ilə bağlı heç bir xəbərə rast gəlinməmişdir. Ya Türkiyə mətbuatının hadisələrə marağı azalmış, ya da ola bilsin ki, SSRİ-dəki agentliklərdən bu vəziyyətlə bağlı xəbər ala bilmədiklərinə görə məsələ daha işıqlandırılmamışdı.

"Cümhuriyyət" qəzeti 1991-ci il 23 iyul tarixli sayında Rusiyanın Qırğızıstana 810 milyon rubl yardım edəcəyi ilə bağlı iqtisadi xəbər vermişdi: Qırğızıstan bu yardımdan kənd təsərrüfatı sahəsində istifadə edəcək və müqaviləyə uyğun olaraq kənd təsərrüfatı məhsullarını Rusiyaya satmağa razılıq vermişdir[415].

"Cümhuriyyət" qəzetinin 1 sentyabr tarixli nömrəsində "özbək və qırğızlar da müstəqildir" başlıqlı xəbərdə Özbəkistanın bir gün əvvəl müstəqilliyini elan etməsi, Qırğızıstanın da qısa müddət sonra müstəqilliyini elan edərək parlamentinin 12 oktyabrda birbaşa prezident seçkiləri keçirməyə qərar verdiyi qeyd edilir, həmçinin bildirilirdi ki, müstəqilliyini elan etmiş respublikaların sayı 10-a çatmış, bu arada M.Qorbaçov Qırğızıstan prezidenti Əsgər Akayevə vitse-prezident vəzifəsini təklif etmiş, lakin Akayev bundan imtina etmişdir[416].

Türkiyə mətbuatında 1991-ci ildən etibarən Qırğızıstanın tarixi və mədəni xüsusiyyətlərinin tanıdılması ilə bağlı xəbərlərin də dərc edildiyini görmək mümkündür. Məsələn, "Cümhuriyyət" qəzetinin yazarlarından Fatih Yılmaz "Dağılmış SSRİ-dəki türk respublikalar: Mərkəzi

---

[414] *Alptekin, E. Kırgızistan olayları Rusya'ya karşı isyan // Türkiye. – 1990, 13 Haziran. – s.6.*

[415] *Kırgızistan'a Rusya'dan destek // Cumhuriyet. – 1991, 21 Temmuz. – s.9.*

[416] *Özbek ve Kırgızlar da bağımsız // Cumhuriyet. – 1991, 1 Eylül. – s.9.*

Asiya Oyanır" başlığı ilə növbə ilə Mərkəzi Asiya türk respublikalarının tarixi və mədəniyyətindən bəhs etdiyi məqalə silsiləsində Qırğızıstanla bağlı təəssüratlarından yazmışdı[417].

22 dekabrda Türkiyəyə 5 günlük səfərə gələn Ə.Akayev Ankarada rəsmi mərasimlə qarşılandıqdan sonra T.Özalla görüşmüş[418], ertəsi gün dərc edilən xəbərlərdə Özalın "Qırğızıstanı tanıyırıq" bəyanatına yer verilmişdi[419]. 24 dekabrda o zamankı Baş nazir Süleyman Dəmirəllə görüşən Ə.Akayevə Qırğızıstanın tanınma sənədi təqdim edilmiş və Akayev Qırğızıstanı tanıyan ilk ölkənin Türkiyə olmasından xoşbəxt olduqlarını bildirmişdi. Dəmirəl isə diplomatik əlaqələrin ən qısa zamanda səfirlik səviyyəsinə qaldırılacağına və əlaqələrin daha yaxşı səviyyəyə gələcəyinə inandığını bildirmişdi. Akayevin Ankaradan sonra İstanbul və İzmirə gedəcəyi, bir sıra iş adamları ilə görüşərək ticari əməkdaşlığın qurulması üçün görüşlər təşkil edəcəyi bildirilmişdir[420]. Qırğızıstanla bağlı ən son xəbər Akayevin Türkiyəyə səfərindən sonra TASS-a verdiyi müsahibədir ki, bu müsahibə də "Cümhuriyyət" qəzetində dərc edilmişdir. Xəbərdə Akayevin Türkiyədən razı qayıtması və Türkiyə ilə əməkdaşlığın Qırğızıstanın dünyaya açılmasında böyük rol oynayacağını ifadə etməsi yazılırdı[421].

### 3.5. Türkmənistandakı vəziyyətin Türkiyə mətbuatında əksi

Türkmənistan hazırda olduğu kimi sovet dövründə də çox xəbərlərlə gündəmə gəlməmişdir. Qorbaçovun dövründə də, Türkiyə mətbuatında Türkmənistanla bağlı xəbər sayı çox az nəşr edilmişdir.

Türkmənistanla bağlı ilk xəbər 1988-ci ildə respublikada mafiya dəstəsinin məhv edilməsi haqqında kiçik bir xəbər olmuşdur. "Pravda" qəzetindən sitat gətirilən xəbərdə şantaj yolu ilə xalqı qorxudmaqla pul toplayan sovet tipli mafiya dəstəsinə aşağı rütbəli polislərin də qoşul-

---

[417] *Yılmaz, F. Tanrı Dağları'nda Kırgız havası // Cumhuriyet. – 1991, 17 Aralık. – s.7.*
[418] *Özbekler gitti Kırgızlar geldi // Cumhuriyet. – 1991, 22 Aralık. – s.10.*
[419] *Özal: Kırgızistan'ı tanıyoruz // Cumhuriyet. – 1991, 23 Aralık. – s.9.*
[420] *Kırgızistan tanındı // Cumhuriyet. – 1991, 24 Aralık. – s.9.*
[421] *Akayev memnun // Cumhuriyet. – 1991, 28 Aralık. – s.9.*

ması və mafiya lideri İlyas Sərkiyevin həbs edilməsi qeyd edilmişdi. Xəbərə görə, imkanlı şəxslərdən xərac toplayan Sərkiyevlə birlikdə 12 nəfər də həbs olunmuşdu[422].

1989-cu ildə “Türkmənistanda etirazlar” başlığı ilə nəşr olunan bir digər xəbərdə 250 nəfərlik qrupun Nebit dağ şəhərində millətçi şüarlarla nümayiş keçirərək 30-a yaxın mağazaya hücum etməsi qeyd edilirdi. Xəbərin davamında nümayişçilərin ermənilərə qarşı şüarlar səsləndirərək bazara doğru irəlilədikləri və iki polis maşınına ziyan vurduqları bildirilmişdi[423].

1990-cı ildə “The Independent” qəzetinin müxbiri Rupert Cornvellin Türkmənistandan olan müxalif yazıçı ilə müsahibəsini dərc etmiş, sonradan məqalə “Cumhuriyət” qəzetində “Türkmənistan partlamağa hazırdır” başlığı ilə dərc olunmuşdu. Məqalədə Türkmənistan yazıçısı Akmuhammed Velsaparın ölkə haqqında düşüncələrindən bəhs edirdi. Yazıçı bildirirdi ki, *“1989-cu ildə Türkmənistanda doğulan hər 1.000 uşaqdan 55-i bir yaşına çatmadan dünyasını dəyişmişdir.”* O, *“şimal tərəfdəki Tasavuz regionunda bu nisbətin 65%-ə qədər artdığını”* bildirirdi[424]. Ölüm səbəblərinin ağciyər, bağırsaq xəstəlikləri və düzgün qidalanmama olması, bu ölüm nisbətinin çox yüksək rəqəm olmasını bildirən yazıçı, bu vəziyyətin rəsmi olaraq qeydə alınmamasından da şikayətlənirdi. Digər tərəfdən, Velsapar ekoloji vəziyyətin acınacaqlı olduğunu bildirmiş, qeyd etmişdir ki, *“əksər ərazilər çöllükdür, əkin sahələrinə suvarma kanalları vasitəsilə su verməklə pambıq əkməyə məcburdurlar”*. O, SSRİ dövründə türkmənlərin doğum səviyyəsinin artdığını, lakin gəlirlərinin azaldığını, ona görə də həyatlarının çətinləşdiyini vurğulayır; mərkəzin yüksək gözləntiləri qarşısında bu problemlərin gözardı edilməsi və nəticədə xalqın səbrinin tükənməsi və bu vəziyyətə qarşı üsyan qaldırma ehtimalının getdikcə artmasına da diqqət çəkirdi[425].

---

[422] *Türkmenistan’da mafya çetesi // Cumhuriyet. – 1988, 8 Mart. – s.9.*
[423] *Türkmenistan’da gösteriler // Cumhuriyet. – 1989, 13 Mayıs. – s.9.*
[424] *Türkmenistan patlamaya hazır // Cumhuriyet. – 1990, 6 Haziran. – s.9.*
[425] *Yenə orada.*

Əslində, türkmən yazıçısı Velsapar SSRİ-nin rəsmi nəşrində dərc olunmuş tənqidi fikirləri təkrar dilə gətirmişdi. Belə ki, bundan bir neçə ay əvvəl "Cümhuriyyət" qəzeti Türkmənistanda ekoloji fəlakətlə bağlı Moskvada nəşr edilən ümumittifaq qəzet olan "Komsomolskaya Pravda" qəzetində dərc edilmiş məqalənin tərcüməsini vermişdi. Məqalədə, 1988-ci ildə aparılan araşdırmaya əsasən, Aral gölünün quruması nəticəsində gölün ətrafında ekoloji tarazlığın pozulması, Türkmənistanın Tasavuz regionunda insanların uzun müddət ətlə qidalana bilməməsi, qidalanma şəraitinin çox pis olması, bir yaşına çatmadan ölən körpələrin sayının çox yüksək olması kimi məsələlər diqqətə çatdırılırdı[426].

Avqust ayında digər respublikalar kimi Türkmənistan da suverenliyini elan etmişdi. Bu haqda xəbər verən "Cümhuriyyət" qəzeti Sovet İttifaqının parçalanmağa bir addım daha yaxınlaşdığını bildirirdi[427].

Növbəti xəbərlər isə, SSRİ-nin dağılması ərəfəsində digər türk respublikaları ilə qurulan əlaqələrin Türkmənistanla da qurulmaqda olduğu ilə bağlı xəbərlərdir. Məsələn, "Cumhuriyet" qəzeti 1991-ci il noyabrın 25-də Ankaraya səfər edən Türkmənistanın xarici işlər naziri Avdi Kuliyevin Türkiyə ilə əməkdaşlığı inkişaf etdirmək istəyi ilə bağlı qısa bir xəbər dərc etmişdi[428].

Türkmənistanla bağlı son xəbər F.Yılmazın "Dağılmış SSRİ-də Türk Respublikalar. Mərkəzi Asiya Oyanır" məqalələr silsiləsində Türkmənistanla bağlı təqdimat yazısıdır. Məqalədə türkmən tarixindən qısaca bəhs etdikdən sonra onların da oğuz tayfasından olduqları və oğuz adət-ənənələrini yaşatdıqları bildirilirdi. Aşqabada səfər edən və oradakı təəssüratlarını çatdıran Yılmaz, Qaraqum səhrasının ölkənin əksər hissəsini əhatə etdiyini bildirir, qeyd edirdi ki, şəhərdə sovet mədəniyyətini əks etdirən Lenin heykəlləri var, kommunist simvolları şəhəri hər tərəfdən bəzəyir. O, əlavə edərək bildirirdi ki, danışdığı insanlardan heç bir narazı söz eşitməmiş, adının verilməsini istəməyən bir

[426] *Türkmenistan'da ekolojik felaket // Cumhuriyet. – 1990, 26 Nisan. – s.9.*
[427] *Egemen Türkmenistan // Cumhuriyet. – 1990, 24 Ağustos. – s.1.*
[428] *Türkmen bakanın iş birliği talebi // Cumhuriyet. – 1991, 25 Kasım. – s.9.*

türkmən isə insanların qorxduqları üçün susduqlarını bildirmişdi. Türkmənistan lideri Niyazovdan müsahibə alan və bunu xəbərə əlavə edən müəllif, Niyazovun "Mərkəzi Asiyanın ən sərt diktatoru" adlandırıldığını və müxalifətə heç bir azadlıq verilmədiyini deyəndə, Niyazov buna etiraz etmiş və keçid proseslərinin stresli olduğunu, ona görə də bütün işlərə ciddi nəzarət etdiyini, lakin müxalifətin söz haqqını almadığını bildirmişdi. O, müxalifət liderlərinin bəyanatlar verdiyini, bunun qarşısını almadıqlarını, diktator olsaydı buna icazə verilməyəcəyini və ona aid edilən bu vəziyyəti qətiyyən qəbul etmədiyini bildirmişdi. Yılmazın digər sualı, Türkiyə səfərindən yenicə qayıdan Niyazovun Türkiyədən hansı gözləntilərinin olması ilə bağlı olmuşdu. Niyazov bu suala belə cavab vermişdi: *"Biz Türkiyədən çox şey gözləyirik, müstəqilliyimizin tanınmasını istəyirik və bunun tezliklə baş verəcəyinə inanırıq. Türkiyə ilə iqtisadi sahədə də əməkdaşlıq edə bilərik. Biz istəyirik ki, Türkmənistanın təbii sərvətləri Türkiyə ilə birgə emal edilsin. Mən bunu Türkiyədə olarkən demişəm. Biz Türkiyəni qərbə açılan qapı kimi deyil, böyük potensialı ilə Türkmənistanın iqtisadiyyatına istiqamət verəcək tərəfdaş kimi görürük"*[429]. Niyazov bütün bəyanatları xəbərlərdə öz əksini tapmışdı. O dövrdə əməkdaşlıqdan açıq danışan Niyazovun müstəqillik əldə etdikdən sonra uzun müddət Türkmənistanın idarəçiliyini əlində saxlamasına baxmayaraq, nə Türkiyə ilə, nə də digər türk cümhuriyyətləri ilə münasibətləri gözlənilən səviyyəyə çatdırmamışdı.

* * *

*Fəsildə deyilənləri yekunlaşdıraraq qeyd edə bilərik ki,* Türkiyə mətbuatında haqqında bəhs olunan dövrdə ümumilikdə Türk dünyası ilə, o cümlədən Mərkəzi Asiyanın türk respublikaları ilə bağlı xəbərlər də verilmişdir. Məsələn, 28 sentyabr 1990-cı ildə nəşr olunan "Türk xalqları konqresi" başlıqlı xəbərdə Sovet İttifaqında yaşayan sayı 70 milyona çatan türk əsilli xalqların nümayəndələrinin Moskvada toplanması və məqsədlərinin türklər arasında əlaqələri gücləndirmək ol-

---

[429] *Yılmaz, F. Oğuzlar Türkmenistan'da yaşıyor // Cumhuriyet. – 1991, 18 Aralık. – s.14.*

ması qeyd edilmişdir. Bildirilir ki, Qazaxıstan deputatı Oljas Süleymanovun rəhbərliyi ilə təşkil olunan qurultay "Şərq xalqları" qurultayı adlansa da, fars əsilli taciklər iclasa qatılmadığı üçün toplantı türk xalqlarının qurultayına çevrilmişdi. Qurultayda qaqauzlar, yakutlar, çeçenlər, ahıska türkləri, başqırdlar, tatarlar, qazaxlar, özbəklər, qırğızlar, türkmənlər və azərbaycanlılar iştirak edirdilər. Açılışda çıxış edən O.Süleymanov bildirmişdir ki, Mərkəzi Asiya xalqları bundan sonra ruslara qarşı müəyyən sanksiyalar tətbiq etmək gücünə malik olmalıdır. O.Süleymanovun "Anadolu" agentliyinə verdiyi bəyanatda o, üç gün davam edəcək qurultay nəticəsində qəbul ediləcək qərarların Mərkəzi Asiya və Şərq xalqlarına birlikdə hərəkət etmək imkan yaradacaq əsas prinsipləri müəyyənləşdirəcəyini bildirmişdir. O.Süleymanov türk əsilli deputatların dəvət olunmalarına baxmayaraq iştirak etməmələri, toplantıda xalq cəbhəsi və bu kimi qurumların təmsil olunması barədə məlumatları da çatdırmışdır[430].

Digər bir xəbər isə "Cumhuriyet" qəzetində 22 aprel 1991-ci ildə "Türk xalqları konqresi" başlığı ilə dərc edilmişdir. Xəbərdə Tatarıstanın paytaxtı Kazanda SSRİ-nin türk xalqlarının nümayəndələrinin iştirak etdiyi II Türk xalqları qurultayının keçirildiyi yazılmışdı. Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Başqırdıstan, Tatarıstan, Yakutiya, Çuvaşıstan, Dağıstan, Tuva və bir sıra digər muxtar respublikaların 125 nümayəndəsinin iştirakı ilə SSRİ-nin türk xalqlarının məqsəd və fəaliyyət birliyinin yaradılması məqsədilə bir araya gəldiyi xəbəri verilmişdi[431]. Bir neçə ay sonra bu qurultay haqqında yenidən xəbər dərc edən Kərəm Çalışkan, Kazanda keçirilən türk konqresi haqqında daha ətraflı məlumat əldə etmiş və "Cumhuriyet" qəzetində işıqlandırmışdır. Xəbərdə o, SSRİ-dəki türk mənşəli xalqların müxtəlif partiya, dərnək və təşkilatların nəzdində sıx təşkilatlandığını bildirirdi. Hədəfin latın əlifbasının qəbul edilməsi olduğu vurğulanmış və iclasda "Türk xalqları məclisi"nin yaradılması bəyan

[430] *Türk halkları kongresi // Cumhuriyet. – 1990, 29 Eylül. – s.9.*

[431] *Çalışkan, K. Türk Halkları Kongresi // Cumhuriyet. – 1991, 22 Nisan. – s.7; yenə onun. Orta Asya'da 'milli uyanış' // Cumhuriyet. – 1991, 9 Haziran. – s.12.*

edilmişdi. Bu qurultayın nəticəsi olaraq türk xalqları arasında mədəni və iqtisadi əlaqələrin artırılması və inkişafı ilə bağlı qərarların təsdiq edildiyi bildirilirdi[432].

Yuxarıda deyilənləri yekunlaşdırsaq, bəhs olunan dövrdə Mərkəzi Asiyanın türk respublikalarında vəziyyətin Türkiyə mətbuatında işıqlandırılması ilə bağlı aşağıdakı nəticələrə gəlinmək mümkün olur.

İlk olaraq, Türkiyədə mətbuatın vəziyyəti ilə bağlı:

✓ 1985-1991-cı illərdə Türkiyə mətbuatı özünün çətin dövrlərindən birini yaşamaqda idi. Belə ki, 1980-ci il 12 sentyabr hərbi çevrilişindən sonra ölkə həyatının bütün sahələrində olduğu kimi, mətbuatda da əsaslı dəyişikliklər baş vermişdi: azadlıqların məhdudlaşdırılması və senzuranın gücləndirilməsi məntiqi olaraq, intellektual jurnalistikanın fəaliyyətinin məhdudlaşdırılmasına, siyasi məzmunlu bir çox qəzet və jurnallar bağlanmasına səbəb olmuşdu;

✓ Nəşr olunan qəzet və jurnallarda "siyasətdən uzaqlaşma" hiss olunmağa başlamışdı, qəzetlər bu dövrə qədər daha çox ictimai-siyasi xarakterli yazılar dərc etməyə çalışırdılarsa da, mövcud şəraitdə əsasən iqtisadi və "maqazin" xəbərlərinə üstünlük verilməsinə başlanmışdı. Kəmiyyət keyfiyyəti üstələməyə başlamış, daha çox qazanc məqsədli jurnalistika fəaliyyət imkanı əldə etmiş, "sarı mətbuat"ın sayı artmağa başlamışdı;

✓ 1983-cü ildən vəziyyətdə bir qədər mülayimləşmə və nəticədə mətbuatda məzmun baxımından müsbət dəyişikliklər hiss edilməsinə başlandı;

✓ 1989-cu ildən Türkiyədə müstəqil medianın fəaliyyətinə icazə verildi, müstəqil radio və televiziya kanalları yaradılmasına başlandı ki, bu vəziyyət qəzet və jurnalların da fəaliyyətinə müsbət təsirini göstərdi.

Türkiyə mətbuatında Mərkəzi Asiyanın türk respublikalar üzrə ayrı-ayrılıqda verilən xəbərlərin araşdırılması zamanı gəlinən nəticə aşağıdakı kimi olmuşdur:

[432] *Çalışkan, K. Kazan'da Türk Halkları Kurultayı // Cumhuriyet. – 1991, 13 Haziran. – s.12.*

✓ Qazaxıstan və Özbəkistanla bağlı verilən xəbərlər Qırğızıstan və Türkmənistanla bağlı verilən xəbərlərdən çox olmuşdur;

✓ Qazaxıstanla bağlı verilən xəbərlər əsasən ictimai-siyasi xarakterli olmuşdur. Xəbərlərin verilməsinə 1986-cı il Alma-Ata hadisələri ilə başlanmış və haqqında ən çox danışılan xəbər də məhz elə Alma-Ata hadisələri olmuşdur. Mahiyyət etibarilə, yalnız məlumat xarakterli yazılar dərc edilməyib, məsələlərin araşdırılmasına və təhlilinə də cəhd göstərilmişdir;

✓ Özbəkistanla bağlı xəbərlər ictimai-siyasi, sosial-iqtisadi, mədəni xarakterli olmuşdur. 1989-cu ildə Fərqanə hadisələri uzun müddət müzakirə olunan məsələlərdən olub. Ahıska türklərinin ikinci deportasiyası ilə nəticələnən bu hadisə, eyni zamanda SSRİ-də milli məsələnin vəziyyəti ilə bağlı da müəyyən məlumatların dərc edilməsinə səbəb olub;

✓ Qırğızıstanla bağlı xəbərlərə çox az yer verilib, ilk xəbər 1987-ci ilə aiddir. Xəbərlər əsasən ictimai-siyasi, mədəniyyət xarakterli olmuşlar. Daha çox 1990-cı il Oş hadisələri, Özbəkistanla qarşıdurma məsələlərinə yer ayrılmışdı;

✓ Türkmənistana gəlincə, SSRİ dövründə də, sonralar olduğu kimi, çox da xəbər yoxdur. Verilən xəbərlər 1988-1991-ci illəri əhatə etmişdir. Əsasən ölkənin daxili vəziyyəti ilə bağlı xəbərlər olmuşdur. Bundan başqa, xarici mətbuatda dərc edilmiş məqalələrin tərcümələri də nəşr edilmişdir.

✓ “Cumhuriyet” qəzetinin jurnalisti Fatih Yılmazın “Dağılmış SSRİ-də türk respublikalar. Mərkəzi Asiya Oyanır” adlı təqdimat xarakterli seriya məqalələri dərc edilmişdi;

✓ Respublikaların müstəqilliklərini elan etmələri, müstəqilliklərinin Türkiyə tərəfindən tanınması ilə bağlı xəbərlər də dərc edilmişdir.

Mərkəzi Asiyanın bütün türk respublikaları ilə bağlı xəbərlərin verilməsində ümumi cəhət ondan ibarət olmuşdur ki, SSRİ-dən kənar, müstəqil bir ölkə kimi Türkiyə Mərkəzi Asiyada baş verən hadisələri fərqli prizmadan dəyərləndirməyə cəhd göstərmişdir. Türkiyə mətbuatında fərqli ideologiyaları müdafiə edən çox sayda qəzetlərin olması fərqli fikirlərin dilə gətirilməsinə və ictimaiyyətə çatdırılmasına şərait yaradırdı. Türkiyə qəzetləri xəbərləri ilk rəsmi mənbə kimi Sovetlərin

rəsmi xəbər agentliyi olan TASS-a əsaslanaraq verirdilər. Lakin Avropa ölkələrinin agentliklərinin verdikləri məlumatlar da diqqətdən kənarda qoyulmurdu. Eyni zamanda, hadisələrə obyektiv qiymət verilməsi üçün rəsmi SSRİ orqanlarından və xarici agentliklərdən alınan məlumatlarla kifayətlənməyərək, Moskvaya, hadisələrin baş verdiyi respublikalara səfərlər də təşkil olunurdu.

# NƏTİCƏ

Sovet İttifaqının sonuncu Baş katibi (1985-1990), ilk və son prezidenti (1990-1991) Mixail Sergeyeviç Qorbaçovun rəhbərliyi dövrü (1985-1991) həm dünya tarixində, həm də SSRİ tarixində mühüm hadisələrin, qırılma nöqtələrinin baş verdiyi bir dövrdür. Şəxsiyyətinin necə dəyərləndirilməsindən asılı olmayaraq, həm SSRİ-də, həm də dünya miqyasında haqqında ən çox danışılan liderlərdən biridir. "Time" jurnalı onu 1988-ci ildə "ilin adamı", 1990-cı ildə isə "onilliyin adamı" seçib. Şərq-Qərb münasibətlərində böyük dəyişikliklərdə oynadığı rola görə 1990-cı ildə Nobel mükafatına layiq görülub. Həyata keçirdiyi siyasətlə, Berlin divarının yıxılması (1989) və Almaniyanın (Federativ və Demokratik respublikaların) birləşməsinə imkan verən şəraitin yaradılmasında mühüm rolu olduğuna görə avropalılar tərəfindən xüsusilə sevilir[433]. Araşdırmaçılar tərəfindən yaxın zamanlara qədər, həm də "yaşayan ən populyar dövlət xadimi"[434] kimi də təqdim edilirdi. Aleksis de Tokvilin XVI Lui haqqında dediyi: *"Pis hökumət üçün ən təhlükəli vaxt islahatlara başladığı vaxtdır"* ifadəsini, müəyyən mənada, Qorbaçov dövrünə də aid etmək mümkündür. Belə ki, Qorbaçov SSRİ tarixində islahatları ilə yadda qalıb: ölkənin iqtisadi inkişafının sürətləndirilməsi (1985); senzuranın qaldırılması, söz azadlığı və informasiya mübadiləsi (1986); yenidənqurma siyasətinin elanı, "antisovet təbliğat aparmaq", "antisovet təşkilat üzvü olmaq" ittihamları ilə həbs edilmiş siyasi məhbusların azad edilməsi, dissidentlərin geri dönməsi (1987); SSRİ Konstitusiyasına və seçki haqqında qanuna əlavə və dəyişikliklər (1988); siyasi sistemdə dəyişikliklər: çox partiyalılığa və prezident idarəçiliyinə keçid; mətbuat haqqında qanun (1990); İttifaqın saxlanması haqqında referendum, "Novo-Oqaryovo prosesi" (1991) və nəhayət, faktiki olaraq ittifaqın sonunu gətirən hadisələr: Moskvada 19-21 avqust dövlət çevrilişi cəhdi, 8 dekabr Belovejsk müqaviləsi və istefa...

---

*[433] Yoğurtçu, G., Gürbüz, Y. E.M. Kırgız Halkının Gözünden Gorbaçov: Bir Sözlü Tarih Çalışması // Online: İnternational Journal of History - 2020. №12/3, - s.965.*
*[434] Yenə orada, s.963.*

Təbii ki, bütün bu hadisələr o zaman SSRİ-nin İttifaq respublikalarından olan Mərkəzi Asiyanın türk respublikalarından da yan keçməmişdi. Hazırki araşdırmada göstərilən zaman kəsimində bu respublikalarda cərəyan edən hadisələrin Azərbaycan SSR və Türkiyə mətbuatında işıqlandırılması məsələsi araşdırılmış, tədqiqatın qarşısında qoyulmuş vəzifələrlə bağlı aşağıdakı nəticələrə gəlinmişdir:

- Haqqında bəhs edilən dövrdə, Mərkəzi Asiyanın türk respublikalarında da, tərkibinə daxil olduqları SSRİ-də olduğu kimi, həyatın bütün sahələrində mövcud olan böhranı aradan qaldırmaq üçün bir sıra islahatlar keçirilmiş, lakin gözlənilən nəticələr əldə edilməmişdir;

- Ümumilikdə SSRİ-də M.S.Qorbaçovun hakimiyyətə gəlməsi ilə başlanmış islahatlar respublikalarda mövcud vəziyyəti bir qədər də ağırlaşdırmış, sosial-iqtisadi və digər problemlərə bir də idarəçiliklə, milli məsələlərlə bağlı problemlər də əlavə olunmuşdu. Qazaxıstanda 1986-cı il Alma-Ata hadisələri, Özbəkistanda 1989-cu il Fərqanə hadisələri, Qırğızıstanda 1990-cı il Oş hadisələri bütünlükdə İttifaq, həmçinin dünya miqyasında haqqında danışılan hadisələrdən olmuşdu. Aşkarlıq siyasəti çərçivəsində söz və mətbuat azadlıqlarının verilməsi, siyası repressiya qurbanlarına bəraət verilməsi, dissidentlərin əhv edilməsi və bu kimi digər tədbirlərin bütünlükdə ölkədə, o cümlədən respublikalarda vəziyyətə müsbət təsiri ilə yanaşı, mənfi təsiri də olmuşdu. Ölkənin siyasi sistemində baş verən dəyişikliklər (ictimai birliklərin və partiyaların yaradılması, Prezident idarəçiliyinə keçid və s.) respublikalarda mövcud olan mərkəzdənqaçma meyllərinin bir qədər də artmasına səbəb olmuş, Mərkəzi Asiyanın türk respublikaları -Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan- müstəqilliklərini elan etmiş, ümumilikdə baş verən hadisələr nəticəsində, SSRİ dağılmışdır.

Mərkəzi Asiyanın türk respublikalarında baş verən hadisələrin mətbuatda əksi məsələsinə gəlincə,

- Hadisələr Azərbaycan SSR mətbuatında işıqlandırılarkən, Qazaxıstan və Özbəkistanla bağlı xəbərlər, Qırğızıstan və Türkmənistanla müqayisədə daha çox verilmişdir. Milli məsələlərə və münaqişələrə demək olar ki, toxunulmamışdır. Hadisələr daha çox məlumat xarakterli olmuşdur;

- Türkiyə mətbuatında işıqlandırılarkən, burada da Qazaxıstan və Özbəkistanla bağlı verilən xəbərlər Qırğızıstan və Türkmənistanla bağlı verilən xəbərlərdən çox olmuşdur. SSRİ-də haqqında çox da danışılmayan məsələlərə, xüsusən də milli və dini məsələlərə və münaqişələrə daha çox diqqət ayrılmışdır. Hətta "Cümhuriyyət" qəzetinin jurnalisti Fatih Yılmazın "Dağılmış SSRİ-də Türk Respublikalar. Mərkəzi Asiya Oyanır" adlı təqdimat xarakterli seriya məqalələri dərc edilmişdi. Respublikaların müstəqilliklərini elan etmələri, müstəqilliklərinin Türkiyə tərəfindən tanınması ilə bağlı xəbərlər də dərs edilmişdir.

Hadisələrin Azərbaycan SSR və Türkiyə mətbuatında işıqlandırılmasında oxşar və fərqli cəhətləri, onların səbəbləri araşdıraraq bu qənaətə gəlinmişdir ki,

- SSRİ-nin İttifaq respublikalarından biri olan Azərbaycan SSR mətbuatında hadisələr SSRİ Mərkəzi hökumətinin mövqeyi nəzərə alınaraq işıqlandırılmış; bu baxımdan, siyasi mövzularla bağlı xəbərlərə çox az yer ayrılmış; milli məsələlərlə bağlı xəbərlərə isə, demək olar ki, toxunulmamışdır. Səbəbi: Aşkarlıq siyasətinin və "yeni təfəkkürə" keçilməsinin elan edilməsinə baxmayaraq, qorxunun davam etməsi; SSRİ siyasi sistemində dəyişikliklərə nisbətən gec keçilməsi (1990), mətbuatın dövlət nəzarətində olması və mövcud rejimin təhlükəsizliyi çərçivəsində fəaliyyət göstərməsi Azərbaycan SSR mətbuatının hadisələri obyektiv işıqlandırmasına əngəl olmuşdur. Və qeyd edək ki, bu yanaşma sadəcə ittifaq respublikaları ilə bağlı xəbərlərə deyil, həmçinin Azərbaycanın özündə də cərəyan edən hadisələrə də özünü göstərirdi. Bəhs edilən dovrdə, ümumilikdə SSRİ-nin dağılmasının əsas səbəbləri sırasında qeyd edilən, mahiyyət etibarilə erməni separatçıları tərəfindən Azərbaycana ərazi iddiası olan Dağlıq Qarabağ probleminin növbəti dəfə gündəmə gətirilməsi, Azərbaycan mətbuatının diqqətini daha çox elə bu məsələyə cəlb etmiş, əsas xəbərlər də məhz bu problemin işıqlandırılmasına həsr olunmuşdu, nəticədə digər xəbərlər müəyyən qədər kölgədə qalmışdılar. Ümumilikdə, İttifaqının müxtəlif respublikalarında baş verən hadisə və proseslərin mətbuatda əksinin

öyrənilməsi həm də mətbuatın bu problemləri işıqlandırması sahəsindəki fəaliyyətdə də ciddi boşluqların olduğunu aşkara çıxarmışdır.

- SSRİ-dən kənar, müstəqil bir ölkə kimi Türkiyənin Mərkəzi Asiyada baş verən hadisələri fərqli prizmadan dəyərləndirmək imkanı olmuşdur. Türkiyə mətbuatında fərqli ideologiyaları müdafiə edən (o cümlədən türkçülük, turançılıq) çox sayda qəzetlərin olması fərqli fikirlərin dilə gətirilməsinə və ictimaiyyətə çatdırılmasına şərait yaradırdı. Türkiyə qəzetləri xəbərləri ilk rəsmi mənbə kimi Sovetlərin rəsmi xəbər agentliyi olan TASS-a əsaslanaraq verirdilər. Lakin Avropa ölkələrinin agentliklərinin verdikləri məlumatlar da diqqətdən kənarda qoyulmurdu. Eyni zamanda, hadisələrə obyektiv qiymət verilməsi üçün bunlarla kifayətlənməyərək, Moskvaya, hadisələrin baş verdiyi Qazaxıstana, Özbəkistana və Qırğızıstana da səfərlər təşkil olunurdu. Burada bir məsələni də qeyd etmək istərdik ki, 2023-cü ildə elanının 100-cü ildönümü qeyd edilən Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün 1933-cü ildə Cümhuriyyətin quruluşunun 10-cu ildönümü münasibətilə dediyi: *"Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz, müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var, lakin sabah nə olacağını heç kim təxmin edə bilməz... Bir gün parçalana, dağıla bilər, bu gün əlində saxladığı xalqlar əlindən çıxa bilər... Dünyada yeni bir nizam yarana bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir... Biz xarici türklərin bizə yaxınlaşmasını gözləyə bilmərik, bizim onlara yaxınlaşmağımız lazımdır"*[435] sözlərinin təsirsiz qalmadığını düşünürük. Belə ki, həm müstəqilliyə gedən yolda, həm də müstəqillik illərində Türkiyə imkanı çatan bütün vasitələrdən istifadə etməklə yeni türk respublikalarının inkişafına yardım etməyə çalışmışdır. Lakin bütün deyilənlərlə bərabər, Türkiyə mətbuatında da verilən xəbərlərin hər zaman tam gerçəkləri əhatə etmədiyini (məsələn, 1986-cı il Alma-Ata, 1989-cu il Fərqanə hadisələrinin müəyyən hallarda

---

[435] *Türk Konseyi Genel Sekreteri'nin 10 Kasım – Gazi Mustafa Kemal Atatürk'ü Anma Günü münazebetiyle mesajı. [Elektron resurs] - URL: https://turkicstates.org/tr/haberler/turk-konseyi-genel-sekreterinin-10-kasim-gazi-mustafa-kemal-ataturku-anma-gunu-munasebetiyle-mesaji_1921*

türkçülük və ya dini səbəblərdən baş verdiyi bildirilirdi[436]) qeyd etməmək də doğru olmazdı.

Hər iki ölkə mətbuatında 1985-1991-ci illər hadisələrindən bəhs edilərkən *hadisələrə münasibətdə ehtiyatlı* yanaşıldığını görmək mümkündür. Bu ehtiyatlılıq səbəbsiz deyildi. Soyuq müharibə illərində ideoloji mübarizənin qarşı cəbhəsi olan Qərb dövlətləri hər nə qədər SSRİ-nin dağıdılması istiqamətində mübarizə aparmış olsalar da, qərb mətbuatında hadisələr hər nə qədər bu gün obyektiv dediyimiz rakursdan işıqlandırılsa da, ümumilikdə Qərbin özündə də hadisələrə münasibətdə ehtiyatlılıq hiss olunurdu. Məsələn, bu yanaşmanı Türkiyə hökuməti tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına ABŞ-ın münasibəti, həmçinin postsovet respublikaların müstəqilliklərinin Qərb dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən tanınması məsələlərində açıq-aydın görmək mümkündür[437]. Bir qədər sonrakı dövrün mətbuatında isə artıq daha cəsarətli, daha obyektiv yanaşmalar özünü göstərəcəkdir.

Bütün bu deyilənləri yekunlaşdıraraq, ümumilikdə mətbuatın tarix boyu bütün cəmiyyətlərdə mühüm əhəmiyyətə malik olduğunu və, elə bu səbəbdən də, günümüzdə hakimiyyətin dördüncü qanadı hesab edildiyini bir daha vurğulamaq istərdik. Belə ki, mətbuat siyasi sistemin xarakterindən asılı olaraq -demokratik, avtoritar, ideokratik və s.- cəmiyyətin idarə olunmasında mühüm əhəmiyyətə malik olur. Araşdırmaçılar hesab edirlər ki, istənilən siyasi rejim, hətta ən repressiv rejim belə hakimiyyətin qəbul etdiyi qərarların ictimai rəy tərəfindən dəstəklənməsinə cəhdlər edir və bunu bilavasitə mətbuat üzərindən reallaşdırmağa çalışır[438]. Təsadüfi deyil ki, dövrünü araşdırdığımız Qorbaçovun da islahatları çərçivəsində imzaladığı qərarlardan biri "Ümumittifaq ictimai

---

[436] *Göze, E. Rusya'da Neler Oluyor // Tercüman. – 1987, 12 Ocak. – s.13; Karacagil, Ö.K. Kazakistan'ın Bağımsızlığının Ayak Sesleri: Almatı Olayları (1986) // Online: History Studies, 2014 – № 6(1), - s.101-114; Kazakistan'da 'Bozkurtlar'ın dirilişi // Cumhuriyet. – 1991, 15 Aralık. – s.7; Komünist Dünya'da Bir Şeyler Oluyor // Tercüman. – 1986, 22 Aralık. – s.1, 4 və b.*

[437] *Daha ətraflı bax:Ruintən, S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində, s.31-32.*

[438] *Страту, Н.Н. Средства массовой информации или управления? [Электронный ресурс] – URL: https://elib.gasu.ru/konf/sssk/arhive/2006/01/R_ 2_2.html*

rəyin öyrənilməsi mərkəzi"nin (Всесоюзный центр изучения общественного мнения, ВЦИОМ, dekabr 1987) yaradılması haqda olmuşdu[439].

Fransız araşdırmaçı R.Debre bildirir ki, *"kütləvi informasiya vasitələri bu gün, orta əsrlər Avropasında kilsənin oynadığı rolu oynayır, "müqəddəslər" – kütlənin sevimlisi "ulduzlar", inanc isə – KİV-lərdə əks olunan ictimai rəydir. Qəzetlər dünyada baş verən son hadisələr haqqında xəbər verməkdən daha çox, ümumi əhval-ruhiyyə yaradır, müasir davranış modellərini, ümumi dəyərləri formalaşdırmağa cəhd edir"*[440]. Bütün bunlar isə, informasiya mübarizəsinin daha da kəskinləşdiyi günümüz baxımından, yaşadığımız informasiya bolluğu şəraitində xüsusi diqqət yetirilməli olan məsələlərdəndir. Bu deyilənlərdən çıxış edərək, məsələ ilə bağlı *bir tövsiyəmizi diqqətə çatdırmaq istərdik*: Hesab edirik ki, informasiya cəmiyyətində yaşadığımızı, informasiya bolluğunun müsbət cəhətləri ilə bərabər fəsadlarının da olduğunu nəzərə alaraq, təhsil müəssisələrində və ya fərdi şəkildə ayrılmış proqram və qrantlardan istifadə etməklə, xüsusilə gənclər arasında media savadsızlığının aradan qaldırılması, o cümlədən mətbuatla işləmək bacarıqlarının artırılması istiqamətində maarifləndirmə işlərinin aparılmasına xüsusi diqqət yetirilməlidir. Sosial mediadan istifadənin bütün sahələrdə dominanta çevrilməsi bu məsələni həm dövlət, həm ictimai, həm də şəxsi təhlükəsizlik məsələsi olaraq xüsusi əhəmiyyət yetirilməli məsələlərdən biri kimi zəruri edir.

---

[439] *История ВЦИОМ / Сайт Всероссийского (до 1992 года Всесоюзный) центра изучения общественного мнения. [Электронный ресурс] - URL: https://wciom.ru/o-kompanii/istorija-vciom*

[440] *Иголкин, А. Пресса как оружие власти. Ч.1. / LiveJournal, 31 декабря, 2012. [Электронный ресурс] - URL: https://zlobnig-v-2.livejournal.com/21152.html*

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## a) Azərbaycan dilində

1. AFR ilə birbaşa əməkdaşlıq // Xalq qəzeti. 1991, 18 oktyabr. -s.2.
2. Axundov, N. Azərbaycan dövri mətbuatı (1832-1920). Biblioqrafiya. / N.Axundov. -Bakı: Elm, -1965. -178 s.
3. Alma-Ata bəyannaməsi // Xalq qəzeti. 1991, 24 dekabr. -s.2.
4. Aşırlı, A. Azərbaycan mətbuatı tarixi (1875-1920) / A.Aşırlı. -Bakı: Elm və Təhsil, -2009. -296 s.
5. Azərbaycan qəzetinin rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://www.azerbaijan-news.az/az
6. Azərbaycan Milli Kitabxanasının rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://www.millikitabxana.az/about-us/history
7. Azərbaycan Milli Kitabxanası, E-dövri mətbuat. [Elektron resurs] - URL: https://www.millikitabxana.az/newspapers
8. Azərbaycan Milli Kitabxanası, E-kataloq və kitabxana. [Elektron resurs] - URL: http://ek.anl.az/search/query?theme=e-kataloq
9. Azərbaycan Milli Kitabxanası, E-məlumat bazası. [Elektron resurs] - URL: https://www.millikitabxana.az/databases
10. Azərbaycan tarixi. Yeddi cilddə, VII cild, 1941-2002-ci illər: [7 cilddə] / AMEA, A.Bakıxanov ad. Tarix İns-tu; məsul red. T.Qaffarov. -Bakı: Elm, -C.7, -2008. -608 s.
11. Azadlıq qəzetinin 25 yaşı tamam olub // Modern.az İnformasiya Agentliyi, dekabr 24, 2014. [Elektron resurs] - URL: https://modern.az/news/69518/
12. Azərbaycan kitabı Qazaxıstanda // Kommunist. – 1990, 16 avqust. -s.3.
13. Azərbaycan-Qazaxıstan: Dostluq körpüsü // Kommunist. -1987, 23 may. -s.2.
14. Azərbaycan-Özbəkistan əməkdaşlığının yeni üfüqləri // Xalq qəzeti. -1991, 22 oktyabr. -s.1.
15. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. I cild. Bakı: ASE Baş Redaksiyası, 1976, 592 s. [Elektron resurs] - URL: https://archive.org/details/ace-i/page/157/mode/2up?view=theater
16. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. V cild. Bakı: ASE Baş Redaksiyası, 1981, 592 s. [Elektron resurs] - URL: https://archive.org/details/ace-v/page/465/mode/2up?view=theater

17. Baxşəliyev, T. Rusiya tarixi ən qədim zamanlardan günümüzədək / T.Baxşəliyev. -Bakı: Təhsil, -2021. -808 s.
18. Böyük qələbələr ili // Kommunist. -1985, 3 fevral. -s.1.
19. Danışıqlar başlandı // Kommunist. -1990, 14 avqust. -s.1.
20. Danışıqlar başlandı // Kommunist. -1990, 23 avqust. -s.1.
21. Daşkənd festivalının filmləri // Kommunist. -1986, 3 iyun. -s.2.
22. Daşkəndə yola düşmüşdür // Kommunist. -1986, 27 sentyabr. -s.3.
23. Dostlara musiqi salamı // Kommunist. -1987, 21 may. -s.1.
24. Dünya - dünən, bu gün, sabah // Xalq qəzeti. -1991, 6 sentyabr. -s.1.
25. Dünyaminqızı, Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı (1918-1920-ci illər) / Q.Dünyaminqızı. -Bakı: ADPU-nun Mətbəəsi, -2005. -128 s.
26. Etimadı bərpa etməli // Kommunist. -1989, 18 iyul. -s.1.
27. Əkinçi, 1875-1977. Tam mətni. -Bakı: Avrasiya Press, -2005. -496 s.
28. Əsgər Akayevdən inşaatçı gənçlərə // Xalq qəzeti. -1991, 27 sentyabr. -s.1.
29. Ə. Akayev prezident seçilmişdir // Xalq qəzeti. -1991, 17 oktyabr. -s.1.
30. Fərqanə od tutub yanırdı // Kommunist. -1989, 15 iyul. -s.1.
31. Fəxri kürsüdə // Kommunist. -1986, 9 mart. -s.2.
32. Festivalın qalibləri // Kommunist. -1988, 1 iyun. -s.1.
33. Gümüş kürsüdə // Kommunist. -1988, 14 fevral. -s.2.
34. Həmid, T. SSRİ niyə dağıldı? // Kayzen az, yanvar 5, 2021. [Elektron resurs] - URL: https://kayzen.az/blog/son-tarix/26349/ssri-niy%C9%99-ada%C4%9F%C4%B1ld%C4%B1.html
35. Həmyerlimiz "Qazaxfilm"də // Kommunist. -1985, 22 avqust. -s.2.
36. "Jurnalistlərin dostu" mükafatının təqdim olunma mərasimində İlham Əliyevin nitqi / Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, dekabr 29, 2010. [Elektron resurs] - URL: https://president.az/az/articles/view/1373
37. Xalq (qəzet, Azərbaycan) / Nina.az, avqust 7 1991. [Elektron resurs] - URL: https://www.wikimedia.az-az.nina.az/Kommunist_(q%C9%99zet).html
38. "Xalq qəzeti"nin rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://xalqqazeti.az/az
39. Xeyirxah məsləhətlər // Kommunist. -1986, 10 avqust. -s.2.
40. Xoş məramlı səfər // Xalq qəzeti. -1991, 24 sentyabr. -s.3.
41. İncəsənət marşurutları ilə // Kommunist. -1989, 3 oktyabr. -s.1.

42. İslam Kərimov namizəd göstərilmişdir // Xalq qəzeti. -1991, 21 noyabr. -s.2.
43. İstiqlalımızın yadigarı və tarixin ən qüdrətli Azərbaycan salnaməçisi // Azərbaycan. -2019. -21 iyun. -s.6-7. [Elektron resurs] - URL: http://www.anl.az/down/meqale/azerbaycan/2019/iyun/660153.htm
44. Qanunçuluğu möhkəmlətməli // Kommunist. -1987, 15 mart. -s.2.
45. Qardaş respublikaların kommunist partiyalarının iclasları // Kommunist. -1986, 9 fevral. -s.1.
46. Qardaş respublikaların yarışı // Kommunist. -1985, 8 avqust. -s.1.
47. Qardaş respublikaların yarışı // Kommunist. -1986, 8 avqust. -s.1.
48. Qardaş respublikaların yarışı // Kommunist. -1988, 3 avqust. -s.2.
49. Qardaş salamı // Kommunist. -1989, 12 yanvar. -s.3.
50. Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. -1985, 4 iyul. -s.2.
51. Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. -1985, 5 iyul. -s.2.
52. Qaydanı və mütəşəkkilliyi möhkəmlətməli // Kommunist. -1985, 6 iyul. -s.1.
53. Qazaxıstan lövhələrdə // Kommunist. -1985, 8 fevral. -s.3.
54. Qazaxıstanda müvəffəqiyyət // Kommunist. -1989, 2 dekabr. -s.3.
55. Qazaxıstana, dostluq biçininə // Kommunist. -1985, 3 avqust. -s.1.
56. Qazaxıstana, dostluq biçininə // Kommunist. -1986, 2 avqust. -s.1.
57. Qazaxıstan torpağında görüşlər // Kommunist. -1991, 1 iyun. -s.1.
58. Qazaxıstana xoş məramla // Xalq qəzeti. -1991, 1 oktyabr. -s.1.
59. Qazaxıstandan fəxri fərmanla // Kommunist. -1987, 23 dekabr. -s.2.
60. Qazaxıstana səfər // Kommunist. -1987, 20 dekabr. -s.2.
61. Qazaxıstan KP MK plenumda // Kommunist. -1986, 12 yanvar. -s.1.
62. Qazaxıstan KP MK-in plenumu // Kommunist. -1988, 7 iyun. -s.1.
63. Qazaxıstan KP MK-in plenumu // Kommunist. -1990, 25 aprel. -s.1.
64. Qazaxıstan prezidenti seçilmişdir // Kommunist. -1990, 27 aprel. -s.1.
65. Qəlbimiz də pambıq kimi ağdır // Kommunist. -1989, 9 avqust. -s.2.
66. Qırğızıstan Ali Sovetinin sessiyası // Kommunist. -1991, 27 iyun. -s.1.
67. Qorbaçovun Nəcbibulla ilə görüşü // Kommunist. -1988, 8 aprel. -s.2.
68. Qonaq ölkəni gəzir // Kommunist. -1987, 4 avqust. -s.2.

69. Mazanlı, İ. Millətlərarası münasibətlərin təkmilləşdirilməsində mətbuatın rolu / İ.Mazanlı. -Bakı: "Renessans" nəşriyyatı, -2014. -624 s.

70. Məhərrəmov E.Ə., Məhərrəmli A.E. "Xalq qəzeti"nin (Kommunist) yaranması və inkisafı tarixindən, Nəşrinin 90 illiyi münasibətilə. / E.Ə.Məhərrəmov, A.E Məhərrəmli. -Bakı: Elm və təhsil nəşriyyatı, -2009. -88 s.

71. Məmmədli, N. Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə (XX əsrin 90-cı illəri) / N.Məmmədli. -Bakı: AzAtam, -2005. -233 s.

72. Məmmədov, İ.M. Türk dünyasının böyük oğlu // Dövlət və Hüquq jurnalı, -1998, №1 -s.14-17.

73. Mətbuat tarixi. [Elektron resurs] - URL:
https://www.azerbaijans.com/content_741_az.html

74. Milli Kitabxana "Şərq qadını jurnalı – 100" adlı virtual və eyni adlı ənənəvi sərgi təqdim edib. [Elektron resurs] – URL:
https://xalqqazeti.az/az/medeniyyet/151019-milli-kitabxana-serq-qadini-jurnali

75. Muğam haqqında yeni tədqiqat // Kommunist. -1989, 26 sentyabr. -s.2.

76. Operativlik yaxşı şeydir, amma həqiqət daha vacibdir // Kommunist. -1991, 15 iyun. -s.3.

77. Özbəkistan - Belarus əlaqələri: kənardan təyziq olmadan // Xalq qəzeti. -1991, 8 noyabr. -s.3.

78. Özbəkistandan töhfə // Kommunist. -1986, 18 mart. -s.1.

79. Özbək dilində // Kommunist. -1988, 30 mart. -s.1.

80. Özbəkistan müşahidəçiləri dəvət edir // Xalq qəzeti. -1991, 30 noyabr. -s.1.

81. Özbəkistan SSR-in prezidenti seçilmişdir // Kommunist. -1990, 27 mart. -s.1.

82. Piriyeva, S. Ahıska Türkləri Azərbaycanda / S.Piriyeva. -Bakı: Elm, -2005. -264 s.

83. Prezidentlərin görüşü başladı // Kommunist. -1991, 14 avqust. -s.1.

84. Respublikalarda şənliklər // Kommunist. -1985, 1 may. -s.1.

85. Respublikalarda şənliklər // Kommunist. -1986, 8 noyabr. -s.1.

86. Ruintən, S., Əlisgəndərli, C. SSRİ Mərkəzi hökumətinin Mərkəzi Asiya və Qafqaz respublikalarına münasibətdə siyasətinin xarakteri haqqında // Bakı: Tarix və onun problemləri, -2014, №4. -s.132-139.

87. Ruintən, S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri) / S.Ruintən. -Bakı: Adiloğlu, -2005. -236 s.

88. Rusiya və Qazaxıstan prezidentləri Azərbaycanda // Xalq qəzeti. -1991, 21 sentyabr. -s.1.
89. Sağ olun, dostlar! // Kommunist. -1987, 28 oktyabr. -s.2.
90. Salam,Urumçi // Kommunist. -1991, 5 aprel. -s.2.
91. Səmimi görüşlər, faydalı məsləhətlər // Kommunist. -1986, 9 avqust. -s.2.
92. Səmra Özal Azərbaycanda // Bakı: Azərbaycan Qadını, -1990, №10-12. -s.1-2.
93. Sessiyada fasilə elan edilmişdir // Kommunist. -1990, 29 aprel. -s.2.
94. Son saatda // Kommunist. -1991, 26 iyun. -s.3.
95. Son saatda // Kommunist. -1991, 23 iyul. -s.1.
96. Sovet İttifaqı Kommunist partiyası Mərkəzi komitəsinin plenumu haqqında məlumat // Kommunist. -1985, 12 mart. -s.1.
97. SSRİ-dən getmişdir // Kommunist. -1986, 16 dekabr. -s.3.
98. SSRİ-in 1986-ci il dövlət büdcəsi haqqında qanun // Kommunist. -1985, 27 noyabr. -s.1.
99. Süleymanlı N. Dağlıq Qarabağ münaqişəsinin informasiya modeli / N.Süleymanlı. -Bakı: Hərbi nəşriyyat, -2011. -280 s.
100. Tohidi Rüstəmova S. Azərbaycan dövri mətbuatı. 1875-1990. / S.Rüstəmova Tohidi. -Bakı: Azərnəşr, -1993. -258 s.
101. Türkiyə Türkmənistanı tanıya bilər // Xalq qəzeti. -1991, 6 dekabr. -s.1.
102. Türkmənistan-İran: qohumlar görüşürlər // Xalq qəzeti. -1991, 26 sentyabr. -s.1.
103. Türkmənistan muqaviləni imzalayacaq // Kommunist. -1991, 13 avqust. -s.1.
104. Ümumittifaq kənd oyunlarında // Kommunist. -1985, 19 avqust. -s.2.
105. Ümumittifaq kənd oyunlarında // Kommunist. -1985, 20 avqust. -s.2.
106. Ümumittifaq kənd oyunlarında // Kommunist. -1985, 22 avqust. -s.2.
107. Vəliyev, Ş., Yaqublu, N. Azərbaycan mətbuatı antologiyası, I cild: [2 cilddə] / -Bakı: Elm və Təhsil, -C.1, -2010. -440 s.
108. Vəliyev, Ş., Yaqublu, N. Azərbaycan mətbuatı antologiyası, II cild: [2 cilddə] / -Bakı: Elm və Təhsil, -C.2, -2011. -440 s.
109. Vətənimizdə // Kommunist. -1987, 8 may. -s.1.
110. Vətənimizdə // Kommunist. -1987, 19 iyul. -s.1.
111. Vətənimizdə // Kommunist. -1988, 26 aprel. -s.1.
112. Yeni dövlət bayrağı // Xalq qəzeti. -1991, 20 noyabr. -s.1.

113. Yeni siyasi təşkilat // Xalq qəzeti. -1991, 17 sentyabr. -s.2.
114. Yeni tərzdə düşünməli, qətiyyətlə fəaliyyət göstərməli // Kommunist. -1988, 9 aprel. -s.2.
115. “Yer tutanlar” Aşqabad səhnəsində // Kommunist. -1985, 1 noyabr. -s.1.
116. Yubiley ilinə zərbəçi əmək // Kommunist. -1987, 23 avqust. -s.2.
117. Zəmilər səslənəndə… // Kommunist. -1987, 22 avqust. -s.2.
118. Zeynalov, N. Azərbaycan mətbuatı tarixi I hissə / N.Zeynalov. -Bakı: ADU nəşri, -1973. -104 s.
119. Zeynalov, N. Azərbaycan mətbuatı tarixi. II hissə / N.Zeynalov. -Bakı: ADU nəşri, -1974. -104 s.

**b) Türk dilində**

120. Abazov, R. Sovyet Sisteminde Kırgızistan: Millî Devletin İnşası ve Millî Kimliğin Doğuşu // Türkler Ansiklopedisi [33 cilddə]. -Ankara: Yeni Türkiye Yayınları, c. 19, -2002, -s.528-537.
121. Ahıska Türkleri // Cumhuriyet. -1990, 6 Haziran. -s.9.
122. Ahıska Türklerinin Türkiye’ye Kabulü ve İskanına Dair Kanun // 2 iyul 1992-ci ildə qəbul edilmişdir. – Ankara: Kanun, -1992, -s.7321-7322. [Elektron resurs] - URL: https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.3835.pdf
123. Akarslan, Z. Azerbaycan’da Kültürel Uyanış ve Basın // İstanbul: Avrasya İncelemeleri Dergisi. -2019, №8 (1). -s.1-22.
124. Akpınar, Y. Azeri Edebiyatı Araştırmaları / Y.Akpınar. -İstanbul: Dergah yayınları, -1994. -512 s.
125. Akyol, T. Rusya’da Milli-İslami Uyanış // Tercüman. -1987, 3 Ocak. -s.8.
126. Akayev memnun // Cumhuriyet. -1991, 28 Aralık. -s.9.
127. Alaşbek, M. Kazakistan’da İsyan // Ankara: Türk Yurdu, -1987. №8, -s.58-60.
128. Alkan, H. Orta Asya Türk Cumhuriyetlerinde Siyasal hayat ve kurumlar / H. Alkan. -Ankara: USAK yayınları, -2011. -464 s.
129. Alptekin, E. Kırgızistan’da olaylar büyüyor // Türkiye. -1990, 7 Haziran. -s.6.
130. Alptekin, E. Kırgızistan olayları Rusya’ya karşı isyan // Türkiye. -1990, 13 Haziran. -s.6.
131. Armaoğlu, F. Kazakistan Ayaklanması // Tercüman. -1986, 20 Aralık. -s.4.

132. Armaoğlu, F. Misket Türkleri // Tercüman. -1989, 8 Haziran. -s.6.
133. “Atatürk Kitaplığı” kitabxanasının rəsmi internet səhifəsi. [Elektron resurs] - URL: https://ataturkkitapligi.ibb.gov.tr/tr/Anasayfa
134. Atay, Z. Bir isyan // Tercüman. -1986, 22 Aralık. -s.4.
135. Ayaklanmanın Bilançosu // Tercüman. -1986, 23 Aralık. -s.4.
136. Aydemir Baş, F.B. SSCB’nin Çöküş Sebepleri Üzerine bir değerlendirme // - Bakı: Tarix və onun problemləri, 2021 №4, -s.159-163.
137. Aydemir Baş, F.B.; Çevikel, Ş. Bağımsızlık Yolunda Azerbaycan ve Orta Asya’daki Kitlesel Hareketler // -Bakı: Tarix və onun problemləri, 2022 №1, -s.196-202.
138. Aydemir, F.B. Sovyetlerin Son lideri Mihail Gorbaçov üzerine kısa bir değerlendirme // -Bakı: Tarix və onun problemləri, 2021 №2, -s.158-162.
139. Aydemir, F.B. Azerbaycan’da 20 Yanvar (Qara Yanvar) Katliamı ve Türk Yurdu Dergisi // -Bakı: Bakı Universitetinin Xəbərləri, 2020 №4, -s.144-150.
140. Aydıngün, A. Balım. Ç. Bağımsızlıklarının Yirminci Yılında Orta Asya Cumhuriyetleri Türk Dilli Halklar-Türkiye ile ilişkiler / A.Aydıngün, Ç.Balım. -Ankara: Atatürk Kültür Merkezi, -2012. -686 s.
141. Aytmatov tanrısını arıyor // Cumhuriyet. -1987, 17 Kasım. -s.9.
142. Balcı, E. Sovyetler Birliği ve Milliyetçilik sorunu // Cumhuriyet. -1987, 5 Ocak. -s.3.
143. Basın Birliği Kanunu. [Elektron resurs] - URL: https://www5.tbmm.gov.tr /tutanaklar/KANUNLAR_KARARLAR/kanuntbmmc018/kanuntbmmc018 /kanuntbmmc01803511.pdf
144. Basın Kanunu. [Elektron resurs] - URL: https://www5.tbmm.gov.tr /tutanaklar/KANUNLAR_KARARLAR/kanuntbmmc033/kanuntbmmc033 /kanuntbmmc03305680.pdf
145. Başaran, D. Jeltoksan Ayaklanması ve Bu Ayaklanmanın Kazakistan’ın Bağımsızlığındaki Rolü // -Ankara: Bölgesel Araştırmalar Dergisi, 2017. №1 (1), -s.57-88.
146. Başgil, A.F. 27 Mayıs İhtilali ve Sebepleri / A.F.Başgil - İstanbul: Yağmur Yayınevi, -2017. -284 s.
147. Bayrakdar, O., Aydemir Baş, F.B., Çevikel, Ş. Ulus Kent Kimliğinin Oluşumunda Meydanların Rolü Üzerine Bir Değerlendirme: Bakü Örneği // -Eskişehir: Genel Türk Tarihi Araştırmaları Dergisi, -2022 №4, -s.939-952.

148. Birand, M.A. Büyük Temizlik // Milliyet. -1987, 12 Nisan. -s.1, 13.
149. Birand, M.A. Büyük Temizlik // Milliyet. -1987, 13 Nisan. -s.1.
150. Birand, M.A. Kazakistan'da eski yönetim mafyası suçlanıyor. Acımasız soygun // Milliyet. -1987, 14 Nisan. -s.14.
151. Birand, M.A. 16 Milyonluk cumhuriyette sayları 25 bin, Kazakistan'da Türkler // Milliyet. -1987, 15 Nisan. -s.14.
152. Birand, M.A. Rusya'da Neler oluyor? // Milliyet. -1986, 29 Aralık. -s.1, 7.
153. Bozkır atlılarının kımız şöleni // Cumhuriyet. -1991, 16 Aralık. -s.7.
154. Brejnevcilere aman yok // Cumhuriyet. -1987, 5 Şubat. -s.6.
155. Brzezinski, Z. Büyük Çöküş / Z.Brzezinski. -Ankara: Türkiye İş Bankası Kültür Yayınları, -Çeviri: Keskin, G., Pakkan, G. -2000. -316 s.
156. Cemal, H. Altay Dağlarından Hazar Kıyısına // Cumhuriyet. -1991, 16 Mart. -s.9.
157. Cemal, H. Bakü'den Dostluk Telleri // Cumhuriyet. -1991, 17 Mart. -s.9.
158. Çalışkan, K. Türk Halkları Kongresi // Cumhuriyet. -1991, 22 Nisan. -s.7.
159. Çalışkan, K. Orta Asya'da 'milli uyanış' // Cumhuriyet. -1991, 9 Haziran. -s.12.
160. Çalışkan, K. Kazan'da Türk Halkları Kurultayı // Cumhuriyet. -1991, 13 Haziran. -s.12.
161. Çatışmalar iç savaşa dönüşüyor // Cumhuriyet. -1990, 8 Haziran. -s.9.
162. Derviş, L., Devrısheva, K. Sovyet Sosyalist Cumhuriyeti Dönemi Kırgız Tarihine Bir Bakış // Türk Dünyası Araştırmaları Dergisi, 2015. № 111 (219), -s.49-66.
163. Devlet, N. Büyük İslam Tarihi Çağdaş Türkiler / N. Devlet. - İstanbul: Çağ yayınları, -1993. -606 s.
164. Devrisheva, F. Türk ve Rus Kaynakları Işığında 1989 Fergana Olayları // -Denizli: Belgi Dergisi, 2019 №2/17, -s.1170-1187.
165. Dorsay, A. Taşkent Film Festivali'nin ardından Üçüncü Dünya'ya özgü bir şenlik // Cumhuriyet. -1986, 6 Haziran. -s.8.
166. Egemen Türkmenistan // Cumhuriyet. -1990, 24 Ağustos. -s.1.
167. Elibüyük, M. Türkmenistan'ın Ekonomik Atlası / M.Elibüyük, G.Altıbayev. -Ankara: TİKA, -2002. -71 s.
168. Ergin, S. Özbeklerden sıcak ilgi // Cumhuriyet. -1986, 30 Temmuz. -s.10.

169. Erol, A. Türk Kültür ve Fikir Hayatında Ekinçi (1875-1877) // -Ankara: Bilig, -2006 №39, -s.53-72.

170. Etnik gerginlik sürüyor // Milliyet. -1989, 8 Haziran. -s.4.

171. Gorbaçov, M. Glasnost Asıl neyi istiyorum? / M.Gorbaçov. -İstanbul: Dönemli yayıncılık, - Çeviri: Tuba Tarcan Çandar, Ahmet Cemal, -1987, -200 s.

172. Gorbaçov, M. Perestroika Ülkemiz ve Dünya için Yeni Düşünce / M.Gorbaçov. -İstanbul: Güneş yayınları, -Çeviri: K.Yargıcı, -1988. -250 s.

173. Göze, E. Rusya'da Neler Oluyor // Tercüman. -1987, 12 Ocak. -s.13.

174. Güvenlik güçleri Özbekistan'daki kanlı olayları bastırmakta yetersiz kalıyor Özbekler öfkeyle saldırıyor // Cumhuriyet. -1989, 11 Haziran. -s.8.

175. Hacılı, A. Poladoğlu, A. Ahıska Türk Folkloru / A.Hacılı, A.Poladoğlu. -Ankara: Atatürk Kültür Merkezi, -2001. -239 s.

176. Kabacalı, A. Başlangıcından Türkiye'de Matbaa ve Yayın / A.Kabacalı. -İstanbul: Literatür Yayıncılık, -2000. -280 s.

177. Kafkasyalı, A. Bağımsızlıklarının 20. Yılında Kazakların İstiklâl Mücadelesi Tarihine Bir Bakış // -İzmir: Türk Dünyası İncelemeleri Dergisi, -2012 №12(1), -s.167-192.

178. Kara, A. Kazakistan'da 1986 Almatı Olaylarının İçyüzü ve Etkileri / Yüksek lisans tezi. / -İstanbul, -1997. -195 s.

179. Kara, A. Turgut Özal ve Türk Dünyası / A.Kara. -İstanbul: IQ Kültür Sanat yayıncılık, -2012. -270 s.

180. Kara, F. Almaatada 1986 Aralık Olayları: Jeltoksan // -Ankara: Turkısh Studies, -2012 №7(4), -s.417-426.

181. Kara, A., Yeşilot, O. Avrasya'nın Yükselen Yıldızı Kazakistan / A.Kara. -İstanbul: İstanbul Ticaret Odası yayınları, -2011. -304 s.

182. Kara, M. Hazar ötesi Türkmenleri ve Türkmenistan // -Ankara: Türk Dünyası Dil ve Edebiyat Dergisi, -2002 №14, -s.235-252.

183. Karacagil, Ö.K. Kazakistan'ın Bağımsızlığının Ayak Sesleri: Almatı Olayları (1986) // Online: History Studies, -2014 № 6(1), -s.101-114.

184. Kaşoğlu, A. Liderlerin Sovyeti Devrimden perestroykaya / A.Kaşoğlu. -İstanbul: Çeviribilim yayınları, -2017. -328 s.

